**ELİZƏ İSMAYILOVA**

# QLOBALLAŞMA DÖVRÜNDƏ «ZƏKA AXINI»

-10083-

...baycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – "Elm" – 2011**

*Elmi redaktor:* **Vəli Həbiboglu**
*fəlsəfə elmləri doktoru*

**RƏNA MİRZƏZADƏ**
*fəlsəfə elmləri doktoru*

***Rəyçilər:***

**Sevda Məmmədəliyeva Yusif qızı**
*AMEA-nın müxbir üzvü,*
*fəlsəfə elmləri doktoru, professor*

**Qızılgül Abbasova Yasin qızı**
*fəlsəfə elmləri namizədi, dosent*

***Elizə İsmayılova.*** *Qloballaşma dövründə «zəka axını».*
Bakı, "Elm", 2011, 176 səh.

ISBN 978-9952-453-17-1

Humanitar elm sahələrində qloballaşma dövründə «zəka axını» probleminin ortaq nöqtələrinin tapılması üçün təcrübə və analizi əsasında işlənilmiş bu monoqrafiyanın elmi araşdırmalarda istifadəsi olduqca əhəmiyyətlidir. Tədqiqatda «zəka axını» probleminə yeni yanaşma istiqamətlərinin müəyyən edilməsi, gələcəkdə bu sahədə aparılacaq elmi işlərin ciddi tədqiqat mövzusu hesab oluna bilər.

E.S. Ismayılovanın " Qloballaşma dövründə "zəka axını" fəlsəfi-sosioloji təhlil" monaqrafiyası bu problemə həsr olunmuş mühüm əhəmiyyətə malik bir əsərdir.Monaqrafiya həm mütəxəssislər, həm də geniş oxucu auditooriyası üçün nəzərdə tutulmuşdur.

0301010000
655 (07) - 2011

© "Elm" nəşriyyatı, 2011

# GİRİŞ

Müasir dövrün qlobal problemləri içərisində «zəka axını» prosesi öz aktuallığı ilə xüsusilə seçilir. Bütün dünya dövlətlərinin qarşısını çətinliklə ala bildiyi miqrasiya prosesi içərisində «zəka axını» elmi-iqtisadi inkişafa öz güclü təsirilə seçilir.

«Zəka axını» prosesini doğuran başlıca səbəblərdən biri budur ki, tarixi qədim dövrlərə təsadüf edən miqrasiya prosesinin intellektual qanadının ölkəni tərk edərək xarici dövlətlərə köçməsi məsələsinə diqqət yetirilməmişdir. Bu gün zəkalı insanların inkişaf etmiş ölkələrə və ölkədaxili digər sahələrə miqrasiya etməsi dünya dövlətlərini ciddi narahat edən məsələlərdəndir. Problemin dövlət daxili iqtisadi, sosial, siyasi sahələr ilə birbaşa əlaqəli olması və qloballaşma dövründə öz müstəqilliyini qoruyub saxlamaq istəyən dövlət üçün mühüm əhəmiyyət kəsb etməsinin zəruriliyini daha aydın görərik.

Respublikada miqrasiya prosesləri və onun mühüm qanadı olan «zəka axını» prosesinin mövcud vəziyyətlə vəhdətdə araşdırılması çox zəruridir. Avropa Birliyinə inteqrasiya etmək istəyən Azərbaycanın miqrasiya prosesi və lobbi formalaşdırılması sahəsində həyata keçirdiyi siyasətin diqqətlə öyrənilməsi, habelə ondan çıxarılan nəticələr ölkənin sosial sferasında baş verən problemlərin tənzimlənməsində öz faydalılığı xüsusi əhəmiyyət kəsb edir. Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafeyinə uyğun şəkildə daha güclü, qüdrətli dövlətin təminatçısı olan zəkalı insan kapitalı fondunu yaratmaqla, demokratik quruculuq və inkişaf xəttini yüksəltməyə çalışır. Ümummilli lider Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrlərdə azərbaycanlı gəncləri SSRİ-nin müxtəlif tanınmış ali məktəblərində təhsil almağa göndərərkən əslində diaspor işinin, lobbiçiliyin təməlini qoyurdu. Sonralar H. Əliyev həmin dövr haqqında belə deyirdi: "o vaxtlar azərbaycanlıları başqa yolla Sovetlər İttifaqına səpələyib dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər

yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək millətini, dinini, torpağını və ana Vətənini unutmayasan". [20]

Dünyanın bütün ölkələri ilə yüksək səviyyədə iqtisadi, siyasi, ictimai, elmi və humanitar, eləcə də xaricdə yaşayan həmvətənlərimizlə əlaqələrin yaradılmasında ulu öndərin layiqli davamçısı İlham Əliyev, Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru diplomunun təqdim edilmə mərasimində söylədiyi nitqdə qeyd etmişdir ki; "Mən tam əminəm ki, yüksək təhsil səviyyəsi olmasa, peşəkarlıq olmasa, gənclər ən mütərəqqi texnologiyalara yiyələnməsələr, həqiqətən inkişaf etmiş dövlət qurmaq mümkün deyil. Buna görə də təhsil bizim üçün prioritet sahədir." Onun təhsilə verdiyi önəm bizə, müasir dövrün zəka sahiblərini dəyərləndirməyə, onların dövlətçiliyimizin möhkəmləndirilməsi və gələcəyi üçün nə dərəcədə faydalı və səmərəli olması, onlardan istifadə imkanlarının sosial təhlilinin aparılması və araşdırılmasının zərurət olduğunu göstərir."

Dünyanın əksər regionlarında və eləcə də Azərbaycan başda olmaqla keçmiş Sovetlər Birliyi məkanında «zəka axını» prosesinin müsbət və mənfi tərəflərinin özünü qabarıq şəkildə göstərməsi bir sıra subyektiv və obyektiv amillərlə sıx bağlıdır. Qeyd edək ki, ölkədəki sosial-iqtisadi sahədə həyata keçirilən işlərə də zəka axını məsələlərinin müəyyən təzahürləri meydana çıxa bilər. Elmi ədəbiyyatda «zəka axını» prosesinin araşdırılması, onun mahiyyətinə aydınlıq gətirilməsi, eləcədə diasporun və lobbiçiliyin əsas istiqamətlərinin təyin olunması, müasir dövrün qarşısında duran problemdir.

Xarici ölkələrdə öz elmi səviyyələrini artırmaq məqsədilə ana vətənlərini tərk edib və məskunlaşdığı ərazilərdə icma halında, daha sonra diaspora çevrilən insanlar barəsində bir çox xalqların şifahi və yazılı ədəbiyyatlarında məlumatlara rast gəlinir. Nəzərə alsaq ki, mövzunun tarixi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, problemə həsr edilən elmi-tədqiqat işləri yalnız XX əsrin ortalarına qədər ciddi şəkildə işlənməyib.

XX əsrin ilk illərindən başlayaraq, dünyanın siyasi mənzərəsilə paralel olaraq elmin müxtəlif sahələrində də ciddi



dəyişikliklər baş verdi. Miqrasiya, diaspor, qloballaşma ilə bağlı əsərlər və elmi-tədqiqat işlərinin dünyanın nüfuzlu elmi müəssisələrində çap olunması prosesi fəallaşdı. Xüsusilə, ABŞ, Rusiya, Fransa, Almaniya və Böyük Britaniyada mövzu ilə əlaqədar son hesabatlar və elmi işlərin ictimai müzakirəyə çıxarılması başlandı.

I və II Dünya müharibələri illərində qüdrətli dövlətlərin «zəka axını» və diasporlar mövzusuna ciddi fikir verməsi, nüfuzlu alimlərin, ziyalıların və tədqiqatçıların zehinlərinə olan tələbat, onların zəkalarına duyulan ehtiyac elmin istiqamətini problemin öyrənilməsinə yönəltdi.

XX əsrin ikinci yarısından başlayaraq dünya elmi ədəbiyyatında qloballaşma, «zəka axını» və miqrasiya ilə bağlı elm-tədqiqat işlərinin sayının artması prosesi müşahidə olundu. Bu nöqteyi-nəzərdən göstərək ki, A. MacGillivray, R. Kindleberger, D. Fleming, B. Blair, M. Kritz, P. Martin [109; 112; 116; 122; 123] və s. kimi tədqiqatçılar öz əsərlərində qeyd etdiyimiz məsələlərlə bağlı ictimai fikirdə problemin meydana çıxardığı səhvlərin aradan qaldırılması yollarını təhlil etmişlər. Bu alimlərin tədqiqatları qeyd olunan mövzular sahəsində ilk nəzəri və praktik istiqamətləri özündə birləşdirdiyi üçün elmi əhəmiyyətini bu gün də saxlamaqdadır.

Keçmiş sovet dövrünün təsiri nəticəsində mövzu ilə əlaqəli dəyərli elmi əsərlər yalnız 1990-cı illərdən etibarən tam əhatəli olaraq çap olundu. Bu dövrdən başlayaraq Y. Klyuçko, A. Savelyev, N. Şlepakov, A. Smirnova, N. Nirel, B. Balkov, P. Balen, L. Maratis, A. Derqaçev, S. Eqerev və s. tədqiqatçıların qloballaşma, miqrasiya, zəka axını və diaspor mövzusuna həsr edilən maraqlı tədqiqat əsərləri yazılıb və çap edildi. [65; 70; 71; 77; 107; 110; 125]

Qloballaşma dövründə «zəka axını», onu doğuran səbəblər, problemin işlənilməsinə şərait yaradan amillər və s. məsələlər T. Straubhaar "Yüksək peşəkarların beynəlxalq səfərbərliyi: "zəka axını və ya zəka mübadiləsi" [133] monoqrafiyasında ətraflı şəkildə təhlil edilib və araşdırılıb. Müəllifin kitabında

qloballaşma dövrünün problemləri, miqrasiya prosesləri onun həlli çətin olan istiqaməti və «zəka axını»nı ilə qarşılıqlı təsiri məsələsinə geniş yer verilib. Tədqiqatçı dünyanın inkişaf etmiş ölkələrinə üçüncü dünya ölkələrindən «zəka axını» prosesinin baş verməsə səbəblərini statistik göstəricilər və nüfuzlu təşkilatların hesabatları əsasında araşdırıb.

Qloballaşma və miqrasiya prosesləri elmli insanların kapital ardınca öz ailələrini tərk edib xarici dövlətlərdə məskunlaşması, bu işlə məşğul olan xüsusi qrupların fəaliyyəti kimi məsələləri araşdıran Y. Klyuçko və A. Sovelyevun birgə məhsulu olan «Yeni dünya düzəni kontekstində zəka dəyəri» [77] kitabını xüsusi qeyd etmək olar. Müəlliflər yeni dünya nizamında qüdrətli qalmaq üçün kasıb ölkələrin zəka sahiblərini müxtəlif cəlbedici təkliflərlə ərazilərinə dəvət etmə strategiyasına toxunaraq aparılan siyasətin xüsusiyyətlərini öyrəniblər.

Azərbaycanda da qeyd edilən mövzulara həsr edilən elmi-tədqiqat işlərinin çap olunması XX əsrin 90-cı illərindən sonraya təsadüf edir. Qloballaşma ilə bağlı akademik Ramiz Mehdiyevin «Azərbaycan: qloballaşma dövrünün tələbləri» kitabında qloballaşma, onun səviyyəsi, xüsusiyyətləri, sosial–iqtisadi və siyasi sahələrində baş verən hadisələr nəzəri və təcrübi çərçivədə araşdırılıb. Müəllif problemlə bağlı təhlillərində respublika üçün mühüm olan çox qiymətli tövsiyələr verilmişdir. [37]

Diaspor və onun problemləri, xaricdəki soydaşlarımızın bugünkü dövlətlə münasibətləri, ümummilli lider Heydər Əliyevin bu istiqamətdəki uğurlu fəaliyyəti barəsindəki məsələlərə V. Həbiboğlunun «Heydər Əliyev və Azərbaycan diasporu» əsərində mühüm yer verilmişdir. Azərbaycan diasporu mövzusuna həsr olunan V. Həbiboğlunun əsərində «Dünyaya açılan pəncərə» və «Əsrlərə nümunə» bölmələri diasporumuzun yaranma yolları, son illərdə xaricdəki soydaşlarımızın fəaliyyəti və azərbaycançılıq ideologiyasının təbliği ilə bağlı fəaliyyəti hərtərəfli şəkildə araşdırılmaqla ulu öndər Heydər Əliyevin bu sahədəki əvəzolunmaz xidmətləri ardıcıl şəkildə təhlil edilir. [30]



Diaspor nəzəriyyəsi, Azərbaycan diasporunun tarixi, formalaşması, «zəka axını»nın yayılma coğrafiyasını tədqiq edən Z.Əliyevin «Dünya diasporları» [27] kitabında mövzu ilə bağlı olan məlumatların olması da az maraq doğurmur. Tədqiqatçı əsərində dünyanın aparıcı 12 diasporu ilə tarixi daha qədim dövrlərə gedib çıxan Azərbaycan diasporunun müqayisəli təhlilini aparmış və klassik diasporlara xas olan problemlərin həll edilməsi istiqamətdə gördüyü işlərin strukturunu qeyd etmişdır.

Bütövlükdə belə bir problemin kompleks şəkildə araşdırılması qloballaşma dövrünün xüsusiyyətləri, «zəka axını» prosesinin mahiyyəti, Azərbaycan diasporunun formalaşmasında elm xadimlərinin rolu, Vətənlə əlaqələr və onun təşkili, miqrasiya problemi və onun tənzimlənməsi istiqamətində aparılan siyasət bu işdəki çətinliklər təhlili olduqca vacib məsələlərdəndir.

Ölkəmizin müstəqil dövlət kimi formalaşması, demokratik hüquqi dövlət, vətəndaş cəmiyyəti, elmin bugünkü uğurlarının öyrənilməsi və inkişafı sahəsində qazandığımız mühüm nailiyyətlər bir daha Azərbaycan tədqiqatçılarından müasir şəraitdə respublikamızda qloballaşma problemi, «zəka axını» prosesi və diasporumuzun formalaşmasının öyrənilməsinə öz diqqətini daha da artırmağı tələb edir.

Qarşıya qoyulan əsas məqsəd müasir Azərbaycan cəmiyyətində və dünyada gedən qloballaşma prosesi və onun gedişində «zəka axını»nın xüsusiyyətlərini, elm xadimlərinin müasir durumu, miqrasiya prosesini doğuran səbəblər, xarici dövlətlərin maraqları, insanların mövqeyi, proseslərin tənzimlənməsinin siyasi, iqtisadi, sosial və hüquqi aspektlərinin təhlil edilməsindən ibarətdir. Bunun üçün aşağıdakı vəzifələr irəli sürülmüşdür:

– Qloballaşma dövrünün əsas tələblərini respublika çərçivəsində öyrənmək;

– «Zəka axını» prosesini doğuran səbəblərin mahiyyətini açmaq;

– Müasir Azərbaycan cəmiyyətində baş verən «zəka axını» və miqrasiya proseslərini şərtləndirən amilləri tədqiq etmək;

– Müasir «zəka axını» proseslərinin əsas xüsusiyyətlərini və inkişaf meyllərini aşkara çıxarmaq;

– Azərbaycan diasporu və onun formalaşmasında elm xadimlərinin oynadığı rolun təyin edilməsi ;

– «Zəka axını» prosesinin tənzimlənməsi və diasporumuzun güclənməsinin siyasi-hüquqi aspektlərinin tədqiqi və bu sahədə aparılan dövlət siyasətinin əsas istiqamətlərinin araşdırılması;

– Diasporumuzun təşkilatı strukturuna və milli mənsubiyyət məsələsindəki nöqsanların müəyyən edilməsi məsələlərinin göstərilməsi;

– Xaricdə yaşayan və və adları dünyanın nüfuzlu alimləri içərisində qürurla çəkilən azərbaycanlıların adlarının müəyyənləşdirilməsi;

– «Zəka axını» və diasporun daxilindəki münaqişəli vəziyyətlərin aşkarlanması onların aradan qaldırılması yollarının müəyyənləşdirməsi;

– Problemin həllində milli dövlətçilik və azərbaycançılıq ideologiyasını öyrənmək;

– Azərbaycan Respublikasının daxili və beynəlxalq qanunvericiliyində «zəka axını» və diasporla əlaqədar olan hüquqi bazanın işıqlandırılması;

– Azərbaycan elminin bu günü, aparılan islahatlar, tədqiqatçıların xaricə miqrasiyası və s. problemləri doğuran səbəblərin təhlil edilməsi;

– «Zəka axını» prosesinin iqtisadi-siyasi və sosial sahələrlə qarşılıqlı münasibətlərinin öyrənilməsi;

– Qloballaşma dövründə «zəka axını» prosesinin keçmiş postsovet məkanında oynadığı rolun müəyyən edilməsi və s.

Mövzunun işlənməsi prosesində Azərbaycan Respublikasının və Beynəlxalq qanunvericilik Ümummilli Lider Heydər Əliyevin çıxış və nitqləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxış və nitqləri, onun sərəncam və fərmanları, respublika və beynəlxalq elmi konfranslarının materialları, nüfuzlu transmilli şirkətlərin hesabatları, məlumat və qərarları, görkəmli alimlərin tədqiqat problemi ilə bağlı əsərləri, KİV- də dərc olunan məqalə və informasiya, İnternet, jurnal və saytların məlumatları, mütəxəssislərin mövqeyi, statistik göstəricilər və praktik-sosioloji sorğular elmi-nəzəri mənbə rolunu oynamışdır.



«Zəka axını» problemi respublikada ikl dəfə sosial-fəlsəfi aspektdən öyrənilərək, dünya miqyasında gedən miqrasiya və qloballaşma proseslərinin öyrənilməsi ilə birlikdə tədqiqata cəlb olunmuşdur;

– Qloballaşma şəraitində «zəka axını»na təsir göstərən amillər tədqiq edilmişdir;

– «Zəka axını» prosesinə məruz qalan ölkələrin vəziyyəti işıqlandırırlmışdır;

– Azərbaycanda «zəka axını» və diasporun formalaşmasının inkişafına təsir göstərən obyektiv və subyektiv amillər kompleks şəkildə işlənilmişdır;

– Xaricdə yaşayan azərbaycanlı zəka sahiblərinin müəyyənləşdirilməsinə cəhd göstərilmişdir;

– Diaspor əməkdaşlığı və «zəka axını» məsələləri öyrənilmişdir;

– Diaspor tarixi və onun formalaşması mərhələsinə diqqət yetirilmişdir;

– Xaricdə yaşayan azərbaycanlı alimlərin, eləcə də ziyalıların adları və fəaliyyətləri işıqlandırırlmışdır;

– Avropa və Amerika ölkələrində mövzu ilə bağlı keçirilən sosioloji sorğulara nəzər yetirilmişdir;

– «Zəka axını» prosesi sosial-iqtisadi inkişaf konteksində öyrənilmiş, problemi doğuran səbəblər müxtəlif aspektlərdən araşdırılmışdir;

– Azərbaycan diasporunda yaranan problemlər və onların həlli yoluna, zəka sahiblərinin rolu və qloballaşma prosesinin problemə təsiri təhlil edilmişdir;

– Sosioloji, statistik göstəricilər əsasında ictimai fikrin «zəka axını» probleminə münasibəti tədqiq edilmişdir;

Mövzunun bəzi müddəaları tədqiqatçının AMEA-nın keçirdiyi konfranslarda, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun təşkil etdiyi elmi seminarlarda, müəllifin Rusiya, Almaniya, İsveç, Böyük Britaniya və Belçikada iştirak etdiyi diaspor konfranslarında, TV və radioda çıxışlarında, İnternet forumlarda çıxışlarında etdiyi məruzələrdə öz əksini tapmışdır.

# I FƏSİL

## MÜASİR SİVİLİZASİYADA "ZƏKA AXINI"NI ŞƏRTLƏNDİRƏN İCTİMAİ-İQTİSADİ ŞƏRAİTƏ FƏLSƏFİ YANAŞMA

### 1.1. Qloballaşma dövründə "zəka axını": probleminin mahiyyəti və onun fəlsəfi cəhətdən səciyyələndirilməsi.

Ümumişlək leksikona axırıncı iki onillikdə daxil olsa da, qloballaşma mahiyyət etibarilə tarixi fenomendir. Tarixin nisbətən şəffaf hissəsi olan qədim yunan dövlətlərindən başlayaraq, müasir dünyada ABŞ hegemonluğu ilə səciyyələnən dövrə qədər bəşəriyyət müxtəlif formalarda təzahür etmiş qloballaşma proseslərinin şahidi olmuşdur. Müasir qloballaşma isə onun dinamikliyini artıran və ona yeni çalar verən informasiya texnologiyalarının güclü inkişafı, ümumilikdə isə keçmişlə müqayisədə hadisələrin başvermə sürətinin xeyli dərəcədə artması ilə bağlıdır.

Qloballaşma terminini ilk dəfə olaraq elmi ədəbiyyata 1983-cü ildə alim Ronald Robertson gətirmişdir. Qloballaşma terminini mədəniyyət və insan şüuru sahəsinə aid etmişdir.

Qloballaşmanın tam izahı isə Birləşmiş Millətlər Təşkilatının 2000-ci ilin 8 sentyabr tarixində keçirilən minilliyin zirvə görüşünün bəyannaməsində belə verilmişdir. "Qloballaşma yalnız bütün müxtəlifliyi ilə bəşər nəslinə mənsubluğumuza əsaslanan ümumi gələcəyin formalaşdırılması sahəsinə irimiqyaslı və təkidli səylərimiz sayəsində tam, hərtərəfli və ədalətli xarakter ola bilər" [117].

Qeyd etdiyimiz kimi, müasir anlamda qloballaşma prosesi yeni hadisə sayıla bilməz. Akademik R. Mehdiyev belə hesab edir ki, "bəşəriyyət tarix boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosio- mədəni məkanın bir hissəsi olmağa can atmalıdır" [37, 175].

Bildiyimiz kimi, tarix bu və ya digər imperiyaya öz hərbi, siyasi və iqtisadi təsir dairəsini iki, bəzən isə üç qitəyə genişləndirmək imkanı vermişdir. Ətrafında milyonlarla insanı birləşdirən din amilinin güclənməsi, iudaizm, xristian və islamın meydana gəlməsi dünya məkanının qlobal inteqrasiyasının yeni nümunəsini yaratmışdır.



Tarixə nəzər salsaq qədim yunan dövlətinin mərkəz rolun oynamağa çalışmaqla qeyri-yunan xalqların ucqar kimi qəbul edildiyinin şahidi ola bilərik.

Müasir qloballaşmanın qərbləşmə məfhumunun nisbətən yumşaq ifadə forması olduğunu deyə bilərik. Qərbin bir vaxtlar mərkəzə çevrilərək qloballaşma prosesinin məhz ona tərəf yönəlməsi tarixini 500 il bundan öncəyə aid edənlər var. Əslində onun baş verməsinin daha qədim zamanlara təsadüf etməsini qeyd etmək olar [109, 22-32].

Ə. Həsənovun qeyd etdiyi kimi "qloballaşma nə müstəmləkə imperiyalarının hökm sürdüyü və əmtəə-pul münasibətlərinin əsasən imperiya çərçivəsində dövr etdiyi XVII-XIX əsrlərdə, nə də ki, dünyanın iki qütbləşmə sinfi-ideoloji qarşıdurmanın mövcud olduğu dövrdə (XX əsrin ortalarından başlayaraq müasir dövrə qədər) mümkün deyildi. Bunun üçün formal olsa da, mütləq bərabər hüquqlara malik dövlətlərdən yaradılan indiki dünya sistemi və bütün dünyaya ümumi maraqlar altında vahid bir insan yaşayış sistemini təbliğ edən və güclü formada inkişaf etmiş mərkəzin (dövlətin) mövcud olması olduqca vacib və zəruri idi" [31, 151].

Dani Rodrin öz kitabında qloballaşma prosesinin qədim dövrlərdən başladığını təsdiqləsə də, onun fikrincə prosesin daha fəal dövrü XIX əsrin sonlarında olmuşdur. O, öz fikrini sübut etmək üçün XIX əsrin sonlarında qlobal dünyada mal və xidmət ticarətinin toplam ümumi daxili məhsul içərisindəki payının (xüsusən o zaman inkişaf etmiş ölkələr baxımından) müasir dövrdə mövcud olanlardan daha çox olduğuna əsaslanır. Misal olaraq o, ABŞ-ın qeyd edilən illərdə xaricə açıqlıq səviyyəsinin indikindən daha çox olduğunu göstərir. Yenə yeni qitəyə müstəmləkələrdən gələn yüksək əmək axını da əməyin hərəkətini daha da artırmışdı. Həmçinin maliyyə də maneəsiz ölkələr

arasında dolaşmaqda idi. Lakin, o zamankı dünya sistemində mövcud olan şərtlər əlverişli olmadığından qloballaşma prosesi da daimi olmurdu. Çünki milli dövlətlər o illərdə bu prosesə tam hazır deyildi [129, 21].

Qloballaşma XX əsrin əvvəllərindən başlayaraq əsas etibarı ilə iqtisadi proseslərin nəticəsində yaranmasına baxmayaraq, getdikcə dünya məkanının siyasi-ictimai və sosial-mədəni sahələrinin də əhatə etməyə başlamışdı. Dünya iqtisadiyyatında XX əsrin ikinci yarısından etibarən fundamental dəyişikliklər baş verir. Biz milli iqtisadiyyatların bir-birindən ölkələrarası ticarət və investisiyaya qoyulan müxtəlif maneələrə, zaman, məsafə, dil fərqləri ilə, dövlət idarəçiliyi, biznes sistemləri və mədəniyyətlər arasındakı milli fərqlərlə təcrid olunan bir dünyadan çox sürətlə uzaqlaşmaqdayıq. Və biz milli iqtisadiyyatların bir-biri ilə qarşılıqlı asılı olduğu və inteqrasiya olduğu qlobal iqtisadi sistemdə birləşdiyini müşahidə etməkdəyik ki, bunu da sadə dillə qloballaşma adlandıra bilərik. Qlobal iqtisadi sistemdəki bu inteqrasiya meyli son illərdə daha da sürətlənmiş və bu minilliyin ilk 10 ilində ən yüksək həddə çatacağı gözlənilir ki, şübhəsiz bu informasiya və telekommunikasiya texnologiyalarında baş verən inqilabi dəyişikliklərin məhsuludur. Qloballaşmanın 2 əsas komponenti var:

- Qlobal bazarın yaranması;
- İstehsalın qloballaşması.

Qlobal bazar tarixən bir-birindən ayrı olan milli bazarların bir yerə cəmləndiyi nəhəng çətirdir. Coco-Cola, Levi's cinsləri, Sony Walkmanları, Mc Donald's hamburqgerlərinin bütün dünyada istehlak məhsulu kimi qəbul olunması qlobal bazarın ən bariz nümunəsidir. Müxtəlif milli zövq və seçimlər qloballaşmaya ən böyük maneə kimi görünsə də, qloballaşma dünyada vahid zövq, dəb və seçim meydana gətirmişdir. Qlobal bazarın ən əsas və diqqətçəkən xüsusiyyətlərindən biri budur ki, daxili bazarda bir-birinə rəqib olan transmilli korporasiyalar artıq vahid dünya bazarı uğrunda rəqabət aparırlar, həmçinin əksinə daxili bazara daxil olan xarici rəqiblərlə mübarizə aparırlar. Misal üçün, Coco-



Cola və Pepsi artıq sadəcə ABŞ bazarında deyil, bütün dünyada rəqabət aparır və bu proseslər «ABŞ bazarı», «Yaponiya bazarı» kimi məfhumların ortadan qalxaraq vahid dünya bazarının meydana çıxmasına səbəb olur. İstehsalın xərc və keyfiyyət üstünlüklərindən yararlanmaq üçün öz məhsullarını müxtəlif ölkələrdə istehsal etməsidir. Başqa sözlə hissələri ayrı-ayrı ölkələrdən mənbələnən vahid məhsul yaranmışdır. Ona görə də bu gün dünyada transmilli korporasiyalar tərəfindən istehsal olunan məhsulları konkret olaraq amerikan malı, alman malı, fransız malı deyil, dünya malı kimi xarakterizə etmək daha doğru olar [117].

Qloballaşma prosesində 2 əsas mərkəz var: transmilli korporasiyalar və beynəlxalq iqtisadi və siyasi qurumlar. Yuxarıda transmilli korporasiyaların qloballaşmadakı rolunu izah etdik. Beynəlxalq iqtisadi və siyasi qurumlar isə qloballaşmada əsasən siyasi konyukturu müəyyən edir. Bu qurumlar millətlərüstü qurumlardır, hökumət və qeyri-hökumət qurumlara bölünür. Misal olaraq rəsmi qurumlardan BMT, Avropa Şurası, BVF, Dünya Bankı, Dünya Ticarət Təşkilatı, beynəlxalq qeyri-hökumət təşkilatlarından Human Rights Watsh, Transparency İnternatonal və Amnesty İnternationalı göstərmək olar. Bunlar hökumətlərin bəzi funksiyalarını özündə cəmləşdirir, üzv ölkələrdə iqtisadi-siyasi problemlərin həllinə yardım edir, məsləhətlər verir, bu ölkələrin hökumətlərindən daha yüksək statusda olurlar. Qloballaşmada dövlətin zəifliyi tezisi ilə müəyyən mənada razılaşmaq olar. Məhz beynəlxalq iqtisadi və siyasi təşkilatlara qarşı çevrilən əsas tənqid kimi onların hökumətlərin işinə müdaxiləsi və iqtisadi və siyasi islahatlara dair verdikləri təkliflərin ölkələrdəki lokal fərqləri nəzərə almadan standart şəkildə olması və bu qurumların funksiyalarının əslində üçüncü dünya ölkələrinin böyük dövlət tərəfindən nəzarət altında saxlanması götürmək olar.

Yuxarıda qeyd etdiyimiz kimi qloballaşma prosesinin əsas iki ifaçısı olan transmilli korporasiyalar və beynəlxalq iqtisadi və siyasi qurumların bu nöqtəyə gəlib çıxması 1944-cü ildə

yaradılan Brenton–Bud beynəlxalq maliyyə sistemi ilə sıx bağlıdır. Onun qarşısında duran ilkin vəzifənin Avropanın siyasi xəritəsini dəyişən II Dünya müharibəsindən sonra güc əldə etmək istəyən dövlətlərin beynəlxalq iqtisadiyyatın ayaq üstə qalması və geniş məkanı əhatə etməsinə xidmət edərək möhkəm maliyyə bünövrəsini yaratmaq idi.

Dünya inteqrasiya proseslərini sürətləndirmək məqsədilə də ticarət və maliyyə sahəsində tez-tez rastlaşan əngəllərin aradan qaldırılması zəruri hesab olunurdu. Bunun üçün də dünyanın bütün ərazilərini əhatə edə bilməyə səbəb yaradacaq yeni beynəlxalq norma və təsisatların yaradılması, qaçılmaz sayılan işlərdən idi.

Bu səbəbdən də transmilli korporasiyaların sayı durmadan artmağa başladı. 1960-cı illərdə indiyədək onların sayı təxmini olaraq 7 mindən 40 minə çatdı. Xüsusilə ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya, Çin, Cənubi Koreya kimi dövlətlərin nəhəng transmilli şirkətləri prosesi fəal iştirakçılardır [135, 12].

Dünyanın geosiyasi və geoiqtisadi xəritəsində qloballaşma prosesinin əsas Şimali Atlantik, Sakit okean hövzəsi və Cənub makro iqtisadi məkanında qruplaşdırmaq olar. Bu üçbucaqda isə qloballaşmanın aparıcı qüvvəsi kimi dövlət tənzimlənməsindən kənar maliyyə–bank və digər transmilli korporasiyalar fəaliyyət göstərir [113, 7].

Qeyd etdiyimiz kimi, qloballaşma iqtisadi, siyasi, mədəni, texnoloji, hərbi, hüquqi inteqrasiya nəticələri olan bir prosesdir. Qloballaşma ilə birlikdə yeni dünya düzənini dizaynetmə funksiyasını üzərinə götürmüş millətüstü, dövlətüstü qurum və quruluşlar ortaya çıxmaqdadır.

Son illər Şimali Amerika və Qərbi Avropa ölkələrinə məxsus şirkətlər sürətlə inkişaf etməkdə olan ölkələrlə rəqabət aparmağa çətinlik çəkirlər. Bunun əsas səbəblərindən biri işçi qüvvəsinin qiymətində olan fərqdir. Nəticədə Çin, Hindistan, Yaponiya, Cənubi Koreya və s. ölkələrin istehsalat və xidmət göstərən şirkətləri dünya bazarlarının getdikcə daha artıq hissələrini zəbt



edirlər. Məsələn, Avropa bazarlarına yaxınlaşmaq üçün bu şirkətlər Şərqi Avropa ölkələrinə külli miqdarda sərmayə qoyurlar. Rəqabətə tab gətirmək məqsədilə dünya nəhəngləri sayılan şirkətlər getdikcə işçi qüvvəsinin baha olduğu ölkələrdə işçilərinin sayını azaldır və ya strategiyasını dəyişirlər.

Son dövrlərdə bilgi sahibi və daşıyıcısı olan insan yaradıcılığını əldə etmək şirkətlərin əsas məqsədinə çevrilir. Daha sonrakı məqsəd «zəka sahibinin» qorunması və şirkət daxilində saxlanması problemini həll etməkdir. Amma belə birləşmələr həmişə uğurlu olmur. Buna səbəb «mədəni fərqlər»in və ya daha doğrusu, «mədəni atmosferə uyuşmazlığın» ortaya çıxmasıdır [5, 11].

Miqrasiya və inkişaf dinamikasının daha yaxşı mənimsənilməsi və idarə olunması inkişaf etməkdə olan dövlətlərin ehtiyatlarını azaltmadan bu ölkələrdən olan ixtisaslı əməkçilərin inkişaf etmiş dövlətlərdə işlə təmin edilməsinə imkan verəcək. Belə çıxır ki, zəka axını istiqamətində birgə fəaliyyət göstərən inkişaf etmiş və etməkdə olan ölkələrdə ixtisaslı kadrların hərəkəti və təyinat ölkələrində insan resurslarının inkişafı sahəsində zəruri səviyyəyə çata bilər. Adi əməkçilərin hərəkətinə də eyni diqqətin göstərilməsi zəruridir. B. Makkinli əlavə edib ki, bütün əlaqədar tərəflər birgə işləməli və ümumi yanaşmaya malik miqrasiya siyasəti irəli sürməlidirlər. Bu təqdirdə miqrasiyanın həqiqi potensialından istifadə etmək olar [3].

Miqrasiya siyasətinin müəyyənləşdirilməsi, bu problemin elmi-nəzəri aspektlərinin təhlili ilk növbədə bu fenomenin mahiyyəti, forma və növləri, struktur və tipologiyası, miqrasiyanın formalaşma qanunauyğunluqları haqqında kompleks araşdırmalar aparılmasını zəruri edir. Bu da ilk növbədə sadalanan məsələlərə dair elmdə mövcud olan mövqe və konseptual şərhlərə bələd olmağı, onlara münasibət bildirməyi şərtləndirir. Müasir miqrasiya proseslərinin milli və qlobal təhlükəsizlik faktorlarından birinə çevrilməsi, son dərəcə intensiv sürətlə dinamikaya uğraması yeni xüsusiyyətlərin üzə çıxarılmasına səbəb olub. Miqrasiyaya dair elmdə mövcud olan

anlayış, təsnifat və tipologiyanı müqayisə etmədən, yeni təzahürlərin real vəziyyəti və perspektivləri haqda mühakimə yürütmək qeyri-mümkündür. Bəşər tarixinin inkişafında çox mühüm rol oynayan miqrasiya prosesləri hər bir ölkənin üzləşdiyi çoxşaxəli, mürəkkəb hadisə kimi olduqca müxtəlif elmi aspektlərə malikdir. Məhz buna görə problemin nəzəri-metodoloji təhlili, anlayış-kateqorial aparatının dəqiqləşdirilməsi tələb olunan ilk məsələlərdəndir. Müasir inkişaf üçün bütün səviyyələrdə reallığın dinamik dəyişməsi səciyyəvidir. Bu baxımdan cəmiyyətin inkişafı ilə paralel miqrasion situasiya da çevik transformasiyaya uğrayan sahə olduğu üçün onun tədqiqində istifadə olunan anlayışların məzmunu yeniləşir, adekvat ifadəsini tələb edir. "Miqrasiya" termininin mahiyyəti və təkamülünü müəyyənləşdirməsi, tipoloji-təsnifat məsələlərinə yaxından bələd olmağı gündəmə gətirir. "Miqrasiya" - latın sözü olub (miqratio") "bir yerdən başqa yerə (yaxın və uzun müddətli) hərəkət etmək, köçmək, yerini dəyişdirmək" mənalarını verir ("miqro" - keçirəm, köçürəm) və bir qayda olaraq insanların öz yaşayış yerlərini dəyişmələri ilə əlaqədar olan bir prosesdir. Bəzi tədqiqatlara görə miqrasiyanın elmi izahı ilk dəfə XIX əsrdə E. Ravenşteyn tərəfindən verilib və onu "insanın öz yaşayış yerini daimi və ya müvəqqəti dəyişməsi" kimi şərh edib. "Miqrasiya" sözün ilkin mənasında ingilis dilindəki "miqrateo"- piyada gəzmək, səyahət etmək" feli ilə də bağlıdır. Anlayışın geniş və dar mənalarda tətbiqi məlumdur. Dar mənada daimi yaşayış yerinin tərk edilməsi "köçüb getmək", geniş mənada isə müddət, mənbə, məqsəd və davamlığından asılı olmayaraq ərazi-məkanlar, ölkələrdaxili və dövlətlərarası əhali hərəkətini ifadə edir [86, 26].

1937-ci ilin əhalinin siyahıya alınma tədbiri "ziyankar kompaniya» elan edilib, bu sahənin tədqiqatçıları repressiyaya məruz qalıb. Demoqrafik-miqrasiya problemi uzun illər təhlükəli, yasaq mövzu sayılıb. 1954-cü ilin "Böyük Sovet Ensiklopediyasında" miqrasiya anlayışının mahiyyəti kölgədə qalıb. Yalnız 1959-cu ildə onun ensiklopedik şərhi bərpa edilib. Ötən



yüzilliyin sonlarında miqrasiya qlobal demoqrafik problemlər və beynəlxalq həyatın ən mühüm reallığı kimi geniş qədəm qoyub. Onun neqativ təzahürləri beynəlxalq münasibətlərin və siyasi tənzimlənmənin predmetinə çevrilməyə başlayıb. Bununla da "miqrasiya" termininin sosioloji-hüquqi statusu və mahiyyəti beynəlxalq siyasətdə və qanunvericilikdə rəsmi məzmununun müəyyənləşməsini gündəmə gətirib. BMT tərəfindən 1958-ci ildə nəşr edilmiş lüğətdə miqrasiya "əhalinin demoqrafik planda hərəkəti və yerdəyişməsinin ən mühüm istiqaməti kimi" izah edilib. 1989-cu ildə Miqrasiya üzrə Beynəlxalq Təşkilatın 59-cu sessiyasında "miqrasiya" və "miqrant" anlayışlarına belə şərh verilib: "Miqrasiya hər bir dövlətin inkişafının ayrılmaz hissəsidir. İstər insanların tərk etdiyi, istərsə də yaşamaq üçün seçdikləri dövlətlər, yerdəyişmənin səbəbindən asılı olmayaraq bu proseslərlə üzləşirlər".

10083

XX əsrin ikinci yarısından başlayaraq miqrasiya prosesləri qlobal xarakter almış, planetin bütün qitələrini, cəmiyyətin bütün təbəqələrini və qruplarını, ictimai həyatın bütün sahələrini əhatə etmişdir. Haqlı olaraq ötən əsri «miqrasiya əsri» adlandırırlar. Bu gün miqrasiyanın dünyanın bütün regionlarında siyasi cəhətdən yeniləşməsinin əsas amillərindən biri olması fikri heç kəsdə şübhə doğurmur. Çünki bunu statistika göstəriciləri də sübut edir. Belə ki, beynəlxalq miqrantların, yəni öz ölkəsinin hüdudlarından kənarda yaşayan insanların sayı 1990-cı ildə 1965-ci ilə nisbətən 45 mln. nəfər artaraq 120 mln. nəfər olmuş və bu da dünya əhalisinin iki faizini təşkil etmişdir. İnsanlar daha yaxşı həyat şəraitində yaşamaq, sabitliyin hökm sürdüyü ölkələrdə məskunlaşmaq, sosial-məişət şəraitinin geriliyindən şəhərlərə köçmək istədiyindən, doğma yurdlarını tərk etmək məcburiyyətində qalsalar da miqrasiyaya böyük meyl göstərir, miqrant həyatının çətinliklərini qəbul edirlər. 1990-cı ildən XXI əsrin əvvəlinə qədər olan müddətdə beynəlxalq miqrantların sayının 135-140 mln. nəfərə qalxması barədə məlumat verilir. Bununla yanaşı beynəlxalq miqrasiyanın intensivliyi daxili miqrasiya yerdəyişmələrindən xeyli aşağıdır. BMT-nin ekspertlərinin hesablamaları-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

na görə daxili miqrasiya ötən yüzilliyin 80-ci illərindən başlayaraq 750 mln. nəfərdən 1 mlrd. nəfərə yüksəlmişdir. Bu o deməkdir ki, planetin hər altıncı sakini daxili miqrantdır. [87, 212].

Miqrasiya adətən, insanların dövlətlər arasında yerini dəyişməsinə deyilir. Miqrasiyanın aşağıdakı formaları vardır: immiqrasiya və emiqrasiya, daimi və müvəqqəti, könüllü və məcburi. Ümumi istifadədə miqrasiya termini, həmçinin, insanların bir dövlətin daxilində də yerdəyişməsini ifadə etmək üçün işlədilə bilinər, ancaq beynəlxalq təcrübə nəzərdə tutur ki, bu cür yerdəyişmələrin leqallaşdırılması miqrasiya qanunvericiliyinə uyğun deyil və miqrasiya agentlikləri tərəfindən təsdiq edilmir.

Emiqrantlar (mühacirlər) siyasi, iqtisadi, dini və digər motivlərlə əlaqədar öz ölkələrini könüllü və ya məcburi tərk edib başqa ölkələrdə məskunlaşmış vətəndaşlardır. Mühacirət mühacirin əvvəlki vətəndaşlığının avtomatik itirilməsinə səbəb olmur. Bu məsələ onların vətəndaşları olduqları ölkənin qanunvericiliyi ilə həll edilir. Adətən, siyasi mühacirlərə sığınacaq hüququ verilir. Dövlət reinteqrasiya, yəni güzəştli şəkildə vətəndaşlığı əldə etmək nəticəsində itirilmiş əvvəlki vətəndaşlığı bərpa edə bilər. Əvvəlki vətəndaşlığı itirmiş, lakin yeni vətəndaşlıq qazanmamış mühacirlərin vəziyyəti nisbətən başqa şəkildə olur. Mühacirin köçdüyü ölkənin vətəndaşlığını alması məsələsi həmin ölkənin qanunvericiliyi əsasında həyata keçirilir.

Vətəndaşlığı olmayan ölkədə haqqı ödənilən fəaliyyətlə məşğul olmuş, məşğul olan və yaxud məşğul olacaq şəxslər isə miqrant işçilər adlanır.

İki qrup miqrant mövcuddur - sənədləşdirilmiş və sənədləşdirilməmiş. Birincisi, sənədləşdirilmiş (həmçinin nizamlı) miqrant işçilər. Miqrant işçilər o zaman sənədləşdirilmiş hesab edilirlər ki, iş təklif edilən dövlətdə dövlətin qanununa və üzv olduğu beynəlxalq müqavilələrə uyğun olaraq onlara həmin dövlətə daxil olmaq, orada qalmaq və haqqı ödənilən fəaliyyətlə məşğul olmaq səlahiyyəti verilsin. Onlar müəyyən müddət ərzində



razılaşdırılmış müqavilələr əsasında müvəqqəti miqrant işçilər və yaxud beynəlxalq təşkilatların (birgə şirkətlərin) işçiləri kimi bir ölkədən o biri ölkəyə gedən müvəqqəti, qısa müddətli işləyən ixtisaslı şəxslər ola bilərlər.

İkincisi, sənədləşdirilməmiş (nizamsız, qeyri-qanuni, gizli) miqrant işçilər: Miqrant işçilər o zaman sənədləşdirilməmiş və qeyri-qanuni hesab edilirlər ki, iş təklif edilən dövlətdə haqqı ödənilən fəaliyyətlə məşğul olmaq üçün onları həmin ölkəyə daxil olmaq, orada qalmaq səlahiyyəti verilməsin.

Hər şeydən əvvəl hər hansı yaşayış məntəqəsinə gələnlərin və oradan gedənlərin sayı və onların fərqi ilə müəyyən olunan miqrasiya saldosudur. Saldo müsbət olarsa, bu məntəqə əhalisinin sayının miqrasiya hesabına artmasına; mənfi olarsa, azalmasına səbəb olur və buna əhalinin mexaniki artımı deyilir. Əsasən iri dövlətlər bu terminə müraciət edərək ölkə ərazisində nə qədər miqrant olduğunu müəyyənləşdirilməsi miqrasiya göstəricisi adlanır.

Miqrasiya proseslərinin idarə olunması isə milli səviyyədə miqrasiya sahəsində çoxsaylı dövlət funksiyalarını və özündə sərhədin keçilməsi, xüsusilə də ölkəyə gəlmə prosesinin idarə olunması, əcnəbilərin dövlətin ərazisində olmaları, qaçqınların və müdafiəyə ehtiyacı olan digər şəxslərin müdafiəsini özündə birləşdirən miqrasiya aspektlərinin idarə olunması sistemini müəyyən etmək məqsədi ilə istifadə olunur. Bu sahədə aparılan nəzəri-metodoloji ümumiləşdirmələrə əsasən miqrasiyanın növləri, strukturu, faktorları, funksiyaları, tipologiyası, motiv və mənbələri, regional xüsusiyyətləri, dinamikası və miqyası kimi aspektlərin müxtəlif təsnifat sistemləri müəyyənləşdirilib. Əminliklə demək olar ki, onların heç biri bitkin, mükəmməl nəzəri sistem kimi formalaşa bilməyib, inkişafın hər bir yeni mərhələsində yeni xüsusiyyətlər, yeni miqrasiya reallığı ortaya çıxıb və çıxmaqdadır. Miqrasiyanın növləri aşağıdakı kimi sistemləşdirilib: daxili; xarici; bir istiqamətli (geri dönməyi nəzərdə tutmayan); daimi yaşayış yerinə emiqrasiya; müvəqqəti (qayıdışı nəzərdə tutan); uzunmüddətli (6 aydan çox müddətdə

davam edən); mövsümi; köçərilik və ziyarət məqsədli; mütərəddid (daimi gediş və qayıdış, "rəqqas formalı" adlandırılan miqrasiya növü); epizodik; tranzit (sərhədyanı); məcburi (obyektdən asılı olmayan səbəblərdən baş verən miqrasiya) və əks istiqamətli, dönüş məqsədli miqrasiya (özünün və ya dövlətin təşəbbüsü ilə dönüşü nəzərdə tutan miqrasiya növü). Məsələn, İsrail dövlətinin repatriasiya proqramı buna əyani misaldır. Miqrasiyanın təsnifat sistemlərinə gəldikdə, onun forma, səbəb, mənbə, mərhələ və sair üzrə uyğunlaşdırılması, miqrasiya hərəkətinin təsnifi sahəsindəki mövqelər də müxtəlifdir. Formasına görə miqrasiyanın ictimai baxımdan təşkil olunmuş və mütəşəkkil olmayan (təşkil olunmamış, kortəbii), səbəblərinə görə - iqtisadi, sosial, mədəni, siyasi hərbi, mərhələlərinə görə isə qərarın qəbul edilməsi (getmək və gəlmək barədə), məkanda yerdəyişmə, hərəkət prosesi və sakinləşmə, yeni yerə adaptasiya və inteqrasiya kimi növlərə qruplaşdırılıb. Təsnifat (klassifikasiya) üçün hansı meyarların seçilməsindən asılı olaraq miqrasiyanın təsnif sistemləri çoxşaxəlidir. Məsələn, müxtəlif ərazi (region, məkanlar) arasında miqrasiya prosesi "üfüqi" və "şaquli" proseslər kimi də qruplaşdırılıb. Yaşayış yerləri müxtəlif statusa, miqyas və nüfuza malikdir. İri, mərkəz hesab olunan paytaxtlar, azsaylı əhali yaşayan şəhərlər mövcuddur. Bu baxımdan "eyni statuslu ərazilər arası miqrasiya" "üfüqi", "insanların maddi həyat səviyyəsinin daha yüksək olduğu ən məşhur məkanlara, şəhərlərə axını" isə "şaquli" miqrasiya kimi səciyyələndirilib. [88, 48].

Müasir dövrün ən aktual problemlərindən biri sayılan "zəka axını" prosesini bütün bu sadalanan miqrasiya növləri içərisində yenisi kimi qeyd olunmalı və miqrasiya problemləri içərisində ayrıca tədqiqata cəlb olunmalıdır.

Miqrasiya prosesinin idarə olunmaz tərəf kimi inkişaf etməkdə olan ölkələrin intellekt, beyin və yaxud zəka axını göstərilir. Brain-Drain kimi ümumişlək leksikona daxil olan "zəka axını" prosesini tədqiqatçılar müxtəlif cür izah edirlər. B. Caqdidi, C. Wiagen, R. Martin, T. Straubhaar kimi tanınan



tədqiqatçılar zəka axınını birbaşa miqrasiya ilə əlaqələndirən ölkə daxilində özlərinə iş və gördükləri işə görə az əmək haqqı alan yüksək ixtisaslı kadrların inkişaf etmiş ölkələrə köçməsi kimi qəbul edirlər. Brain Drayn, –zəka axınının izahını müxtəlif ölkələrdə dərc olunan iqtisadi, hüquqi və sosial terminlər lüğətində aşağıdakı kimi eyni olaraq verilir:

"Zəka axını"– yüksək ixtisaslı mütəxəssislərin öz ölkələrində normal yaşam tərzi qura bilməyərək xarici ölkələrə miqrasiya etməsidir [91].

"Zəka axını" – «Brain Drain» anlayışını elmi ədəbiyyata ilk dəfə Britaniya Kral Cəmiyyətinin hazırladığı hesabatdan sonra daxil olmuşdur. 1962-ci ildə bu anlayış mühəndis, texnik və alimlərin Böyük Britaniyadan ABŞ-a miqrasiya etməsindən sonra istifadə olunmağa başlanıb. Bu hesabat bütün dünyada səs-küyə səbəb olmuş və dünya alimləri Brain-Drain anlayışını eyni mənada işlətməyə başlayıblar.

Türkiyənin tanınmış alimlərindən Dr. Muhammer Kaya belə hesab edir ki, Brain-Drain-zəka axını deyiləndə yüksək təhsil səviyyəsi, öz ixtisası üzrə mütəxəssis hesab olunan insanların ölkəsini tərk edərək güclü dövlətin ali, elmi, transmilli şirkətlərində səadət axtarması elmi-texniki inkişafa təkan verməklə, onların vətəndaşları olduqları dövlətlərə ciddi zərbə vurur [63].

Onu da əlavə edək ki, zəka axını, daha doğrusu, yüksək səviyyəli alimlərin onlar üçün əlverişli yerlərdə toplaşması (məsələn, II dünya müharibəsi ərəfəsində və ondan sonra ABŞ-da toplaşması) elmin və texnikanın güclü inkişafına gətirib çıxartdı. Elm və texnika isə elə sərvətdir ki, yalnız konkret ölkəyə məxsus olaraq qalmır, bütün bəşəriyyət ondan istifadə edir. Misal olaraq kompüterləri, müasir telekommunikasiyanı, İnternet, müxtəlif maşınları və başqalarını göstərmək olar. Yəni zəka axını bəşəriyyətin bütövlükdə inkişafına səbəb olur və son nəticədə kasıb ölkələr də bundan yararlanır.

İndi milli və mədəni dəyərlərin dağılması məsələsinə baxaq. Bu fikirlə razılaşmaq lazımdır ki, sərbəst hərəkət azadlığı milli və

mədəni dəyərlərə öz təsirini göstərir. Xaricə gedib oradakı həyat tərzin görən, həmin ölkələrdəki əxlaqi, estetik, mədəni dəyərlərlə bizimkini müqayisə edən şəxsdə dəyərlərə münasibətdə, sözsüz ki, müəyyən dəyişiklik yaradır. Vətəni bu və ya digər səbəbdən tərk etməyə məcbur olmuş intellekt yuxarıda qeyd olunan səbəblərdən dövlətinə, onun sosial-iqtisadi mühitinə ciddi zərbə vurmaqla yanaşı, məskunlaşdığı ölkənin əxlaq və mədəni dəyərlərini bəzən həzm edə bilməməsi, təbiət və cəmiyyət mühitinin əks təsirinə məruz qalması, onun mənəvi dəyərlərinin itirilməsinə gətirib çıxarır. Çox yüksək dərəcəli mütəxəssis kimi mühacir olduğu ölkənin elmi iqtisadi, tibbi sahəsində böyük nailiyyət qazandığı halda özünün Vətənini itirdiyi kimi əqidəsini, arzularını hətta bəzən ailəsini belə itirmiş olur. Beləliklə milli-mənəvi dəyərlərinin itirməklə bəzən çoxları üçün faydalı olan bir şəxs öz xalqına, dövlətinə vurduğu ziyanla bərabər şəxsi varlığına daha çox zərbə vurur və bununla da bu proseslərin qurbanına çevrilir. Bu cür proseslərin araşdırılması baxımından qloballaşma prosesinin ayrılmaz tərkib hissəsi olan zəka axını probleminin elmi cəhətdən tədqiqinə böyük ehtiyac duyulur.

Bütün bunlar qloballaşma prosesinin ayrılmaz tərkib hissəsi olan zəka axını problemini elmi cəhətdən tədqiqi zərurətinin yaradır. Zəka axını prosesinə iki aspektdən yanaşılması daha düzgün olar: [133, 9-12].

1. Daxili zəka axını: Yüksək ixtisaslı kadrların elm sahəsindən əmək haqqı və iş şəraitinin anormal olması səbəbi ilə uzaqlaşaraq digər sahələrə, xüsusən biznes və gəliri çox olan işlərə qoşulmasıdır. Bu proses isə cəmiyyətin intellektual potensialını azaltmaqla yanaşı tədqiqat mərkəzlərinin, elmi müəssisələrin və təhsil idarələrinin kütləvi savadsızlıqla üzləşməsinə şərait yaradır.

2. Xaricə miqrasiya– zəka axını: Elmi-texniki, potensialın öz vətənlərini, iş yerlərini ataraq daha yüksək qazanc və karyera ardınca inkişaf edən dövlətlərə köçməsi [90, 3-14].

Hər iki proses eyni dərəcədə ölkənin elmi inkişafına ciddi zərbə vurmasına, elmi müəssisələrin bağlanmasına, elmi-texniki



yeniliklərə son qoyulmasına, dövlətin strateji araşdırmalarının nöqsanlarla üzləşməsinə və s. problemlərin yaranmasına səbəb olur. Rusiyanın «İctimai mövqe» fondunda 2004-ci ildə bir sıra Avropa və Amerika ölkələrində zəka axını və onu doğuran səbəblərlə bağlı keçirilən sorğu insanların bu ciddi prosesə göstərdikləri maraqlı mövqelərin aşkar olunmasına şərait yaradır [103].

**I – Zəka axınının mahiyyəti nədir?**

| Avropa | % | Amerika | % |
|---|---|---|---|
| 1. Bilmirəm | 17 | Bilmirəm | 11 |
| 2. Satqınçılıq, qisas, qorxaqlıq | 1 | Satqınçılıq, qorxaqlıq, qisas | 2 |
| 3. Ölkə üçün faciə | 2 | Ölkə üçün faciə | 3 |
| 4. Beyin xəstəliyi | 4 | Beyin xəstəliyi | 6 |
| 5. Az əmək haqqı, İş şəraitinin qeyri normallığı və s. | 12 | Az əmək haqqı, iş şəraitinin qeyri normallığı və s. | 15 |
| 6. Ağıllı insanların xaricə köçməsi | 64 | Ağıllı insanların xaricə köçməsi | 63 |

**II – Sizin fikrinizcə savadlı kadrlar ölkəni niyə tərk edirlər?**

| Avropa | | Amerika |
|---|---|---|
| 7% | 1. Bilmirəm | 2 % |
| 2% | 2. Başqa | 3% |
| 8% | 3. Xaricdə daha yaxşıdır | 5% |
| 6% | 4. İş üçün normal şərait yoxdur | 7% |
| 14% | 5. Öz ideyalarını realizə etmək mümkün deyil | 15% |
| 16% | 6. Tələblərin yüksək olması | 16% |
| 57% | 7. Aşağı əmək haqqı | 60% |

**III – Siz bu cürə alimləri tənqid edirsinizmi?**

4% – Cavab verməkdə çətinlik çəkirəm

20% – Tənqid edirəm
76 % – Tənqid etmirəm.

**IV– Sizin fikrinizcə onlar xaricdə daimi yaşayacaqlar və bu sizi narahat edir?**

1 % – Cavab verməkdə çətinlik çəkirəm
10% – Bəli, narahat edir
89 % – Xeyr, narahat etmir.

**V – Sizcə dövlət zəka axınının qarşısını almaq üçün nə tədbirlər həyata keçirməlidir?**

Statistikadan göründüyü kimi respondentlərin əksər hissəsi zəka axının baş vermə səbəbləri sırasında az əmək haqqının olması, xaricdə iş şəraitinin yüksək olması və s. görürlər. Rəsmi olaraq inkişaf etməkdə olan ölkələr və kasıb dövlətlərdən zəka axını prosesinin baş verməsi altı əsas səbəblə sıx bağlı olduğu göstərilir:

**1. İqtisadi amillər:**

Az əmək haqqı;
Vergilərin çoxluğu;
İqtisadi maraqların reallıqla uzlaşmaması;
Öz övladları üçün yaxşı gələcək qurmaq [121, 135-155].

**2. Siyasi amillər**:

Etnik kimlik ayrılığı;
Siyasi narazılıq;
Partiya təmsilçiliyinin olmasını istəməyən;
İş həyatına siyasi maraqların müdaxilə etməsi [69, 52-63].



**3. Elm və texnoloji siyasətdə yanlışlıqlar:**

Elm və təhsilə qayğısızlıq;
Elmi yeniliklərin və kəşflərin qiymətləndirilməməsi;
Elmi dərəcə almaq istiqamətində çətinliklər;
Texniki avadanlıqların köhnəlməsi;
Elmdə vergilərin güzəştli olmaması və s. [114, 7-16].

**4. Təhsil sistemində nöqsanlar:**

Müəllimlərin gəlirinin digər səbəblərdən az olması;
Proqramsızlıq və təhsil siyasətinin passivliyi;
Milli təhsil strategiyasının mövcudluğu;
Təhsil sistemində dərslik problemi və s. [77, 20-33].

**5. İşsizlik:**

Ali məktəb tələbələrinin ixtisasa uyğun iş tapmaması;
Təhsilli şəxslərin dövlət qayğısından kənarda qalması;
İşə götürülmədə korrupsiyanın olması;
Ali təhsildən kənar biliklər tələb edilməsi.

**6. Xarici ölkələrdə təhsilin və elmi yeniliklərin rəngarəngliyi.**

Xarici ölkələrdə savada qiymət verilməsi;
Yüksək əmək haqqı;
Bir çox ictimai güzəştlər;
Elmi kəşflərin dövlət səviyyəsində dəstəklənməsi;
Xarici dillərdə ədəbiyyat çoxluğu;
Yüksək pensiya şərtləri və s. [124].
Zəka axını prosesinin iki konsepsiyasının olması barədə fikirlər yürüdən tədqiqatçılar onları aşağıdakı ardıcıllıqla göstərirlər:

I. Bilik və təcrübənin paylanması, yaxud dəyişdirilməsi (Brain exchange). Bu konsepsiya zəka miqrasiyasına qoşulan insanları öz əmək və qabiliyyətlərini yeni müəssisə və transmilli korporasiyalardan dəvət alır və paylaşırlar. Bu zaman öz mütəxəssislərini başqasına «icarə»yə verən transmilli korporasiya Brain Drain–zəka axını ilə üzləşməsi olmur.

II. Brain Waste– zəka itkisi konsepsiyası. Bu zaman prosesə məruz qalan dövlət öz intellektual potensialını tamamilə itirməli olur. Nəticədə isə öz düşünən beyinlərini itirən dövlət sosial-iqtisadi sahədə geriləməyə məruz qalmaqla yanaşı həyat səviyyəsinin aşağı düşməsi ilə üz-üzə qalır [111, 315-317].

Fikrimcə, birinci halda dövlət zəka axını prosesi zamanı çox zaman udmuş olur. Mübadilə prosesi sayəsində hər hansı bir inkişaf etmiş trans-milli şirkətin təcrübəsini sonradan öz daxilində tətbiq etməklə, iqtisadi-texniki sahədə yeniliklər edə bilər. Təhsil və elmi inteqrasiya bir çox hallarda dövlətdaxili inkişafa təkan verə bilər. Xüsusən, magistr, doktor və digər təhsil pillələrində təhsil alan gənclərin vətənə döndükdən sonra dərhal işlə təmin edilməsində özü bir başa maraqlı olan ölkə onları diqqət mərkəzində saxlayan dövlət Brain Waste - zəka itkisi ilə üzləşmir.

Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə 2001-2008-cı illər arası dünyada 200 milyon mühacir var. Statistikaya əsaslansaq hazırda Azərbaycan Respublikasında 1(bir), Avropa qitələrində 30, Afrikada 20, ABŞ-da 17, Mərkəzi və Cənubi Amerikada 17, Yaxın Şərqdə 9 və Asiya qitəsində isə 7 milyon mühacir yaşayır və 169 milyonun 40%-ni intellektual insanlar təşkil edir [104, 24-38].

XXI əsrdən başlayaraq düşünən beyinlərin zəka axınını qəbul edən ölkələr içərisində birinciliyi ABŞ və Qərbi Avropa ölkələri saxlayır. Dünya üzrə 79%–intellektual insan bu ölkələrdə yaşamaqla vətəndaşlıq əldə edib və öz beyinlərini yüksək əmək haqqına «satırlar». Bu zaman onların assimilyasiya olunmasında zəka axınını qəbul edən dövlət maraqlı olur və bunun müqabilində onlara davamlı karyera, sosial durum, övladları üçün



vətənlərində olmayan təhsil şərtləri, daimi yaşayış məskəni və s. güzəştlər verir. Bu güzəştlər nəticəsində düşünən beyinlər əldə etdikləri yüksək gəlirlərlə öz normal həyat tərzini təmin etməklə yanaşı vətənlərində qalan qohum–əqrabaları üçün də maliyyə yardımı göstərirlər. Son statistik hesablamalara əsaslansaq ən çox *zəka axını olan dövlətlərin əldə etdikləri maliyyə gəliri 2005-ci* ildə 41, 3 milyard dollar olmuşdur. Bu rəqəm isə günü-gündən artmaqdadır. Zəka axını prosesini tədqiq edən C. Coppel və C. Dumont öz tədqiqatlarında dövlətlərin intellektual miqrasiya sayəsində «varlanan» dövlətlərin gəlirlərini digər iqtisadi amillərlə eyniləşdirilməklə aşağıdakıları göstərmişlər: [113, 16]

| | **Zəka axınından gələn gəlir (ABŞ dolları)** | **Ticarət və iqtisadiyyatdan gələn gəlir (–ABŞ dolları)** |
|---|---|---|
| Albaniya | 452 | 153, 5 |
| Banqladeş | 1, 600 | 27, 3 |
| Nikaraqua | 200 | 26, 9 |
| Hindistan | 9, 454 | 20, 7 |
| Suriya | 2, 011 | 20, 2 |
| Yamayka | 659 | 19, 5 |
| Yunanıstan | 2, 86 | 18, 9 |
| Dominikan Respublikası | 1, 326 | 17, 7 |
| Şri Lanka | 999 | 17, 7 |
| Pakistan | 1, 738 | 17, 1 |
| Ekvador | 840 | 16, 8 |
| Nigeriya | 1, 574 | 16, 0 |
| Qvatemala | 457 | 13, 1 |
| Türkiyə | 5, 356 | 9, 8 |
| Honduras | 220 | 9, 2 |
| Tunis | 718 | 8, 5 |
| Peru | 400 | 5, 3 |
| Meksika | 5, 627 | 4, 3 |
| Misir | 3, 370 | 26, 9 |
| Cəmi: | 41, 359 | 12, 1 |

Bu siyahıdan göründüyü kimi, dövlətlər «zəka axını» prosesinə özləri şərait yaradırlar. Son zamanlarda isə Türkiyə, Misir, Yunanıstan, Meksika kimi dövlətlər düşünən beyinlərin ölkədən köçməsinin qarşısını almaq istiqamətində strategiyalar hazırlayırlar. Məsələn Türkiyədə son dövrlərdə aparılan işlərin müsbət nəticəsi olaraq Almaniya, Böyük Britaniya, Fransa kimi inkişaf etmiş dövlətlərdə ölkə daxilində iş qurmaq üçün geniş imkanlar yaratdığını göstərə bilərik. Bu gün Türkiyədə turizm, tekstil və restoran kimi biznes sahələrinin sahibləri Avropada öz zəkaları ilə kapital qazanan şəxslərdir. Çin, Yaponiya, Avstraliya, Rusiyanın da artıq belə addımlar atmaqdadırlar. Bu cür addımlar içərisində dəqiq elmlər, biologiya, hüquq və iqtisadiyyat sahəsində təhsil alan gənclərin ali təhsildən sonra təyinatla dövlət işlərinə dəvət edilməsi, onların ev, maşın, biznes qurmaq planlarla dəstək verilməsini xüsusi olaraq qeyd edə bilərik.

Avropa birliyinin xüsusi komissiyasının əmək miqrasiyasını öyrənən qrupu zəka axınına ehtiyac olan dövlətlərin iri transmilli şirkətlərin işçiləri üçün elan etdiyi vakansiyalara görə tələb edilən sahələri aşağıdakı ardıcıllıqla sıralayır:

| 2000 Gedən | % ehtiyac | Sahə | 2008 gedən | % ehtiyac olan |
|---|---|---|---|---|
| 25, 5 | 25, 9 | Memar | 33, 1 | 32, 4 |
| 43, 6 | 32, 1 | İnşaat mühəndisi | 50, 2 | 45, 9 |
| 45, 7 | 45, 9 | Sənaye mühəndisi | 52, 2 | 56, 3 |
| 11, 9 | 6, 2 | Elektrik mühəndisi | 17, 6 | 18, 8 |
| 32, 2 | 12, 4 | Kompüter mühəndisi | 39, 2 | 43, 0 |
| 5, 9 | 30, 9 | Kimya mütəxəssisi | 12, 6 | 16, 6 |
| 18, 8 | 7, 3 | Neft və qaz mühəndisi | 20, 5 | 21, 5 |
| 8, 9 | 17, 8 | Metallurq | 10, 6 | 9, 8 |
| 4, 4 | 7, 4 | Geoloq və geodeziya mühəndisi | 5, 9 | 3, 8 |
| 1, 8 | 2, 9 | Geofizik | 17, 5 | 13, 3 |
| 6, 6 | 10, 0 | Bioloq | 8, 3 | 8, 4 |
| 3, 9 | 5, 5 | Meşə və rəng təsərrüfatı mütəxəssisi | 9, 1 | 9, 5 |
| 13, 5 | 15, 2 | Digər mühəndislər | 26, 5 | 21, 8 |
| 64, 4 | 38, 3 | | 73, 0 | 49, 1 |



Buradan göründüyü kimi zəka axınına qoşulan savadlı kadrların sahəsi əsasən texniki-dəqiq elmlərə aid olanlardı. Belə problemlərlə üzləşən dövlətlər artıq ehtiyac duyulan elm-təhsil sahələrinə diqqət yetirməyin ciddi olduğunu düşünərək tədbirlər planı hazırlayırlar. Məlumdur, ki, qloballaşma dövrünün əsas tələblərindən biri də təhsil müəssisələrində yüksək ixtisaslı kadrların hazırlanmasına olan ehtiyacdır. Dünyanın aparıcı təhsil proqramları inkişaf etməkdə olan ölkələrdən zəka axınına qoşulmaq istəyən gənc kadrları müxtəlif yollarla öz ölkələrinə dəvət edirlər. İspaniyanın İE SE, Fransanın İNSEAD, İngiltərənin LBS, Avropanın EAİE, Amerikanın MASKİ, SOROS, FULBRAİT və digər proqramları Avropa, Asiya, Afrika, Avstraliya və Latın Amerikası ölkələrinin ali təhsil və elmi müəssisələrində nümayəndəliklər yaradaraq, müxtəlif qrant və tələbə mübadiləsi təklifləri irəli sürürlər. Son məlumatlara əsasən inkişaf etməkdə olan və üçüncü dünya dövlətlərinin bəzilərində belə proqramlar mövcud olmadığına baxmayaraq, gənclər İnternet vasitəsi onların «tələsinə» düşərək diplomların vətənlərində rəsmən tanınmayacağını bildiklərinə baxmayaraq xarici ölkələrə «səadət» arxasınca gedirlər. [128, 20-24].

Birləşmiş Millətlər Təşkilatının tərtib etdiyi statistikaya görə zəka axını nəticəsində ölkəyə dəyən iqtisadi ziyan Y= (R+P+K)N1–(V+E+D)N2 formulu ilə ölçülməlidir. Zəka axını prosesində maraqlı tərəf kimi çıxış edən xarici fondlardan birinin tədqiqatçıları Q. Bumovski və C. Lanorin BMT formuluna aşağıdakı kimi açıqlama verirlər:

R– alim və mütəxəssisin peşəkarlığını artırmaq və təhsilini gücləndirmək, tərbiyəsi və təlimi üçün çəkilən xərc.

P – itirilmiş mənfəət

Kn– təxmini itki (elmi–texniki potensialın azalması, elmi kadrların hazırlanmasında keyfiyyətin itməsi)

N1 – Geri qayıtmayan mütəxəssis və alimlərin sayı

V – zəka axınına qoşulan, lakin sonradan vətənə geri dönən düşünən beyinlərin sayəsində əldə edilən mənfəət.

E – keçmiş mühacirlərin ölkənin iqtisadi-elmi həyatına ikinci dəfə cəlb edilməsindən sonra dövlətin qazandığı mənfəət.

D–Düşülən beyinlərin qazancları, pul köçürmələri, elmi-texniki kəşfləri, dövlət büdcəsinə verdikləri xeyir, qurduqları biznes, aldıqları qonorar və s. dövlətin əldə etdiyi mənfəət.

N2 – Geri dönən mütəxəssis və alimlərin sayı [66, 230-280].

Dünyanın elmi ədəbiyyatlarında zəka axını anlayışının izahını verən, bu barədə müxtəlif fikirlər irəli sürən tədqiqatçılar prosesin baş vermə səbəblərini aşağıdakı kimi göstərirlər:

Kasıb və inkişaf etmiş ölkələr arasındakı qeyri-bərabərlik;

Dövlətlər arasında demoqrafik disbalans. Əhalinin sayında, inkişaf artımı və əmək resurslarının göstəricilərindəki fərqlər;

İqtisadi inkişaf və artımda qeyri-bərabərlik;

Təhlükəsizlik məqsədləri–mühacirlərin iqtisadi sosial, etnik, dini, siyasi və mədəni təhlükəsizliklərlə bağlı ehtiyacları;

Ailə strategiyası–fərqli dövlətlərin vətəndaşları arasında qarışıq nikahın mövcud olması və insanların bu cür ailə qurmağa meylli olmaları;

Miqrasiya şəbəkəsinin qeyri–mövcudluğu–idxalçı dövlətlə ixrac edən dövlət arasında informasiya mübadilə şəbəkəsinin qurulması;

Təşkilatı strukturun olmaması– işçi qüvvəsi və zəka axını prosesinin düzgün strategiyasının qurulması və işlərin kortəbii aparılması [131, 80-93].

Bir sıra tədqiqatçılar zəka axınına qoşulan insanların diaspor hesab edilməsi fikri ilə razılaşmırlar. Onlar bunu zəkaların məskunlaşdıqları ərazilərin ayrılmaz tərkib hissəsi olması ilə əlaqələndirərək bu cür şəxslərin artıq «doğulduğu yerə» deyil, «doğduğu yerə» tabe olduqlarını bildirirlər.

Tanınmış tədqiqatçı Bhavati Jaqdişi, XX əsrin 60-ci illlərində "zəka axını" prosesinin intensiv şəkil aldığını göstərərək inkişaf etmiş ölkələrə diaspor modelindən istifadə etməyi təklif etmişdir. Makir Desan, Devet Kapur və Con Makkeylin bunun üçün həmin dövlətlərə ikili vətəndaşlıq hüququndan bəhrələnməyi məsləhət görürlər. Artıq dünyanın 30 ölkəsində Bhavati modelinə müraciət



edibdir. Meksika və Hindistan kimi dövlətlər xaricdə «səadət» axtarmağa gedən soydaşları üçün ölkədaxilində çoxsaylı güzəştlər tətbiq edirlər[111, 289].

Bu dövlətlər ilk dəfə olaraq diaspor nümayəndəsinə öz vətənlərində xüsusi mülkiyyət hüququ tətbiq etməsə də yerli seçicilərdə iştirak etmək hüququ vermişlər. Çin öz ölkəsində ikili vətəndaşlıq hüququnu tətbiq etməsə də, diaspora Çinin iqtisadiyyatına kapital qoyması üçün vergilərdə xüsusi güzəştlər vermişdir.

Zəka axını eyni zamanda əmək miqrasiyası kimi də tanınır. Əmək mühacirləri isə çox zaman könüllü olaraq bu prosesə qoşulurlar. Lakin miqrasiya prosesinin ən aktual tərəfi də mövcuddur ki, buna insan alveri deyillər. BMT-nin 2000-ci il hesabatına uyğun olaraq qeyd etmək olar ki, «Traffikinq»– insan alveri adlanan proses «traffukor»lar– insan alverçiləri tərəfindən həyata keçirilir və onlar ucuz işçi qüvvələrini iri şirkətlərə, firmalara və ən acısı isə pozğun həyat sürməyə vadar edilən xüsusi yerlərə satırlar. Statistikaya əsaslanaraq qeyd etmək olar ki, bunlar içərisində 82%– insan natamam ali təhsilli olanlarıdır. Qalan 18%-i isə yüksək intellekt sahibi olan şəxslərdir ki, onların zəkası sadəcə şəxsi şirkətlərin inkişaf etməsinə yönəlir və bundan nə qəbul edən dövlət, nə də ixrac edən dövlət udur [60, 38].

Bunun üçün beynəlxalq qanunvericilik dövlət daxili qanunları və s. konvensiyalar mövcuddur ki, insanların əməklərindən sui-istifadə edilməsin. Əmək miqrasiyasının iştirakçılarının hüquqi maarifləndirilməsi, köç etdikləri dövlətlərdə aldanmaması üçün beynəlxalq təşkilatlar müxtəlif tədbirlər həyata keçirirlər. BMT, ATƏT, Avropa Şurası və digər nüfuzlu təşkilatlar daxili qanunvericiliyi və xüsusi komissiyaları əmək miqrantlarının hüquqlarını qorumaqla səlahiyyətləndirilib. Xüsusilə, bütün fəhlə mühacirlərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında beynəlxalq konvensiyanı qeyd etmək olar: Bu konvensiyanın 64-cü maddəsində yalnız iş qüvvəsində tələbata və əmək vasitələrinə deyil, lakin müvafiq *fəhlə mühacirlərin və onların ailə üzvlərinin sosial, iqtisadi,*

mədəni və digər ehtiyaclarına, habelə müvafiq cəmiyyətlər üçün belə mühacirətin nəticələrinə xüsusi diqqət yetirilməsi; 65-ci maddəsində isə iştirakçı dövlətlərə fəhlələrin və onların ailə üzvlərinin beynəlxalq mühacirəti ilə bağlı məsələlərlə məşğul olan müvafiq xidmətlərin yaradılması göstərilir:

Belə mühacirətə aid siyasətlərin müəyyən edilməsi və həyata keçirilməsi;

Belə mühacirətə cəlb edilmiş digər iştirakçı dövlətlərin səlahiyyətli orqanları ilə məlumat mübadiləsi, məsləhətləşmə və əməkdaşlıq;

Mühacirətə və əməyə dair siyasətlər, qanunlar və qaydalar, digər dövlətlər ilə bağlanmış mühacirətə aid sazişlər və digər müvafiq məsələlər barədə müvafiq məlumatların, xüsusilə sahibkarlar, fəhlələrə və onların təşkilatlarına verilməsi;

Zəruri icazə və rəsmiyyətlə, həmçinin yola düşmə, gediş, gəlmə, qalma, ödənişli fəaliyyət, çıxış və ya qayıtma ilə bağlı, habelə dövlətində iş və yaşama şərtləri və gömrük rüsumları, pul vahidi, vergilər və digər müvafiq qanunlar və qaydalar barədə məlumatın verilməsi və bununla əlaqədar yardımın göstərilməsi;

İştirakçı dövlətlər fəhlə mühacirlər və onların ailə üzvlərinin sosial, mədəni və digər tələblərinin ödənilməsi üçün zəruri məsləhət və digər xidmətləri göstərməlidir [14].

Qanunvericiliklə təmin olunduqdan sonra zəka axını prosesinin həyata keçirilməsində maraqlı olan şirkətlər təsis olunmağa başladı. İlk belə şirkətlərdən biri 1960-cı ildə Y. Duqlas tərəfindən yaradılan «Corporaited inkorparaited» idi. Mister «Brain Drain» ləqəbin daşıyan Y. Duqlas təsis etdiyi şirkət vasitəsilə 1960-64-cü illərdə 25 min zəkalı insanın ABŞ-a mühacirətini təşkil etmişdi. Düşünən beyinlər «oğrusu»–olan Duqlas Amerika üçün bu prosesi həyata keçirməsi üçün böyük strategiya hazırlamışdı. Bu gün də ABŞ-ın iri transmilli şirkətləri onların inkişafında böyük dəstək olan zəkaların işə götürülməsində Duqlasa minnətdarlıq edirlər. Duqlasın müəllifi olduğu zəka «oğurluğu» strategiyası bu gün aşağıdakı ardıcıl sistem kimi mövcuddur:



ABŞ-dan kənarda fəaliyyət göstərən şirkət və korporasiyalarada öz zəkası və qabiliyyəti ilə seçilən kadrları əsas mərkəzə göndərilməsini təşkil etmək;

Müxtəlif (elm, təhsil, iqtisadi, biznes, hüquqi) şirkətlər vasitəsilə düşünən beyinlərin ələ alınmasını;

Konfrans, seminar, elmi görüş və digər bu kimi səpgili tədbirlərə pulsuz olaraq gənc kadrlar dəvət etmək, onların hazırladıqları esse, referat və məqalələri incələmək, seçilənləri öz ölkələrinə işləməyə dəvət etmək;

Qrant ayrılmaqla xaricdə zəkalı gəncləri pulsuz təhsil almağa cəlb etmək və sonradan onu işlə təmin etmək;

İnternet, qəzet, radio, TV və s. informasiya texnologiyaları vasitəsilə ABŞ-da işə dəvət etmək və s. [107, 57-66]

Bu sistemdən göründüyü kimi zəkaların «oğurlanması» inkişaf edərək dünyada iqtisadi, hərbi, sosial, elmi cəhətdən güclü olmaq istəyən dövlətlər üçün olduqca zəruridir. Tarixə nəzər salsaq güclü dövlətlər arasında baş verən işğalçı müharibələr zamanı qalib tərəf daima əlinə keçirdiyi ərazinin zəkalı insanlarını əsir alaraq öz ölkəsinə göndərirdi. Teymurləngin, Xarəzmşah Cəlaləddinin və digər hökmdarların belə «siyasəti» sayəsində minlərlə düşünən beyin, sənətkarlar öz doğma yurd-yuvalarından didərgin düşərək yad məmləkətlərdə mühacir həyatı yaşamalı olublar.

Xüsusilə, zəkalı insanların «hərbi qarşıdurmalar zamanı» oğurlanması özünü II Dünya müharibəsi zamanı aşkar göstərdi. II Dünya müharibəsinin müttəfiqlər tərəfindən qalib gəlməsinin daha bir səbəbi aşkara çıxmışdır. Məlum olmuşdur ki, ABŞ-ın kəşfiyyat orqanları Hitler Almaniyasından zəkalı «şəxsləri oğurlamaq» üçün məxfi qruplar yaratmış, buna görə də faşist Almaniyası yeni ölümcül silahlar ixtira edilməsindən məhrum olunmuşdur.

ABŞ-ın belə xüsusi qruplarından biri olan «ALSOS»un əsas məqsədi Almaniyada yaşayan və müxtəlif elmlər üzrə yüksək ixtisaslı mütəxəssislərin «oğurlanaraq» Amerikaya mühacir etməsinə şərait yaratmaq idi. İlk bir il içərisində dəqiq elmlər və

texnika sahəsində çalışan və təhsil alan mindən çox alim Almaniyadan gizli yolla çıxarılaraq ABŞ-ın müxtəlif şəhərlərində yerləşdirilmiş, yaşayış şəraiti və işlə təmin edilmişdir.

Bioloji silah, paketqayırma, yanacaq əldə edilməsi sahəsində ciddi tədqiqatları olan alimlər «ALSOS» xüsusi missiyası vasitəsilə ələ alınaraq Amerikanın güclənməsinə cəlb olunmuşdur. Bu istiqamətdə mütəxəssis olan kadrların «oğurlanması»– missiyanın məxfi qrif altında saxlanılan hesabatları vacib şərtlərdən idi.

«ALSOS» qrupunun agenti, Hitler Almaniyanın paket mərkəzinin baş mühəndisi Vernar fon Brounun hazırladığı siyahı üzrə II Dünya müharibəsi illərində 4–5 min arası savadlı kadr ABŞ-da işlə təmin olunmuşdu [107, 22-23].

Amerika ordusunun generalı «ALSOS» missiyasının rəhbərlərindən biri olmuş L. Qrovsın 1933-cü ildə gördüyü işlərlə bağlı yazdığı xatirələrdə zəkaların ABŞ-xüsusi xidmət orqanları tərəfindən necə «oğurlanmasını»qeyd edir. O, Hitler Almaniyasının ən zəkalı insanlarından biri sayılan, dünya şöhrətli fizik Berner Reyzenberqin ələ keçirilməsini Amerikanın qələbə çalmasının başlıca səbəblərindən biri hesab edirdi. [97, 36-63].

Qloballaşma prosesi gücləndikcə məlum olur ki, bütün dünya üzrə elm-təhsilin keyfiyyəti inkişafdan geri qalır. Amerikanın ən nüfuzlu ali və elmi müəssisələri savadlı kadr qıtlığı ilə üzləşməli olublar. Sənaye, iqtisadiyyat texnika və s. sahələrdə tanınan şirkətlər işçiləri arasında elmi potensialı güclü olan gəncləri görməkdən ötrü külli miqdarda vəsait sərf edirlər, tədqiqat mərkəzləri, elmi laboratoriyalar bir-birinin ardınca iflasa uğramaqdadır. Dünyanın bir sıra tanınmış şirkətləri novatorçu kadrların olmaması səbəbindən bağlandığını elan ediblər. Şirkətlər tam iflasa uğramamaq naminə birləşir, yaxud öz səhmlərini ucuz qiymətə birjalara çıxartmağa məcbur olurlar [130, 80-93].

2000-ci ildən etibarən ABŞ «zəka axını» qəbul edən dövlətlər içərisində birinciliyi ələ alır. XX əsrin 60-cı illərdə ABŞ-a «zəka» verən əsas «donorlar» Kanada və Qərbi Avropa dövlətləri idisə



(99%), 1990-cı illərdən başlayaraq, Latın Amerikası, Rusiya, MDB dövlətləri Amerikaya «zəka» ixrac edən dövlətlər oldu. Bu gün ABŞ-da düşünən beyinlərin 85%-i məhz bu ölkələrdən olanlardır.

Birləşmiş Ştatlara mühacirət edən alim və tədqiqatçıların sayı hər il artır. 1999-cu ildə əcnəbilər ABŞ-da çalışan alim və mühəndislərin 15 faizini təşkil edirdilərsə, 2003-cü ildə onların sayı 22, 5 faizə çatıb. ABŞ Milli Elm Fondunun apardığı araşdırmalar zamanı bəlli olub ki, sözügedən təmayül bundan sonra da güclənəcək. Belə ki, 1983-cü ildən bəri ABŞ universitetlərində elm və istehsalat üçün kadrlar hazırlayan texniki, riyaziyyat və digər fakültələrdəki əcnəbi tələbələrin sayı 19 faizdən 27 faizə çatıb. Birləşmiş Ştatlardakı aspirantlara gəldikdə isə, onların 32 faizi əcnəbilərdir.

Bu zaman kompüter elmləri, riyaziyyat və kənd təsərrüfatı sahəsində elmlər doktoru almış şəxslərin 43, faizi mühəndis elmləri sahəsində isə 55 faizi əcnəbilərdir.

Ölkəsindən xaricdə təhsil almaq qərarına gələn tələbələrin 40 faizi hazırda ABŞ universitetlərində təhsil alırlar. ABŞ hər il 65 min alim və mühəndis mühacirət edir. Onlar üçün «H–İB» tipli xüsusi viza da mövcuddur [124].

Bu məqsədlə Amerika konqresi 115 min xüsusi vizanın illik sayının 195 minə qaldırmaq üçün 2002-ci ildə qərar qəbul edib. ABŞ –dan başqa «zəkaları» öz ölkəsində görmək istəyən dövlətlər içərisində ön yerlərdən birini də Kanada tutur. Almaniya informasiya texnologiyaları genetik tədqiqatlar üzrə mütəxəssis sayılan şəxslər üçün «Green Card»–sistemini daha da fəallaşdırmışdır. Bunun nəticəsində 2001-ci ildə 10 min düşünən beyini qeyd edilən istiqamət üzrə Almaniyada vətəndaşlıq alıbdır.

İnkişaf etmiş dövlətlər siyahısına daxil olan Sinqapur və Malayziya da öz qapılarına «zəka axını» üçün açmışdır. Çin bu məqsədlə bir sıra güzəştlərin dövlət səviyyəsində verilməsində maraqlı olduğunu bəyan etmiş, Yaponiya isə 2001-ci ildə 222 min xarici mütəxəssisi öz ölkəsinin vətəndaşı edibdir.

2001-ci ildən başlayaraq dövlətlərin zəkaları öz ölkəsinə cəlb etməsində apardıqları siyasət bir sıra sahələrdə xüsusən tibb sahəsində problemlər yaratdı. Hazırda dünya da tibb «personalı qıtlığı» probleminin aradan qaldırılması üçün daha 4 milyon həkimə ehtiyac vardır.

Milli və dövlətlərarası siyasət miqrasiya prosesləri ilə sıx əlaqələndirilməzsə, qlobal dünyada sosial inteqrasiya bir məqsəd kimi əlçatmaz olaraq qalacaq. Mühacirlərin əsas rol oynadığı müasir cəmiyyətimizlə bağlı müəyyən gerçəkliklər bütün səviyyələrdə əlaqəli miqrasiya siyasətinin tətbiqini zəruri edir. Bu ehtiyac BMqT-yə üzv olan dövlətlər tərəfindən prioritet kimi müəyyənləşdirilib. Miqrasiyanın ticarət, əmək, təhlükəsizlik, səhiyyə, sosial təminat, humanitar yardım kimi bir çox sahələrlə kəsişməsinə baxmayaraq, bu sahələrdən birinə zərər vurmadan digərinin siyasətini təmin edəcək siyasi əlaqələndirmə əksər hallarda ya yoxdur, ya da nəzərə çarpmayan səviyyədədir. Bu əlaqələndirmə və qarşılıqlı əlaqə nəinki milli, hətta regional və beynəlxalq səviyyələrdə də mövcud deyil.

Milli və qlobal səviyyədə planlaşdırılan siyasətə yardımçı faktor kimi əlavə olunan miqrasiya siyasəti ticarət, səhiyyə, təhlükəsizlik, insan hüquqları və inkişaf da daxil olmaqla bütün sahələrdə ciddi nəzərə alınmalıdır [119].

Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə zəka axını prosesi özünü Asiya və Afrika ölkələrində daha qabarıq göstərir. İran (125%), Cənubi Koreya 15%, Filippin 10%, Pakistan 7%, Çin 3%, Hindistan 2, 7%, Cənubi Afrika 8%, Misir 7, 5 % və Qana 25 % -lə MBF-nin hesabatında ön yerlərdə durur. Bu faizlər sırf elmə aid olan insanların göstəricisidir. Meksika Kort adaları və Mərkəzi Amerika ölkələrində təhsilin səviyyəsi aşağı olduğu üçün onlar içərisində zəka axını prosesi az faiz göstəricilərilə aşağı yerdə dururlar, lakin bu ölkələrdən olan mühacirlər ABŞ və digər inkişaf etmiş dövlətlərdə ucuz işçi qüvvəsi kimi çalışırlar.

Bu hesabatda bir maraqlı məqam onların nə zamansa Vətənə dönmələrilə bağlıdır. Aparılan araşdırmalara görə yalnız 13%-zəkaya sahib insanlar özlərinə normal şərait yaratdıqdan sonra doğulduğu ərazilərə qayıtmaq fikrindədirlər. [110, 96-130].



Asiya qitəsindən olan düşünən beyinlər ABŞ, Kanada və Qərbi Avropa ölkəsində informasiya-texnologiyalar və digər sahələrdə daha çox uğur əldə edən miqrantlardan sayılırlar. 1990-cı ilin hesabatlarına əsaslanaraq texniki elmlər üzrə doktorluq elmi dərəcəsi alan alimlər əsasən Asiya qitəsinin sakinləridir və onlar 62%-lə liderliyi qoruyub saxlayıblar. Analoji hadisələr riyaziyyat, iqtisadiyyat sahəsində alimlik dərəcəsi əldə edənlər xarici ölkələrin vətəndaşlarıdır ki, onların faiz göstəriciləri 52-dir.

Belə mütəxəssislərin əksəriyyəti Hindistan, Çin və Cənubi Kareyadan mühacir edənlərdir. Tək Hindistan özü ildə 25 min mühəndis «ixrac» edir. Amerika və Avropa kompüter sənayesi, istehsalı və işlənməsi hindli zəkaların əlindədir. Tayvan, Seyl Universitetlərinin məzunları bu gün Amerika və Avropa texniki elmlərində liderlik mövqeyindədirlər [122, 44-63].

Zəka axını prosesini araşdıran alimlər müxtəlif proqramlarla vətənlərini tərk edən insanların məskunlaşdıqları ərazilərdə yerli əhali ilə onların sayının müqayisəli təhlilini apanblar. 1990-cı və 2000-ci illərdə tədqiqatçılar 10 il ərzində zəka sahibi olanların say və faiz etibarilə çoxalmasını müşahidə ediblər. Bu aşağıdakı cədvəldə özünü aşkar göstərir [113, 10].

| Ölkə | İnsan sayı | | Cəmi, faiz göstəriciləri | |
|---|---|---|---|---|
| | 1990 | 2000 | 1990 | 2000 |
| ABŞ | 19, 787 | 26, 300 | 7, 9 | 9, 8 |
| Almaniya | 4, 489 | 7, 320 | 7, 3 | 8, 9 |
| Avstraliya | 3, 753 | 3, 908 | 22, 3 | 21, 1 |
| Avstriya | 344 | 737 | 4, 5 | 9, 1 |
| Belçika | 869 | 892 | 8, 8 | 8, 7 |
| Böyük Britaniya | 1, 821 | 2, 207 | 3, 2 | 3, 8 |
| Fransa | 3, 714 | 3, 597 | 6, 6 | 6, 3 |
| Hollandiya | 624 | 662 | 4, 2 | 4, 4 |
| İsveç | 421 | 500 | 5, 0 | 5, 6 |
| İsveçrə | 1, 007 | 1, 348 | 15, 2 | 19, 0 |
| Yaponiya | 941 | 1, 512 | 0, 6 | 1, 2 |
| Kanada | 4, 343 | 4, 971 | 16, 1 | 17, 4 |
| Cəmi: | 42, 113 | 53, 954 | | |

Bu siyahıdan göründüyü kimi inkişaf etmiş ölkələrin işçi qüvvəsini təşkil edən düşünən beyinlər az əmək haqqı almaqla (bu məbləğ onların vətəndə olduqlarından 10 dəfə çoxdur) böyük işlər görürlər.

Öz vətənlərini tərk edib xarici ölkələrə zəka miqrasiyası edən kadrların müəyyən hissəsi onlara lazımi diqqət yetirilmədiyini əsas gətirirlər. Həyatını və ömrünü elmə, təhsilə həsr edən kadrların qayğısına qalmaq hər bir dövlətin əsas strategiyası olmalıdır. Bu gün sadəcə gənclərə müəyyən güzəşt lazımdır ki, onların zəka axını prosesinə qoşulmasının qarşısını almaq mümkün olsun. Dövlətin daxili problemləri savadlı gənclərin seçilməsinə təsir göstərməməlidir. Hər halda onların beyni dövlətin özünün inkişaf etməsində daha vacib və önəmlidir.

İspan mənşəli Amerika tədqiqatçısı Servantes-Tueallas zəka axını prosesinə səbəb olan amillər üzərində hazırladığı hesabatda bunu problem olaraq görür. O, belə hesab edir ki, zəka axınına səbəb bir sıra amillər təsir göstərir. Tədqiqatçının hesabatında bu amillər aşağıdakı kimi qeyd olunur:

Daha yüksək bir həyat səviyyəsində yaşamaq arzusu;

Öz ixtisaslarına uyğun dövlətlərində müvafiq iş tapa bilməmək;

Çalışdıqları sahələri üzrə vətənlərində istənilən səviyyədə dəstək və təqdir ola bilməməsi;

Ölkələrində öz bacarıqlarını inkişaf etdirilməsi şərtlərinin olmaması;

Daha geniş və əhatəli tədqiqat aparılması üçün texniki imkanların məhdudluğu;

Kasıbçılıq [61, 55].

Bu amillərdən birincisi və ikincisi tədqiqatçılar tərəfindən "könüllü mühacir" adlanır. «İqtisadi mühacir» kateqoriyasına daxil olan iki amilin qarşısı alınmayacaq təqdirdə zəka axını prosesi daha da intensivləşəcək. Biz bunu Ukrayna, Bolqarıstan, Çexiya, Slovakiya kimi ölkələrin timsalında görə bilərik. Bu gün Bolqarıstanın elmi potensialı üç dəfə azalıb. Ölkənin tibb sahəsində çalışanların 10%-i, molekulyar biologiya sahəsində



tədqiqat aparanların 36%-i zəka axınına qoşulublar. Slovakiyanın Elmlər Akademiyasının əməkdaşlarının 1/3-i ölkəni tərk edib, Kompüter sahəsində çalışanların tam yarısı xarici ölkələrdə öz zəkaları ilə pul qazanırlar. Çexiya və Rumıniyanın da elmi kadrlarla ciddi problemləri mövcuddur. Bu ölkələrin elmi kadrlarının tən yarısı Qərbi Avropa və ABŞ-da özlərinə «səadət» axtarırlar [122, 37].

Türk tədqiqatçısı prof. Dr. İbrahim Ortüs belə hesab edir ki, Türkiyə dövlətindən zəkaların «oğurlanması» işində ABŞ dövləti maraqlı tərəf kimi çıxış edir. Orta Doğu Texniki Universitet, Boğaziçi və Bilkənd Universitetlərində fəaliyyət göstərən Amerikanın mərkəzləri daxili imtahanları nəzarətdə saxlayırlar. Hər dəfə xüsusi seçilən tələbələr Amerika ali məktəblərinə dəvət alırlar. Bundan qazanan Qərb, itirən isə Türkiyə dövləti olur. Bununla Amerika rəsmən olaraq bütün dünyaya bəyan edir ki, biz pul gücünə istənilən elm sahəsində zəkalı insanları öz ölkəmizə dəvət edib işlətmək iqtidarındayıq [62].

Belə faktlar tələbələrin xarici ölkələrdə oxumasına dəvət edən, lakin sözün əsl mənasında onların zəkalarını oğurlayan təhsil proqramları fəaliyyət dairəsini genişləndirir. Avropanın, bu cür fəaliyyət göstərən proqramlarından daha çox tanınan «Erzamus» (1995-ci ildən «Sokrat» adı alıb), 1987-ci ildən Avropada ümumi zəka bazarı yaratmaq istiqamətində iş aparır. Tələbə mübadiləsi adı altında Avropa ölkələrində elm sahəsində karyera qurması ehtimal olunan gəncləri ələ alaraq öz ölkələrinə dəvət edir və onlara normal iş və yaşayış şərtləri təklif edirlər. [71, 25-31].

ABŞ qloballaşma dövründə zəka axını prosesində də hegemonluğunu qoruyub saxlayıb. Bu gün dünyada bir çox sahələrdə rəqabət aparan ABŞ və Avropa Birliyi arasında elmi kadrların kateqoriyalarında fərqlər mövcuddur. Avropa Birliyində doktorluq dərəcəsi alan düşünən zəkaların sayı ABŞ-dan çoxdur. Gənc tədqiqatçıların sayına görə isə Birləşmiş Ştatlar liderliyini qoruyub saxlamaqdadır. Avropa Birliyində min nəfər işçidən 5, 36%-i alimlərdən ibarətdir. ABŞ-da bu say 8, 66%, Yaponiya da

isə 9, 72% civarındadır. ABŞ-da ali təhsilə əhalinin 37%-i, Avropa Birliyində isə 23%-i maraq göstərir.

Elm və təhsilə ayrılan xərclərə görə də fərqlər özünü aşkar göstərir. 2000-ci ilin statistikasına nəzər salsaq ABŞ-ın elm və texnologiyaya ayırdığı məbləğin 287 milyard avro olduğunu görə bilərik. Avropa Birliyində isə bu məbləğ 121 milyard avrodur. ABŞ-da elmə olan maraq onun gənc kadrların zəkaların «oğurlanmasında» aqressivlik nümayiş etdirməsi ilə müşahidə olunur. Avropa Birliyində isə bu istiqamətdə passivlik özünü göstərir.

Dünya üzrə elmi kadrların yaş fərqi də aşağıdakı kimidir: 40 milyon 222 min elmlə məşğul olanların 10, 6 %-in 29 yaş, 15, 6 %-ni 3—39 yaş, 26, 1%-ni 40-49 yaş və 47, 1%-ni isə 50 yaş fərqi arasındadır. Elmə, təhsilə maraq artanların qloballaşma prosesində zəka axını prosesinə qoşulacağı təqdirdə 2010-cu ildə Asiya və Afrika ölkələrində zəka problemi daha qabarıq büruzə verəcək.

Zəka axını probleminin ən təhlükəli tərəfi düşünən beyinlərə terrorçu təşkilatların da maraq göstərməsidir. Tədqiqatçı qənaətincə, potensial imkana malik, yüksək savad və biliyi olan şəxslərin bir qismi artıq beynəlxalq miqyaslı terror təşkilatlarında çalışırlar. Bu məsələyə Parisdə (2002-ci il 11 iyul), Berlində (2003-cü ilə 9 mart), Vaşinqtonda (2004-cü il 5 fevral) və nəhayət Moskvada (2004-cü il 26 aprel) keçirilən xüsusi xidmət orqanlarının yığıncaqlarında da geniş yer ayrıldı. Çünki bu məsələ rus generalı N. Patruşevin «dünyanı sarsıdan və narahat edən bir məsələdir»–ifadəsilə üst-üstə düşür. Moskva yığıncağında məlum olub ki, xarici ölkələrdə fəaliyyət göstərən narkobiznes mərkəzlərində, məxfi qaydalarla «çirkli bomba»lar hazırlayan ərazilərdə işləyənlərin cərgəsində ən çox erməni fizikləridir. Araşdırmalarımıza görə, bu məsələ– yəni xarici ölkələrə çıxıb gedən alimlərin, tədqiqatçıların axını məsələsi də Azərbaycandan da yan keçməyib. [50].

Bu gün bir çox dövlətlər zəka axını ilə mübarizə aparmaq istiqamətində ciddi tədbirlər planları işləyib hazırlayırlar. Rusiya



ölkədən miqrasiya edən zəkaların sayının artmasından narahat olduğunu elm-təhsil sahəsinə diqqət yetirəcəyini bəyan edib. Malayziya dövləti isə ehtiyacı olan 35 min işçini informasiya texnologiyaları sahəsində ailəli tərk edən kadrların geri qaytarılması üçün planlarını rəsmən açıqlayıb.

İsrail isə zəka axını üçün bütün qapıları açmışdır. 3000 mühəndisi qəbul etməyə hazırlaşan İsrail Intel və IBM şirkətlərinə bu işləri həyata keçirməyi həvalə edib. Beləliklə, qloballaşma dövründə zəka axını problemi ümumbəşəri problem kimi bütün bəşəriyyəti düşündürən bir problemə çevrilərək sosial, iqtisadi siyasi nəticələri bəzi ölkələr üçün fəlakət, bəziləri üçün isə firavanlıq gətirir.

## 1.2. Postsovet məkanında "zəka axını" prosesinin vəziyyəti

XX əsrin sonu XXI əsrin əvvəllərində dünyanın siyasi xəritəsində baş verən cahanşümul hadisə olan Sovetlər Birliyi adlanan imperiyanın süqutu bir çox istiqamətlərdə ciddi problemlərin ortaya çıxmasına şərait yaratdı. İmperiyanın süqutu yeni yaranan müstəqil dövlətlər arasında əvvəllər mövcud olmuş mühacir axının daxili köçmə halından beynəlxalq səviyyədə xarakteri aldı. Mühacirət prosesinin süqutu və sosial tənzimlənməsini nəzarətdə saxlayan bütöv bir sistem çökərək yerini bu gün də problemli və nizamsız halda olan sistemə verdi. Yeni miqrasiya prosesi ilə əmək, zəka axını, qeyri-leqal, treffukun kimi terminləri özündə birləşdirərək ağrılı halda davam etməkdədir. Keçmiş postsovet məkanından «zəka axını» prosesi əsasən aşağıda qeyd edilən ölkə və regionlarda baş verir:

1. ABŞ, Kanada və Avstraliya – Bu ölkələr zəka axını qəbul edərək daha çox əmək haqqı təklif edirlər. 1990-cı illərin məlumatlarına görə onlar keçmiş sovet respublikalarından 900 min zəkalı insanı öz ölkələrində işlə təmin ediblər.

2. Qərbi Avropa– əsasən Avropa Birliyinə daxil olan ölkələr keçmiş SSRİ-dən zəkalı insanlara daxillərində yüksək keyfiyyətli iş və həyat vəd edirlər. 1990-cı ilin statistikasına əsasən onlar 180 min sovet respublikaların vətəndaşlarını qəbul edib.

3. Yaxın Şərq– neft istehsal edən bu ölkələrin tibb, neft emalı, yüngül sənaye sahəsində yeni ixtiralar vəd edən alimləri yüksək əmək haqqı ilə təmin edirlər. Səudiyyə Ərəbistanı, BƏƏ, Bəhreyn, Küveyt və İsrailin 2000-ci ilin rəsmi məlumatlarına görə onlar 300 min zəka sahibinə qapı açıblar.

Müasir dövrdə keçmiş postsovet məkanında baş verən miqrasiya prosesinin ən önəmli tərəfi kimi zəka axını yoxdur. Düşünən beyinlərin axını MDB daxilində və daha kənara kütləvi şəkildə davam etməkdədir. Keçmiş Sovetlər Birliyi daxilində zəka axını problemi o qədər nəzərə çarpacaq halda baş vermirdi. Öz biliklərini artırmaq və Sovet ölkəsində peşəsinə görə uğur əldə etmək istəyənlərin ən yüksək hesab etdikləri paytaxt Moskvada məskunlaşmalı idi. Moskva yenə də zəka axınını daha çox qəbul edən keçmiş postsovet məkanına daxil olan şəhərlər içərisində liderliyini qoruyub saxlamaqdadır. Bu istiqamətdə tədqiqat aparan tanınmış rus tədqiqatçısı Anatoliy Vişnevskiy 1989-2007-ci illərdə Rusiya paytaxtına zəkaların təqdim edən ölkələrin və onların artım faizini aşağıdakı kimi sıralayıb [87, 19-23].

| Ölkə | 1989 | 2007 |
|---|---|---|
| Ukrayna | 80, 6 | 86, 9 |
| Belorusiya | 70, 8 | 78, 9 |
| Moldova | 57, 6 | 70, 2 |
| Azərbaycan | 61, 6 | 88, 2 |
| Ermənistan | 24, 3 | 80, 1 |
| Gürcüstan | 65, 8 | 94, 0 |
| Qazaxıstan | 73, 5 | 93, 1 |
| Qırğızıstan | 55, 2 | 84, 1 |
| Tacikistan | 55, 0 | 84, 1 |
| Türkmənistan | 33, 8 | 69, 9 |
| Özbəkistan | 30, 2 | 78, 1 |



Bu ardıcıllıqdan göründüyü kimi Rusiya MDB məkanında zəka axınını daha çox qəbul edən ölkələrdən biridir. Lakin onun özü qəbul etdiyi qədər xarici ölkələrə zəka "ixrac" edir. Xarici ölkələrə ixrac etdiyi zəka axınından sovet ölkələrindən daha çox əziyyət çəkən dövlətlər içərisində Rusiya Federasiyası Moldova, Litva və digər ölkələrlə yanaşı Azərbaycan da xüsusi yerlərdən birini tutur. Dissertasiya işində çalışacağıq ki, ən çox zəka «itirən» dövlətlərin təcrübəsinə nəzər salaq.

Rusiya Federasiyası – Bu ölkədə zəka axını məsələsi 1991-ci illərdə daha ciddi olaraq maraq dairəsinə daxil olub. Rusiyadan prosesin başlanma tarixi isə XVII-XVIII əsrlərdən götürülməsinə baxmayaraq, tədqiqatçılar əsas dövr kimi 3 dalğanı mənbə kimi qiymətləndirirlər.

1. 1918-20-ci illər: Bu dövr «Ağ mühacirlər»in miqrasiyası adlanır. Hərbiçi, biznesmen, sadə insanlarla yanaşı düşünən zəkaların Rusiyanı tərk edərək bolşevik hökumətindən daha uzaq yerlərdə yaşamağa üstünlük verməsi yeni hakimiyyətin sosial bərabərlik elan etməsi idi. Aristokrat zümrəsinə daxil olan çoxsaylı zəka sahibləri K. Marks, F. Engels və V. Lenin tərəfindən ideallaşdırılan kommunizm və sosializm sistemlərinin uyğunsuzluğunu görürdülər. Onlar bilirdilər ki, zaman keçdikdən sonra sosial bərabərlikdən istifadə edərək bolşeviklər onları qələm əvəzinə balta tutmağa şərait məcbur edəcəklər. Bu isə uzun illər ömrünü elmə və təhsilə həsr etmiş insanların birbaşa ölümünə əmr verilməsi demək idi. Buna görə onlar Fransa, ABŞ, İngiltərə, Almaniya kimi dövlətlərə mühacir edərək öz zəkalarını bu dövlətlərin inkişafına töhfə verməyi vətəndə qalıb ölməkdən və unudulmaqdan üstün tuturdular.

2. 1970–90-cı illər – Bu dövrdə artıq «yenidənqurma» istiqamətində atılan addımların ilk pöhrələri görünürdü və bundan yararlanmaq istəyən keçmiş dissident-ziyalılar Sibirin soyuq, Orta Asiyanın isə qızmar ərazilərində itirdikləri enerjiləri qüvvələri və ən əsası elmlərini bərpa etmək üçün ABŞ başda olmaqla inkişaf etmiş dövlətləri üstün tuturdular. 1987-ci ilin məlumatına əsasən 1970-89-cu illərarası Rusiyalı zəkaların

üstünlük verdiyi dövlətlərdən Almaniya (50%), İsrail (25%), ABŞ (10%), Yunanıstan, Kanada, Finlandiya (3%) və 3% -də qalan idi.

3. 1991-ci ildən hazırda davam edən müddətdə Rusiyanı tərk edən düşünən zəkaların əksəriyyəti Kanada– 60%, ABŞ– 40%, İsrail–30% və digər ölkəyə getməyə üstünlük verirlər. Almaniya və İsrailə 100 min zəka mühacir edib ki, bunu rusiyalı mütəxəssis İ. Uşnaklov böyük itki hesab edir. Uşnakovun apardığı statistikaya əsasən bu itki Rusiyanın tanınmış ali və elmi müəssisələrə aid olduğundan, onun əldə etdiyi nəticə daha acınacaqlıdır. N. N. Semyonov adına Fizika-Texnika İnstitutunun 172, A. F. Noffe adına Fizika-Texnika İnstitutunun 83 nəfəri, Rusiya Elmlər Akademiyasının lazer tədqiqatçıları laboratoriyasının demək olar ki, 90%-i ölkəni tərk edib xarici ölkələrdə məskunlaşıblar. Hazırda Rusiyada prosesin qarşısının alınmağa cəhd edilsə də, zəka axını bu ölkə üçün acınacaqlı halda davam edir [64, 29-43].

Rus müəlliflərinin verdiyi məlumatlara əsasən 3– dövr zəka axını zamanı bir il ərzində ölkənin müdafiə sistemlərinin laboratoriya və elmi-tədqiqat mərkəzlərindən 90 min düşünən beyni xaricə işləməyə getmişdir.

1991-1996-cı illər arası Ümumrusiya Elmi-Tədqiqat İnstitutunun Eksperimental Fizika (Arzamos-16) şöbəsinin 5 minə yaxın əməkdaşı zəka axınının iştirakçıları olublar. Qeyd edək ki, bu şöbə Rusiyada nüvə tədqiqatları üzrə mütəxəssis hesab olunan əsas mərkəzlərdən biri sayılır. «İmpuls» – Qeyri-hökumət təşkilatının ətrafında topladığı 1800 alim və mühəndisi «səadət» ardınca xaricə köçmüşlər. Bu QHT Rusiyada hərbi-müdafiə məqsədləri üçün elektron–optik, müşahidə və digər elektron sistemlər üzrə püxtələşmiş təşkilat olmaqla təhlükəsizlik nəzarətində idi. Bioloji silahlar hazırlanması istiqamətində işlər aparan Rusiya Virusologiya və biotexnologiya mərkəzi «Vektor»un 3. 500 işçisi hazırda xarici ölkələrdə öz zəkalarını yüksək qiymətə «satırlar» [80].



Bu gün Rusiya kütləvi informasiya vasitələrində zəka axını ilə bağlı çoxsaylı fikirlər səslənir. Belə fikirlər içərisində diqqəti çəkən ikisi Rusiyada problemin ciddi olduğunu aşkara çıxarır:

Rusiyanı son on ildə 600 min dünya miqyaslı alim tərk edib!

ABŞ-da hər ikinci riyaziyyatçı fizik-nəzəriyyəçi rusdur! [71, 25-31].

Rus zəka axınının-banisini tədqiqatçılar Georgiy Antonoviç Tammovu hesab edirlər. Sovetlər Birliyi qurulandan sonra ilk dəfə olaraq cəsarət nümayiş etdirərək öz zəkasını xaricdə inkişaf etdirən, onu yüksək qiymətə «satan» Tammov barədə Rus elmi ədəbiyyatında müxtəlif fikirlər səsləndirirlər. 1930-cu ildən Tamov 24 yaşında Nobel mükafatına layiq görülən radioaktivliyin 4 növündən biri olan alfa-dağınıqlığı kəşf edib. 28 yaşında Rusiya Elmlər Akademiyasının müxbir üzvü olan Georgiy Tamov 1933-cü ildə ezamiyyətə getdiyi Vaşinqtondan bütün cəhdlərə baxmayaraq geri qayıtmayıb.

Onun barəsində ilk illər tənqidi fikirlər səsləndirən Sovet alimləri 1937-38-ci müdhiş repressiya illərində onların başına gətirilən hadisələrdən sonra Qamovu haqlı hesab edib, onun yolunu davam etdirmişlər. ABŞ-ın atom ixtirası və yeni silahların kəşf edilməsində əvəzedilməz rolu olan Qamov barədə bu gün Rusiyada mifik fikirlər səslənir və o, zəka axını prosesinin «atası» hesab edilir [75].

Rusiyada zəka kapitalının axıb getməsini müdhiş səviyyəyə qalxdığını bildirən M. B. Lomonosov adına Moskva Dövlət Universitetin tədqiqatçısı O. B. Eroxina son 13 ildə 1 milyon düşünən beynin onların vətənini tərk etdiyini qeyd edir. O, belə hesab edir ki, 1990-1996-cı illərdə 90-110 min zəka sahibinin tərk etməsi statistikasını 2000-2005-ci illərin statistikası il müqayisə edərək bu illər ərzində rəqəmlərin bir neçə dəfə çoxaldığını bildirir. Onun fikirlərinə əsaslanaraq Rusiyanın intellektual elitası sayıla biləcək şəxslərin itirilməsini Rusiya üçün əsas faciə hesab etmək olar.

Bu fikirlərdən çıxış edərək Rusiyanın elminin kateqoriya və say göstəricilərinə nəzər salaq:

2004-cü ilin statistikasına əsasən Rusiyada 859 min yüksək zəka sahibi olan şəxs mövcuddur. Onların 428, 3 mini yaxud 47 %-i tədqiqatçılardır (Qeyd edək ki, 1992-ci ildə onlar 1 milyon 522 min nəfər idi) onları sahələr üzrə bölək:

Texniki elmlər – 64, 6 %, 2. Dəqiq elmlər – 23, 4 %, 3. Tibbi elmləri – 3, 6 %, 4. Kənd təsərrüfatı – 3, 4 %, 5. İctimai elmlər– 3, 1%, 6. Humanitar elmlər– 1, 9 % [48].

Bu statistikadan göründüyü kimi, Rusiyada elm sahəsində üstünlüyü texniki elmlər əlində saxlayır. Bu, özünü eyni zamanda 2000-2005-ci illər arasında Rusiyanı tərk edib öz zəkalarını yüksək qiymətləndirən insanların sahələrinin faiz göstəricilərində də aşkar biruzə verir:

Fizika – 68%, 2. Riyaziyyat– 60%, 3. Texnika elmləri– 40%, 4. Proqramçılar–42%, 5. Genetika–24%, 6. Kimya– 29%, 7. Biologiya–19%, 8. Həkimlər– 10%, 9. Filoloqlar–7 %, 10. Hüquqşünaslar– 5 %, 11. Filosof və sosioloqlar– 3 %, 12. İqtisadiyyat– 1 % [87].

Rusiyada zəka axınının səmərəli şəkildə qarşısının alınmasını tənzimləyən qanunvericilik bazası mövcud deyil. İntellektual mülkiyyət sayılan zəka sahibləri ölkədən gedərək xarici dövlətlərin müxtəlif sahələr üzrə inkişafında başlıca rol oynayırlar. Rusiya Federasiyasının Təhsil Nazirliyinin verdiyi rəsmi məlumatlara əsaslanaraq ABŞ-ın Müdafiə Nazirliyində 8 minə yaxın rus alimi 40 elmi proqramın fəal əməkdaşlarıdırlar. Rus alimləri də öz növbəsində ölkələrinin istehsalı olan alətlərdən istifadə edirlər. Rusiya təhlükəsizliyik orqanları bunun federasiya üçün arzuedilməz olduğunu etiraf edirlər. Zəkalı insanlarla ölkəni tərk etməzdən öncə işləməyi dövlətçilik nöqteyi-nəzərindən müsbət əhəmiyyət kəsb edən federal təhlükəsizlik xidməti hazırda xaricdə işləyən rus elminin elitası kateqoriyasına daxil olan alimlərin geri qayıtmasını zəruri sayır və bunun üçün normal şəraitin yaradılmasını ilk addım kimi qeyd edirlər. «Bu gün rus alimінə istənilən ölkədə rast gəlmək olar» fikrini bildirən tədqiqatçı Serqey Yeqorov belə hesab edir ki, bəzi mənbələrin ölkəni tərk edən zəkaların sayı ilə bağlı bəzi məlumatlar həqiqətə



uyğun deyil. İldə 30 min zəkalı kadrın vətəni tərk etməsi faktını tədqiqatçı bu rəqəmi rus alimlərinin statistik göstəriciləri ilə müqayisə etdikdə gülünc rəqəm alınır. Onların 70 %-ni alim hesab etmək düzgün olmazdı. "Zəkaların" içərisində plagiatçılıqla və karyera qurmaqla məşğul olanlar da vardır ki, alim adını belə şəxslərlə müqayisə etmək elmi «təhqir» etmək deməkdir [71, 25-31].

Rusiyada əsl alimlərin olduqca az olduğunu açıqlayan tədqiqatçılar bu gün "zəka sahibi" deyiləndə ildə iki-üç müsbət rəy əsasında nüfuzlu elmi toplu və jurnallarda məqaləsi dərc edilən, 3 ildən çox olmayaraq monoqrafiyası nəşr olunan seçdiyi ixtisas üzrə yenilik gətirmək iqtidarında olanları nəzərdə tuturlar. 2003-cü ildə Corc Soros Fondunun hesabatlarında belə şəxslərin keçmiş postsovet məkanında cəmi 50 min nəfər olduğu qeyd olunur. ABŞ-da isə bu rəqəm 20 minə yaxındır və bu isə yalnız Amerikada anadan olan və təhsil alanlara aiddir.

"Zəka axını" kateqoriyasına xaricdə təhsil alan gənc kadrların statistik göstəriciləri də daxildir. 1993-cü ilin məlumatlarında 13 min tələbənin xaricdə oxuması (10 min nəfər ABŞ, Fransa, Almaniya, Böyük Britaniya) qeyd edilirdisə, 2002 –ci ildə bu rəqəmlər 26 mini ötüb keçib. Bu tələbələr arasında keçirilən sorğu Rusiyanın bu işlə məşğul olan şəxsləri düşünməyə vadar edir: Rəyi soruşulan gənclərin 45%-i təhsil aldıqları ölkədə müddət bitdikdən sonra qalıb işləməyi və vətəndaşlıq əldə etməyi düşünürlər. Sorğuda iştirak edən 20% gənc təhsil müddəti başa çatdıqdan sonra yenidən təcrübə keçmək məqsədilə həlalik vətənə geri dönmək barədə fikirləşirlər. 18 %–gənc xaricdə yüksək olunan vəzifə və əmək haqqı almasına baxmayaraq, ana vətənlərinə geri dönüb, dövlətlərinin mənafelərinə xidmət edəcəklərini bildiriblər. Yalnız 3%- sorğuda iştirak edən respondent təhsilləri bitdikdən sonra qərar verəcəklərini açıqlayıblar [87].

Rusiya Federasiyası hər il «zəka axını»ndan 50 milyard dollar itirməli olur. Bu səbəbdən də Avropa Birliyinə daxil olan dövlətlər Rusiyaya dəyən zərərin qarşısını almaq istiqamətində tədbir görürlər. Qərb dövlətləri Rusiyadan zəka axınının qarşısını

almaqdan ötrü alimlərin çalışdıqları elmi-tədqiqat müəssisələrə əvəzsiz yardımların məbləğini artırırlar. Qərb dövlətləri Rusiyada hər rubl üçün 0, 50 ABŞ dolları sərmayə qoymağı planlaşdırırlar [102].

Bunun nəticəsində 40 elmi kadrın Amerikadan vətənə geri dönmüş və hazırda ev və işlə təmin ediliblər. Tədqiqatçılar belə hesab edirlər ki, plan uğurla davam etdirilsə, geri qayıdan zəkaların sayı çox olacaq.

Rusiya ilə yanaşı keçmiş postsovet məkanında Moldovada da zəka axını prosesindən xeyli itkilərlə üzləşməli olub. 1931-ci ildə ölkədən gedən zəka axını və digər miqrasiya proseslərinə görə Moldova insan inkişafı ehtiyatına görə 103-cü yeri tutmalı olub. Moldovan tədqiqatçısı N. P. Perçinskayanın fikrincə, Moldovadan zəkaların xarici ölkələrə axın etməsinin əsasən aşağıdakı səbəbləri var:

Aşağı əmək haqqı – 2003-cü ilin məlumatına görə bu ölkədə minimum əmək haqqı 42 ABŞ dolları olub;

Moldova Milli Elmlər Akademiyasının maliyyələşməsinə dövlət büdcəsindən ayrılan vəsaitin məbləğinin kəskin azalması. 2002-2003-cü illərdə Moldova hökumətinin elmin inkişafına büdcənin 0, 2%-ni ayırıb. Beynəlxalq birliyin tələblərinə görə isə bu göstəricilər 1%-dən aşağı olmamalıdır;

- Elmi və texniki avadanlıqların 70-80-ci illərdən qalması və müasirləşməsinə pulun ayrılması;
- İctimai fikirdə elmə və təhsilə marağın azalması;
- Regional miqyasda əməkdaşlığın zəifləməsi;
- Aspiranturaya qəbulun azalması;
- Elmi yeniliyin reallaşması imkanlarının olmaması [90, 15-38].

Moldovadan zəka axını prosesinin intensivləşməsi bu ölkənin elminə ciddi təsir göstərir. Gedən zəkaların yaş kateqoriyasını araşdıranda məlum olur ki, 20-45 yaşlı insanlar öz biliklərini xaricdə realizə etmək fikrindədir: Moldovada elmə ayrılan vəsaitin digər «işlərə» sərf edilməsini iddia edən yerli tədqiqatçılar göstərirlər ki, 2003-cü ilidə, hakimiyyət orqanları



rəsmi hesabatlarında elmə 57 milyon lev (64, 75 milyon ABŞ dolları) ayrılığını. Faktiki olaraq cəmi 4, 56 milyon dolları xərcləmişdir [89].

Bu səbəbdən Moldova hər il itirdiyi alimlərə görə xeyli miqdarda maliyyə itkisilə üzləşmiş olur. Moldova 1990-cı ildən sonra daxili və xarici zəka axınından zərər çəkən keçmiş postsovet ölkələrindən biridir. 1990-2000-ci illər arası elm sahəsində çalışan insanların sayı 4 dəfə (25 mindən 8, 17 minə) azalmışdır. Ali təhsilli mütəxəssislərin sayı da 20%-azalıb. Elmlər doktorlarının sayında da ciddi problemlər var. 1, 7 dəfə sayı azalan Moldova elmlər doktorları 2000-ci illərdə 3593 nəfər idisə, hazırda bu rəqəmlər 2041-dir.

1990-1997-ci illər arası Moldova Elmlər Akademiyasını tərk edən 12000 zəkalı insanın 34, 58%-nin xaricə «səadət» axtarmağa getdiyi qeyd olunur. 65%-dən çox keçmiş elmi işçilərin bu gün ticarət və digər sahələrdə çalışdığı bildirilir. Bu illərdən sonra Moldova EA əməkdaşlarının sayı 22, 64 (1203) nəfər azalıb. Müxtəlif dərəcələrə və elmi adlara görə də çalışan elmi işçilərin sayı 8, 7 aşağı düşüb. Elmlər doktoru müdafiə etməyə sənəd təqdim edən alimlərin 16, 27% (134) nəfər az olduğu statistik göstəricilərdə qeyd olunur [114].

Moldova Elmlər Akademiyasında aparılan sosioloji sorğu zamanı respondentlərin bildirdikləri mövqe onların çoxunun xaricdə işləməkdə maraqlı olduğunu aşkara çıxarıb. Rəyi soruşulan elmi işçilərin 65%-i müqavilə əsasında inkişaf etmiş Qərb ölkələrinin birində çalışmaq niyyətində olduğunu bildirib. Onlar Moldovaya öz sahələrində kifayət qədər tanıdıqdan və kapital topladıqdan sonra dönmək barədə düşünürlər. Sorğuda iştirak edən 5% respondent birdəfəlik olaraq xarici ölkələrə köçüb getməyi və heç bir zaman Moldovaya dönməyəcəklərini etiraf ediblər [90, 15-2-6].

Zəka axınında iştirak etmək istəyən, lakin xarici dil bilmədiklərindən təəssüfləndiyini qeyd edən 37% respondentin vaxt və maliyyə imkanlarının məhdud olması səbəbi ilə hər hansısa bir dil öyrənmək imkanlarının olmadığını bildirib.

Moldova EA-nın yalnız 13%-i sorğuda iştirak edən xarici dili mükəmməl bildiklərini açıqlayıb və mütləq zəka axınına qoşulacaqlarını qeyd ediblər.

Moldovadan xaricə çalışmağa gedən zəka sahiblərinin içərisində fizika və riyaziyyat üzrə təhsil və tədqiqat aparanlar üstünlük təşkil edir. İqtisadiyyat və informatika sahəsində isə daxili miqrasiya daha çoxluq təşkil etsə də, bu sahələrdə mütəxəssis olanların şəxsi biznesə maraq göstərdiklərini qeyd etmək olar.

1990-1999-cu illərdə Moldova EA-dan ölkəni tərk edənlərin sayı 415 elmi işçi olaraq göstərilir. Onlar əsasən Almaniya, ABŞ, Fransa, İsrail, İtaliya, Kanada, Rumınıya və digər ölkələrə miqrasiya edirlər. 22 akademik, 20 fəxri doktor və 140 elmlər doktoru zəka axınına qoşulanlar içərisindədir. Bu insanların əksəriyyətini dövlət təhlükəsizliyi xarakteri daşıyan məlumatlara çıxışı var və onların geri qayıtmaması Moldova üçün müsbət dividentlər gətirmir. Yeni müstəqillik əldə edən Moldovanın üzləşdiyi hərbi münaqişədən sonra rastlaşdığı çətinliklərdən çıxış yolunun zəka axını prosesinin qarşısının mütləq alınmasını göstərən tədqiqatçılar iqtisadi problemlər üzündən elmə maraq göstərənlərin sayının gündən-günə azaldığını təəssüf hissi ilə bildirirlər.

Bu gün Moldova zəka axını prosesinin intensiv halda davam etməsi səbəbindən böhran həddinə çatıbdır. Ölkənin elmi potensialı mənfi istiqamətdə inkişaf edir. Bu cür proses Moldova rəsmilərini mütləq düşünməyə vadar etməlidir. Moldovadan zəka axını probleminin həll etməsi üçün strateqlərin təklif etdiyi ilk addım əmək haqqının artırılması ilə yanaşı, onların ölkədə qalmaq şərti ilə xarici transmilli şirkətlərlə müqavilə əsasında əməkdaşlıq etmə imkanlarının yaradılmasıdır. Bu sistem tətbiq olunsa təxmini olaraq 60% zəkalı insanın Moldovadan köçüb getməsini əngəlləmək mümkün olacağı bildirilir. Eyni zamanda Moldovanın diaspor modelindən istifadə etməsi ölkə üçün uğurlu nəticələr gətirə bilər.



Mütəxəssislər üçün ipoteka kreditlərindən yararlanmaq, sosial güzəştlər, iqtisadi gəlirlər kimi şərtlərin dövlət tərəfindən verilməsi məqsədəuyğun ola bilər. Moldova alimlərinin Sovetlər Birliyi daxilində və müasir dövrdə dünya elminə verdikləri töhfələri nəzərə alaraq zəka axını nəticəsində onların xarici dövlətlərə köçməsinin qarşısının alınması zəruridir.

Moldova ilə yanaşı keçmiş postsovet respublikalarından olan Litva da eyni problemlə üzləşib. Bu ölkədə də siyasi, iqtisadi və sosial həyatda baş verən əsaslı dəyişikliklər miqrasiya prosesinin tənzimlənməsində əngəllər yaradıb. Sovet «dəmir qəfəsin»dən azad olan Litva həll edilməsi çətin olan bir sıra problemlərlə üz-üzə qalmalı oldu. Ölkədən leqal və qeyri-leqal miqrasiya prosesi əhalinin bütün təbəqələrini əhatə etdi. Ciddi olaraq zərər çəkən sahələrdən biri olan elm-təhsil 1990-cı ildən başlayaraq öz kadrlarını itirməli oldu. Litvada baş verən prosesi daha aydın şəkildə tədqiq etmək üçün əsasən statistik göstəricilərə müraciət etmək məqsədəuyğun olardı. Əldə etdiyimiz nəticələr aşağıdakı qeyd edilən faktların aşkar olunmasına şərait yaradır.

Litvadan 1988-2004-cü illər arası zəka axını nəticəsində ölkəni tərk edənlər əsasən elm və ali təhsil müəssisələrinin 13, 7%-ni təşkil edir.

Litvalı zəkaların iki əsas miqrasiya strategiyası mövcuddur:

a) Keçmiş Sovetlər Birliyinə daxil olan respublikalara zəka axını–ilk olaraq Rusiya, Ukrayna və digər ölkələrdə baş verən prosesdə iştirak edənlərin faiz göstəriciləri olduqca azlıq təşkil edir;

b) Qərb ölkələrində baş verən zəka axını bu strategiyada özlüyündə iki mərhələyə bölünür: 1) Birinci mərhələdə qısa müddətli elmi ezamiyyət; 2) İkinci mərhələdə isə artıq ömürlük yaşamaq və çalışmaq üçün miqrasiya [119, 6-18].

1988-2004-cü illər arası litvalı zəkaların 22%-i Rusiyaya, 19%-i ABŞ-a, 9% Almaniyaya, 7%-isə Skandinaviya ölkələrinə gedib. Rusiyaya üz tutan zəkalar elektronika və humanitar sahəsində mütəxəssis olanlardır. Rus təhsilli və rusdilli olan bu insanların eyni zamanda ailə bağlılıqları da önəm daşıyır. Qərb

ölkələrinə köçənlərin əksəriyyəti isə mədəniyyət, incəsənət, riyaziyyat və avtomatlaşdırma üzrə təhsil alanlar təşkil edir. Qərbi seçənlər Litva elminin elitası sayılır və milliyyətcə yəhudilərdir.

ABŞ elmini inkişaf etdirməyə gedən litvalılar ilk illərdə sosial statusca aşağı olan və gəliri az sayılan işləri seçirlər. Birləşmiş Ştatlara müxtəlif vasitələrlə (seminar, konfrans, təhsil alma) gələn litvalı alimlərin müəyyən bir hissəsi bu gün elm sahəsinə aid olmayan sahələrdə çalışırlar. Öz ölkələrində alim kimi qazandıqlarını bir həftə içərisində qeyri-elm sahəsində qazanan litvalılar həyatlarından razı olduqlarını qeyd edirlər.

Litvada yaşayan qohumlarının ardınca ABŞ-a gedən mühacirlər kompakt halda diaspor formalaşdıraraq yaşayırlar. Bu gün litvalı zəkaları Amerikada «taryubukay» (sovetikus) kimi adlandırırlar [78, 29-37].

Litvalı zəkaların xarici ölkələrə köçməsinin bir yolu da bu ölkə ərazisindən keçən qeyri-leqal mühacirətə qoşulmasıdır. Asiya, Afrika, Yaxın Şərq ölkəsindən köçən mühacirlərin Litvadan tranzit ölkə kimi istifadə etməsindən də yararlanan litvalılar onlara qoşularaq xaricə axın edirlər.

Keçmiş postsovet ölkələrindən zəka axının intensiv şəkildə davam etdiyi respublikalar içərisində Belorusiya da xüsusi olaraq seçilir. 1980-ci illərin ikinci yarısı 90-cı illərin əvvəllərindən başlayan zəka axını prosesi leqal və qeyri-leqal mühacirətin ayrılmaz bir hissəsi olaraq qəbul edilir.

Bu illərdən başlayaraq Belorusiyanın elm sahəsində çalışan kadrların sayı durmadan aşağı düşməyə başlayır. İlk olaraq buna səbəb olan amillərdən biri kimi hökumətin elm və təhsil sahəsinə ayırdığı məbləğ 2, 27% azalıb. 1993-cü ildən başlayaraq Belorusiyada bu məbləğ il ərzində 3-4% azalır və gənclərin elmə marağında yaş fərqləri aşkar hiss olunur. Zəka axını isə bu ölkədən əsasən aşağıdakı səbəblərə görə baş verir:

Elmi tədqiqatlara, ixtira və kəşflərə dövlət büdcəsindən diqqətin və maliyyənin azalması;



Əmək haqqının aşağı olması səbəbindən alim və tədqiqatçıların iqtisadiyyatın digər sahələrinə çalışmağa getməsi;

Elmi müəssisələrdə və laboratoriyalarda texniki bazanın köhnəlməsi;

İctimai fikirdə elm və təhsil işçilərinə münasibətin dəyişməsi və onların əvvəlki nüfuzlarını bərpa edə bilməməsi;

İnformasiya boşluğu və s. [106]

1998-ci ildə son 5 il ərzində ölkənin zəka elitası sayılan 315 nəfər alim xaricdə mühacirət edib. Qərbin beynəlxalq təhsil təşkilatları və fondları Belorus gənclərinin «oğurlanmasın»da maraqlı tərəf kimi çıxış edirlər. Qrant hesabına Belorus Elmlər Akademiyasının 6%-i böyük ümid verən gənci hazırda Qərbdə müqavilə əsasında təhsillərini davam etdirirlər və onların əksəriyyətinin geri qayıtmaq fikirləri yoxdur.

Belorus hökumətinin Rusiya, Moldova, Ukrayna, Qazaxıstan, Litva və Polşa ilə əmək müqaviləsi mövcuddur və buna görə adları çəkilən ölkənin vətəndaşları sərbəst olaraq bir-birlərinə zəka və digər miqrantlar mübadiləsi edə bilər [67, 86-99].

Zəka axınında iştirak etməkdə maraqlı olan şəxslərin 25, 7%-i xaricdə işləməkdə əsas məqsədlərinin kapital toplayıb öz şəxsi bizneslərini qurması olduğunu etiraf ediblər. Elmi yalnız vasitə və sığorta hesab edən bu şəxslər gələcəklərini ancaq biznesdə olduqlarını bildirirlər. Mənzil, sosial hüquqlar, vergi və iqtisadi artım gənc alimlərin Belorusiyada yaşamasını əngəlləyən problemlərdən biridir. Onlara heç bir güzəşt verilmədiyindən şikayətlənən zəkalı gənclər qanunverici bazanın təkmilləşdiriləcəyi təqdirdə ölkədən getmək fikirlərini dəyişə biləcəklərini etiraf ediblər. Zəka axını qarşısını almaq üçün onlar aşağıdakı işlərin həyata keçirilməsini vacib sayırlar:

Ölkədə təhsil sistemini birləşdirən şəbəkənin yaradılması və alimlərin birgə fəaliyyətinin əlaqələndirilməsi;

Gənc alimlərin sosial-hüquqi bazasının dövlət nəzarətinə alınması;

İnformasiya mərkəzinin yaradılması və bunun vasitəsilə gənclərin xarici ölkə ədəbiyyatına çıxışının asanlaşdırılması və yeni ixtiraların maliyyələşdirilməsi;

Müasir texniki avadanlıqlarla tədqiqat mərkəzləri və laboratoriyaların təmin edilməsi;

Stipendiya, əmək haqqı və qonorarların dünya standartlarına uyğunlaşdırılması və s. [119].

Belorusiya ilə bərabər zəka axını problemindən əziyyət çəkən dövlətlərdən biri də Gürcüstan Respublikasıdır. Gürcüstandan zəka axını prosesinin altı mərhələsi var və bu mərhələlərdə miqrasiya və altmış faizi aşağıdakı cədvəldə qeyd olunur: [100, 16-28]

| № | Dövr | Faiz | Artım faizi |
|---|---|---|---|
| 1 | 1956-1964: Gürcülərin keçmiş SSRİ-yə yayılması və zəkaları hesabına diaspor formalaşdıqları dövr | 9, 3 | 1, 03 |
| 2 | 1965-1972: İqtisadi liberallaşma dövründə zəka axını | 11, 1 | 1, 39 |
| 3 | 1973-1984: Kommunist partiyasının Gürcüstanda iqtisadi liberallaşmağa reaksiyasından doğan zəka axını | 18, 5 | 1, 54 |
| 4 | 1985-1989: Yenidənqurma dövrünün zəka axını | 3, 7 | 0, 74 |
| 5 | 1990-1991: Gürcüstanın dövlət müstəqilliyindən sonra başlanan zəka axını | 1, 9 | 0, 95 |
| 6 | 1992-1995: Ölkədə başlanan hərbi münaqişələr demokratiya problemləri və Rusiyanın geosiyasi maraqlarından doğan miqrasiya | 55, 6 | 13, 9 |

2000-ci ilin statistikası göstərir ki, qonşu ölkədə humanitar fənlərdən fərqli olaraq texniki və dəqiq elmlərdə geriləmə aşkar görünür. Bu da qeyd edilən sahələr üzrə gənc zəkaların magistr və aspirantura təhsil pillələrinə maraq göstərməsindən irəli gəlir. Dövlət tərəfindən maddi-texniki dəstəyinə və vəsaitlərin az olması bu problemin əsas səbəblərindəndir. İqtisadi və sosial sistemdəki böhran Gürcüstanda elmə maraq göstərən kadrların qloballaşma dövrünün qarşısı alınmaz proses olan zəka axınına qoşulmasına şərait yaradır [118].



Qərbə axın edən zəkaların sayı digər postsovet ölkələrilə müqayisədə azlıq təşkil etməsinə baxmayaraq, ölkəni tərk edənlərin elmi elita sayılması iqtisadi potensiala öz təsirini göstərir. 1990-cı ildə Gürcüstanda 25135 elmi işçi olduğu bildirilirdisə, 2000-ci ildə bu rəqəm 17762-ətrafındadır. Bunun əsas səbəblərindən biri gənclərin elmə marağının azalmasıdır.

Gürcüstan hökumətinin elmə ayırdığı məbləğin dövlət büdcəsində olmasını əsas gətirən yerli tədqiqatçılar illik fond göstəricilərinin 0, 2—03 % dən yuxarı qalxmadığını qeyd edirlər. Büdcədə elmə ayrılan vəsaitin artırılmaması yaxın illərdə öz təsirini sosial-iqtisadi sahədə özünü göstərərkən çıxış yolunun kommersiya bankları və xarici fondların elmə əvəzsiz yardımlar edilməsində görən mütəxəssislər elmə investisiya qoyulmasını zəruri hesab edirlər. Lakin bu gün dövlətdən bunu tələb etmək qeyri-mümkündür. Vergi-büdcə sahəsində böhranla üzləşən Tbilisi eyni zamanda hərbi-siyasi problemlər üzündən stabilləşə bilmir [89].

Gürcü zəkalarının miqrasiya etdikləri ölkələr içərisində Rusiya ilk yerlərdən birini tutur. 2006-cı ilin məlumatına əsasən hazırda Rusiyada yaşayan 1, 1– 1,2 milyon gürcünün 40%-ni məhz zəka axını nəticəsində bu ölkəyə gələnlər tutur. Mixail Saakaşviilinin Gürcüstanda prezident seçilməsindən sonra isə Qərbə təhsil ardınca getmək istəyən gənclərin sayı olduqca artmışdır. Dövlətin mühüm vəzifələrində xaricdə təhsil almış insanların təyinat alması gürcü gənclərin arasında Qərb təhsil sisteminə marağın güclənməsinə şərait yaradıb. ABŞ, Almaniya, Hollandiya, Kanada kimi dövlətlər zəkalı gürcü gənclərinə qapı açan dövlətlərdəndir. Zəka axını prosesinin intensiv şəkil almasına şərait yaradan alimlərdən biri də müxtəlif fondlar, elmi proqramlar və təhsil imkanları vasitəsilə vətəni tərk edən gənc alimlərin geri qayıtmağa layiqli olmamasından irəli gəlir.

Zəka axını prosesindən iqtisadi və sosial çətinliklərlə üzləşən ölkələrdən biri də Orta Asiyanın türk dövlətlərindən olan Özbəkistandır. 2001-2004-cü illər arası Özbəkistanı tərk edən

zəkaların və digər miqrasiya proseslərinin göstərilərini aşağıdakı kimi göstərmək olar:

| № | Kateqoriya | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| 1 | Məcburi köçkünlər | 1800 | 890 | 1470 | 1350 |
| 2 | Əmək miqrantları | 640000 | 380000 | 820000 | 1050000 |
| 3 | Zəka axını | 3280 | 7400 | 1960 | 37720 |

Özbəkistandan zəka axını il ərzində 5-% təşkil edir. Ölkə daxilində münaqişələr səbəbindən bu faiz artmaqda idi. Lakin 2005-ci ildə Fərqanə vadisində problem öz həllini tapandan sonra əmək miqrasiyası və zəka axınının göstəriciləri azalmaqdadır. Bu isə Özbəkistan kimi dövlət üçün müsbət dividentlər gətirir. 2004-cü ilin statistikasına nəzər salsaq özbək alimlərinin seçim etdikləri ölkələr aşağıdakı kimi sıralanır:

Rusiya–58, 3%, Qazaxıstan–25, 6%, Cənubi Koreya–4, 7%, Türkiyə-1, 3%, Avropa Birliyi ölkələri–0, 6%, Birləşmiş Ərəb Əmirlikləri–0, 4%, Digər ölkələr–0, 2%, Daxili zəka axını–8, 9 [96].

Zəka axını prosesi Özbəkistanın elmi potensialına ciddi zərbə vursa da iqtisadi baxımdan müəyyən müsbət xeyirlər verir:

1. Hər il xaricdə öz zəkaları hesabına pul qazanan özbəklər 3 milyon 757 min ABŞ dolları məbləğində burada qalan qohum-əqrabalarına maddi yardım göstərirlər.

2. Zəkalı özbəklərin topladığı kapital vətənə qayıdıb burada şəxsi bizneslərini qurmağa, Özbəkistan iqtisadiyyatını inkişaf etdirməyə onlara imkan verir.

3. Xaricdə çalışan zəkalar Özbəkistan üçün lobbi qurulmasında vasitəçi rolunu üzərlərinə götürürlər və bir növ diplomat xidmətini həyata keçirirlər [125, 152-198].

İqtisadiyyata dolayısı yolla gələn fayda elmi potensiala vurulan ciddi ziyanla müqayisədə olduqca az görünür. Elmə maraq göstərən gənclərin sayı ildən-ilə azalmaqdadır. Özbəkistan Elmlər Akademiyasında çalışan gənclər tədqiqat işindən «uzaq gəzirlər». Dövlət büdcəsindən ayrılan vəsait alimlərin 10 günlük



dolanışığını görmür. Yeni kəşf və ixtiralardan isə söhbət gedə bilməz. Özbəkistan rəsmiləri isə Sovet üsul-idarəsində olduğu kimi problemin kökünü kəsməkdə çətinlik çəkirlər. Elmə investisiya qoymaq isə kadrların üzərinə düşür. Lakin hökumət burada da ciddi əngəllər yaradır.

Özbəkistanla yanaşı qonşu Qırğızıstan da zəka axınından öz daxili elmi potensialını gücləndirə bilmir. Perspektivli və ali təhsilli qırğız gənclərinin ölkə hüdudlarından kənarda öz zəkaları hesabına çalışmaq istəklərinin güclü olduğunu bildirən tədqiqatçı Larisa Teqay əsasən Rusiyaya axının intensiv davam etdiyini qeyd edir. Bişkekdə yerləşən Qırğız-Rus-Slavyan Universitetinə tələbə axınının güclü olduğunu nəzərə alsaq gənc alimlərin Rusiyanı sevməsini başa düşmək olar.

Qırğızıstandan zəka axını prosesi Sovet imperiyası illərində başlamasına baxmayaraq, özünün yüksək nöqtəsinə müstəqillik illərindən sonra çatmışdır. Bu gün təkcə Rusiya elm-təhsil müəssisələri və iri şirkətləri ilə yanaşı ABŞ, Kanada, Fransa, Almaniya, Britaniya və digər inkişaf etmiş ölkələrdə qırğız gəncləri qatılmaqdadır.

Ölkəni tərk edən zəka sahibləri öz istedad və bacarıqlarına görə seçilirlər. Bu gün xaricdə çalışıb öz zəkaları hesabına kapital toplayan qırğız alimlərinin getməsindən yalnız Qırğızıstan dövləti uduzur. İqtisadiyyat, biznes, texniki yeniliklər və digər sahələrlə ölkə üçün daha çox xeyir vermək iqtidarında olan belə şəxslərin xaricdə çalışması Bişkek üçün müsbət dividentlər gətirmir [79].

Qırğızıstanda bu problemi tədqiq edənlər ölkədən zəka axını prosesinin intensiv şəkil almasında xarici şirkətlərin apardıqları siyasəti əsas göstərirlər. 1989 və 2000-ci illərin statistikasına nəzər salsaq qırğızıstanlı zəkaların ölkəni tərk etməsində xeyli fərqlərin mövcud olduğunu görürük: 1989– 43, 5 %, 2000– 53 %.

Bu rəqəmlər 2 il ərzində əmək miqrasiyasına qoşulan zəkaların sayının artdığını aşkar göstərir. Baş verən belə mənfi halın qarşısını almaq üçün isə mütləq ali məktəbi bitirən gənc kadrları işlə təmin etmək və onlara sosial güzəştlərdən bəhrələnmək imkanları verilməlidir. Ölkəni düşməkdə olan iqtisadi böhrandan

çıxartmağı isə onlar "zəka axını" prosesinin qarşısı alınmasında görürlər. Son illərdə Qırğız gənclərini öz ölkəsində görmək istəyənlər içərisində İsveç və Çin xüsusi olaraq fəallıq edirlər. Vətəndə qalıb ofisiant, barmen, ticarət agenti kimi işləməkdənsə xarici ölkədə zəkaları hesabına pul qazanmağı üstün tutan qırğızlar müxtəlif yollarla miqrasiya edirlər.

Mütəxəssislər belə hesab edirlər ki, zəka axını prosesi davam etdikcə, ölkədə zavod, fabrik, elmi müəssisələrdə kadr problemi həll olunmamış qalacaq. Elmə az maraq göstərən gənclərin biznes və ticarət sahəsinə üz tutmasını ən böyük problem kimi qəbul edən mütəxəssislər vətənpərvərlik çağırışlarının bu günün tələbi səviyyəsində olmadığını iddia edirlər.

Qırğızıstanla yanaşı zəka axını prosesi ilə üz-üzə qalan dövlətlərdən biri də Qazaxıstandır.

1990-2000-ci illər arası Qazaxıstandan 500 min insanın əmək miqrasiyasına qoşulanlar içərisində 100 min nəfərin zəka sahibini xüsusi olduğunu qeyd etmək olar. Bu insanların 40%-i qazax elminin elitası sayıldığından problemin ciddiliyi diqqəti cəlb edir.

Qazax mütəxəssisləri belə hesab edirlər ki, ölkədən zəkaların biliyinə ehtiyacın günü-gündən artması Qazaxıstanın elm və təhsilin səviyyəsinə görə seçilən dünyanın 50 ölkəsi siyahısına düşməsinə şərait yaradacaq. Eyni zamanda xaricə axını güclənən qazax gəncləri həm kapital, həm də hörmət qazanmış doktorların güclənməsinə təkan verirlər. Diasporun strukturlaşması və təşkilatlanmasında öz növbəsində vətənlərinin maraqlarını məskunlaşdıqları ölkələrdə təmsil etməklə yanaşı, lobbiçiliyin formalaşmasında əvəzedilməz rol oynayır [93].

Ölkədən zəka axını prosesinin iqtisadi və elmi potensiala ciddi zərbə vurduğunu nəzərə alaraq onun qarşısının alınması üçün dövlət səviyyəsində aşağıdakı tədbirlərin həyata keçirildiyi göstərilir:

1. Ali məktəbi bitirən gəncləri dövlət hesabına magistr və phd (doktorluq) təhsil pillələrində öz biliklərinin artırılmasına göndərilməsi;



2. Öz sahələrində mütəxəssis sayılan zəkaların dövlətin dəstəyi ilə xarici şirkətlərlə müqavilə imzalaması və təcrübə keçdikdən sonra vətənə geri dönmələri [74].

2000-2005-ci illərin statistikasına nəzər salsaq, 3000 qazax gəncinin xaricdə təhsil proqramlarında iştirak edərək vətənə geri dönməsini və dövlət işində irəli çəkilməsinin şahidi olarıq. Boloniya sisteminə qoşulan Qazaxıstan tələbə-alim mübadiləsi proqramlarına dair inkişaf etmiş dövlətlərlə müqavilə imzalayıb. Buna baxmayaraq, ölkədə iqtisadi problemlər gənclərin elmə maraq göstərməsinə öz mənfi təsirini göstərir. Qazax yeniyetmələri bu gün bir sıra sosial-iqtisadi problemlərlə üzləşən gənc alimlərin yolu ilə getmək istəmirlər. Onlar biznesmen, aktyor və yaxud xaricdə ticarətçi olmağa üstünlük verirlər. Ali məktəblərə sənəd verənlərin təhsil səviyyəsinin aşağı olmasından narahat olan mütəxəssislərin fikrincə belə davam edəcəyi təqdirdə 2015-ci ildən sonra həyəcan təbilinin çalınması vaxtı yetişəcək. Hələlik isə Qazaxıstan iqtisadi-sosial problemlərini həll etmək istiqamətində iş apardıqca zəka axını öz intensivliyi ilə davam edəcək.

1930-cu illərdən başlayaraq zəka axını ilə üzləşən Türkmənistan öz savadlı kadrlarını imperiyanın iri şəhərlərinə göndərməli olurdu. Rusiya, Ukrayna, Azərbaycan, Moldova kimi dövlətlərin ali məktəblərində, elmi müəssisələrində türkmən gəncləri öz biliklərini artırırdılar [99, 482].

Müstəqillik əldə etdikdən sonra Türkmənistanda Niyazovun qurduğu hökumət ölkədən gediş-gəliş üzərində ciddi nəzarət həyata keçirməklə yanaşı xarici şirkətlərin əvəzsiz yardım proqramlarını əl-qol açmağa imkan vermirdi. Bu səbəbdən leqal və qeyri-leqal miqrasiya Türkmənistanda intensiv şəkildə davam edir. Son 10 ildə bu rəqəm 400 mindən 1 milyona çatmışdır. Xaricdə təhsil almağa gedən türkmən gənclərin isə heç bir təklifə və sosial güzəştə baxmayaraq vətənə dönmək niyyətində deyillər.

Türkmənistanda yeni siyasi rəhbərliyin gəlişi elm-təhsil sahəsində yeni imkanlar yaradar. Müxtəlif yollarla xaricdə təhsil alan türkmən gənclərinin fikrincə, dünya ədəbiyyatı və xarici

elmi əsərlərlə tanış olan hər bir şəxs vətəndə olan reallıqla ayaqlaşa bilməzdi.

Eyni zamanda ali məktəbi bitirən və xaricdə təhsil alan gəncin sonradan normal işə düzəlməsi ölkədə korrupsiyanın yüksək həddə çatması ilə bağlı çox çətin olurdu. Rüşvətsiz bir işə düzəlmək mümkün olmadığını deyən türkmən gəncləri zəkalarını digər respublikalarda realizə etməyə üstünlük verərdilər [79].

Türkmənistanla yanaşı zəka axını problemi ilə qonşu Tacikistan da üzləşib. Müstəqillik əldə edən Tacikistanda əmək mühacirləri və zəkaların ABŞ, Kanada, Rumıniya, Böyük Britaniya kimi dövlətlərə üz tutublar. Bunun əsas səbəblərindən biri ölkədə sosial-iqtisadi yaşam şərtlərinin aşağı səviyyədə olmasıdır.

Aylıq 40 ABŞ dolları həcmində əmək haqqı, sosial güzəştlərdən məhrum olan elmi kadrların potensialının passivləşməsi səbəbləri onların məcburi olaraq inkişaf etmiş ölkələrə mühacirət etməsinə şərait yaradır.

Xüsusilə, zəka axını prosesinin fəal iştirakçıları olan jurnalistlər, elmi işçilər və ziyalılar mühacirət etdikləri ölkələrdə vətəndaşlıq əldə edirlər. 1992-ci ildən sonra ölkədə baş verən münaqişəli vəziyyət hakimiyyətin post-sovet üsul-idarəsində qalması ziyalı təbəqəsinin bir sıra problemlərlə üz-üzə qalması ilə nəticələndi. Söz azadlığı, demokratik dəyişiklik, sosial-iqtisadi güzəştlər gözləyən zəka sahibləri hökumət tərəfindən dəstəklənmədiklərini gördükdə çıxış yolu kimi zəka axını prosesinə qoşulmağı seçdilər [94, 7-10].

2003-cü ildə Tacikistanda aparılan xüsusi rəy sorğusuna görə bu ildə ölkədən əmək miqrasiyasına və zəka axınına qoşulan vətəndaşların ümumi sayı 190 min nəfərdir. 2002-2003-cü illərdə Tacikistanı tərk edib xarici ölkələrdə özlərinə «səadət» axtaran insanların ümumi sayı 632 min nəfərə çatırdı [98, 39].

Son bir neçə ildə ölkə rəhbərliyinin apardığı bir sıra tədbirlər nəticəsində MDB məkanına səpələnən tacik zəkalarının müəyyən hissəsi geri qayıtmalı olub. Dövlət işlərində irəli çəkilən və vətənə geri dönən zəkalar sosial güzəştlərlə də təmin olunurlar.



Baltikyanı dövlətlər içərisində seçilən Latviya da bu gün qloballaşma dövrünün ciddi problemlərindən biri sayılan zəka axını ilə üzləşməli olub. Hələ Sovetlər Birliyi illərində öz zəkalarını imperiyanın inkişaf etmiş respublikalarına göndərən Latviya müstəqillik əldə etdikdən sonra bu meyldən yaxa qurtara bilmədi. Bu gün Latviyadan çıxmağa hazır olan insanların əksər hissəsinin ziyalı və savadlı şəxslər təşkil etməsi ölkənin elmi potensialına öz mənfi təsirini göstərir. İrlandiya, Fransa, Böyük Britaniya, Finlandiya və digər Avropa Birliyinə daxil olan dövlətlərə zəka axını edən latviyalılar özlərinə normal həyat və iş şəraiti düzəltmək niyyətindədirlər.

Avropaya mühacirət edən insanlar içərisində təkcə ziyalı və elmi kadrların sayı 50 min nəfərdir.

Şərqi Avropa, Baltik ölkələri içərisində zəkaların itirilməsinə görə öncül yerdə Latviya hökuməti həyəcan təbili çalır. Avropa Fondu Latviya rəhbərliyinə xəbərdarlıq edib ki, yaxın illər ərzində zəkaların ölkədən getməsinin qarşısını ala biləcək tədbirlər həyata keçirməyəcəyi təqdirdə ciddi böhranla üzləşməli olacaq.

İşçi qüvvəsi və düşünən beyinlərin kütləvi miqrasiya prosesində iştirakı iqtisadi və sosial problemlərin Latviya üçün müsbət dividentlər gətirməyəcəyini mütəxəssislər qeyd edirlər. Avropa ölkələrinə karyera qurmağa gələn latviyalı zəkalar onları buna vadar edən problemləri aşağıdakı kimi sıralayırlar: Əmək haqqının azlığı, normal iş şəraitinin olması, yaşam üçün normal sosial şəraitin dövlət tərəfindən verilməməsi, iqtisadi cəhətdən gələcəyin ümidsiz olması.

Estoniyada zəka axını problemi mövcuddur. XX əsrin birinci yarısından başlanan əmək miqrasiyası Estoniyada elmi potensialın aşağı düşməsinə şərait yaradır. Sovet hakimiyyəti illərində eston alimləri qonşu dövlətlərin elmi və dövlət müəssisələrində çalışırdılar. 1950-ci illərdə Estoniyanı tərk edənlərin sayı 10000 nəfər idisə, 1990-cı ilə bu rəqəm 60000-ə çatmışdır. Bu gün eston zəka miqrasiyasının coğrafiyasını aşağıdakı kimi təsvir etmək olar: [115] Rusiya –25, 8%, Baltik dövlətləri–24%, Qafqaz

ölkələri–1, 3 %, Mərkəzi Asiya – 3, 4%, Belorusiya – 6, 2 %, Ukrayna – 11, 4% və digər MDB Respublikaları– 1, 3 %, Avropa və Amerika ölkələri–48, 1 %.

1989-cü ildən başlayaraq elmin inkişafı üçün, müxtəlif səviyyəli tədbirlərin Estoniya rəsmiləri tərəfindən həyata keçirilməsinə baxmayaraq, eston zəkaları öz karyeralarını xarici ölkələrdə qurmaq niyyətindədirlər. 1995-2005-ci illərdə ölkəni tərk edənlərin 28 %-nin elmi işçilər olduğu məlumat verilir.

Eston zəkalarının üstünlük verdikləri ölkələr içərisində Skandinaviya dövlətləri və Almaniyadır. Bu ölkələrdə Eston mütəxəssisləri nüfuz sahibi olmaqla yanaşı, özlərinə normal şərait düzəldə biliblər. Xüsusilə eston tibb işçilərinin zəka axınına qoşulması ölkədə ciddi problemin yaranmasına səbəb olmuşdur. Estoniyada nüfuzlu ali məktəblərin olmasına baxmayaraq, gənclər təhsil almaq üçün xarici ölkələri seçirlər. Şərqi Avropanın xüsusi kvota ayırmasından yararlanan gənclər Polşa, Çexiya, Slovakiya, Macarıstan kimi respublikalarda zəkaları hesabına özlərinə normal həya qura biliblər.

Eston rəsmilərinin açıqlamalarının əksinə çıxış edən zəka mühacirləri vətənlərində əmək haqqı sosial güzəştlər, iqtisadi yaşayış tərzi kimi problemlərin mövcud olduğunu etiraf edirlər. Bu səbəbdən elmə marağın 4,3% azaldığını bildirən mütəxəssislər təhsil sahəsində yeni proqramların passiv həyata keçirilməsindən narazılıq edirlər [127, 18-35].

PHD və magistr təhsil pillələrinə müraciət edən gənclərin sayının azalması da müşahidə olunur. Dəqiq elmlərdə bu gün mütəxəssis qıtlığı hiss olunur, problemi həll etmək üçün Estoniya rəsmiləri xaricdən ölkəsinə zəka axını baş verməsi üçün açıq qapı siyasəti yeridir. Sosial güzəştlər sahəsində də islahatlar həyata keçirən Estoniya da gələcəkdə ciddi iqtisadi-elmi böhrana düşmək istəmir.

Dünya alimləri içərisində öz zəkaları sayəsində böyük nüfuz əldə edən Ukraynadan zəka axını prosesinin başlanma tarixi XIX əsrin əvvəllərinə təsadüf edir. Sovet imperiyası qurulduqdan sonra yeni hökumətlə barışmayan ziyalı kütləsi xarici ölkələrə



mühacirət edərək vətənlərinin istiqlalı naminə mübarizə aparıblar. 1937-1938-ci illərdə də müxtəlif yollarla Ukraynanı xeyli zəka sahibi tərk etmişlər. II Dünya müharibəsi illərində Sovet qoşunları tərkibində almanlarla döyüşə çağrılan ukraynalı gənclər imkan düşən kimi qarşı tərəfə keçərək Qərb dövlətlərinə mühacirət edir və Ukrayna diasporunun tərkibini formalaşdırdılar [65, 147-150].

Ukrayna müstəqillik əldə etdikdən sonra miqrasiya prosesləri intensiv şəkildə davam etməyə başladı. Təkcə 1990-1992-ci illərin statistikasına nəzər salsaq ölkədən gedənlərin arasında nə qədə çox artım olduğunu görə bilərik. 1990-cı ildə 79, 3 min nəfər Ukraynadan köçmüşdürsə, 1992-ci ildə bu rəqəm 288, 1 mini göstərirdi. Bu ölkə daxilində baş verən sosial-iqtisadi böhranla sıx bağlı idi. 1995-1996-cı illərdə Ukraynadan MDB və xarici ölkələrə gedən zəkaların sayı 209 min nəfər idi. Və hər il bu rəqəm artmaqdadır. Ölkədən gedən zəkaların çoxluğu Ukraynada ciddi elmi kadr çatışmazlığı yaradıb.

2006-cı ilin məlumatına əsaslanaraq hazırda 7 milyon ukraynalının xaricdə yaşadığını və çalışdığı qeyd edə bilərik ki, onların 35 %-ni ziyalı kütləsi təşkil edir.

1991-ci ildə 39, 1992–57, 1993–68, 1994–90 elmlər doktoru vətəni tərk ediblər. Bu rəqəm 2005-ci ilə qədər sürətlə artmağa başlayıb. Ukrayna elmlər doktorları hazırda ABŞ, Fransa, İsrail, Almaniya, Rusiya Federasiyası kimi dövlətləri seçiblər. Elmlər namizədlərinin axın etdiyi dövlətlər isə Şərqi Avropa, ABŞ, Finlandiya, MDB ölkələri, Avstraliya və digərləridir. Xaricdə ehtiyac duyulan ukraynalı alimlər əsasən riyaziyyat, fizika, mexanika, cərrahiyyə və iqtisadiyyat sahələrində ölkə elminin elitası sayılırlar [83].

Problemin kökünün sosial-iqtisadi səbəblərlə bağlı olduğunu bildirən mütəxəssislər prosesin belə davam edəcəyi təqdirdə Ukraynada işçi və ziyalı kütləsinin çatışmamazlığının hiss olunacağını göstərirlər. Ölkənin inkişafı üçün yeni ideya və ixtiralarının qıtlığı Ukraynanı qonşu dövlətlərdən geri salacaq. Bunun üçün isə mütləq elmi işçilərin həyat şəraitlərinin

normallaşdırılması zəruri və qaçılmış addımlardır. Yeni ailə qurmuş alimlər və tədqiqatçılar ev, normal əmək haqqı və sosial güzəştlər kimi problemlərlə üzləşməli olurlar. Vətəndə qalıb ağır şəraitdə elmlə məşğul olmaq əvəzinə isə onlar yüksək həyat vəd edən xarici şirkətlərin cəlbedici təkliflərini dərhal qəbul edirlər.

Ukrayna hökumətini Avropada olduğu kimi elmdə və təhsildə islahatlar aparmağa çağıran mütəxəssislər texniki avadanlıqların müasirləşdirilməsini, kitabxanaların təkmilləşdirilməsini zəruri hesab edir, qısa zamanda mühüm addımlar atmaq vaxtının çatdığını bildirirlər.

Keçmiş post-sovet ölkələrində elmin və təhsilin səviyyəsinə görə seçilən Azərbaycan Respublikası da bu gün qloballaşma dövrünün ən problemli proseslərindən olan zəka axını ilə üz-üzə qalıb. Bu gün azərbaycanlı zəkaların səsi ABŞ, Fransa, Almaniya, Yaponiya, İngiltərə, Skandinaviya ölkələri, Rusiya Federasiyası kimi ölkələrdən gəlir. Azərbaycan alimlərinin dünya elminə verdiyi töhfələr indi öz əksini onlar barəsində yazılan kitablarda, məqalələrdə, esselərdə, TV verilişlərində tapır. Lütfizadə, Firudin Əminzadə, Səid İrandost, Kərim Kərimov, Məmmədbağır Əliyev, Qulam Rza Səbri Təbrizi və s. adları dünya alimləri içərisində yüksək mövqe tutmuşdur.

Bu gün Azərbaycandan zəka axını prosesi dünya elmini nəticəsində yeni kadrlarla təmin edir. Əmək miqrasiyası tərkibində zəka axını səbəblərindən onlarla elmi işçi və alimlərimiz xarici ölkələrin elmi tədqiqat və strateji araşdırma mərkəzləri ilə yanaşı transmilli şirkətlər və dövlət işlərində çalışırlar. 2003-cü ilin statistik göstəricilərinə nəzər salsaq, Azərbaycanı tərk edib xarici ölkələrdə özlərinə «səadət» axtaran vətəndaşların seçdiyi coğrafiya və sayı aydın görə bilərik: [18]



| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycandan gedənlər cəmi | 137900 | 28500 | 19601 | 16033 | 13151 | 15703 | 10498 | 9142 | 9947 | 7288 | 4320 | 3754 | 2800 |
| O cümlədən | | | | | | | | | | | | | |
| MDB və Baltikyanı ölkələr | 128756 | 26109 | 18001 | 13685 | 11031 | 14594 | 10063 | 8658 | 9521 | 7008 | 4229 | 33634 | 2697 |
| Rusiya Federasiyasına | 77452 | 19416 | 14517 | 11312 | 8149 | 12363 | 9175 | 7118 | 8393 | 6230 | 3691 | 3140 | 2285 |
| Ukraynaya | 12794 | 2091 | 1104 | 860 | 704 | 1116 | 381 | 655 | 513 | 339 | 221 | 181 | 152 |
| Belorusa | 1904 | 430 | 230 | 151 | 111 | 173 | 65 | 132 | 148 | 118 | 88 | 95 | 80 |
| Özbəkistana | 1234 | 306 | 158 | 144 | 94 | 148 | 45 | 103 | 46 | 32 | 18 | 13 | 12 |
| Qazaxıstana | 1975 | 499 | 285 | 204 | 188 | 189 | 156 | 153 | 174 | 170 | 125 | 149 | 121 |
| Gürcüstana | 1934 | 421 | 258 | 178 | 193 | 224 | 81 | 129 | 97 | 53 | 37 | 10 | 20 |
| Litvaya | 104 | 22 | 8 | 7 | 4 | 11 | 1 | 5 | 2 | 3 | 3 | 1 | 6 |
| Moldovaya | 228 | 48 | 21 | 12 | 17 | 11 | 5 | 8 | 7 | 5 | 8 | 6 | 9 |
| Latviyaya | 239 | 17 | 4 | 5 | 5 | 2 | 1 | 2 | 1 | - | - | - | - |
| Qırğızıstana | 212 | 111 | 56 | 41 | 34 | 73 | 18 | 30 | 31 | 16 | 15 | 25 | 2 |
| Tacikistana | 128 | 13 | 8 | 7 | 3 | 2 | 1 | 6 | 3 | 1 | - | 1 | 1 |
| Türkmənistana | 1406 | 275 | 153 | 118 | 1235 | 86 | 37 | 187 | 63 | 40 | 21 | 13 | 8 |
| Estoniyaya | 113 | 4 | 1 | 2 | 58 | 4 | - | 3 | 1 | - | 1 | 1 | 1 |
| Ölkəsi göstərilməyənlər | 29033 | 2456 | 1198 | 644 | 236 | 192 | 97 | 127 | 42 | - | - | - | - |
| MDB və Baltikyanı ölkələr istisna olmaqla* | 9144 | 2391 | 1600 | 2348 | 2120 | 1109 | 435 | 484 | 426 | 280 | 91 | 120 | 103 |
| Almaniyaya | 20 | 15 | 38 | 74 | 407 | 6 | 120 | 127 | 62 | 110 | 40 | 46 | 32 |
| İsrailə | 8442 | 1640 | 1085 | 1688 | 1253 | 643 | 153 | 179 | 199 | 88 | 29 | 31 | 16 |
| ABŞ-a | 543 | 699 | 447 | 570 | 445 | - | 103 | 92 | 103 | 42 | 8 | 18 | 34 |
| Türkiyəyə | 2 | - | - | 3 | 1 | 113 | 39 | 56 | 23 | 14 | 3 | 6 | 11 |
| İrana | - | 17 | 11 | 3 | 6 | 2 | 10 | 6 | 24 | 2 | - | 3 | - |
| Pakistana | - | - | - | - | - | - | - | 5 | - | - | - | - | - |
| Polşaya | 4 | 2 | 2 | 3 | . | - | 2 | 7 | - | 1 | | - | - |
| Yunanıstana | 35 | 3 | 1 | 3 | 5 | - | - | - | 3 | - | - | - | - |
| Digər xarici ölkələrə | 98 | 15 | 16 | 4 | 3 | 345 | 8 | 12 | 12 | 23 | 11 | 16 | 10 |

Bu məlumatdan göründüyü kimi soydaşlarımızın seçdiyi ölkələr zəka axını prosesində maraqlı tərəf kimi çıxış edən ölkələr xüsusi yer tutur.

## 1.3. Azərbaycan ziyalılarının xarici ölkələrdə yayılmasına təsir göstərən amillər

Azərbaycandan köçüb gedən digər ərazilərdə məskunlaşan soydaşlarımızın mühacirət tarixi qədim dövrlərə təsadüf edir. Azərbaycan mühacirəti özünəməxsus fərdi məqamlarla və tarixi-siyasi səbəblərlə səciyyəvidir. Bu barədə ədəbiyyat, məlumat və informasiya qıtlığı son illərdə aradan qalxdıqca azərbaycanlı işçi mühacirlərin və zəkaların səpələnmə arealının böyük bir coğrafiyanı əhatə etdiyini görmək olar. Azərbaycan zəkalarını yaratdıqları böyük əsərlər uzun illər keçməsinə baxmayaraq bu gün də öz dəyərlərini qoruyub saxlamaqdadır. Ayrı-ayrı tədqiqatçılarımızın araşdırmalarına əsaslanaraq belə qənaətə gəlmək olar ki, ilk zəka axını prosesi eramızdan əvvəlki dövrlərə təsadüf edir. Afət Əmirəliyevanın fikrincə qədim Azərbaycandan İbrahimilər tayfası Məğribə (Afrikaya) mühacirət edərək yerli insanlara oxuyub-yazmaq öyrətmişdir [56].

Azərbaycan müstəqillik əldə etdikdən sonra Sovetlər tərəfindən saxtalaşdırılan tariximizin «qara ləkələrin»dən biri də mühacirət tarixinin öyrənilməsidir. Müstəqilliyimizin ilk illərində Bakıda keçirilən «Azərbaycan mühacirət ədəbiyyatı» beynəlxalq simpoziumunu bir çox faktların aydınlaşdırılmasında mühüm əhəmiyyət kəsb etdi. Simpoziumda iştirak edən alimləri narahat edən məsələlərdən biri ölkədən ilk zəka axını probleminin araşdırılmasıdır.

Məlum olur ki, qədim Azərbaycan ərazisindən zəka axınına ilk imza atanlardan biri filosof Anaxarsis olub. Qədim Yunanıstanda elmə verilən böyük diqqət verildiyindən o, e. ə. 589-cu ildə Azərbaycanı tərk edib Yunanıstana gedib və orada özünə inanılmaz dərəcədə nüfuz qazanmışdır. Keşiş Bartelemi «Gənc Anaxarsisin səyahəti» kitabında onun vətəninin qədim Azərbaycan ərazisi olduğunu təsdiq edir. Bu fakt Azərbaycanın zəka miqrasiyasının böyük bir coğrafiyanı əhatə etdiyini və qədimliyini göstərir [47, 263].



Ölkəmizdən zəka axınının kütləvi şəkil alması VII əsrdə peyğəmbərin banisi olduğu İslam dininin yaranmasından və yayılmasında sonraya təsadüf edir. Bu tarixdən etibarən sənətkarlar, alimlər, şairlər və yazıçıların zəka axını etdikləri ölkələrdə böyük sənət əsərləri formalaşmağa başlanır.

VII əsrdə Azərbaycanın xilafət ordusu tarixindən işğalı, ölkə əhalisinin İslam dinini qəbul etməsi, məktəb və mədrəsələrdə tədrisin ərəb dilində aparılması, ərəbdilli elmin və ədəbiyyatın yaranmasına gətirib çıxarmışdır. Bu proses uzun illər boyu davam etdiyindən, Azərbaycanla İslam dininin mərkəzi Məkkə və başqa Yaxın Şərq şəhərləri arasında elmi, mədəni, iqtisadi əlaqələrin yaradılmasına və inkişafına gətirib çıxartdı. Ən müxtəlif tarixi mənbələrdə azərbaycanlı elm adamlarının, tacirlərin, müxtəlif peşə sahiblərinin ərəb ölkələrinə səfər etmələri, orada yaşayıb-yaratmaları barədə çoxsaylı məlumatlara rast gəlmək mümkündür. Belə ki, İbn Qüteybənin «Kitab-əş-şer və şüəara», Əbül Fərəc İsfahananin «Kitab Əl-Əvani» əsərlərində VII-VIII əsrlərdə Mədinə şəhərində azərbaycanlı şairlərin yaşadıqları qeyd olunur. İbn Qüteybə Əbülqəzyana istinad edərək yazırdı: Mədinədə məvailərdən elə bir şair yoxdur ki, əslən Azərbaycandan olmasın» [7, 8].

Bu fakt Azərbaycanda VII-VIII əsrdə də zəka axını prosesinin fəal olduğunu göstərir. Xüsusilə ərəb şəhərlərində intensiv halda baş verən prosesi bu ərazilərdə elm və təhsilin inkişafı ilə sıx bağlıdır. Bu illərdə zəka axını prosesinin ən tanınmış simalarından İsmayıl-ibn Yəsar, Əbül-Abbas Əman və Musa Şəhabitin adlarını xüsusi olaraq qeyd etmək olar.

Azərbaycanlı zəkaların ölkədən mühacirət etməsi X–XI əsrlərə də təsadüf edir. Yaxın və Orta Şərqdə, o cümlədən İraqda tanınan elm və ədəbiyyat xadimlərindən Yaqut Həməvi, İbn Qüteybə, Xətib Bağdadi, İbn-əl-Əsir və digərlərinin adlarını göstərmək olar.

Bu dövrün azərbaycanlıları barəsində geniş tədqiqat aparan Nazim Rizvan ərəblərə məxsus şəhərlərdə yaşayıb-yaratmış Əbu Bəkir Əhməd, Əhməd ibn Harun ibn Ruh-əl-Bərdici, Əbusəid

Əhməd Hüseynoğlu Bərdəi, Əbülhəsən Kəsxini, Hüseyn ibn Fərəc ibn Mühəmməd Abdullah ibn Səlmasi, Əbu ən-Məcid əl Urməvi, Əbdül-Qasım Bərdai, Əbu-Abdulla ibn Səlmasın qardaşı Əbu Tahir ibn Səlması, Yəhya Əli oğlu Xətib Təbrizi, Əbülhəsən Əli ibn Həsən Miyanəsi, Əbuhəfəis Ömər ibn Əli Səncani, Əbu Ömər Osman Səfbəndi, Əbu-Fəde Məhəmməd ibn Ömər ibn Yusif ibn Məhəmməd əl-Urməvi və digər Azərbaycan mühacirətinin görkəmli nümayəndələri barədə ətraflı məlumat verir.

Bunlar içərisində «Xülasə» əsərlərinin müəllifi olan Əbülhəsən Bərdaşinin adını xüsusilə qeyd etmək olar. Ərəb Şərqində onlardan sonra XV əsrə qədər tanınmış azərbaycanlılardan bir neçəsinin də adını çəkmək olar. Bunlar Şəmsəddin Xoylu (1187-ci ildə anadan olub), onun oğlu Şihabəddin Xoylu (1229-1294), Siracəddin Urməvi (1198-1283), Əfzələddin Hunəidci (193-1248), Səfiəddin Urməvi (1246-1316), Tacəddin Təbrizi (1277-1346), Şərəfəddin Maraği (1327-1388) daha tanınmış Azərbaycan diasporunun görkəmli nümayəndələri idilər [49, 26-42].

Azərbaycanı elm xadimləri ilə yanaşı tanınmış sənətkarlar da tərk edirdilər. Yaxın Şərqin, Asiyanın inkişaf etmiş dövlətlərində bu gün də öz qüdrətini və gözəlliyini qoruyub saxlayan mədəniyyət abidələrinin müəllifləri içərisində Azərbaycanı bu illər ərzində tərk etmiş zəkalı insanların adları çəkilir.

XVIII-XIX əsrlər arası Azərbaycandan zəka axını prosesinin coğrafiyasına Rusiya da daxil oldu. 1804-cü ildən başlayaraq azərbaycanlı zəkaların intensiv şəkildə köçdükləri şəhərlər içərisində Peterburq və Moskva şəhərləri xüsusilə seçilirdi. Rusiya çarı yanında öz zəkası hesabına xüsusi hörmət qazanan soydaşlarımızdan xarici işlər nazirliyində tərcüməçi vəzifəsində çalışan Nəsirov və Mirzə Əbu Turab Vəzirovun adlarını çəkmək olar. Bu şəxslərlə yanaşı çar aparatında işə dəvət alanlar içərisində Mirzə Cəfər Topçubaşovu və Mirzə Abdulla Vəzirovu Azərbaycan elminin elitası sayan tədqiqatçı Ağababa Rzayev onları eyni zamanda diasporumuzun görkəmli nümayəndələri kimi tanındığını qeyd edirdi [51, 23-91].



Zəka axını prosesinə qoşulan soydaşlarımızın əksər hissəsi öz vətənpərvərlik və milli hisslərini unutmamış tutduqları mövqedən asılı olmayaraq, azərbaycanlı olduqlarını danmamışlar. Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Fərəc bəy Ağayev, Həsən bəy Ağalarov, Mirzə Yusifxan, Mirzə Fətəli Axundov, Zeynalabdin bəy Maraği, Hacı Mirzə Əbdürrəhim Təbrizi Talıbzadə və digərləri Moskva, Peterburq, Paris, Qahirə və s. şəhərlərdə Azərbaycan kimliyini tanıtmış və təbliğ etmişlər.

XIX əsrin sonu XX əsrin əvvəllərində də Azərbaycandan zəka axını prosesi intensiv halda davam etmişdir. Buna səbəb ölkədə kütləvi savadsızlıq, elmi işlə məşğul olmaq imkanlarının məhdudluğu, təhsilin geridə qalması və Rus – İran təsiri altında milli dilin və ədəbiyyatın formalaşmaması idi. Bu səbəbdən də az-çox savadlı və ziyalı ailələr öz övladlarını Rusiya, İran, Avropa və Asiyanın nüfuzlu təhsil müəssisələrinə oxumağa göndərirdilər. Nəticədə isə udan Azərbaycan elmi, ədəbiyyatı və xalqı olmuşdur. Hərb, elm və incəsənət sahələrində böyük uğurlar əldə edən Azərbaycan zəkalarının bir hissəsi vətənə geri dönərək yerli əhalinin maariflənmdirilməsi ilə məşğul olub. Xaricdə qalıb-yaşamağa üstünlük verənlər isə diasporumuzun nümayəndələrinə çevrilirdilər.

Xaricdə qalmağa üstünlük verən Azərbaycanın nüfuzlu zəka sahibləri içərisində general Ə. Şıxlinski, Ağababa Sadıqov, Zülfüqar Bağırbəyov, Teymur Naxçıvanski, Mirkazım bəy Talışxanov, Əliqulu Mirzə Bəhman, Mirzə Kazım bəy və onlarla soydaşımız vətənin mənafelərini imkanları daxilində müdafiə etmişlər.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan dünyada təkcə nefti və təbii sərvətləri, uğurlu geosiyasi coğrafi mövqeyi ilə deyil, eyni zamanda yetişdirdiyi yaradıcı zəkaları ilə tanınmışdır. Nadir istedadlı insanlar isə Azərbaycan xalqının güclü və zəngin elm, mədəniyyət və incəsənət ənənələrinə söykənərək yetişmişdir.

Xalqın intellektual qüvvəsinin inkişafında Şimali Azərbaycanla Cənubi Azərbaycanı müqayisə etdikdə, bu nəticəyə

gəlmək olar ki, Cənubda təhsilin ana dilində təşkil edilməməsi orada xalqın intellektual qüvvəsinin geniş inkişafına müəyyən dərəcədə mənfi təsir etmiş əsas səbəblərdən biridir. Bu isə öz növbəsində Cənubi Azərbaycandan xaricə mühacirətin, xüsusilə zəka axının daha çox olmasının əsas səbəblərindəndir.

Bu dövrdə Azərbaycan ərazisi monqol-tatarlar, Əmir Teymur, Qızıl Orda və digər hərbi birliklərin hücumuna məruz qalmışdı. Bir çox şəhərlər yerlə-yeksan edilmiş, əhalisinin bir hissəsi qətl edilmiş, sənətkarlar, elm və mədəniyyət xadimləri əsir götürülərək xaricə aparılmışdır. Əsir azərbaycanlılar zorla aparıldıqları dövlətlərdə icmalarını yaratmış, zamanla yerli şəraitə uyğunlaşmışlar.

Bu proseslərə baxmayaraq, azərbaycanlıların tarixdə qoyduqları izlər silinməmişdir. Azərbaycan memarları, ixtiraçıları, ədəbiyyatşünasları, tacirləri, elm xadimləri, musiqiçiləri və hərbçiləri yaşadıqları ölkələrdə mühüm rol oynamaqla, nüfuz sahibi idilər. Bəhmənyar ibn Mərzaban, Nəsrəddin Tusi kimi azərbaycanlı alimlərin adları bütün dünyada məşhur idi. Avropada Nəsrəddin Tusi və Bəhmənyarın əsərləri ilə tanış idilər. Xristofor Kolumbun Amerikaya üzərkən əlində Nəsrəddin Tusinin çəkdiyi xəritə, onun ixtirası olan astronomik cihazların olması barədə məlumatlar var.

Azərbaycan memarlıq məktəbinin nümayəndələri Orta Asiya və Yaxın Şərqin Səmərqənd, Ürgənd, Buxara, Hələb, Məşhəd, İsfahan və Bağdad kimi zəngin şəhərlərində əzəmətli abidələrin tikintisində də iştirak edirdilər.

Ərəb kitabxanalarında olan mənbələrdə azərbaycanlı memarların yaratdıqları möhtəşəm tikililərdən geniş söhbət açılır. Xəlifə Ömərin hakimiyyəti illərində Kufə şəhərində tikdirdiyi məscidin tikintisi üçün azərbaycanlı memarlar dəvət edilmişdi. Səmərqənddə də böyük tikintilərdə iştirak edən memarlardan Məhəmməd Yusif Təbrizi, Fəxxar Zeynəddin Şəms Təbrizinin, Heratda Mahmud Məğşun Nəqqaş Təbrizi, Əli Memar, Yusif Qutqaşınlı, Hacı Əli Hafiz Təbrizi, Hindistanda rəssam Mir Seyid Əli Təbrizi və Ağa Mirək Qiyas, Bağdadda Əhməd əl-Xəqani,



Zərinqələm Təbrizi, Xocə Əlişah Təbrizi, Xətta Mübərənşah Zəriqələm, Türkiyədə Əsir Əli, Həsən Firuz oğlu, Məhəmməd Mahmud oğlu Ərazi, Bədrəddin Təbrizi və digərlərinin adlarını çəkmək olar [27, 42-44].

Anadoluda və Şərqi Frakiyada (Rum elində) orta əsrlər memarlığının aparıcı şəxsiyyətləri də əsasən Azərbaycan zəka axınının üzvləri olmuşlar. Bunların sırasında Mencucuqların saray memarı marağalı Həsən Firuz oğlu, mərəndli Əhməd Əbubəkr oğlu, başqa dövrlərdə təbrizli Hacı Bəxtiyar, tiflisli usta Əhməd İbrahim oğlu, memar Məməhəmməd Mahmud oğlu Ərani, memar və kimyaçı Bədrəddin Təbrizi, naməlum qəzvinli usta, memar Pir Həsən, bakılı memar Babacan, təbrizli usta Məhəmməd Məcnun nəqqaş İlyas Əli, Hacı Əli Əhməd oğlu, təbrizli Əsir Əli (yaxud Qul Əli) və başqaları fərqlənirdilər. 1180-ci ildə Divriqidə Qala məscidini, Ərzurumdakı Saltuklu Günbəzi türbəsini tikmiş Həsən Firuz oğlundan başlamış, I Sultan Səlimin Çaldıran döyüşündən sonra İstambula apardığı, özünə baş memar etdiyi, İstambulda Topqapı sarayının II baştacını (Bad əs-Səlam), Sultan I Səlim kompleksini, Yazarı Qasım məscidini, Bala Paşa və Mahmud Paşa məscidlərini, Əski şəhərdə Çoban Mustafa məscidini, Sofiyada Səfiəddin məscidini, Təkirdağda Ayaz paşa məscidini, Trabzonda Xatuniyyə məscidini, Konyada Səlim məscidini, Bozoyuqda Qasımpaşa məscidini, Halıcılarda mədrəsəni, yeməkxananı, məktəbi, Bosniyanın Sarayevo şəhərində məscidi, sarayı, gənclər binasını (Dar əs-Sibyan), kitabxana tikmiş Əsir Əliyə qədər olan memarlar, ustalar, nəqqaşlar Azərbaycanın adını geniş bir ərazidə məşhurlaşdırmışlar. Xüsusilə Mövlana Cəlaləddin Ruminin qəbri üstündə 1274-cü ildə Mövlana türbəsi tikmiş Bədrəddin Təbrizi və dahi sənətkar memar Sinana müəllimlik edən Əsir Əlinin adları dünya memarlığı tarixində şərəfli yerlərdən birini tutmalıdır.

Anadoludakı Azərbaycan zəkalarından söz açdıqda, əlbəttə, Cəlaləddin Rumiyə mürşidlik, ustadlıq edən, təriqət başçısı, ulu şair Şəms Təbrizini (XIII əsr) və bir zamanlar I Şah İsmayıl

sarayında məliküşşüəra olub, sonra Sultan Səlim tərəfindən İstanbula aparılan, yalnız Azərbaycanda deyil, həm də İranda yaranan poeziyaya, osmanlı-türk ədəbiyyatına da təsir göstərmiş Füzulini heyran qoyan qüdrətli qələm ustadı Həbibini də unutmaq olmaz.

XX əsrin əvvəllərində dünyada baş verən ictimai-siyasi hadisələr Azərbaycandan da yan keçmədi. Rus imperiyası işğalından azad olan Azərbaycan Şərqdə ilk demokratik respublikanın qurulduğu region oldu. Bu xəbər Rus imperiyasına qarşı çıxan ölkədən mühacirət etmiş zəka sahiblər vətənə geri dönərək müstəqil Azərbaycanın inkişafı naminə dəstəklərini əsirgəmirdilər. Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov və digərləri belə şəxslərin içərisində idi.

1918-19-20-ci illərdə dünyanın siyasi xəritəsində cəmisi 23 ay ömür sürən Demokratik Respublikanın diqqət yetirdiyi işlərdən biri də elm və təhsildə islahatları idi. Bakı Dövlət Universitetinin yaradılması, orta məktəblərin, gimnaziyaların açılması, qadınların təhsilə cəlb edilməsi görülən mühüm işlərdən idi. ADR-in daha bir diqqətəlayiq addımı xaricə tələbə göndərilməsi idi. 99 tələbənin Almaniya, İtaliya, Fransa, İsveçrə, Amerikaya təhsil almağa göndərilməsi Azərbaycan elminin və təhsilinin təkmilləşdirilməsinə xidmət edirdi.

O zamanlar Azərbaycandan xarici ölkələrə zəka axını davam edirdi. Türkiyə, Fransa, İtaliya, Almaniya onların köçdükləri ölkələrdən idi. Bu illərdə Azərbaycanı tərk edənlər içərisində Əli bəy Hüseynzadə, Firudin bəy Vəzirov, Ceyhun bəy Hacıbəyli, və s. adları xüsusi olaraq qeyd edə bilərik. [12, 5-8].

Xaricə mühacirət edən azərbaycanlı zəkaların fəaliyyətlərində vətəni təmsilçilik hissləri aşkar görünürdü. Elmin daha inkişaf etmiş (Azərbaycanla müqayisədə) Türkiyədə məskunlaşan Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə türkçülük və azərbaycançılıq ideologiyalarının formalaşmasında həlledici rol oynayıblar. Xüsusilə Əlibəy Hüseynzadənin Türkiyə mətbuatında çıxışları sonradan sistemləşdiriləək bu ideoloji görüşün kredosunu təşkil edirdi. Türkləşmək, islamlaşmaq və



avropalaşmaq kredosu demokratik respublikanın və mühacirətdə olan azərbaycanlıların aparıcı şüarına çevrildi [32, 50-51].

XX əsrin əvvəlləri qeyd etdiyimiz kimi ictimai– siyasi proseslərlə zəngin idi. Bu proseslərin fonunda dünyanın siyasi xəritəsini dəyişəcək Sovetlər Birliyinin yaradılması, bolşeviklərin hakimiyyətə gələrək Qafqazı işğal etməsi, sosial bərabərlik şüarını irəli sürməsi ziyalı təbəqəsinin etirazları ilə qarşılandı. 1920-ci ildə ADR-in süqutu ölkədən çoxsaylı mühacirət dalğasının başlanmasına təkan verdi və nəticədə düşünən beyinlərin 50%-i öz fəaliyyətlərini xaricdə davam etdirməyə üstünlük verdilər.

Azərbaycan sovet işğalı altında olanda elmi ədəbiyyatlarda 1920-ci ilə qədər və ondan sonrakı dövr barədə baş vermiş mühacirət prosesi ilə və bu zəka axınında iştirak etmiş ziyalılarımız barədə qeyri-dəqiq məlumatlar verilmişdi. Bir çox görkəmli zəka sahiblərinin fəaliyyətinə düzgün qiymət verilməməklə yanaşı, onun tarixi həm də saxtalaşdırılmışdır. XX əsrin əvvəllərində Azərbaycandan köçən zəkaları təhsillərinə və fəaliyyətlərinə görə aşağıdakı qaydada sistemləşdirmək olar [35].

1. İctimai xadimlər
2. Elm xadimləri
3. Ədəbiyyat və İncəsənət xadimləri
4. Azərbaycan generalları və hərbçiləri.

Avropaya və Türkiyəyə kütləvi şəkildə köçən zəka sahibləri içərisində Əlimərdan bəy Topçubaşov Versal Sülh Konfransına göndərilən nümayəndə heyətinin sədri və heyət üzvləri: hüquqşünas Miryaqub Mirmehdiyev, Ceyhun bəy Hacıbəyli, Rüfət bəy Xəlilov, A. Şeyxülislamov, rəssam Məmməd Səlim Uran və digərləri bəzi mühacirlər kimi gizli və passiv mövqedə durmamış Azərbaycanın istiqlalı üçün çalışmışlar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu barədə Azərbaycan milli təhlükəsizlik orqanlarının peşə bayramına həsr olunmuş təntənəli yığıncağında demişdir: “1920-21- ci illərdən başlayaraq siyasi repressiyalar, heç bir əsası olmadan ailəliklə, minlərlə, on minlərlə insanları yurd-

yuvalarında Orta Asiyaya, Qazaxıstana, Sibirə sürgün edilərək xalqımıza dəhşətlər gətirmişdir. 30-cu illərin siyasi repressiyaları nə qədər insanların, nə qədər ailələrin həyatını pozmuşdur. Nə qədər günahsız insanları həyatdan, azadlıqdan məhrum etmişdir. Xüsusən 37-38-ci illərin repressiyaları Azərbaycan xalqına, onun ziyalılarına, zəkalı adamlarına, onun intellektual potensialına çox böyük zərbələr vurmuşdur" [10].

1930-37-ci illərin geniş mühacirəti Azərbaycanda «xalq düşməni» tapmaq və kəndlərdə kolxoz quruluşuna müqavimətı qırmaq şüarı altında aparılmışdı.

Azərbaycanda 30-cu illərdə qətl edilənlərin sayı üç yüz min nəfərdən çox olmuşdur. Bunlardan 95% azərbaycanlılardır: Hüseyn Cavid, Böyükağa Talıblı, Xuluflu, Qantəmir, Əhməd Cavad, Mikayıl Müşfiq, Mustafa Quliyev, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Ruhulla Axundov, Sultan Məcid Qənizadə və digər ziyalılar həmin dövrdə məhv edildilər və az hissəsi mühacirət edərək canlarını qurtardılar. Məsələn, milyonçu Şəmsi Əsədullayevin qızı Ummulbanu Bakını 1923-cü ildə tərk edərək Türkiyəyə, oradan da Fransaya mühacirət etdi.

30-cu illərdə Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini Markaryan külli miqdarda azərbaycanlının Sibirə və Orta Asiyaya sürgün edilməsində maraqlı idi və imkan daxilində də bunu həyata keçirirdi. Rəsmi məlumata görə 1937-1938-ci illərdə Azərbaycan Xalq Daxili İşlər Komissarlığının 51 rayon şöbəsindən 38-nə ermənilər başçılıq edirdilər [1].

II Dünya müharibəsi illərində də Azərbaycan bir çox zəkalı insanları itirməli olub. Müharibədə iştirak edən azərbaycanlıların bir hissəsi əsir düşdükdən sonra alman ordusu tərkibində azərbaycanlı legionerlərlə çevirmişlər. Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan legionerlərlə rəhbərlik edən Məmməd Əmin Rəsulzadə, Ə. Əbdülrəhman, Fətəlibəy Düdəngiski ətrafında Azərbaycan xalqının vətənpərvər övladlarını toplamışlar. Bunlar içərisində ali təhsillilər də çoxluq təşkil edirdi. Fərman Salmanov, İsfəndiyar bəy, Əli Aran kimiləri Sovet ordusuna qarşı həm cəbhədə, həm də radio-mətbuatda mübarizə



aparırdılar. II Dünya müharibəsində almanların məğlubiyyəti nəticəsində soydaşlarımızın Avropa, Asiya və Amerika ölkələrinə kütləvi səpələnməsi başlandı. Onların Sovetlər Birliyinə geri dönməməsinin başlıca səbəbi geri qayıtdıqdan sonra Sibirin və Orta Asiyanın soyuq və isti iqliminin onları gözlədiklərini bildikləri idi.

Azərbaycanın Şimal hissəsi ilə yanaşı onun Cənubunu da zəka axını prosesi və mühacirət dalğaları bürümüş idi.

XX əsrin əvvəllərinə qədər Cənubi Azərbaycandan Qərb və Şərq ölkələrinə mühacirət prosesləri baş verib. Lakin Cənubi Azərbaycan mühacirət tarixi bizdə lazımi səviyyədə tədqiq edilməyib. Tədqiqatçılarımızın XX əsrdən etibarən Cənubi Azərbaycandan başlanan mühacirət prosesinin siyasi və iqtisadi səbəblərlə bağlayırlar. Fikrimcə Cənubi Azərbaycanın mühacirət tarixini aşağıdakı dövrlərə bölmək olar:

1. 1920-ci illər – Bu mühacirət əsasən siyasi səbəblərlə baş verib;
2. 1930-40-cı illər – Sosial (təhsil və elmi məqsədi), iqtisadi (iş qurmaq, səylərini artırmaq) – səbəbli mühacirət prosesi;
3. 1950-ci illər– bu dövrdə İranda mürtəce hərbi diktatura rejimi hökmranlıq edirdi və buna etiraz edən azərbaycanlıların siyasi mühacirəti;
4. 1960-cı illər– İranda təhsil səviyyəsinin aşağı olması səbəbindən soydaşlarımızın inkişaf etmiş dövlətlərə təhsil və təkmilləşdirmə məqsədilə mühacirəti;
5. 1978–1979-cu illər – Bu tarixdə artıq İranda İslam adı altında molla reymi, diktatura quruldu. İran İslam İnqilabı adlanan çevrilişdən sonra, cənublu qardaşlarımızın yeni rejimlə barışmaz mövqedən irəli gələn siyasi motivli mühacirəti [17, 1022].

Göstərilən hadisələr və proseslərlə əlaqədar formalaşan Azərbaycan diasporunun cənub qanadı kəmiyyət və keyfiyyət göstəricilərinə görə seçilir. Əsasən Qərbi Avropa və Amerika ölkələrində məskunlaşan cənubi soydaşlarımızın tərkibi belə bir struktura malikdir. Birincisi, ziyalı təbəqə-bura ali və orta

məktəblərdə çalışan müəllimələr, yazıçı və şairlər, ictimai xadimlər, həkim və mühəndislər daxildir. İkincisi, iş adamları-iri şirkət, firma sahibləri olan bu şəxslər yaşadıqları ölkələrin sosial-iqtisadi həyatında mühüm rol oynamaqla, yüksək dairələrdə nüfuz sahibləridir. Üçüncüsü, orta təbəqə-bu təbəqə əsasən xırda və orta ticarətçilər, inşaatçılar, texnoloqlar, nəqliyyatçılar və digər peşələrdə çalışan azərbaycanlılardan ibarətdir. Çalışdıqları sahələrdə kifayət qədər tanınan və seçilən cənubi azərbaycanlılar milli mədəniyyət və ədəbiyyatla sıx bağlıdır. Romantik və nostalji hisslərlə yaşayan cənublu soydaşlarımızın ziyalı təbəqəsinin müəllifi olduqları bədii və elmi əsərlər Qərb ölkələrində çox sevilir. Akademik təhsilə böyük maraq göstərən ziyalıların üstünlük təşkil etdiyi diasporumuzun Cənubi Azərbaycan qanadı elm-texnika sahəsində bir sox uğurlar əldə edib. Cənubi Azərbaycan qanadının mühüm bir hissəsi-sahibkarlar və ticarətçilər kifayət qədər güclü mövqeyə və nə nəhəng kapital mənbələrinə, maliyyə kanallarına malikdirlər. Onların sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Bu səbəbdən də məskunlaşdıqları və iş qurduqları ölkələrin yüksək dövlət xadimləri və iş adamları tərəfindən hörmətlə qarşılanan bu şəxslər müəyyən istiqamətdə onlara məsləhət verir və yol göstərirlər. Güclü maddi və intellektual imkanlara malik olmasına baxmayaraq, cənublu azərbaycanlılar arasında müəyyən məsələlərdə fikir ayrılığı, siyasi baxış fərqliliyi və mənəvi-psixoloji çətinliklər mövcuddur. Onların mənəvi-psixoloji cəhətləri şimallı azərbaycanlılardan və Türkiyə azərbaycanlılardan xeyli fərqlənir. Həmin məqamı cənubi azərbaycanlılar ilk növbədə, əsrlər boyu cənubda rasizmlə üzləşmələri ilə əlaqələndirirlər. Yəni bu mənfur siyasət nəticəsində milli və tarixi köklər assimlasiya olunub, mədəni, mənəvi və linqvistik bağlılıq zəifləyib. Uzun illərdən bəri fars şovinizmi onlara tarixi keçmişimizi və milli varlığımızı unutdurmağa çalışır. Buna baxmayaraq, soydaşlarımız ədəbiyyatımızı, mədəniyyətimizi və milli kimliklərini qoruyub saxlaya, inkişaf etdirə biliblər [25, 37-39].



Azərbaycanlıların böyük bir qisminin bu gün Vətəndən üzaqda, keçmiş SSRİ respublikalarında yaşayıb-fəaliyyət göstərmələri nisbətən xoş səbəblərdən baş vermişdi. SSRİ müxtəlif xalqların dostluq, beynəlmiləlçilik şəraitində yaşadığı nəhəng bir ölkə idi. Böyük tikintilər gedirdi. Qazaxıstanda xam torpaqların istifadəyə verilməsi, Sibirdə Baykal-Amur magistralının çəkilməsi, Volqaboyunda, Tümendə yeni neft yataqlarının istismarı və s. xalqların birgə iştirakı ilə həyata keçirilirdi. Azərbaycanlıların bir qismi, hətta elliklə bu yerlərə getmiş, bu günə qədər də orada məskunlaşmışlar. Bu insanlar arasında məşhur azərbaycanlılar da az deyil. Hətta o zaman neft üzrə əsas mərkəz Bakı sayıldığından, təzə yataqlar əsasən buradan gedən mütəxəssislərin səyi ilə kəşf olunmuş, müvafiq olaraq "II Bakı", "III Bakı", "IV Bakı" kimi anlayışlar meydana çıxmışdı. Əlbəttə, o zaman bu azərbaycanlılar bizimlə bir ölkədə yaşayırdılar. SSRİ dağıldıqdan sonra isə həmin geniş ərazilərdə diasporlar yaratmışlar.

Bura 1970-1980-ci illərdə keçmiş SSRİ-nin ən müxtəlif şəhərlərinə təhsil almağa göndərilmiş və sonradan həmin yerlərdə qalmış həmvətənlərimizi də əlavə etmək olar. O vaxtlar respublika başçısı Heydər Əliyev bunu məqsədyönlü həyata keçirmişdi. Azərbaycan gənclərinin daha çox bilik qazanması, dünyagörüşünün, intellektinin artması üçün istisna olaraq respublikamız üçün mərkəzdən böyük güzəştlər əldə etmiş və 1970-ci ildə 100 nəfərdən başlayaraq 1978-79-cu illərdə artıq hər il 800 nəfər gənci Moskvaya, Leninqrada, digər iri ali məktəblərə təhsil almağa göndərməyə nail olmuşdu. bu zaman həmin gənclərin bəzilərinin bəyəndiyi yerlərdə qalmasında da təəccüblü bir şey yox idi. "Bir millətin yalnız bir yerdə yaşaması vacib deyil. Əsas məsələ odur ki, harada olursan-ol, milliyyətini itirməyəsən, azərbaycanlı olaraq qalmağı bacarasan, Vətənini, ana dilini unutmayasan" [20, 67].

Lakin 80-ci illərin axırlarından etibarən ölkədə başlanan siyasi proseslər, həmçinin elmin problemlərinə dövlət səviyyəsində laqeydlik və biganəlik bu sahənin tənəzzülünə səbəb

oldu. Ulu öndər Heydər Əliyevin təbirincə desək, hətta o vaxtlar respublikada Elmlər Akademiyası kimi mötəbər elm məbədini dağıtmaq istədilər və əslində o, səviyyəyə gətirib çıxardılar. Belə neqativ proseslər xalqın əsas sərvəti olan kadr potensialına da mənfi təsir göstərirdi. Ölkəni bürüyən iqtisadi böhran alimlərin maddi vəziyyətinin aşağı olmasına, onların real gəlirlərinin azalmasına gətirib çıxarırdı, ziyalılar böyük çətinliklər qarşısında qalırdılar. O dövrdə yazıçıların, şairlərin, musiqiçilərin və rəssamların əksəriyyəti də bu vəziyyətdə idi. Yaranan vəziyyətin təbii nəticəsi isə elmi kadrların, yüksək ixtisaslı və xalqın sabahına ən gərəkli adamların ölkədən xaricə iş dalınca axınına səbəb oldu. Təkcə 1988-ci ildə 14 minə yaxın alim Azərbaycandan digər ölkələrə üz tutlu. 1990-1993-cü illər ərəfəsində isə bu rəqəm 15 minə çatdı. Ölkədəki qeyri-sabitlik, həqiqi elmin arxa plana keçməsi bu prosesi daha da gücləndirirdi. Vaxtilə SSRİ-nin müxtəlif şəhərlərində təhsil almış alimlərin bir hissəsi tanışları olan yerlərə, digərləri Türkiyəyə, İrana, ərəb ölkələrinə, Avropaya, Kanadaya üz tutmağa başladılar. Bu insanların hamısı geniş dünyagörüşünə malik, dəfələrlə xarici ölkədə olmuş elm və sənət adamları, öz sahələrinin qabaqcıl mütəxəssisləri idilər. Təbii ki, belə adamlar üçün xarici ölkələrdə bünövrə salıb qalmaq problem deyildi. Digər tərəfdən, həmin insanların çoxu təbiət, və texniki, dəqiq elmlər sahəsində SSRİ-nin qabaqcıl elmi məktəblərinin nümayəndələri idilər. Dünya ölkələrində isə SSRİ-nin fundamental elmlər sahəsində yaratdığı məktəblərin səviyyəsi hamıya yaxşı məlumdur. Həmin elmi kadrları xarici ölkələrin elmi laboratoriyalarına böyük məmnuniyyətlə cəlb edirdilər. Nüvə fizikası, riyaziyyat, neft geologiyası, dəqiq cihazların yaradılması üzrə mühəndis və alimlər yüksək səviyyədə işlə təmin olunurdular. Beləliklə, intellekt axını ölkənin sabahı üçün təhlükəli və narahatlıq doğuran bir vəziyyət yaradırdı. Gedən alimlərin çoxu cavan və orta yaşlı kadrlar idi. Onların itirilməsi ilə ölkəmiz bütün sənaye potensialını da zəiflədə bilərdi. Çünki müasir sənaye hazırlıqlı, elmi mühəndis-texniki mütəxəssislər olmadan fəaliyyət göstərə



bilmirdi Bu itkiləri hesablasaq, Azərbaycanın nə qədər qiymətli milli sərvətdən məhrum olduğunu aydın görərik. Çünki yüksək təfəkkürə və elmə malik olan alimlərin yenidən hazırlanması həddən artıq böyük vəsait və vaxt tələb edirdi.

Dövlət müstəqilliyinin ilk illərindən dağıdıcı hakimiyyət dövrü bizim elmi mühitin ən çətin illəri idi. O, zamankı «rəhbərlər» ölkənin elm məbədi üçün təhlükəli planlar qurmağa başladılar. Onların Milli Elmlər Akademiyasının əhəmiyyətini dərk etmək üçün səviyyələri çatmırdı. Bəziləri isə Akademiyanın böyük mülkiyyətinə və binalarına, infrastrukturuna göz dikmişdi. Bu da milli xəyanətkarlığın bir ifadəsi idi. «Hələ dağıdaq, sonra quranq» mövqeyindən həyata keçirilməsi nəzərdə tutulan layihələr içərisində EA–nın taleyi sual altına alınmışdı. Bu isə o demək idi ki, neçə onillik ərzində ağır zəhmət bahasına qazanılmış qabaqcıl mövqelər əldən veriləcək, hər şey dağıdılandan sonra sıfırdan başlamaq xətti əsas götürüləcək.

Azərbaycandan bu illər ərzində zəka axını prosesinə qoşulanların əksər hissəsi elm və təhsil sahəsində uğur qazanmış qadın alimlərimiz idi.

Elena Mirskaya qeyd edir ki, əgər feminləşmənin ikinci «dalğa»sı sovet elminin təşkil edilmiş genişlənməsi fonunda baş verirdisə, üçüncüsü onun 90-cı illərin sosial-iqtisadi böhranı ilə şərtlənən «sıxılma»sı ilə bağlı idi. Hazırkı sosial-iqtisadi vəziyyət alimləri elmi işi davam etdirmək, həm də minimum normal həyat səviyyəsini təmin etmək üçün hansısa yeni, qeyri-ənənəvi yollar axtarmağa məcbur edir. Son illərdə daxili və zəka axını – emiqrasiya və miqrasiya fəallaşmışdır. Emiqrantların əksəriyyəti elmi liderləri və gənc alimləri– kişilərdir. Başqa, daha nüfuzlu və yüksək ödənişli sosial fəaliyyət sahələrinə, əsasən biznes əv siyasətə keçmək də kişilər üçün daha səciyyəvidir. Qadınların peşəkar və ərazi sabitliyinin nisbətən yüksək olmayan səviyyəsi məlumdur. Qadınlar adəti üzrə minimum maaşa qane olaraq və elmi-tədqiqat müəssisələrində iş yükünün çox olmaması ilə əlaqədar öz yerlərini tərk etmir. Azərbaycan Respublikasının Elmlər Akademiyasında, ali məktəblərdə, elmi-tədqiqat, layihə-

konstruktor təşkilatlarında və texniki müəssisələrdə doktor və namizədlik dərəcəsi olan qadınlar işləyirdi və işləyir. Tanınmış alimlərin, Azərbaycanın əməkdar incəsənət xadimi, Bəstəkarlar İttifaqının üzvü, professor Elmira Abbasova; Azərbaycan rəssamlar ittifaqının üzvü, əməkdar elm xadimi, tarix elmləri doktoru, mərhum professor Sara Aşurbəyli; tibb elmləri doktoru, professor Umnisə Musabəyova; filologiya elmləri doktoru, mərhum professor Əzizə Cəfərzadə, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Mina Davatdarova; tibb elmləri doktoru, professor Sayalı Tağıyeva; akademik, tibb elmləri doktoru, mərhum professor Zərifə Əliyeva və bir çox başqalarının adını çəkə bilərik. Elm aləmində qadınların uğurlarına, onların kişilərlə bərabər (qadınların elmlərlə məşğul olmaq imkanı mənasında) hüquqlarına baxmayaraq, bu müvəffəqiyyətlər qadının elmin idarəolunma orqanlarında məhdud şəkildə təmsil olunması, ayrı-seçkilik, kişilərlə birgə aparılmış tədqiqatların nəticəsi çap olunarkən, qadınların hüquqlarının pozulması fenomeni ilə «sülh şəraitində» yanaşı yaşayırdı və yaşamaqdadır. Bizə elə gəlir ki, qadın yaradıcılığına kişilərin qısqanc yanaşması etnik yox, universal, bütün ölkələrdə müşahidə edilən hadisə, yaxud xüsusiyyətdir. Elm tarixçisi M. U. Rossister özünün «Elmdə matilda-matvey effekti» əsərində yazırdı ki, alim qadın F. Rotşteyn-Robbine 30 il ərzində fizioloq C. Uipl ilə yanaşı çalışmışdı və onların bir çox birgə hazırlanmış yazıları vardı– buna baxmayaraq 1934-cü ildə Nobel mükafatını Uipl tək almışdı [43].

Sovet dövründə həyatın bütün sahələrinə cəlb olunan Azərbaycan qadını ölkə həyatının bütün sahələrində aparıcı mövqe tuturdu.

1960-1980-ci illərdə ali məktəb tələbələrinin 35-40%-i qız idi.

Milli təhsil və mədəni quruculuq sahəsində Azərbaycan qadınları ona xas olan yüksək vətəndaşlıq və xalqına sevgi hissi ilə yaxından iştirak edirdi. 1980-ci ildə respublikanın xalq təsərrüfatı sahəsində 768 min qadın çalışırdı. Qadını istehsalat



sahəsinə, ağır sənayeyə, kənd təsərrüfatına (pambıq və çay plantasiyalarına) cəlb edən Sovet hökuməti bundan sui-istifadə edirdi. Tarlada, pambıq və çay əkini və yığımının çətin sahələrində qadın əməyi üstünlük təşkil edirdi. Kişilər isə idarəetmə kürsüsündə oturaraq qadın əməyinə nəzarət edirdi. Demək olar ki, qoşqu rolunu yerinə yetirən qadına qarşı münasibətdə islam ənənələri tamamilə unudulmuşdu. Partiya ideologiyası qadın əməyini rəğbətləndirir, «Sosialist Əməyi Qəhrəmanı» adı verərək maddi və mənəvi cəhətdən onu həvəsləndirirdi. Artıq normaya çevrilən ağır qadın əməyi ilə bağlı süni apofeoz yaradılırdı [82, 8-11].

Göründüyü kimi ölkədə qadın və kişi zəkalarının zəka axınına qoşulması və ölkədə qalıb işləyənlər arasında müəyyən rəqəmlərdə fərq olmasına baxmayaraq, problem eyni istiqamətdə inkişaf edirdi.

Azərbaycandan zəka axını prosesinin kütləvi şəkil alması 1991-ci ildə Dövlət müstəqilliyi haqqında bəyannamənin imzalanması oldu. Yeni müstəqillik əldə edən Azərbaycan daxili siyasi ictimai proseslərlə üz-üzə qalması digər sahələrlə yanaşı elm və təhsil sahəsinə də öz təsirini göstərdi. Ermənistanın Azərbaycana qarşı başladığı işğalçı müharibə daxili miqrasiya həddini yüksək dərəcəyə çatdırdı.

Erməni işğalından canlarını qurtarıb yurdlarını tərk edənlər bir yana– hazırda ölkədə 272. 000 nəfər qaçqınların yaşayış səviyyəsindən əsla fərqlənməyən həyat sürür.

Onlar Ermənistanı tərk edib Azərbaycana gələn 220. 000 azəri və 52. 000 nəfər məsheti türküdür.

234 qaçqın, o cümlədən Əfqanıstandan Bakıya gəlmiş 151 əfqan ölkəni tərk edərək, başqa dövlətlərə üz tutub. 114 nəfər Azərbaycandan getmək istəsələr də, qərarlarını sonradan dəyişiblər.

Qaçqınlardan 67 nəfər Kanada, 15 nəfəri İsveçə, 13 nəfəri isə ABŞ-a mühacirət edib. Son iki il ərzində 5. 200 nəfər soydaşımız Avropanın müxtəlif ölkələrinə gedərək orada sığınacaq istəyiblər.

Rəsmi statistikaya görə, 1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi bağlanandan üzübəri 72. 000 nəfər məcburi köçkün ermənilərin işğal etdikləri rayonlarla həmsərhəd bölgələrə, başlıca olaraq Fizuli və Ağdam rayonlarına qayıdıblar. Erməni terrorçuları hələ də Dağlıq Qarabağ və ətraf 7 rayonu işğalda saxladıqlarından, məcburi köçkünlərin tam əksəriyyəti doğma yurd-yuvalarına dönə bilmirlər.

Məcburi köçkünlər arasında 40. 000 nəfər Dağlıq Qarabağ sakini və 530 min nəfər ətraf rayonların əhalisi vardır. 1994-cü ildə əsrin müqavilə–neft kontraktlarının imzalanması bir çox inkişaf etmiş dövlətlərin Azərbaycanla münasibətlərinin güclənməsi iqtisadi, sosial və elmi əməkdaşlığın inkişaf etməsinə təkan verdi. Bakı və digər şəhərlərdə mərkəzləri açılan iri transmilli şirkətlərə işə cəlb edilən zəkalı gənclər sonradan təcrübə keçməyə göndərildikləri ölkələrdən geri qayıtmırdı.

BP, Statoil, Exxon və s. şirkətlərdə öz zəkalarını bu gün xarici ölkələrdə yüksək qiymətləndirirlər.

1988-ci ildə Bakı elm və təhsil işçiləri ilə yanaşı mütəxəssislər arasında aparılan sosioloji sorğu bir çox maraqlı məqamlara aşkarlıq gətirmişdir. Rəyi soruşulan azərbaycanlı respondentlərin 5%-i Rusiyaya, 3 %-i Türkiyəyə, qalan 82 %-i isə digər ölkələrə öz zəkaları hesabına kapital toplamağa üstünlük veriblər. Proqramçı, fizik və digər dəqiq elmlər üzrə mütəxəssislər əsasən ABŞ-da yaşamaq istədiklərini bildiriblər. 1998-99-cu illərdə ölkəni tərk edən mühacirlərin 62%-i ali təhsilli, 24 %-i isə natamam təhsillidilər [84, 33-35].

Respublikanı təkcə Rusiyaya getmək üçün 10 min adam tərk edir. «Coanit» yəhudi agentliyinin apardığı araşdırmaya əsasən son on ildə Azərbaycanı 31 min yəhudi tərk edib.

Azərbaycandan miqrasiya edənlərin arasında yüksək peşəkarlığa malik elm xadimləri, sənətkarlar və gənclər üstünlük təşkil edir. Siyasi, iqtisadi və sosial sahələrdə nəzərə çarpan nailiyyətlərə baxmayaraq, Azərbaycan hələ də davam edən münaqişənin, bazar iqtisadiyyatı və demokratiyaya keçidin törətdiyi böyük problemlərlə üzləşməkdədir. 1996-cı ildən



etibarən iqtisadi inkişaf sahəsində müəyyən tərəqqi müşahidə olunsa da, ölkədə işsizlik səviyyəsi 1, 2% olmuşdur. Bu problemlər qadınlar, məcburi köçkünlər və gənclər arasında xüsusilə özünü göstərir.

Buna görə də siyasi sabitliyə və iqtisadiyyat sahəsində nailiyyətlərə baxmayaraq, Azərbaycandan miqrasiya səviyyəsi yüksək olaraq qalmaqda davam edir. Lakin qeyd etmək lazımdır ki, son il ərzində miqrasiyanın tipi və dinamikası dramatik şəkildə dəyişmişdir. 1988-90-cı illər ərzində Azərbaycan xarici miqrasiya və qaçqınlar problemi ilə üzləşmiş bir neçə sovet respublikasından biri olmuşdur. Xüsusilə 1991-94-cü illərdəki qeyri-sabitlik, uzun müddət davam edən Dağlıq Qarabağ münaqişəsi və kəskin iqtisadi çətinliklər miqrasiyaya güclü təsir göstərmişdir. Bir qədər sonra bu öz yerini iqtisadi miqrasiyaya vermişdir. 1996-97-ci illər ərzində 272 min şəxs leqal şəkildə Azərbaycandan Rusiya, Ukrayna, Türkiyə, Almaniya, İsrail və Hollandiyaya mühacir etmiş və orada məskunlaşmışlar. Bütünlükdə isə təkcə Rusiyaya bu günədək 1, 5 milyon adam getmişdir [39].

1997-99-cu illərdə miqrasiya edənlər Qərbi Avropa ölkələrinə, ilk növbədə Almaniya və Hollandiyaya köçmüşlər. Azərbaycandan tənzimlənməyən mühacirət Qərbi Avropa ölkələrinin hakimiyyət dairələri üçün narahatlıq doğuran problemə çevrilmişdir. Statistikaya əsasən təqribən 4000 nəfər Azərbaycan vətəndaşı 2000-ci ildə Avropa ölkələrinə sığınacaq üçün müraciət etmişdir. Hollandiya və Belçika azərbaycanlı mühacirlərin sığınacaq üçün ən çox müraciət etdikləri ölkələrdir.

Azərbaycan zəka axını prosesinlə bağlı müstəqil qəzet «Exo»nun İnternet vasitəsilə keçirdiyi sorğuda iştirak edən 178 respondent 88 % hesab edir ki, proses Azərbaycana mənfi təsir göstərir. Bundan zərər çəkən Azərbaycanın elmi potensialıdır. 11% – rəyi soruşulan hesab edir ki, zəka axınından mənfi nəsə gözləmək əbəsdir. Bu adi bir haldır və qloballaşma dövrünün əsas tələblərindəndir. 1 % vətəndaş isə ümumiyyətlə zəka axını prosesinin mahiyyətini başa düşmədiklərini etiraf ediblər [105].

Bəzi ekspertlər belə hesab edirlər ki, prosesin mahiyyətində gənclərin və tələbələrinə xaricdə təhsil alması durursa, bu müsbət hal kimi qəbul edilməlidir. Xarici təhsil zamanı tələbələr xarici diplom alır, iri transmilli şirkət və beynəlxalq qurumlarda təcrübə keçir, xarici dil bilir nəhayət təhsil aldıqları ölkələrdə iş tapırlar, kifayət qədər pul qazanır və ölkələrinə göndərirlər. Bundan qazanan isə ölkə iqtisadiyyatı olur ki, bu zaman pul dövriyyəsi artır. Lakin həkim və müəllimlərin sayının azalmasından narahatçılıq doğulduğunu etiraf edən ekspertlər belə davam edəcəyi təqdirdə bu sahələrdi mütəxəssis qıtlığının öz təsirini digərlərinə də göstərəcəyini bildiriblər.

Maliyyə səbəbindən peşəkar musiqiçilərin xaricə işləməyə getməsi və gənclərin incəsənətə marağının azalması neqativ hal kimi saymaq lazımdır.

Vaxtında elmi ixtira və yenilik edən alimə diqqət göstərilməməsi onlarda küskünlük yaradır və zamanla elmə yüksək məbləğdə maliyyə ayıran dövlətlərin ali və elmi müəssisələrinə üz tuturlar [112, 6-14].

Ekspertlərin fikrincə, xarici dövlətləri qeyd-şərtsiz ölkələrində qəbul etdikləri azərbaycanlı mütəxəssislərin aşağıda qeyd edilən sahələr üzrə təhsilə üstünlük verirlər:

Geoloji kəşfiyyat; 2. Qaz və neft emalı; 3. Kimya texnoloqları; 4. Neft mexaniki; 5. Energetik; 6. İstehsalın avtomatlaşdırılması; 7. Neft və qaz kompleksinin iqtisadiyyatı; 8. Beynəlxalq iqtisadi əlaqələr; 9. Fizika; 10. Riyaziyyat; 11. Kompüter texnologiyası; 12. Neft mühəndisi; 13. Yüngül sənaye üzrə mütəxəssis; 14. Həkim və müəllimlər və s.

Bir çox ali məktəbləri diqqət mərkəzində saxlayan müxtəlif fond, tədqiqat və təhsil mərkəzləri, səfirlik və iri transmilli şirkətlərin ekspertləri fərqlənən azərbaycanlı tələbələri cəlbedici təkliflərlə öz ölkələrinə getməyə təhrik edirlər. Qloballaşma dünyada Avrasiya kimi bir məkanın aparıcı dövlətinə çevrilməkdə olan Azərbaycan iqtisadi və sosial-siyasi cəhətdən gücləndikcə onun savadlı gənc kadrlara və mütəxəssislərə ehtiyacı artacaq. Bu səbəbdən də əsas sahə kimi elm və təhsilin



Avropa standartlarına uyğunlaşdırılması zəruridir. Eyni zamanda zəka axını Azərbaycan dövlətinin milli təhlükəsizliyinə də zərərlidir. [40]

Bunun üçün də mütləq elm və təhsil sahəsində ciddi islahatlar aparılmalı və xaricə oxumağa gedənlərin geri qaytarılması üçün tədbirlər proqramı işlənib hazırlanmalıdır. Düzdür, dövlət zəka axını daxil olmaqla yanaşı miqrasiya prosesinin tənzimlənməsi istiqamətində işlər görür, bunlar hələlik prosesin qarşısını ala bilməyib. 2004-cü il də Azərbaycan hökuməti Dövlət Miqrasiya İdarəetmə siyasəti konsepsiyasını təsdiq edib. Dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış və artıq öz bəhrəsini verməyə başlayan müqavilələr, tarixi «İpək Yolu»nun bərpası, ölkənin əlverişli geosiyasi mövqeyi və Qərbyönulu siyasətin həyata keçirilməsi ölkədaxili və tranzit miqrasiya axınlarının mövcud tendensiyalarının əsas göstəriciləridir. Bu baxımdan beynəlxalq normalara uyğun olan dövlət miqrasiya idarəetmə siyasətinin qəbul edilməsi və onun əsasında miqrasiya proseslərinin idarə edilməsi üçün qaydalar və əsasnamələrin işlənib hazırlanması milli maraqlara xidmət edəcək.

Konsepsiya miqrasiyanın səmərəli, şəffaf və ölkənin ehtiyaclarına uyğun olaraq idarə olunması üçün istiqamətlər verən çevik və tarazlaşdırılmış rəhbər sənəddir.

Konsepsiyanın əsas məqsədi miqrasiyanın məqsədyönlü idarəolunması vasitəsi ilə milli təhlükəsizliyin gücləndirilməsindən ibarətdir. Bu sənəd həmçinin davamlı sosial-iqtisadi və demoqrafik inkişafı və əmək ehtiyatlarının səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Bununla yanaşı Konsepsiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz və ləyaqətlə qayıtması da daxil olmaqla ölkə ərazisində əhalinin rasional yerləşdirilməsinə yönəldilmişdir.

Konsepsiyanın düzgün tətbiqi beynəlxalq standartlara uyğun sığınacaq üçün milli müraciət sisteminin yaradılması, miqrantların intellektual və əmək potensialından istifadəsi, idarə olunmayan miqrasiya proseslərinin mənfi təsirinin aradan

qaldırılması, insan alveri də daxil olmaqla qeyri-qanuni miqrasiyanın qarşısının alınması, gözlənilməz kütləvi miqrasiyaya səbəb olacaq amillərin öyrənilməsi və onların optimal həlli üçün qabaqlayıcı kompleks tədbirlərin hazırlanmasına şərait yaradır.

Beləliklə, miqrasiya siyasəti heç də əvvəllər görülmüş işlərlə müqayisədə yeni işlərin daha çox və ya az görülməsi demək deyil, miqrasiya siyasəti gələcəkdə yaranacaq çətinliklərin həllində tətbiq oluna biləcək sağlam düşüncə və yeni qərarların işlənib hazırlanması deməkdir.

Azərbaycan hökumətinin yeritdiyi uğurlu xarici siyasət respublikamızın Avropaya inteqrasiya prosesinin sürətlənməsinə təkan verir. Avropada yaşamaq və işləmək üçün miqrasiya edən gənclərimiz zəka axını prosesinin qarşısının alınmasında Avropada inteqrasiyanın elm və təhsil siyasətinin Avropaya standartlarına uyğunlaşdırılmasını böyük rolu olacağına inanırlar. Bu baxımdan «Eu–xəbər» qəzetinin redaksiyasının tələbə gənclər arasında keçirdiyi sosioloji sorğu diqqəti cəlb edir. Belə ki, rəyi soruşulanların 80 %-i «Siz gələcəkdə Avropada yaşayıb, işləmək istərdinizmi?» sualına «hə» cavabı, cəmi 16 faizi «yox» cavabı veriblər, tərəddüd edənlər isə 4 faizi təşkil edib.

Məlum olduğu kimi Azərbaycanda bir sıra əcnəbi dinlərin və təriqətlərin təəssübkeşləri də sərbəst və maneəsiz fəaliyyət göstərirlər. Bu mənada ölkəmiz hətta bir sıra Avropa ölkələrindən daha tolerantdır. Bəs elə isə «tolerantlıq–yəni dini dözümlülük Azərbaycanın Avropaya inteqrasiya prosesinə təsir edə bilərmi?»

Anketdəki bu suala tələbə gənclərin 32 faizi «hə», 38 faizi isə «yox» cavabını verib. «Cavab verməkdə çətinlik çəkirəm» qrafasının altından xətt çəkənlərin sayı isə 30 faiz olub.

Onu da deyək ki, sorğu anketindəki, sonuncu suala verilən cavablar daha maraqlı bir mənzərə nümayiş etdirib. Gənclərə ünvanlanan «Siz Azərbaycanın AB-yə inteqrasiya prosesinə öz töhfənizi vermək istərdinizmi?» sualına respondentlərin 68 % faizi «hə», 24 % faizi isə «yox» cavabını verib. «Cavab verməkdə çətinlik çəkənlər» 8 faiz təşkil edib [59].



Cavablardan göründüyü kimi, gənclərimiz Avropa və digər inkişaf etmiş ölkələrində qalıb yaşamaq və işləmək istəyirlər. Təhsil almağa gedib geri qayıtmayan tələbələrin 60 %-nin geri qayıtmadı isə ciddi narahatlıq doğurur. Buna səbəb geri qayıtmaq istəməyən tələbələrin öz ixtisasları üzrə iş tapmaq qorxularının olmasıdır. Vətənə təhsilini başa çatdırdıqdan sonra geri dönənlərin çox hissəsi işə düzəldikdən sonra yenidən xaricə üz tuturlar. Belə tələbələr Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalara əsasən hərəkət etdiklərini bildirirlər. Qanunvericilikdə nəzərdə tutulduğu kimi Azərbaycanın istənilən vətəndaşı istədiyi vaxt xarici ölkələrin ali təhsil müəssisələrində müstəqil şəkildə təhsil ala bilər [58].

Azərbaycandan çıxaraq, iş dalınca müxtəlif ölkələrə mühacirət edən vətəndaşlarımızın 86 faizi çox yüksək səviyyəli peşəkar mütəxəssislərdir. Özü də onların cəmi 14 faizi humanitar elmlər üzrə ixtisaslaşıblarsa, 43 faizi ölkədə kəskin ehtiyac duyulan texniki ixtisas sahibidirlər.

Daimi yaşayış yeri qismində xarici ölkələri seçən vətəndaşlarımızın 83 faizi 18-39 yaş arasındadır. Onların 64 faizi ali və orta ixtisas təhsillidir.

Belə ki, Azərbaycanı tərk edənlərin 31 faizi rəhbər işçilər, 13 faizi texniki işçilər, 19 faizi humanitar elmlər sahəsində fəaliyyət göstərənlər, 13 faizi isə qulluqçulardır. [11]

Ekspertlər belə hesab edirlər ki, insanların sərbəst hərəkət azadlığının mütləqləşməsi nəticəsində dünyada kasıb ölkələrdən inkişaf etmiş ölkələrə intellekt axını başlayır. Hələ K. Marks təsdiqləyirdi ki, sosial tərəqqinin əsası insanların bilik və ixtisas səviyyəsidir. Kasıb ölkələrdəki açıq qapılar siyasəti, sərbəst hərəkət azadlığı yüksək ixtisaslı adamların kütləvi surətdə daha artıq kömək haqqı verən, təmin edən varlı ölkələrə axmasına səbəb olur. Məsələn, sərbəst hərəkət prinsiplərindən Bakı ölkələri istifadə edib kasıb ölkələrdə təhsil proqramlarını gerçəkləşdirirlər və bu, son nəticədə istedadlı müdavimlərin xarici ölkələrdə ali təhsilə getməsi ilə sonuclanır. Bu problem Azərbaycanda Rusiya və digər MDB ölkələrində də var. Ölkəmizdə yaranan şərait

yüksək intellektli, bacarıqlı şəxslərin xaricə axınına səbəb olub. Elmlər Akademiyası misalında bu məsələyə baxaq. Burada elmi işçilərin əmək haqqı son illərdə dəfələrlə artırılmasına baxmayaraq 150-300 min manat arasındadır. Alim başqa yerdə, hətta bir neçə yerdə işləməsə ailəsini dolandıra bilməz. Bu qaydada işləyən şəxs isə artıq elmi iş haqqında fikirləşmir, elm üçün ölmüş olur. Hazırda Akademiya işçilərinin 90 faizdən çoxu bu vəziyyətdədir. Təkcə Fizika İnstitutundan 50 nəfərdən çox alim hazırda Rusiyada, Almaniyada, Türkiyədə və başqa ölkələrdə elmi işlə məşğul olur. Ölkəmizdə iqtisadi vəziyyət az-çox yaxşılaşanda yəqin ki, onların əksəriyyəti qayıdacaqlar.

Ekspertlərin fikrincə, Azərbaycan elminin inkişafını təmin etmədən xalqın dinamik inkişafına nail olmaq mümkün deyildir. Respublikada vəziyyəti təbii sərvətlərimizi total satmaq yolu ilə müəyyən müddətə bir qədər yaxşılaşdırmaq olar, ancaq onun dinamik inkişafını təmin etmək olmaz. Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycan xalqının inkişaf səviyyəsi təbii sərvətlərlə yox, onun milli sərvəti olan insanın intellektual potensialı ilə müəyyənləşdirilməlidir.

Dünyada təbii sərvətləri bol olan elə bir ölkə yoxdur ki, o ölkənin xalqı intellektual potensialı daha güclü olan hər hansı ölkənin xalqından yaxşı yaşasın. Ona görə əsas diqqəti Azərbaycan şəraitində yeni texnologiyaların yaranmasına, elmin bütün fundamental sahələrinin inkişafına yönəldilməlidir. Azərbaycanda elmin inkişafını təmin edəcək əsas amil bu sahədə sağlam rəqabət prinsipinin həyata keçirilməsidir. Rəqabətin hökm sürmədiyi ölkələrdə elmin inkişafına ümid etmək absurddur. Fundamental elmlə tətbiqi elm arasında üzvi əlaqə olmasına baxmayaraq, bu elmlərin hər birinin inkişafına münasibət fərqli olmalıdır. Respublikanın elmlə məşğul olan institutları dövlətin sifarişli və maliyyəsi ilə əsasən fundamental tədqiqatlar aparmalı, müəssisə və təşkilatların sifarişi ilə isə tətbiqi elmlər inkişaf etməlidir. Dövlətin əlinə baxan, şəraiti olmadığına görə heç bir iş görə bilməyən, elmlə məşğul olduğu üçün ailəsinin, özünün vicdanı qarşısında xəcalət çəkən alimləri, elmi işçiləri indiki ağır



vəziyyətdən çıxarıb cəmiyyətin ən hörmətli adamlarına çevirmək istiqamətində ardıcıl və əsaslı işlər görülməlidir. Elm adamlarının cəmiyyətdə layiq olduqları yüksək mövqedə durmaları təmin edilməlidir.

Dövlət sifarişləri tender əsasında, institutlarla bağlanan müqavilələrlə həyata keçirməlidir. Dövlət institutlar, onların şöbələri, universitetlər, ayrı-ayrı elm adamları arasında rəqabət prinsipinin daim inkişaf etməsinə şərait yaratmalıdır. Tenderləri ancaq elmi potensialını daim inkişaf etdirən kollektivlər uda bilərlər.

Dövlət paralel olaraq elmdə opponentliyin də qayğısına qalmaq istiqamətində işlər görməlidir, çünki həqiqət ancaq geniş müzakirələr və mübahisələr zamanı ortaya çıxır.

Azərbaycanda xarici investorların təklif etdikləri heç bir layihə ölkəmizin elmi institutlarının iştirakı olmadan həyata keçirilməməlidir. Ölkədə tətbiq olunan layihələrin bütün mərhələlərində, yəni elmi axtarışlarda, nəticələrin çıxarılmasında, işçi layihələrinin hazırlanmasında və həyata keçirilməsində, elmi nəzarət proseslərində elmi tədqiqat institutlarının geniş iştirakına şərait yaradılmalıdır. Başqa sözlə, xaricdən Azərbaycana elmi işçilərin idxal edilməsi ilə öz elmi potensialımızın sıxışdırılmasına qətiyyən imkan verilməməlidir. Uzun illər boyu Rusiya Federasiyasının elmi sifarişlərini yerinə yetirən və bunun hesabına öz maliyyə vəziyyətlərini əhəmiyyətli dərəcə yüngülləşdirən elmi institutların ənənəvi əməkdaşlıq əlaqələrinin yenidən bərpasına şərait yaratmağa çalışmaqla yanaşı, digər ölkələrlə elmi inteqrasiyanın dərinləşdirilməsi siyasəti həyata keçirilməlidir.

Qeyd edək ki, hazırda dünya birliyinə daxil olan dövlətlər zəka axını prosesi daxil olmaqla miqrasiya probleminin tənzimlənməsi istiqamətində işlər görürlər.

Statistikaya görə, hazırda dünyada 191 milyon nəfər vətənindən kənarda yaşayır. Onların 115 milyon nəfəri inkişaf etmiş, 75 milyon nəfəri isə aralarında Cənubi Koreya və Sinqapurun da yer aldığı inkişaf etməkdə olan ölkələr seçiblər.

Qloballaşmanın qaçılmaz ünsürünə çevrilən miqrasiya həm gedənlərin ölkələrinə, həm də miqrantların üz tutduqları dövlətlərə xeyir verməlidir. Vətənlərini tərk edən miqrantlar gəldikləri ölkələrdə yerli əhali arasında populyar olmayan işlərdə çalışır, «ikinci vətən»lərini ümumi iqtisadi göstəricilərinin yaxşılaşmasına və əhalisi «qocalan» dövlətin sosial təminat-pensiya sisteminin güclənməsinə kömək edir.

Xatırladaq ki, hazırda Rusiya 2, 5 milyon, dünyanın müxtəlif ölkələrində isə 500 minə yaxın Azərbaycan vətəndaşı miqrant statusu ilə yaşayıb çalışır. Onların hər il Azərbaycana yolladıqları maliyyə vəsaitinin həcmi isə 2 milyard dollara yaxındır [2].

Göründüyü kimi azərbaycanlıların mühacirət etdikləri dövlətlər içərisində Rusiya liderliyi qoruyub saxlayır. Hazırda Rusiyada azərbaycanlıların çoxsaylı və kompakt halında məskunlaşdığı şəhərlər içərisində Moskva, Sankt-Pterburq, Tümen və digər şəhərlər üstünlük təşkil edir. Xüsusilə Moskva şəhər əhalisinin 8 %-ni azərbaycanlılar təşkil edir. Azərbaycanlıların əsasən ticarətlə, habelə restoran biznesi ilə məşğul olduğu bildirilir. Bu gün, Moskvada 3 minə qədər elmi idarələrdə çalışan azərbaycanlı var. Düzdür, azərbaycanlılar arasında əksəriyyəti ticarətlə məşğul olanlar tutur. Bəzilər onların arasında evə dönməyə meylin artdığını hiss edirlər. Bu tendensiyanı gücləndirən amillərdən biri kimi Rusiyada ksenofobiyanın artması qeyd olunur[42].

Moskva ilə yanaşı, azərbaycanlı ziyalı zümrəsi artıq İsveç, Fransa, Böyük Britaniya, Almaniya, Türkiyə, ABŞ, Ukrayna, Moldova, Belorusiya, Kanada, Norveç, Hollandiya, Belçika və s. ölkələrdə formalaşmağa başlayıb ki, bunda müstəqillik illərindən sonra bu ölkələrə axını güclənən zəkaların rolu böyük olub.

Zəka axınının müsbət tərəfi kimi biz ziyalı zümrəsinin xaricdə formalaşmasını göstərsək də, bunun neqativ cəhətləri də son illər özünü büruzə verir. Bu xaricə dini təhsil almaq üçün gedən gənclərin geri qayıtmayaraq, sonradan müxtəlif təriqətlər və qrupların üzvlərinə çevrilməsidir. ABŞ-ın ən qorxunc Quantanamo həbsxanasında həbs edilən terrorçular sırasında



azərbaycanlıların da olması təhsil ardınca xaricdə gedənlərin dövlət tərəfindən nəzarətə alınmasının zəruriliyini meydana çıxarır.

Hazırda dini təhsil almaq üçün Azərbaycanı tərk etmiş gənclərin sayı 2 min nəfərə çatır. Amma onların heç də hamısı Vətənə dindar kimi qayıtmırlar. Onlara Azərbaycanda fəaliyyət göstərən islam xeyriyyə təşkilatları və dini qurumlar yardım göstərib. Gənclər əksər hallarda dini cərəyanların təsiri altına düşdüyündən, geri qayıda bilmir. Onlardan bəziləri işlə də təmin olunur. Əlavə edək ki, dini təhsil adı ilə ölkədən çıxanlar həm də hərbi xidmətdən yayınırlar. Dövlət xətti ilə göndərilən gənclərin taleyi üçün dövlət qurumu məsuliyyət daşıyır. Amma müxtəlif qurumların təhsil almaq adı altında aldadıb Suriya, İran, Pakistan, Misir və Səudiyyə Ərəbistanına apardığı cavanlar da var ki, onlara görə isə dövlət qurumu heç bir məsuliyyət daşımır. Azərbaycan dövləti onlara nə təqaüd verir, nə də təhsil haqlarını ödəyir [19].

Bu problemlərlə yanaşı xaricdə iş və təhsil ardınca gedən zəka sahibləri Azərbaycanın inkişafı üçün önəmli olan yenilik və ixtiraları orada edirlər.

Bu gün dünyanın inkişaf etmiş, iqtisadi potensialı geniş olan 19 regionunda 284 nəfər Azərbaycandan olan iqtisadçı alim çalışır. Azərbaycanın müxtəlif yaşayış məntəqələrindən İran İslam Respublikasının sərhədyanı ərazilərində, o cümlədən Ərdəbildə, Təbrizdə, Germidə, Parsabadda, Zəncanda, Şirazda, İsfahanda, Urmiyada 2636 nəfər kənd təsərrüfatı mütəxəssisi çalışır. Onlardan 423 nəfəri kənd təsərrüfatının müxtəlif sahələri üzrə elmi-tədqiqat işləri aparırlar. Kənd təsərrüfatında balanslaşdırma və intensivləşdirilmə siyasətinin aparılmasında, iqtisadi amillərin sivil qaydalarla tətbiqi sahəsində İranda çalışan azərbaycanlı mütəxəssislər ölkənin büdcəsinə əlavə olaraq 2002-ci ildə ümumilikdə 18622 min dollar gəlir veriblər. 2003-cü ildə isə bu rəqəm 25701 min dollar olub. RF-nin iqtisadiyyat infrastrukturlarının inkişafında, formalaşmasında və yeniləşməsində təkcə 2002-ci ildə 78 min azərbaycanlı iştirak edib. Onların arasında 313 ixtiraçı-alim ölkənin iqtisadi qüdrəti üçün layihələr verib. Nəticədə RF-nin büdcəsinə 2002-ci ildə 8 milyard 610

milyon 594 min dollar gəlir gəlib. 2003-cü ildə isə bu rəqəm 12 milyard 211 milyon dollar olub [92].

Araşdırmalarımıza görə hazırda xaricə zəka axını prosesinə qoşulan gənclərin aşağıdakı problemləri əsas gətirilir:

1. Az əmək haqqı, AMEA əməkdaşları, təhsil işçiləri, həkimlər və digər peşə sahiblərinin aylıq gəliri 140-200 ABŞ dolları civarındadır və bu ailəli gənclərin 2 həftəlik dolanışığı deməkdir.

2. Sosial güzəştlərin olmaması. Gənclər şəhəri modelinin olmaması üzündən ev, avtomobil və digər yaşayış üçün zəruri olanlara dövlət tərəfindən verilən güzəştlərin gənc tədqiqatçıları və işçilərinin əmək haqqı ilə uyğun olmaması.

3. Elmi–texniki avadanlıqların olmaması, kompüter, printer, laboratoriya ləvazimatı və digərlərinin müasirlərlə əvəz edilməməsi.

4. Elmi ixtira və əsərlərin çap və patent olmamasında dövlət büdcəsindən güzəştlərin olmaması.

5. Tədqiqat məqsədilə xaricdə ezamiyyə səfərlərinə maliyyə ayrılmaması.

6. Dövlət işlərinə dəvət almamaq, müxtəlif proqram və layihələrdə iştirakdan kənar qalmaq və s.

Qeyd etdiyimiz bu səbəbləri izləyən xarici dövlətlər zəka axınına maraq oyatmaq üçün müxtəlif vasitələrə əl atırlar. Son olaraq isə Azərbaycandan zəka axınında maraqlı olan dövlətlərin siyasətlərini geosiyasi baxımdan araşdıraq.

Azərbaycanda təhsil və elmin yüksək səviyyəsi təkzibedilməz fakt olmaqla, azərbaycanlı alimlərin, savadlı kadrların bilik və bacarığına olan ehtiyacın yaranması başlıca amildir. Azərbaycan alimlərinin dünya elmində özünəməxsus və əvəzedilməz yerləri var. Onların «zəka axını» prosesinə qoşulmasının sosial-iqtisadi səbəblərini göstərməklə yanaşı, problemin görünməz tərəfini də danmaq olmaz.

XX əsrin son onilliyindən başlayaraq, bir çox ölkələrdə elmi-texniki tədqiqatlar sahəsində xeyli problemlər yaranıb. Bu neqativ halların qarşısını almaq üçün isə bir sıra böyük dövlətlər inkişaf etməkdə olan ölkələrdən savadlı-intellektual kadrları cəlb etmək üçün «zəka axını» prosesindən məharətlə istifadə etməyə çalışırlar.



Xüsusən, 1991-ci ildən sonra Azərbaycandan xaricə işləməyə və oxumağa gedən savadlı kadrların artması prosesini müşahidə edə bilərik. Əsasən Kanada, Birləşmiş Ştatlar, Rusiya, Türkiyə, Çin Xalq Respublikası və digər ölkələr Azərbaycandan gedən savadlı kadrların çoxluq təşkil etdiyi ölkələr olmaqla, burada təhsil almaq istəyən gənclər üçün geniş imkanlar yaradılır. Hazırda təkcə dövlət xətti ilə xaricdə təhsil alan tələbələrin sayı 1200 nəfərə yaxındır. Qeyri-dövlət xəttini də buraya əlavə etsək, bu rəqəm 2000-ə çatır. Xaricə təhsil almağa gedən gənclərin müəyyən hissəsi sonradan vətənə geri dönməyərək, assimilyasiya olunması, xarici ölkə vətəndaşlığına keçməsi prosesi isə son illərdə xeyli artıb. Bu isə öz növbəsində Azərbaycan üçün yeni problemlər yaradır. Azərbaycanın gələcəyinə xidmət etməli olan savadlı kadrların vətənə geri dönməyərək başqa ölkələrdə çalışması dövlətçilik nöqteyi-nəzərindən yolverilməz haldır.

Hazırda Azərbaycandan zəka axını prosesinin davam etməsində əsasən bir neçə dövlət maraqlıdır. 1991-ci ildə Sovetlər Birliyi kimi böyük imperiyanın çökməsi nəticəsində bu məkanda yaranan müstəqil respublikalara ilk maraq göstərən Birləşmiş Ştatlar idi. Yeni dövlətlərlə ikitərəfli əməkdaşlıq quran ABŞ bu ölkələrdən zəka axını prosesində maraqlı tərəf kimi çıxış edir. Rus tədqiqatçısı Oleq İkonnikov bildirir ki, 1992-ci ildə keçmiş Sovetlər Birliyi respublikalarından savadlı-intellektual kadrların mühacirəti üçün xüsusi plan hazırlanıb [24].

ABŞ-ın Milli Elm Fondu, Milli Sağlamlıq İnstitutu, Energetika Departamenti, Dəniz Tədqiqatları Nazirliyi və Kosmik Tədqiqatlar Mərkəzinin (NASA) birgə tərtib etdiyi plan Azərbaycandan və digər respublikalardan zəka axını prosesini intensivləşdirməyə xidmət edir. Plan gənc kadrların Qərbdə tanıdılması, alim və mütəxəssislərin ABŞ-ı tədqiqat aparmağa dəvət edilməsi, alim və tələbələri bu ölkəyə mühacirətə cəlb edən təşkilat və fondların yaradılması, yeni kadrlar axtarmaq üçün «Ükəşfiyyat» qruplarının formalaşdırılması, sponsorlar və qrant proqramlarının genişləndirilməsi kimi bəndləri özündə əks etdirir. Orta, ali və elmi tədqiqat müəssisələrinə savadlı və intellektual kadrları cəlb etmək istiqamətində ciddi işlər görən Birləşmiş Ştatlar əsasən biologiya, fizika, kimya, nüvə, tədqiqatları,

elektronika, Amerika tarixi və müasir dövr, arxeologiya sahələrində tədqiqat aparan və aparmaq istəyən şəxslərə geniş imkanlar yaradır. Bu yolla ABŞ hakimiyyəti «amerikanizm» siyasətini uğurla reallaşdırmaqdadır.

Bu ölkədə təhsil alan və elmlə məşğul olan azərbaycanlıların əksər hissəsi geri qayıtmaq barədə düşünmürlər, onlar bunu sosial-iqtisadi səbəblərlə əlaqələndirirlər. Amerika elminə böyük töhfələr verən soydaşlarımız bir sıra mühüm idarə və müəssisələrdə çalışırlar. NASA kimi önəmli idarədə 1991-ci ildən başlanan «zəka axını» zamanı Azərbaycanı tərk edən 10-dan çox həmyerlimiz çalışır. Amerika kosmonavtları arasında dörd nəfər azərbaycanlı var.

Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) ABŞ–ın marağı son zamanlar xeyli artıb. ABŞ-ın Milli Elm Fondu ilə AMEA arasında imzalanan müqaviləyə əsasən, azərbaycanlı alimlər bu ölkədə elmi-tədqiqat işlə məşğul olmaq üçün qrantlar alırlar. Fikrimizcə, marağın artmasına səbəb AMEA-nın əsas elm mərkəzi olması barədə müvafiq fərmanın imzalanmasıdır.

Azərbaycandan «zəka axını» prosesinin güclənməsində Almaniya dövləti də maraqlı tərəf kimi çıxış edir.

Tarixən Almaniya azərbaycanlı alimlərə, yazıçılara, mütəxəssislərə böyük diqqət verib. 1991-ci ildən isə Almaniyanın bir neçə fondu və təşkilatı bu istiqamətdə fəal iş görür. Almaniya Akademik Tələbə Mübadiləsi (AATM–DAAD), Adenauer Fondu, Fridrix Elbert Fondu kimi tanınmış qurumlar Azərbaycanla yanaşı, digər keçmiş Sovetlər Birliyi respublikalarından da alim və tələb mübadiləsi işini həyata keçirirlər. Ümumilikdə Almaniya elm və təhsil sahələri arasında fərq qoymur və bu ölkəyə istənilən ixtisas dalınca getmək olar. Almaniya əsasən «zəka axını» prosesindən istifadə etməklə tibb işçilərini bu ölkədə yaşamağa və işləməyə cəlb etməyə çalışır. Rusiyanın da Azərbaycandan «zəka axını» prosesində öz marağı var. Lomonosov adına, Bauman adına universitetlər əsasən kimya, fizika, biologiya sahələrində təhsil almaq və tədqiqat aparmaq istəyən azərbaycanlılar üçün geniş imkanlar yaradır. Ölkəyə «zəka axını» nəticəsində gələn savadlı kadrların müxtəlif üsullarla orada daima yaşamasına və çalışmasına səy göstərən Rusiya hakimiyyəti elmi-



texniki sahədəki geriləmələrin qarşısını almaq məqsədi güdür. Rusiya rəsmiləri milli təhlükəsizlik və dövlətçilik baxımından dəqiq elmlər üzrə savadlı kadrları geri qaytarmaq istəmir. «Zəka axını» mövzusuna son illər geniş yer ayıran Rusiya politoloqları bu ölkənin elm siyasətinin ciddi islahatlara ehtiyacı olduğunu gizlətmirlər. Bu istiqamətdə atılacaq ilk addım isə MDB üzvü olan dövlətlərin elm-təhsil müəssisələri ilə ikitərəfli əməkdaşlıq qurulması olduğunu bildirən rus politoloqları bununla Rusiyanın elmi potensialını gücləndirməyin mümkünlüyünü qeyd edirlər [123, 121-124].

Türkiyədə təhsil almaq və elmi araşdırma aparmaq istəyən azərbaycanlılar üçün ixtisas məhdudiyyəti qoyulmur. Azərbaycanlıların «zəka axını» nəticəsində üz tutduqları ölkələr içərisində Türkiyənin əvvəllər geniş imkanlara malik olmasına baxmayaraq, son illər bu sahədə vəziyyət bir qədər dəyişib. Maddi və mənəvi cəhətdən bəzi çətinliklərlə üzləşən Türkiyədə təhsil alan və çalışan azərbaycanlıların buradan Avropaya mühacirət etməsi halları çoxalmaqdadır.

İran dövləti son zamanlar Azərbaycanın elm xadimlərinə və savadlı gənclərinə böyük diqqət verməyə başlayıb. Bu ölkənin ali məktəblərinə və elmi mərkəzlərinə savadlı azərbaycanlı kadrları cəlb etməyə çalışan İran onları əsasən humanitar sahəyə yönəltməyə səy göstərir. Hüquq, siyasət, tarix, fəlsəfə, Azərbaycan dili, ədəbiyyat sahələri istiqamətində oxuyan və tədqiqat aparan şəxsləri İrana cəlb etmək üçün Tehran hökuməti bu məqsədlə xeyli maddi vəsait ayırıb

Çin, Fransa, İngiltərə, Polşa, Rumıniya, Slovakiya, Macarıstan, Ukrayna, Malayziya, İtaliya kimi dövlətlər də Azəraycanın elm və təhsil mütəxəssislərinə böyük önəm verməklə «zəka axını» siyasətindən faydalanmağa çalışır.

Qeyd edək ki, bu gün Azərbaycandan kənarda yaşayan soydaşlarımız arasında bu cür olan alimlərimiz, gənclər və orta yaş təbəqəsi arasında sosioloji sorğu keçirilmədiyindən səfər etdiyim Fransa, Almaniya, Belçika, Rusiya, Böyük Britaniya və dostlarım tərəfindən Kanadada sorğu keçirməyə qərar verdim. Sorğuda iştirak edən 75 soydaşımızın yaş və digər fərqlər aşağıdakı cədvəl şəklində təqdim edilir:

| № | Ölkələr | 18/35 yaş | 35/50 yaş | 50-yaşdan yuxarı |
|---|---|---|---|---|
| | | 25 nəfər | 30 nəfər | 2 0 nəfər |
| 1 | **Fransa** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |
| 2 | **Almaniya** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |
| 3 | **Belçika** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |
| 4 | **Rusiya** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |
| 5 | **Böyük Britaniya** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |
| 6 | **Kanada** | Tələbələr, miqrantlar, elmi araşdırma ilə məşğul olanlar | Vətəndaşlıq alanlar, elmi və digər sahələrdə çalışanlar, keçmiş mirantların övladları | Yaşlı nəsil miqrantlar, pensiyaçılar, icmaların liderləri |

Keçirilən sorğu zamanı 4 əsas sual respondentlərin müzakirəsinə verilmiş idi. Sorğu onların bir çoxunun xahişi ilə anonim aparılırdı və qeyd edilən vərəqlər analiz edildikdən sonra onların özlərinə qaytarılırdı. Sorğu zamanı qoyulan suallar aşağıdakı qaydada sıralanır.

1. Azərbaycandan miqrasiya etməyinizin əsas səbəbləri



2. Yaşadığınız ölkələrə adaptasiya oluna bilirsinizmi
3. Azərbaycanı kifayət qədər xaricdə tanıtmaq iqtidarındasınız
4. Vətəndaşlıq almaq niyyətindəsiniz
5. Azərbaycana geri dönmək barədə düşünürsünüzmü

Sorğunun suallarına respondentlərin cavabları müxtəlif olmuşdur. Bu zaman yaşlı nəsillə nisbətən gənc nəsil arasında fikir ayrılıqları özünü aşkar büruzə vermişdir. Cavabları cədvəl şəkilində təqdim edirəm:

**1. Azərbaycandan miqrasiya etməyinizin əsas səbəbləri sualına verilən cavablar**

| Ölkələr | 18/35 yaş | 35/50 yaş | 50-yaşdan yuxarı |
|---|---|---|---|
| | 25 nəfər | 30 nəfər | 2 0 nəfər |
| **Fransa** | Təhsil, səyahət, yeni tanışlıq, dünyagörüşün artması, iş yeri | İş axtrmaq, ailə qurmaq, vətəndaşlıq əldə etmək, biznes qurmaq | Rejim, üsul-idarə, qayda qanunlarının sərtliyi, ailələrinin burda olması, biznes imkanları |
| **Almaniya** | Təhsil, səyahət, yeni tanışlıq, dünyagörüşün artması, iş yeri, xarici dil öyrənmək | Siyasi səbəblər, iqtisadi maraq, vətəndaşlıq əldə etmək, biznes qurmaq | Rejim, üsul-idarə, qayda qanunlarının sərtliyi, ailələrinin burda olması, |
| **Belçika** | Təhsil, səyahət, yeni tanışlıq, iş yeri, biznes imkanları, dostların yanına qonaq gəlmək | Siyasi səbəblər, ailə qurmaq, iqtisadi maraq, vətəndaşlıq əldə etmək, biznes qurmaq | Rejim, üsul-idarə, qayda qanunlarının sərtliyi, ailələrinin burda olması, |

| | | | |
|---|---|---|---|
| **Rusiya** | Təhsil, səyahət, biznes imkanları, iş axtarmaq | İqtisadi maraq, biznes imkanları, ailə həyatı qurmaq, | Övladlarının yanına gəlmək, ailələrinin burda olması, biznes imkanları |
| **Böyük Britaniya** | Təhsil, səyahət, yeni tanışlıq, dünyagörüşün artması, iş yeri, xarici dil öyrənmək | Siyasi səbəblər, ailə qurmaq, iqtisadi maraq, vətəndaşlıq əldə etmək | Rejim, üsul-idarə, qayda qanunlarının sərtliyi, ailələrinin burda olması, |
| **Kanada** | Təhsil, səyahət, yeni tanışlıq, dünyagörüşün artması, iş yeri, xarici dil öyrənmək | Siyasi səbəblər, ailə qurmaq, iqtisadi maraq, vətəndaşlıq əldə etmək | Rejim, üsul-idarə, qayda qanunlarının sərtliyi, ailələrinin burda olması, |

## 2. Yaşadığınız ölkələrə adaptasiya oluna bilirsinizmi

| **Ölkələr** | **18/35 yaş** | **35/50 yaş** | **50-yaşdan yuxarı** |
|---|---|---|---|
| | **25 nəfər** | **30 nəfər** | **2 0 nəfər** |
| **Fransa** | Çətinliklə | Bəli | Bəli, amma biz bura yadıq |
| **Almaniya** | Bəli | Bəli | Bəli |
| **Belçika** | Çətinliklə | Bəli | Bəli |
| **Rusiya** | Bəli | Bəli | Bəli |
| **Böyük Britaniya** | Çətinliklə | Bəli | Bəli, |
| **Kanada** | Çətinliklə | Bəli | Çətinliklə |



## 3. Azərbaycanı kifayət qədər xaricdə tanıtmaq iqtidarındasınız

| **Ölkələr** | **18/35 yaş** | **35/50 yaş** | **50-yaşdan yuxarı** |
|---|---|---|---|
| | **25 nəfər** | **30 nəfər** | **2 0 nəfər** |
| **Fransa** | Edirik, ancaq məlumatlar azdır | Cəhd edirik | Çox işləmək lazım |
| **Almaniya** | Ali məktəblər və dostlarımız səviyyəsində | Cəhd edirik | Burda bizi yaxşı tanıyırlar |
| **Belçika** | Ali məktəblər səviyyəsində | Az-az | Burda bizi az da olsa tanıyırlar |
| **Rusiya** | Burda bizi yaxşı tanıyırlar | Burda bizi yaxşı tanıyırlar | Burda bizi yaxşı tanıyırlar |
| **Böyük Britaniya** | Ali məktəblər səviyyəsində | Cəhd edirik | Burda bizi az da olsa tanıyırlar |
| **Kanada** | Çətinliklə | Burda bizi az da olsa tanıyırlar | Az-az |

## 4. Vətəndaşlıq almaq niyyətindəsiniz

| **Ölkələr** | **18/35 yaş** | **35/50 yaş** | **50-yaşdan yuxarı** |
|---|---|---|---|
| | **25 nəfər** | **30 nəfər** | **2 0 nəfər** |
| **Fransa** | İstəyirəm | Olmaq üzrəyəm, | Vətəndaşam |
| **Almaniya** | İstəyirəm | Olmaq üzrəyəm, | Vətəndaşam |
| **Belçika** | İstəyirəm | Olmaq üzrəyəm, | Vətəndaşam |
| **Rusiya** | İstəyirəm, bilmirəm | Olmaq üzrəyəm, bilmirəm | Vətəndaşam |
| **Böyük Britaniya** | İstəyirəm | Olmaq üzrəyəm, | Vətəndaşam |
| **Kanada** | İstəyirəm | Olmaq üzrəyəm, | Vətəndaşam |

### 5. Azərbaycana geri dönmək barədə düşünürsünüzmü

| Ölkələr | 18/35 yaş | 35/50 yaş | 50-yaşdan yuxarı |
|---|---|---|---|
| | 25 nəfər | 30 nəfər | 2 0 nəfər |
| Fransa | Cavab verməkdə çətinlik çəkirəm, bəlkə gələcəkdə, imkan olsa qayıtmayacam | Bilmirəm | İstəyirəm |
| Almaniya | İmkan olsa qayıtmayacam | İstəyirəm, bilmirəm | İstəyirəm |
| Belçika | İmkan olsa qayıtmayacam | Xeyir | İstəyirəm |
| Rusiya | Gələcəkdə qayıdacam | İstəyirəm, bilmirəm | İstəyirəm |
| Böyük Britaniya | İmkan olsa qayıtmayacam | Xeyir | İstəyirəm |
| Kanada | İmkan olsa qayıtmayacam | Xeyir | İstəyirəm |

Rəyi soruşulanlar içərisində Azərbaycandan miqrasiya edənlərim əksər hissəsinin mövqeyini dairəvi cədvəl-qrafika halında təqdim edirik:

### 1. Azərbaycandan miqrasiya etməyinizin əsas səbəbləri sualına verilən cavablar






### 2. Yaşadığınız ölkələrə adaptasiya oluna bilirsinizmi




### 3. Azərbaycanı kifayət qədər xaricdə tanıtmaq iqtidarındasınız




### 4.Vətəndaşlıq almaq niyyətindəsiniz



**5. Azərbaycana geri dönmək barədə düşünürsünüzmü**




Beləliklə, intellekt axını ölkənin sabahı üçün təhlükəli və narahatlıq doğuran bir vəziyyət yaradır. Gedən alimlərin çoxu cavan və orta yaşlı kadrlardır. Onların itirilməsi ilə ölkəmiz bütün sənaye potensialını da zəiflədə bilər. Çünki müasir sənaye hazırlıqlı, elmli mühəndis-texniki mütəxəssislər olmadan fəaliyyət göstərə bilmir, fəaliyyət göstərəndə isə belə sənaye obyektləri adətən iqtisadi səmərəlilikdən uzaq olur. Bu itkiləri hesablasaq, Azərbaycanın nə qədər qiymətli milli sərvətdən məhrum olduğunu aydın görərik. Çünki yüksək təfəkkürə və elmə malik olan alimlərin yenidən hazırlanması həddən artıq böyük vəsait və vaxt tələb edir.



# II FƏSİL

# YENİLƏŞƏN DÜNYADA AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNDƏ DİASPORANIN ROLUNA FƏLSƏFİ YANAŞMA

## 2.1. Azərbaycan diasporunun yaranmasında ictimaiyyətin (elm, mədəniyyət, incəsənət və. s) rolu və mövqeyi

Müasir dünyada baş verən siyasi proseslərin aktiv iştirakçısı olmaq üçün beynəlxalq münasibətlər sistemində mövcud olan əsas siyasi fenomenləri qavramaq tələb olunur. Bu sistemdə xüsusi rola və çəkiyə malik olan diaspor problemi də var.

Diaspor yunan sözü olub «səpələnmə», «dağılma» kimi tərcümə olunaraq «xalqın və ya etnik qrupun müəyyən hissəsinin mənsub olduğu dövlətdən kənarda yaşaması» mənasını verir. İlkin ana qaynaq kimi Tövratın yunancaya çevrilməsində istifadə olunan bu söz MÖ 586-cı ildə Babil əsarətindən dünyanın müxtəlif tərəflərində yerləşən toplumlara işarə olunaraq istifadə olunmuşdur. (Tövrat, Deuteronomy/ Yasanın təkrarı 28: 25)

Diasporun formalaşması və mövcudluğu tarixi öz başlanğıcını mühacirət prosesinin baş verməsindən götürür. Mühacirət hallarının kütləvi xarakter alması isə öz növbəsində diasporun yaranmasını qaçılmaz və zəruri edir.

Azərbaycanlılar da mühacirət prosesindən kənarda qalmamışdır. Azərbaycan diasporunun formalaşma tarixi qədim dövrlərdən başlanır. Eramızdan əvvəl və eramızdan sonra böyük ərazilərə malik olmuş Azərbaycan dövlətləri öz milli maraqlarını qoruyub saxlamaq və daha geniş əraziləri ələ keçirmək uğrunda apardıqları mübarizələr nəticəsində, əhalinin mühacirət prosesində xüsusi məqsədlər kimi istifadə etmişlər. Müasir dövrün ən görkəmli səyyah alimlərindən biri olmuş norveçli Tur Heyirdal öz tədqiqatlarında azərbaycan türkünün dünya boyu yayılmasını elmi faktlara əsaslanaraq dəfələrlə sübut etmişdir.

Zaman-zaman Azərbaycan diasporu məskunlaşdığı ölkələrdə assimilyasiyaya məruz qalmışdır. Lakin bunlara baxmayaraq, adları çəkilən qitələrdə azərbaycanlıların fəaliyyəti, mədəniyyəti, ədəbiyyatı, musiqisi və milli adət-ənənələri ilə bağlı abidələr və s. faktlar hələ də qalmaqdadır. Tarixin gedişi dövründə Azərbaycan diasporu müxtəlif çətinliklərlə üzləşmiş, dünyada baş verən ictimai-siyasi proseslər nəticəsində formalaşması və təşkilatlanması pərakəndə şəkildə baş vermişdir. XVII əsrdən XX əsrin əvvəllərinə qədər Azərbaycan diasporunun qarşılaşdığı əsas çətinliklərdən biri də Azərbaycanın xanlıqlara parçalanması, müstəqil dövlətinin olmaması və işğalçı dövlətlərin torpaqlarımıza olan maraqları idi [22, 5-6].

XX əsrin əvvəlində Şərqdə ilk demokratik Respublika – Azərbaycan Demokratik Respublikasının yaradılması dünyaya səpələnmiş azərbaycanlıların dövlətimizin ətrafında birləşməsi istiqamətində müəyyən imkanlar yarada bilmişdi. Lakin ADR-in ömrünün cəmi 23 ay çəkməsi aparılan işləri yarımçıq qoymuşdu. Azərbaycan Sovetlər Birliyinin tərkibində də olan zaman da xaricdə yaşayan həmvətənlərimiz Azərbaycan barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və dövlətimizin müstəqilliyinin yenidən bərpa edilməsi üçün müəyyən işlər görmüşlər. Xarici dövlətlərdəki Azərbaycan icmaları, təşkilatları və mətbuatın apardığı təbliğat Sovet təhlükəsizlik orqanları tərəfindən sıxışdırılmış, təqib olunmuş və müxtəlif təzyiqlərlə üzləşmişdir. Lakin bütün bunlara baxmayaraq, soydaşlarımız Azərbaycan ilə müxtəlif vasitələr ilə əlaqələr saxlayırdılar. Digər respublikalarla yanaşı Azərbaycanda da 70-ci illərdən sonra xaricdə yaşayan soydaşlarımızla əlaqələrin qurulması istiqamətində cəmiyyətlər, ictimai təşkilatlar və elmi mərkəzlər yaradılmışdır. Qismən də olsa, bu birliklər dünya azərbaycanlıları barədə informasiyalar toplamış və onlarla əlaqələr yaratmışlar. Bunlardan «Vətən» Cəmiyyəti, vaxtilə fəaliyyət göstərmiş «Yurd», «Soydaş» və s. əlaqələndirici təşkilatların adlarını çəkmək olar.

XX əsrin son onilliyində Azərbaycan Respublikası dünyada baş verən böyük ictimai-siyasi dəyişikliklərin uğurlu nəticəsində



müstəqillik əldə edib dünya birliyinin bərabərhüquqlu üzvü olduqdan sonra Azərbaycan diasporunun dövlətimiz ətrafında birləşərək, vahid mərkəzdən idarə olunmasına geniş şərait yaranmışdır. 1991-ci ildən etibarən isə hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi keçirilməsi dövlətimizin diasporumuza olan diqqətinin bariz nümunəsidir.

1993-1994-cü ildən sonra Azərbaycanda diaspor mövzusunun prioritet mövqeyə qalxmasında dünya şöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi böyük rol oynadı. Artıq ABŞ, Fransa, Almaniya, Rusiya, Belçika, Böyük Britaniya, Skandinav ölkələri və digər bölgələrdə yaşayan azərbaycanlılar təşkilatlanma prosesinə fəal olaraq qoşularaq ölkənin xarici siyasi kursunun həyata keçirilməsində müəyyən rol oynamağa çalışırdılar. Bir sıra ölkələrdə etiraz aksiyaları, piket, mitinqlər keçirilir, məktub və informasiya təbliğatı işində canlanma hiss olunurdu. Təşkilatı struktura malik olan birliklərin yaranması zərurəti ortaya çıxdı.

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsinin mühüm nəticəsi olaraq diaspor hərəkatında fəallığın və lobbiçilik işinin artmasın təkan verilməsi oldu. Bu işlərin aparılmasının həvalə olunduğu Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası ilk 5 il ərzində diasporun formalaşması istiqamətində mühüm sayılan işlərin reallığa çevrilməsində həlledici rol oynadı. 2006-cı il martın 16-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Dünya Azərbaycanlılarının II Qurultayı artıq görülmüş işlərə yeni çalarlar verdi. Azərbaycan–türk diasporlarının birləşməsi istiqamətində mühüm addım olan II Qurultay artıq diasporumuzun üzərinə böyük öhdəliklər qoydu. Bu işlərin reallaşması ilə diasporda aparıcı yer tutan ziyalı insanların çiyninə düşür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı ilin iyun ayında Türkiyənin Antalya şəhərində keçirilən Dünya Azərbaycanlıları Ziyalılarının I Forumuna göndərdiyi təbrik məktubunda diasporun formalaşmasında onların rolunun nə dərəcə əhəmiyyətli olduğunu aşkar bildirib. Mətbuatda diqqət

çəkən məqamda deyilir: «Müasir dünyada qloballaşma proseslərinin intensiv xarakter alması ilə ölkələr arasında siyasi, iqtisadi və mədəni əlaqələr dərinləşmiş, müxtəlif xalqların mütərəqqi dəyərlərdən bəhrələnərək dünya sivilizasiyasına öz töhfəsini verməsi üçün yeni imkanlar açılmışdır. Belə şəraitdə beynəlxalq birlikdə layiqli yerini tutmaq üçün ümumbəşəri dəyərlərin qiymətləndirilməsi və əxz olunması ilə yanaşı, milli-mənəvi dəyərlərin, mütərəqqi ənənələrin qorunması və zənginləşdirilməsi, eləcə də təbliğ olunması mühüm əhəmiyyətə malikdir. Bu baxımdan Azərbaycan Respublikası ilə yanaşı, diasporumuzun da üzərinə mühüm vəzifələr düşür. İnamla qeyd edə bilərəm ki, Azərbaycan diasporunun son illərdə keçdiyi inkişaf yolu onun böyük potensiala malik olduğunu göstərir. Bu potensialın əsas daşıyıcısı xaricdə yaşayan həmvətənlərimizin mütəşəkkil hissəsini təşkil edən elm, təşkil, mədəniyyət və incəsənət xadimlərindən ibarət ziyalılarımızdır. Yüksək intellektual səviyyəsi və dərin düşüncə tərzi ilə seçilən ziyalılar cəmiyyətin qabaqcıl təbəqəsi kimi proseslərə düzgün qiymət vermək və səfərbəredici missiyanı yerinə yetirmək imkanlarına malikdir. Ona görə də dünya azərbaycanlılarının təşkilatlanmasında, soydaşlarımızın öz milli varlığını dərk etməsində, milli-mənəvi dəyərlərini yaşadaraq təbliğ etməsində ziyalılarımızın üzərinə böyük vəzifə və məsuliyyət düşür.

Eyni zamanda, azərbaycanlı icmalarının yaşadıqları ölkələrin ictimai, siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakının təmin olunmasında və Azərbaycan lobbisinin formalaşmasında ziyalılarımız fəal rol oynamalıdırlar. Müxtəlif sahələrdə çalışan ziyalılar dünyanın elm və mədəniyyət xadimləri, ictimai və siyasi təşkilatların nümayəndələri, dövlət orqanlarının təmsilçiləri ilə əlaqələrini daha da gücləndirməli, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə dolğun surətdə çatdırılması və xalqımızın mənafelərinin layiqincə qorunması üçün ardıcıl səylər göstərməlidirlər. Xüsusilə qəsbkar erməni planlarının və ideoloji təxribatlarının ifşa edilməsində, Azərbaycanın tarixi və mədəniyyətinin, mütərəqqi ictimai fikrinin bütün dünyada



peşəkar səviyyədə təbliğ olunmasında çoxsaylı ziyalı təbəqəsinin tükənməz potensialından səmərəli istifadə edilməlidir». [22]

İndiyədək dünyanın müxtəlif ölkələrində Azərbaycan diasporu təşkilatlarının işlərində müəyyən mənada ziyalıların iştirakı təmin oluna bilmirdi, ziyalı təbəqə diasporunun təşkilatlanması işindən kənarda qalmışdı. Bəzən də bu amil bir sıra ölkələrdə diaspora təşkilatlarının işinə mənfi təsir göstərirdi. Qeyd edək ki, Dünya Azərbaycanlıları Ziyalılarının Forumunun baş tutmasını bir çox ekspertlər Azərbaycan üçün çox əhəmiyyətli hadisə kimi qiymətləndirirlər. Çünki cəmiyyətdə hər zaman ziyalı sözünə, ziyalı fəaliyyətinə böyük ehtiyac olub. Dünya azərbaycanlıları ziyalılarının bir araya gəlməsi isə elə dünyada yaşayan bütün soydaşlarımızın birləşməsi anlamına gəlir. Təbii ki, dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın bir araya gəlməsi, türk və Azərbaycan diaspora təşkilatlarının birgə fəaliyyət göstərməsi üçün bu forumun keçirilməsi bir təkan rolunu oynayacaq [53].

Alimlərimizin tədqiqatçı kimi başqa ölkələrdə çalışmalarını zəka axını kimi dəyərləndirmək bir neçə səbəbdən düzgün olmazdı. Əvvəla, müasir qabaqcıl istiqamətlərində mükəmməl tədqiqat aparmaq üçün, təəssüflər olsun ki, hələ lazımi texniki şərait yoxdur, üçüncüsü isə, dünya şöhrətli alimlərin yüksək səviyyəli laboratoriyalarında, onlarla birlikdə daha səmərəli elmi araşdırma ilə məşğul olmaq mümkündür.

Şübhəsiz, alimlərimizin xaricdə apardıqları elmi tədqiqatlar Azərbaycanda da elmin inkişafına təkan verir. Bir çox gənc alimlər Vətənə zəngin yeni bilik ehtiyatı və ideyalarla qayıdır, dünya elminin nailiyyətlərini elmimizin müxtəlif sahələrinə nəzəri və fundamental tədqiqatlara və istehsalata tətbiq edirlər.

Alimlərimizin xaricdə işləməsi dünya elmində lobbimizi yaratmaq vəzifəsinə də xidmət edir. Bu, ilk növbədə, Azərbaycanın özündə elmi tədqiqatların və layihələrin təmin edilməsi üçün maliyyə və texniki vəsaitin cəlb olunmasına, imkan daxilində, daha çox gənc alimin dünyanın aparıcı elmi müəssisələrində nəzəri və təcrübi məktəb keçməsinə və tədqiqatla

məşğul olmasına kömək edir. Lobbi yaradılmasının həm də siyasi əhəmiyyəti var. Alimlər birləşərək, daha yaxşı təşkilatlanar, Vətənin onlara qayğısını hiss edib, onun mənafelərini daha uğurla qoruyarlar [23].

Azərbaycan diasporu və lobbisinin formalaşmasında əvəzedilməz rolu olan ziyalıların xarici ölkələrə zəka axını etməsini 3 dövrə bölmək olar:

I. ADR-in süqutundan sonra başlanan zəka axını

II. 1940-1980-ci illər arası Şimali və Cənubi Azərbaycandan baş verən zəka axını

III. 1991-ci ildən başlayan və bu gün də davam edən zəka axını.

I – ADR-in süqutundan sonra başlanan zəka axını prosesində iştirak edən ziyalılarımız içərisində ictimai-siyasi fəallıq göstərənlərin sayəsində millətlərimizi dünyaya tanıtmaq istiqamətində böyük və mühüm işlərə imza atıblar. Vətəndə «xalq düşməni» və «burjua millətçisi» kimi tanınan soydaşlarımız onlar barəsində söylənilən və yazılan fikirlərə baxmayaraq, ictimai-siyasi fəallıq göstərmiş və Azərbaycan adının müstəqil dövlət kimi tanınmasında mühüm işlər görmüşlər. Belə zəka sahibləri və elm xadimləri içərisində xüsusi seçilənlər aşağıdakılardır:

Müsəlman-Türk dünyasında bir mücahid və ensiklopedik şəxsiyyət kimi tanınmış görkəmli filosof, şair, tənqidçi və publisist Əli bəy Hüseynzadə 1905-1907-ci illərdə Bakıda türkcə nəşr edilən ilk gündəlik «Həyat» qəzetinin naşiri və baş redaktoru olmuşdur. Bu illərdə dövrü mətbuatda («Füyuzat» jurnalı və s. ) nəşr etdiyi əsərlərində o, məzhəbçilik (sünnü-şiə) və ruslaşdırma meyllərinin əksinə çıxaraq islam birliyi ideyasını təbliğ edirdi.

Əli bəy Hüseynzadə 1910-cu ildən sonra ömrünün sonunadək (qısa fasilələr müstəsna olmaqla) Türkiyədə yaşamış və İstanbul Universitetinin professoru olmuşdur.

Əli bəy Hüseynzadə həmin dövrdə «türkləşmək, islamlaşmaq, müasirləşmək» ideyasını müdafiə etmişdir [34, 54-59].



Hüseyn Baykara (əsl adı Qara Hüseynovdur) 1923-1927-ci illərdə Bakıda Dövlət Universitetinin tarix fakültəsində təhsil aldığı dövrdə Azərbaycanın müstəqilliyi ideyasını təbliğ edirdi və buna görə də təqib edildiyini hiss dərək əvvəlcə İrana, oradan da Türkiyəyə mühacirət etdi. İstanbul Universitetinin hüquq fakültəsini qurtardıqdan sonra hüquqşünaslıqla bərabər ədəbi-publisist fəaliyyətini də davam etdirmişdir. O, 1966-cı ildə ilk böyük əsəri olan «XIX əsrdə Azərbaycanda yeniləşmə hərəkatları» kitabını Türkiyədə nəşr etdirmiş sonralar isə «Azərbaycan mədəniyyət tarixi» və «Azərbaycan istiqlal mübarizəsi tarixi» (1975) kitablarını yazmışdır.

Gəncədə dünyaya göz açmış Əhməd Cəfər oğlu Gəncədə və Kiyevdə təhsil almış, 1920-ci ildə Türkiyəyə mühacirət etməli olmuşdur. 1919-24-cü illərdə İstanbul Universitetinin ədəbiyyat fakültəsində oxumuş və az sonra həmin universitetdə müəllim edərək, dosent rütbəsi almışdır.

Əhməd Cəfər oğlu 1920-29-cu illərdə Berlin universitetində işləmiş və orada doktorluq elmi dərəcəsi almışdır. 1929-cu ildə Türkiyəyə qayıtmış və burada 1938-ci ildə professor adına layiq görülmüş və kafedra müdiri vəzifəsində işləmişdir.

Professor Əhməd Cəfər oğlu Polşa, Macarıstan, Ukrayna Elmlər Akademiyalarının müxbir üzvü seçilmişdir. Ukrayna universitetinin fəxri doktoru (1953) adına layiq görülmüşdür.

Ceyhun Hacıbəyli (1891-1962) – 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan «Azərbaycan» qəzetinin təsisçilərindən biri və ilk redaktoru olmuşdur. Onun mühacirəti Fransada və Almaniyada keçmişdir. Parisdə o, fransız dilində «Azərbaycan» adlı bülleten (jurnal) nəşr etdirmiş, Münhendə isə 1951-ci ildə «Azərbaycan» jurnalının nəşrini təşkil etmişdi. [35, 219-226]

İren xanım Məlikova – Bakıda neft sənayeçisi ailəsində doğulmuş və 1917-ci ildə Azərbaycandan mühacirət etmiş azərbaycanlı İren xanım Məlikova uzun illər Fransanın Strasburq Universitetinin professoru olmuş, Qərbi Avropada nəşr edilən yeganə türkologiya jurnalı olan «Türkika»nın baş redaktoru

olmuşdur. O, eyni zamanda Bakı Dövlət Universitetinin fəxri professoru idi.

Adları sadalanan görkəmli şəxslərlə yanaşı barələrində az öyrənilmiş ziyalılarımız Azərbaycan diasporunun formalaşmasının bünövrəsini qoyublar. Onlar əllərinə düşən bütün imkanlardan istifadə ediblər. Xüsusilə, ADR-in mühüm simalarından biri Fətəli xan Xoyskinin qardaşı oğlu, ABŞ-a Sovet imperiyasının işğalından sonra köçən Zahid xan Xoyskinin diaspor və lobbiçilik işindəki rolunu qeyd etmək olar.

1954-cü ildə ABŞ Konqresində SSRİ-nin milli respublikaları haqqında müzakirələrdə iştirak edən Zahid xanın çıxışı diqqəti cəlb edib. Zahid xan diasporumuzun formalaşmasında mühüm rolu olub.

Lakin bu insanlarının sayının azalması milliyyətlərinin «naturallaşdırma haqqında Qanunla» dəyişdirilməsi və digər səbəblər üzündən təşkilatı struktura malik və fəal olan diasporanı tam olaraq formalaşmasına nail ola bilməyiblər. Bu səbəbdən də əsas işlər II dalğa zəka axınında iştirak edən soydaşlarımızın üzərinə düşməli olub.

II – 1940-80-ci illər arası Şimali və Cənubi Azərbaycandan baş verən zəka axını zamanı Azərbaycanın hər iki tərəfində mövcud durum intellektual insanların zəka axını etdikləri coğrafiya geniş bir məkanı əhatə edirdi. Xüsusilə, ABŞ, Böyük Britaniya, Avropa dövlətləri Rusiya kimi ölkələrdə məskunlaşan ikinci dalğanın nümayəndələri təşkilati struktura malik olan diasporun formalaşdırılması ilə yanaşı biznes sahəsini də inkişafında mühüm rol oynayırlar. Bu illərin zəkaları elm, təhsil sahələri ilə yanaşı öz bizneslərini quraraq yaşadıqları ölkələrin iqtisadi inkişafına dəstək veriblər. Azərbaycan zəkalarının bu dalğası dünya elminə və iqtisadiyyatına verdikləri bir çox sahələrin formalaşması ilə yanaşı insanların təfəkkürlərində yeni baxış sistemi yaratdı. Bu insanların ən böyük üstünlüyü isə Azərbaycan kimliyinin tanıdılması ilə paralel ziyalı zümrəsinin xarici ölkələrdə güclənməsi və genişlənməsinə verdikləri töhfə idi. Belə ziyalı təbəqənin içərisində xüsusi olaraq seçilənlər bu



gün həyatda yaşamaqla yanaşı diasporumuzun aparıcı amallarıdır. Sadəcə onların adı artıq Azərbaycan dövlətinin tanınması deməkdir. Belə şəxslərin içərisində şöhrət qazananlar aşağıdakılardır:

Professor Lütfi Ələsgərzadə və yaxud dünyada Lütfi Zadə adı ilə tanınan bu dahi insan 4 fevral 1921-ci ildə Bakıda, Rəhim Ələsgərzadənin ailəsində anadan olmuşdur. Tehran Universitetinin elektrik mühəndisi fakültəsinə daxil olan Lütfi zadə 1942-ci ildə həmin universitetdə təhsilini uğurla başa vurub. 1944-cü ildə Amerika Birləşmiş Ştatlarına üz tutdu. Bunun obyektiv səbəbləri vardı.

1944-cü ildən 1959-cu ilə qədər ABŞ-da, Massaçusets Texnologiya institutunda və Kolumbiya Universitetində magistr, doktorluq elmi dərəcələri almış, professor işləmişdir. 1959-cu ildən Berkli Universitetində professor, 1963-cü ildən isə «Elektrik mühəndisliyi və kompüter elmləri» kafedrasının rəhbəri işləmişdir. Hal-hazırda prof. L. Zadə həmin universitetdə ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərir.

L. Zadə 5 fundamental elmi nəzəriyyə təklif etmişdir. ABŞ-ın Berkli şəhərində İnformasiya Texnologiyası üzrə Zadə institutu yaradılmışdır – ZİFİT institututu.

İ. Zadənin elmdə Z–çevirmə kimi tanınan işi diskret və rəqəmli idaretmə, informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoymuş bir elmi nəzəriyyədir.

İ. Zadənin ən böyük nəzəriyyəsi qeyri-səlis məntiq nəzəriyyəsidir. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə vermişdir: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaratdı.

İ. Zadənin Soft Computing nəzəriyyəsi qeyri-səlis məntiq, süni neyron şəbəkələri, genetik alqoritmlər, xaos nəzəriyyəsi və ehtimal nəticəçıxarma paradiqmlərinin intellektual

kombinasiyalarını özündə əks etdirərək yeni texnologiyaların əsasını təşkil edir [26, 40-41].

İ. Zadənin sözlə işləyən kompüterlər nəzəriyyəsi əsasında işləyən kompüterlərdə informasiyanın qranulyasiyası kimi sözlər, cümlələr istifadə olunur. Bu tip kompüterlər təxmini məntiqi nəticə çıxarma qabiliyyətinə malik olan və təəssürat əsasında informasiyanı işləyə bilən insan beyninə ən adekvat texniki modeldir.

İ. Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. Təkcə 1990-2000-ci illərdə onun əsərlərinə 36000-dan çox istinad edilmişdir.

İ. Zadə bir çox xarici ölkə akademiyalarının üzvüdür. O, çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülmüş, medallarla təltif edilmişdir. O, onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur.

Amma professor Lütfi Zadə şəxsiyyətini, Lütfi Zadə əlçatmazlığını müəyyən edən bu mükafatlar deyil, bir ömürdə beş elmi nəzəriyyə yaratması, dünya elmində inqilabi çevriliş edib onun ümumi mənzərəsini dəyişdirməsi ilə xarakterizə olunur.

Professor Qulamrza Səbri Təbrizi – şair, tərcüməçi, ədəbiyyatşünas, ictimai xadimdir. 1953-1958-ci illərdə Təbriz Universitetinin ingilis və fars filologiyası fakültəsini bitirən Q. S. Təbrizi azadfikirliliyinə görə təqib olunmuş vətəni tərk edərək Türkiyəyə getmiş, 1960-cı ildə İstanbul Universitetində dissertant kimi fəaliyyətə başlayır. Lakin həmin il Türkiyədə çevriliş olduğundan təkrar İrana qayıdır. Bir neçə ay burada qaldıqdan sonra isə onu gözləyən təhlükələrdən xilas olmaq üçün İngiltərəyə mühacirət edir.

1963-cü ildə Edinburq Universitetində dissertantlığa başlayan Q. S. Təbrizi çox keçmədən «Vilyam Bleykin dialektik fikri, sosial görüşləri» mövzusunda doktorluq dissertasiyasını müdafiə edir [135].

Q. S. Təbrizi eyni zamanda ictimai fəaliyyətlə də ardıcıl məşğul olmaqdadır. Xüsusilə, onun Azərbaycan diasporu ilə bağlı gördüyü işlər təqdirəlayiqdir. Son illərdə Qulamrza bəyin



diasporun təşkilatlanması, Azərbaycanla əlaqələrinin güclənməsi, milli problemlərimizin dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördüyü işlər xüsusi dəyər daşımaqdadır. O, Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında fəal iştirak etmiş, həmin qurultayın qərarı ilə yaradılmış Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədr müavini seçilmişdir. Hazırda o, bu sahədə fəaliyyətini uğurla davam etdirməkdədir.

Q. S. Təbrizi Böyük Britaniyada təsis olunmuş Ana dili fondunun sədridir. Hazırda Ana dili fondunun dəstəyi ilə xeyli sayda soydaşımız Avropa və Azərbaycanın müxtəlif universitetlərində təhsil almaqdadır. Həmçinin fondun yardımı ilə indiyədək Azərbaycan yazıçı və alimlərinin bir çox kitabları çap olunaraq oxuculara çatdırılmışdır. Xüsusilə, Azərbaycanın Güneyində milli mətbuatın və kitab nəşrinin dirçəlişi sahəsində Ana dili fondunun gördüyü işlər təqdirəlayiqdir [38, 6-18].

Tailandın Bankoq şəhərində yerləşən Asiya Texnoloji İnstitutunun Prezidenti olan Səid İrandost 1979-cu ildə İsveçdə təhsil almış, 1989-cu ildə Kimya mühəndisliyi ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə edərək bu sahə üzrə tanınan mütəxəssislərindən biri kimi dünya şöhrəti əldə edir. İsveç, Kanada, Rusiya, Tailand və ABŞ-ın nüfuzlu ali təhsil müəssisələrinin fəxri professoru adı alan Səid İrandost eyni zamanda iri transmilli şirkətlərin məsləhətçisi kimi hazırda fəaliyyətini davam etdirir.

İsveç elminin inkişafında göstərdiyi xidmətlərə görə dövlət tərəfindən yüksək zəka sahibi kimi qiymətləndirilən Azərbaycan övladı kimyəvi reaktor qaz və nəqliyyatın yanacağı üzrə bir çox ixtiraların müəllifidir [126].

Məşhur geoloq Salmanov Fərman Qurban oğlu 1954-1959-cu illərdə Novosibirsk geologiya idarəsində geoloq, böyük geoloq, neft kəşfiyyatı ekspedisiyasının rəisi, 1959-1962-ci illərdə Tümen ərazi geologiya idarəsi Surqut neft kəşfiyyatı ekspedisiyasının rəisi, 1962-1964-cü illərdə Ust-Balık, 1964-1970-ci illərdə Pravdinsk, 1970-1978-ci illərdə Tümen Baş Geologiya İdarəsinin

rəis müavini, 1978-1987-ci illərdə «Baştümengologiya»nın rəisi vəzifələrində çalışıb. Böyük alim və neftçi kimi keçmiş SSRİ-də tanınan F. Salmanov 1987-1991-ci illərdə SSRİ Geologiya nazirinin müavini olub.

Ümumiyyətlə müasir Rusiyanın neft və qaz sənayesinin inkişafının azərbaycanlı mühəndislərin müstəsna xidmətləri olub.

Azərbaycanlı geoloq– alim eyni zamanda neft və qazın kəşfiyyatı, hasilatı və istismarı ilə bağlı 100-dən çox elmi əsərin müəllifidir. Həmyerlimizin belə böyük xidmətlərini nəzərə alan Heydər öz fərmanı ilə F. Salmanovu Azərbaycan dövlətinin nüfuzlu mükafatı olan «Şöhrət» ordeni ilə təltif edib.

Korkus İnternasional Şirkətlər qrupunun prezidenti, iqtisad elmləri doktoru Araz Ağalarov 1953-cü ildə Bakı şəhərində anadan olub. Bakı Texniki Universitetini və Ali Partiya məktəbini bitirib. Kompüter texnologiyaları sahəsində biznes işi quran Araz Ağalarov Rusiya Azərbaycan diasporunun formalaşmasında mühüm rollardan birini oynayıb. Təsis etdiyi Korkus şirkətlər qrupunda ərafına Azərbaycan diaspor nümayəndələrini toplayan Araz Ağalarov bu gün lobbiçilik istiqamətində mühüm işlərə imza atıb.

Görkəmli Azərbaycan boyakarı və qrafiki Tahir Salahov 1928-ci ildə Bakıda anadan olub. Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini (1945-50) bitirdikdən sonra Salahov təhsilini V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda (1951-57) davam etdirib.

Tahir Salahov 1963-74-cü illərdə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Ə. Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində), V. İ. Surikov Moskva Dövlət Rəssamlıq İnstitutunda (1975-ci ildən etibarən) pedaqoji fəaliyyətlə məşğul olub.

Hazırda Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti olan Tahir Salahov həm də «Heydər Əliyev irsi» Beynəlxalq Elektron Kitabxanasının redaksiya heyətinin üzvüdür. H. Əliyev təbrik məktubunda əsərlərində incəsənətimizin zəngin ənənələrini



Avropa rəssamlıq sənətinin nailiyyətləri ilə birləşdirən Tahir Salahovu dünya mədəniyyətində layiqli yer tutan sənətkar kimi səciyyələndirib [9].

Ümumdünya Azərbaycanlıları Konqresinin sədri, tibb elmləri doktoru Məmmədbağır Əliyev Rusiyada Azərbaycan diasporunun formalaşmasında mühüm rol oynayan şəxslərdən biridir. Həkim-onkoloq kimi rus elmində böyük nüfuz qazanmış M. Əliyev Rusiya Federasiyasının dövlət mükafatını alan azərbaycanlılardandır. Rusiya Federasiyasının Əməkdar Elm Xadimi adına da təltif edilən Məmmədbağır Əliyev 1970-ci ildən başlayaraq diaspor formalaşdırılması prosesində fəal iştirak edir. UAK kimi böyük bir təşkilatın rəhbəri kimi lobbiçilik işini yaradanlardan biri kimi Cənab Əliyev diaspor işində göstərdiyi fəaliyyətə görə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən «Şöhrət» ordeninə layiq görülüb [3].

Almaniyanın Köln Mərkəzi Mühəndislik İnstitutunun Avtomatika kafedrasının professoru Talibi Dəryanı 1964-cü ildə Almaniyaya mühacirət edərək Berlin Texniki Universitetini bitirib. Dünya şöhrəti qazanan Avtomatik Cihazların yaradıcısına layiq görülüb. İngiltərə və Fransa universitetlərinin müəllimi olan Dəryanı azərbaycanlı icmasının formalaşaraq diaspora çevrilməsində mühüm rol oynayıb. Almaniya prezident sarayının daimi qonağı kimi statusu olan professorun lobbiçilik işinin qurulmasında zəhməti olub. Almaniya-Azərbaycan ali məktəbləri arasında əlaqələrin qurulmasında fəallıq göstərən Rza Dəryanı diasporumuzun aparıcı simalarındandır.

Ümumdünya Cərrahlar cəmiyyətinin siyahısında ön yerlərdən birini tutan Rəhim Rəhimzadə tibb elmləri doktoru, professordur. Almaniya Cərrahlar Cəmiyyətinin prezidenti kimi diasporumuzun formalaşmasında böyük rolu olan R. Rəhmanzadə diz oynaqlarının protezlə əvəz edilməsində etdiyi kəşflə Azərbaycan adını dünyaya tanıtmışdır. Azərbaycan həqiqətlərini Almaniya və beynəlxalq ictimaiyyətə çatdıran Rəhim Rəhmanzadə məcburi köçkün və qaçqınlar üçün humanitar yardımlar təşkilində fəallıq edib.

III – 1991-ci ildən başlayan və bu gün də davam edən zəka axını mərhələsi

XX əsrin son illərində Sovetlər Birliyi məkanında cərəyan edən hadisələr imperiyanın sərhədləri çərçivəsində demokratik düşüncə tərzinin genişlənməsinə və milli azadlıq hərəkatının güclənməsi şəraitində başladı. Dünya birliyinə müstəqil dövlət kimi daxil olan gənc respublika üzləşdiyi çətinliklərə qarşı mübarizə apardığı bir zamanda daxildə baş verən bir sıra ictimai iqtisadi və siyasi problemlər həlli uzun müddət tələb edən çətinliklərlə üz-üzə qaldı. Bu problemlər içərisində ən ağrılısı miqrasiya məsələsinin gündəmə gətirilməsi oldu. İqtisadi və siyasi səbəbin miqrasiya prosesi əvvəlki dövrlərdən fərqli olaraq tən Rusiya və Türkiyə ilə kifayətlənmirdi. Avropa, Asiya, Amerika, Afrika və Avstraliya, İngiltərənin bütün dövlətlərinə baş ver miqrasiya prosesinin iştirakçıları sırasında zəka sahibləri də çoxluq təşkil edirdi. Hal-hazırda qarşısı alınmaz bir prosesə çevrilən zəka axını Şimali və Cənubi Azərbaycandan eyni vaxtda davam edir.

Bu gün dünya elmində tanınan zəka xadimləri içərisində xüsusi olaraq seçilənlərdən aşağıdakıların adlarını sadalamaq olar.

Süleyman Allahverdiyev 1984-cü ildən bu günədək Rusiya Elmlər Akademiyası Biologiyanın Fundamental Problemləri İnstitutun aparıcı elmi əməkdaşıdır. 1985-ci ildən xaricdə (Çexoslovakiya, Macarıstan, ADR, Polşa, Kanada, Hollandiya, AFR, Türkiyə, Hindistan, İspaniya və s. ) işləmişdir. 1997-ci ildən isə Yaponiyada çalışır. Fizika-riyaziyyat elmləri namizədi, biologiya elmləri doktorudur. Rusiyada aparıcı elmi işçi, Yaponiyada professordur. 2004-cü ilin avqustunda Ottavada (Kanada) keçirilən XIII Beynəlxalq Fotosintez Konqresinin əlaqələndiricisidir.

İlham Şahmuradov 2001-ci ildən Böyük Britaniyada işləyir. Əvvəllər Yaponiyada çalışırdı. Onu bioinformatika üzrə Azərbaycanın ilk mütəxəssisi hesab etmək olar.



Əhməd Obalı 1990-ci ildən ABŞ-in Çikaqo ştatında yaşayır. 1997-ci ildə DAK-nin fəal təşkilatçılarından biridir. Hal-hazırda Amerikadan yayımlanan GunAz. TV-nin sahibi və məsuludur.

Şakirə Zöhrabbəyova-- 1994-cü ildə dissertasiya müdafiə etmişdir. 1998-ci ildə Lund Universitetində (İsveç) PostDok vəzifəsinə dəvət almış və orada müqavilə ilə iki il işləmişdir. Sonra Geterborq Universitetinə (yenə də müqavilə ilə) dəvət almışdır.

Asəf Zülfüqarov – 1998-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir, biologiya elmləri namizədidir. 2002-ci ildən dəvətlə Pusan Dövlət Universitetinin (Cənubi Koreya) molekulyar biologiya şöbəsində işləyir.

1991-ci ildən başlanan miqrasiya prosesi və zəka axını qeyri-leqal surətdə də davam edir. Guya milli, dini və siyasi baxışlarına görə təqib və təzyiqlərə məruz qalmalarına dair bəziləri saxta sənədlər hazırlayırlar. İnsan azadlıqlarına, xüsusilə də milli, dini və siyasi azadlığa böyük önəm verilən Avropa dövlətlərində saxta sənədlər əsasında sığınacaq almaq isə bəzən elə də çətin olmur. Həmin saxta sənədlərin Azərbaycanın və Azərbaycan xalqının beynəlxalq aləmdəki imicinə vurduğu zərbə vurur. Məsələ burasındadır ki, saxta sənədlər əsasında müxtəlif təqiblərə məruz qaldıqlarını iddia edənlər istər-istəməz bu hərəkətləri ilə sığınacaq aldıqları ölkədə Azərbaycanda insan azadlıqlarının heç birinin qorunmaması barədə fikir formalaşdırırlar. Məsələn, xristianlığı və yaxud krişnalığı qəbul etdiyinə görə təzyiqlərlə üzləşdiyinə dair saxta sənəd düzəldən birinin sığınacaq istəməsi nəticəsində belə bir rəy formalaşır ki, guya Azərbaycanda tolerantlıq yoxdur. Halbuki, Azərbaycan dini dözümlülüyə görə nəinki Avropa ölkələri ilə müqayisə edilə, hətta onlara örnək ola bilər. Bunu Avropa ölkələrinin Azərbaycandakı səfirləri də dəfələrlə etiraf ediblər. Ən acınacaqlısı da odur ki, Avropada «lüks həyat» əfsanəsinə inananlar öz istəklərini reallaşdırmaq üçün milli mənsubiyyətlərini dəyişdirməkdən, hətta milliyətcə erməni olduqlarına dair saxta sənəd düzəltməkdən belə çəkinmirlər. Çünki Azərbaycanda yaşayan erməninin guya

təzyiqlərə məruz qalması xaricilərə inandırıcı göründüyü üçün belə sığınacaq almaq daha asan olur.

Bir qayda olaraq, daimi yaşamaq məqsədilə xaricə üz tutanlar, xarici ölkə vətəndaşı olmaq arzusu ilə alışıb-yananlar bunun üçün bütün var-dövlətlərini, hətta evlərini, maşınlarını belə satır. «Necə olsa, Azərbaycana qayıtmayacam» düşüncəsi ilə hərəkət edirlər. Azərbaycana dönmək məcburiyyətində qalanda isə çıxılmaz vəziyyətə düşürlər. Bəzilərinin düşündüyündən fərqli olaraq xarici ölkə vətəndaşlığı almaq asan məsələ deyil. Əksər vaxtlarda bunun üçün əcnəbi kişi və ya qadınla nikaha girmək variantına belə əl atırlar. Amma çox vaxt bu heç bir işə yaramır. Böyük ümidlərlə qeyri-leqal yollarla Avropaya üz tutanlar adətən qara işlərdən–restoranda qab yumaqdan, küçə süpürməkdən daha yaxşı iş tapa bilmirlər. Belə problemlər isə öz təsirini diaspor formalaşdırılmasında göstərir. Ali məktəbi fərqlənmə diplomu ilə bitirən gənclərin bəzilərinin əldə etdiyi biliklər xarici ölkələrin ağır işləri altında əriyib yoxa çıxır. Kanada, Norveç, İsveç, Almaniya və Şərqi Avropa ölkələrində tez-tez rastlaşan ali təhsilli fəhlələrin halına acımaqdan başqa iş gəlmir.

Bu cür insanları həm diaspor nümayəndəsi, həm də vətəndaş kimi itirən Azərbaycan dövləti bir çox parametrləri nəzərə alsaq, uduzan tərəfdir. Fikrimizi dəlillərlə izah etməyə çalışaq:

1. Ermənistanın işğalçı müharibəsində əsgər və zabit kadr kimi yararlı ola biləcək belə şəxslərin sayının artması müsbət hal kimi qəbul edilə bilməz.

2. Xaricdə kütləvi tədbirlər keçirilməsi nəzərdə tutduqda maksimum 100 nəfərdən artıq çıxara bilməyən müvafiq qurumlar onların problemlərin ciddi yanaşmayacaqsa 50 milyon azərbaycanlı rəqəmi yalnız kağız üzərində qalacaq.

3. Diasporumuzun təşkilati və lobbi mexanizmində böyük rol oynamaq iqtidarında olan «itirilən azərbaycanlılar» milli kimliklərini unudaraq yaşadıqları ölkələrə adaptasiya olaraq, assimilyasiyaya məruz qalır və amerikalıya, avropalıya, avstraliyaya çevrilirlər. Bu isə milli faciə olmaqla yanaşı, xalqımızın sayının azalmasına gətirib çıxara bilər və s.



Qeyd edilən problemi xalqımızın ümummilli lideri Heydər Əliyev bilirdi. O, 1993-cü ildə Azərbaycanda hakimiyyətə gəldikdən sonra soydaşlarımızın üzləşdiyi çətinliklərin aradan götürülməsi istiqamətində çox uğurlu işlər həyata keçirdi. Lakin müəyyən amillərin təsiri problemi tam olaraq, aradan götürməyə maneə olur və bunu Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında Heydər Əliyev də təsdiq etmişdir. «Biz hesab edirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların hər biri yaşadığı ölkədə həyatını özü istədiyi kimi qurub yaşayır. Yaşadığı ölkənin vətəndaşıdır, onun qanun-qaydaları ilə yaşamalıdır və istədiyi yol ilə getməlidir. Ancaq eyni zamanda, indi azərbaycanlıların bir müstəqil dövləti mövcud olduğu halda, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha da sıx əlaqə qurması, öz həmrəyliklərini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox əhəmiyyətli bir vəzifə kimi meydana çıxır. Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir" [21, 44-50].

H. Əliyev dünyanın bir çox ölkələrində– Avropada. Şimali Amerikada artıq böyük Azərbaycan icmalarının yarandığını bu icmaların get-gedə təşkilatlandığını, genişləndiyini və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyinin, həmrəyliyini təmin edildiyini bu prosesin surətlə getdiyini bunların isə məhz müstəqil Azərbaycanın varlığı bu həmrəyliyinin inkişafının əsasını təşkil etdiyini göstərirdi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı,

azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir–ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir.

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimilyasiya prosesi də var. insanlar– mən azərbaycanlılar haqqında danışıram–gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır [21, 44-50].

Heydər Əliyevin bu strategiya və konsepsiya xarakterli çıxışından sonra Azərbaycan diasporunun fəaliyyətində və xaricə miqrasiya və zəka axını prosesinə qoşulan şəxslərin diaspor işində fəallığında dəyişikliklər baş verdi. Ölkədən miqrasiya prosesi isə davam etməkdədir. Xüsusilə, siyasi mühacirət adı ilə vətəni tərk edənlərin sayı artmaqdadır.

Azərbaycanı tərk etmək istəyən siyasi mühacirətin 40, 3 faizi Almaniyanı seçir. Bu barədə BMT-nin qaçqınlarla iş üzrə Komissarlığının son məruzəsində deyilir. Sənəddə göstərilir ki, 2002-ci ilin yanvar–oktyabr ayları ərzində 3 min 610 nəfər Azərbaycan vətəndaşı ABŞ, Yaponiya, Avstraliya, Avropa ölkələri və Yeni Zelandiyadan siyasi sığınacaq istəyiblər. Qeyd edək ki, bu, ötən ilin analoji göstəricisindən 6 faiz soxdur. Onlardan 1455 nəfəri Almaniya, 600 nəfər İsveç, 300 nəfəri Fransa, 247 nəfəri ABŞ, 150 nəfər Norveç, 105 nəfər İsveçrə, 92 nəfəri Kanada, 71 nəfəri Belçika, 35 nəfər Çexiya, 26 nəfəri Danimarka, 24 nəfəri Slovakiya, 12 nəfər Polşa, 6 nəfər İspaniya, 6 nəfər isə İrlandiyadan sığınacaq istəyib.

Onlar məskunlaşdığı ölkədə siyasi baxışlarına görə bəzi məqamlarda səhvlərə yol verməsinə baxmayaraq Azərbaycan kimliyini təbliğ etmək, mediada aktivlik, lobbiçilik, kütləvi tədbirlər, və s. kimi işlərdə göstərdikləri fəallıqları ilə də



fərqlənirdilər. Bu gün onlarla işin düzgün qurulmaması üzündən Azərbaycan diasporunun formalaşmasında əngəlliklər yaranır.

Xaricdə yaşayan soydaşlarımızın çoxu ruhən Ana Vətənə bağlıdır və ölkəmizin imicini yüksəltməyə və öz töhfələrini verməyə hazırdır. Lakin burada bir psixoloji maneə «daxilii məsələdir». Xaricdə yaşayan azərbaycanlı hansı siyasi və ictimai ideologiyaya sahib olmasına baxmayaraq, iqtidar–müxalifət münasibətlərinə müəyyən baxışı ilə seçilir. Onlar demokratik ölkələrdə olduğu kimi, həm dövlət, həm də ölkənin digər qanuni institutlarına, o cümlədən siyasi partiyalarına hörmətlə yanaşmağa çalışırlar. «Daxili məsələ»– daxillə bağlı olmalıdır. Belə olmayacaqsa, diaspor qüvvələri heç bir zaman beynəlxalq aləmdə səmərəli təşkilatlara çevrilə bilməyəcək. Müxalifət–iqtidar münasibətləri diaspor təşkilatlarının amalına kölgə salmamalıdır. Məncə, ilk növbədə azərbaycanlıların sayı çox olan ölkələrə deyil, diasporun faydalı fəaliyyət göstərə bildiyi ölkələrə diqqət yetirilməlidir.

Bu gün Azərbaycan diasporu ABŞ-da çox zəifdir, özü də 907-ci düzəlişin geri qayıtmağı mümkündür, çünki bu ölkədə erməni lobbisi çox güclüdür. Nəhayət, Amerika hələlik dünyanın yeganə «super-güclü» ölkəsi hesab olunur. Bu səbəbdən də diasporumuzda nəzərə çarpan fikir ayrılıqlarını təhlil etmək və həll etmək tələb olunan əsas işlərdəndir.

XX əsrin böyük simalarından biri olan U. Çörçill deyib: «Problemin həlli onun haqqında müzakirələr, danışıqlar getdiyi vaxtdan başlanır». Xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, güclü diasporun yaradılması haqqında dövlət səviyyəsində danışıqlar, müzakirələr yalnız Azərbaycanın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başladı (bu tarixi həm də Azərbaycan diasporunun inkişafı tarixində birinci mərhələnin başlanğıcı hesab etmək olar). Ümummilli liderimiz bu barədə deyirdi: «Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir-biri ilə daha sıx əlaqələr qurması, öz həmrəyliyini bəyan etməsi və müstəqil Azərbaycan dövləti ilə əlaqələr yaratması tarixin bu mərhələsində çox

əhəmiyyətli bir vəzifə kimi meydana çıxır». Ümummilli lider Azərbaycan diasporunun təşkilatlanması və güclü lobbiyə çevrilməsi məsələsini dövlət siyasətində yeni bir istiqamət kimi dəyərləndirdi. Xarici ölkələrə səfərlərində Azərbaycan diasporu fəalları ilə görüşməyi, onların qayğıları ilə maraqlanmağı, fikir mübadiləsi aparmağı bir ənənəyə çevrildi. Bu görüşlərdə sonrakı fəaliyyətin istiqamətlərinin konturları da müəyyənləşirdi.

Diasporun meydana gəlməsi, yaranması üçün birinci əsas şərt qürbətdə yaşayanların Vətənə bağlı olmasıdır, Vətənin problemləri ilə yaşamasıdır.

Azərbaycan prezidenti Heydər Əliyev də bu mühüm amilə böyük əhəmiyyət verir və ABŞ-da yaşayan azərbaycanlılarla görüşündə çıxışına bu sözlərlə başlayır: «Mən on il yaşamışam, Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam və bu rəhbərliyin imkan verdiyi ən yüksək şəraitdə yaşamışam. Bir an da Azərbaycanı unutmamışam, ürəyim daim Azərbaycanla vurub. Sonra qayıtmışam Azərbaycana, Naxçıvanda bir daxmada yaşamışam. Gecəm də Azərbaycan olub, gündüzüm də. Çünki bu, mənim Azərbaycanımdır, mənim Vətənimdir» [5].

Bu gün dünyanın müxtəlif bölgələrinə səpələnmiş azərbaycanlıların bir arada olması və diaspor işinin geniş miqyas alması dövlətlə münasibətlər, Ana vətənlə bağlılıq, lobbiçilik etmək üçün ideologiyaya xüsusi diqqət yetirilməlidir. Bünövrəsi maarifçi azərbaycanlılar tərəfindən qoyulan və Heydər Əliyev tərəfindən inkişaf etdirilərək dövlət siyasəti səviyyəsinə qaldırılan Azərbaycançılıq ideologiyası müasir dövrdə aparılan uğurlu taktiki addımdır. Azərbaycançılıq ideologiyasının yayılması, tarixi, milli yaddaşımızın qorunması, işğal olunan Azərbaycan torpaqlarının geri qaytarılması, hər an düşmənin kim olduğunu unutmamaq üçün yeni metodlar işləyib hazırlamalıdı. İşlənilən yeni metodları cəmiyyətə tətbiq etməklə qloballaşma prosesinə qoşularaq, Qərbə inteqrasiya olunaraq böyük Vətən sevgisi saxlanılmalıdır. Bəlkə yeni təlim-tərbiyə üsulları, tarix dərslikləri yeni nəsil üçün yazılmalıdır ki, xalq bunu unutmasın, milli yaddaşımızda qalsın.



1800-cü ilin əvvəllərində bizdən qoparılan Dərbənd, Borçalı torpaqları, nəhayət, 1813-1828-ci illərdə Rusiya-İran arasında bağlanan iki müqavilədən sonra başımıza gətirilən böyük fəlakətlər, «Böyük Ermənistan» yaratmaq siyasəti ilə Qərbi Azərbaycan torpaqlarının erməniləşdirilməsi, azərbaycanlıların oradan sıxışdırılması, xalq öz etirazını bildirən zaman onlara amansızcasına divan tutulması çox hiddətləndirici məqamlardır və biz bunları unuda bilmərik. Nəhayət, 1905-1907-ci illərdə başımıza gətirilən fəlakətlər tariximizin acı dərsləridir. Rus imperiyası başa düşürdü ki, torpaq hərisliyi ilə alışıb-yanan ermənini türk əleyhinə döndərmək olar. Bu məqamdan istifadə edərək, xalqımızı ermənilərlə üz-üzə qoyaraq öz şovinist ideyalarını həyata keçirməyə çalışırdılar. Bizim bəxtimizə düşmənin, qonşunun namərdi düşdü. Bu isə bir xalqın siyasi proseslərdən yayınması, başının gündəlik qayğılara qarışmasına yönəldirdi. Sonrakı qırğınların da baş verməsində ruslar böyük rol oynadılar. 18-ci il, 20-ci ildə mart soyqırımı, sonrakı illərdəki deportasiyalar göstərir ki, heç bir xalq Azərbaycan xalqı qədər repressiyalara, işgəncələrə məruz qalmayıb. Həmin dövrdə böyük intelekt ordusu formalaşmağa başladı. Bu formalaşmanın ilkin zəminlərini M. F. Axundov qoyaraq tarixləşdirdi. Milli Azadlıq Hərəkatına yol gələn Əli bəy Hüseynzadə, Nəriman Nərimanov, Mirzəbala Məmmədzadə və bir sıra başqa azərbaycançı şəxsiyyətlər həmin dövrdə formalaşmağa başladı. Xüsusilə həmin dövrdə bizim milli mətbuatımız yarandı. Bu, milli azadlıq hərəkatına gəldiyimiz ilkin yollar idi. Sonrakı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tarixdə ən böyük nailiyyətimiz, Azərbaycan xalqının yaratdığı ən böyük əsər idi. Bütün dünyada bir dövlət öz varlığını təsdiq etdi. 70 il sovet rejimi bu kabusu öz üzərində hiss etdi.

Böyük Atatürk deyib ki, o xalqlar böyük xalqdır ki, onun milli hafizəsi və böyük fəlsəfəsi var. Əgər bunlar yoxdursa, bu millət böyük ola bilməz. Yaxşı ki, həmin ağrılı məqamlar imkan verdi ki, xalq özünü toplayıb həmrəy olsun və yeni qələbələrlə özünü sınasın. Azərbaycan xalqı özünün həm fəlsəfəsini, həm də

öz ideologiyasını yaradaraq dövlət atributlarını təsdiq etdi. Bütün bunlar Azərbaycan xalqının fəxr və qürur doğuracaq qələbələri idi. sovet rejiminin işğalı o demək deyildi ki, tarixdə Azərbaycan xalqı məğlubiyyətə uğradı, yox. Bir imperiyanın tərkibində bir xalq özünün mənəviyyatını, milli dəyərlərini qoruyub saxlaya bilibsə, o, böyük xalqdır. Sovet rejimi Azərbaycanın intellekt ordusunu məhv etdi. Bəlkə də bu intellekt ordusu məhv olmasaydı, sovet rejimi 15-20 il ömür sürərdi.

40-50-ci illərdə Azərbaycan ədəbiyyatının inkişafı, əbədiyaşar ideologiyası yaranırdı. 60-cı illərdə, sovet dönənində Heydər Əliyevin Azərbaycana rəhbər təyin olunması tarixdə Azərbaycançılığın çox böyük uğuru idi. Bu, azərbaycançılığın inkişafı üçün böyük imkanlar yaratdı. Həmin dövrdə azərbaycançılığın inkişafına, iqtisadiyyatın yüksəlməsinə imkan yarandı.

Müstəqil Azərbaycan Respublikasının yaranması, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi isə Azərbaycan xalqının ən böyük qələbəsi idi.

Rus İmperiyası Qarabağı Azərbaycandan qoparıb ermənilərə vermək siyasətini ortaya qoydu. Bu, bizim milli öndərimizin Moskvadan uzaqlaşdırılması ilə nəticələndi. Bilirdilər ki, Heydər Əliyevin orda olması buna imkan verməyəcək, ona görə də birinci maneəni ortadan götürdülər. 20 Yanvarda xalqımıza qarşı böyük qəddarlıq törədildi. Tarixdə heç bir xalqa bu qədər qəddarlıqla divan tutulmayıb. Ona görə də biz öz milli yaddaşımızı unutmamalıyıq». [41]

Bu gün Azərbaycana qarşı işğalçı müharibə aparan Ermənistanın siyasətinə həm daxildə, həm də xaricdə mübarizə aparmaq həmrəyliyə əsaslanaraq ideologiyaya malik olmaq lazımdır. Diasporumuzun əsas qüvvəsi olan zəka sahiblərinin isə mütləq fəallıqlarını əldə etmək vacibdir. [13, 16-18]

Avstriyalı tarixçi-alim Erik Fayglein fikrincə, Azərbaycan diasporunun problemi nə pul, nə də dövlətin dəstəyindədir. O, bu sözləri İsveç şəhərində keçirilən DAK-nin Qurultayında etdiyi məruzəsində söyləyirdi.Onun sözlərinə görə, həqiqət



Azərbaycanın tərəfindədir; yetər ki, o yüksək səviyyədə təbliğ olunsun. Erik Fayglea Azərbaycanın dostu deyirlər. Onun Azərbaycana marağı 1982-ci ildə ermənilərin Türkiyənin Vyanadakı səfirliyində partlayış təşkil etdiyi gündən başlayır. Onun «Erməni terroru haqqında həqiqətlər» kitabı fransız və ingilis dillərinə tərcümə olunub. «O, azərbaycanlıları çox sevirdi. Sizlər sülhsevər və dinc xalqsınız, bəlkə də bu gün Azərbaycan diasporunun ermənilərlə müqayisədə çox zəif olmasının kökündə bu dayanır. Çox vacib bir məsələ var, bu mənim öz şəxsi fikrimdi. Məncə, Azərbaycan diasporunun düşməninin tarixi və onun məqsədləri haqqında məlumatı azdır. Ermənilərin yalançı təbliğatları çox güclüdür. Əgər siz ortabab savadı olan avstriyalı və almana yaxınlaşıb, Qarabağın harada yerləşdiyini soruşsanız, bir az fikirləşib deyəcək ki, deyəsən türklərin erməniləri qılıncdan keçirdiyi yer olmalıdır. Erməni təbliğatının gücü bundadır» Erix Faygle də Azərbaycan diasporunun çevikliyinin artırılmasına ehtiyac olduğunu bildirir. O, azərbaycanlıların yaşadığı ölkələrdə maarifləndirmə mərkəzlərinin yaradılmasını təklif edir. «Mən demirəm ki, bu mərkəzdə müharibə təbliğ olunsun. Mən təklif edirəm ki, o cür mərkəzlərdə azərbaycanlıların özləri düşmən haqqında geniş araşdırmalar aparıb, həqiqəti bütün dünyada təbliğ etməyə başlasınlar. Bu gün olduğu kimi, pərakəndə şəkildə yox, birgə və mütəşəkkil. Zəif də olsa, görürəm ki, xaricdəki Azərbaycan icması yavaş-yavaş dirçəlir. Azərbaycan diasporunun ən əsas işi həqiqətin təbliğatı olmalıdır» [21 may 2005-ci il DAK-nin VIII Qurultayındaki çıxışı. Stokholm, İsveç].

Fikrimizi davam etdirmək üçün qeyd etmək lazımdır ki, bu gün zəka sahibləri öz əllərindən gələnləri maksimum istifadə etməlidirlər. Elm və təhsil xarakterli zəka axınına qoşulan mühacirlərimizin ədəbi yöndə təşkilatlanması digər sahələrdən daha fəaldırlar.

Ədəbi-bədii fikrin istiqamətlərinə gəldikdə, bu, əvvəlki dövrlərdə olduğu kimi çoxşaxəlidir. Bu gün mühacirətdə istər nəsr və dramaturgiya, istər poeziya, istərsə də publisistika Azərbaycan ədəbiyyatının bir qolu kimi inkişaf etməkdə və

ədəbi-estetik meyarlar baxımından çox dəyərli əsərlər yaranmaqdadır.

Azərbaycanın zəkalı insanlarının isə dövlətimizin və xalqımızın təbliğ olunması istiqamətində çiyninə ağır yük düşür. Bundan Azərbaycanın gələcəyi asılıdır.

## 2.2. Xarici ölkələrdə yaşayan azərbaycanlıların sosial tərkibi, formalaşma mərhələləri və təzahürü

Bu gün Azərbaycan diasporunun nümayəndələri içərisində üç mərkəzçilik mövcuddur. Şimali və Cənubi Azərbaycan və Türkiyədən xarici ölkələrə mühacirət edən müxtəlif sosial təbəqənin nümayəndələri diasporumuzun formalaşmasında həlledici rol oynayıblar. Bu üç ölkə vətəndaşlarının milli ideologiyaya hazırda baxışlarında və vətən-dövlət anlayışında, fərqlər hiss olunur.

Müasir dövr diasporumuzun Şimali Azərbaycan qanadını XX əsrin əvvəllərindən ölkəni tərk edən şəxslərin nəvə-nəticələri, II Dünya müharibəsində əsir düşərək geri qayıtmayan və 1990-cı ildən sonra ölkədən mühacirət edən şəxslər təşkil edir.

Birinci qrupdan olan soydaşlarımız ümumi Azərbaycan işində ikinci və üçüncü qrupdan fərqli olaraq bir qədər fəaldılar. Lakin onların bu məsələyə həsrətli və dədə-babalarının işinin davamçısı kimi yanaşması mövqeyini nəzərə alsaq, onların çoxunun başqa mühitin, yaşadığı ölkələrin sosial-mədəni xüsusiyyətlərinə malik olduğunu görərik. Birinci qrupun nəsli hesab olunan şəxslərin müəyyən hissəsi artıq amerikalı, ingilis, fransız, rus və ya başqa millətlərin təsiri altına düşərək, fərqi sosial mədəni-mənəvi inkişaf səviyyəsi keçiblər. Şimali Azərbaycan qanadının ikinci qrupu olan soydaşlarımızın çoxu özlərindən sonra yeni bir azərbaycanlı icmasını, nəslini formalaşdıra bilməyiblər. Demək olar ki, ikinci qrupun çox hissəsi sadəcə olaraq sıradan çıxıblar.



Sosial-iqtisadi səbəblə Qərb ölkələrinə axın edən şəxslər özlərinə normal şərait düzəldiblər. Vətəndə qalan ailələrin bura gətirərkən, avropalı, amerikalı xüsusiyyətlərini mənimsəyirlər. Bu qrup çox zaman məhəlli mühacirət adlanır-yəni bir neçə ölkədən keçməklə mühacirət edirlər və bu səbəbdən də onlar barəsində statistik araşdırma aparmaq çox çətindir. Siyasi səbəbdən mühacirət edən bir hissə isə Şimal Azərbaycan qanadının üçüncü qrupunun ayrılmaz tərkib hissəsidir. İctimai-siyasi fəaliyyətinə görə, xeyli fəal olan bu qrup Vətənlə bağlılığını başqa vasitələrlə büruzə verməyə çalışırlar. Siyasi motivli mühacirətin əksəriyyəti Vətəndə gedən prosesləri diqqətlə izləyir və ona təsir göstərməyə çalışırlar.

Cənubi azərbaycanlıların elm və ticarət sahəsində çalışırlar. Onların kifayət qədər güclü mövqeyə, nəhəng kapital mənbələrinə və kanallarına malikdirlər. Güclü investisiya imkanları olan cənubluların sahib olduqları firmalar, şirkətlər, müəssisələr bir çox ölkələrin iqtisadiyyatına xeyir verir. Cənublu soydaşlarımız məskunlaşdıqları ölkələrin yüksək dövlət xadimləri və imkanlı iş adamları arasında güclü nüfuza qazanmışlar. Birləşmiş Ştatlar, Kanada, Böyük Britaniya, Fransa, Danimarka, İsveç, Avstraliya və digər ölkələrdə cənublular biznes sahəsində geniş fəaliyyət göstərirlər.

Əksəriyyəti siyasi fəaliyyətdə passiv olan soydaşlarımızın ikinci, üçüncü, dördüncü nəsildən olan yeni azərbaycanlı diaspor təbəqəsi-gənc və mütərəqqi bir təbəqəsi formalaşmaqdadır. Hazırda Almaniya, Belçika, Danimarka, Hollandiya, İsveç, Finlandiya, Norveç və İngiltərədə türkiyəli azərbaycanlılar çox sayda məskunlaşıblar. Onların bu ölkələrə köçməsi 1950-ci illərdən başlayaraq, Türkiyədən Avropaya kütləvi mühacirətinin başlanması ilə bağlıdır.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti razılaşdırılmış, normallaşdırılmış, məqsədli və kvotalı mühacirət idi. Türkiyənin Avropa və digər ölkələri ilə imzaladığı əmək müqavilələrindən irəli gələn şərtlər əsasında türkiyəli

azərbaycanlılar bu ölkələrə işləməyə və daha çox pul qazanmağa axışdılar.

Köçdükləri ölkələrdə maddi və sosial vəziyyətlərini normallaşdıran türkiyəli azərbaycanlılar sonradan ailələrini, qohum-əqrəbalarını öz yanlarına gətirdilər. «Ailələrin birləşdirilməsi» adlanan bu proses türkiyəli azərbaycanlıların yaşadıqları ölkələrdəki sosial, yaş, cinsi, peşə, soy-demoqrafik strukturunun kəmiyyət və keyfiyyət baxımından dəyişilməsinə və zənginləşməsinə gətirib çıxartdı.

Türkiyəli azərbaycanlıların Avropa ölkələrinə mühacirəti diasporumuzun bir qədər cavanlaşmasına keyfiyyət göstəricilərinin dəyişməsinə xeyli kömək etdi. Türkiyəli gənclər menecment, kompüter mütəxəssisi, texniki xidmət sahələri kimi ixtisas istiqamətləri seçdilər getdikcə özləri özəl iqtisadi sahibkara çevrildilər. Eyni zamanda azərbaycanlı gənclərin bir-birləri ilə ailə qurmaları sayəsində avropalı azərbaycanlı ailələrinin təməlini qoyan türkiyəli soydaşlarımız bir çox müsbət keyfiyyətlərə malikdirlər.

Bu üç diaspor qanadının bir-biri ilə birləşməsi və həmrəylik göstərməsi üçün mütləq onların üzləşdiyi sosial-iqtisadi problemləri öyrənmək və həllinə çalışmaq lazımdır. Araşdırmalarımız zamanı aşkar etdiyimiz bir sıra həllinə ehtiyac duyulan problemlərin öyrənilməsi diaspor hərəkatında fəallığın artmasına xidmət edir. Təhsil, iqtisadi, təşkilati, sənəd, dil və s. problemlərlə xarici ölkələrdə çalışan və yaşayan soydaşlarımızın üzləşməsi ciddi addımların atılmasını və elmi yanaşması tələb edir. İlk olaraq xaricdəki soydaşlarımızın rastlaşdığı problem onların milli kimlik məsələsidir. Azərbaycanlı və yaxud azəri kimi adlandırılan soydaşlarımız ikincilik əleyhinə çıxıblar. Avropa, Amerika ölkələrində azəri, Rusiya və MDB məkanında tatar, Asiya ölkələrində türk və s. kimi çağırılan soydaşlarımız azərbaycanlı kimliklərinin tanınması məsələsində çaşqınlıqlar yaşayırlar.

Diasporumuza daxil olan üç ölkənin vətəndaşları məhz bu səbəbdən öz aralarında ümumi dil tapa bilmirlər. "Azərbaycanlı"



və "azəri" sözləri haqda bu günə qədər çox sözlər deyilmişdir. Hal-hazırda isə modern informasiya vasitələrində, o cümlədən müxtəlif İnternet səhifələrində «azəri» sözü haqqında vaxtaşırı olaraq bəzi yazılar yazılmaqdadır. Bundan əlavə İranda yaşayan azərbaycanlılar arasında da bu məsələyə arabir münasibətlər bildirirlər. Arabir ona görə ki, bu gün İranda yaşayan gənc azərbaycanlılar özlərini «türk» və ya "azər-türkü" adlandırma» (self definition) meyli daha güclüdür. Buna səbəb keçən əsrin sonlarında Azərbaycan və onunla qonşu ölkələrdə baş verən siyasi-ictimai hadisələrin nəticəsində həmin səbəblə yanaşı İranda və keçmiş Sovet İttifaqında azərbaycanlılar arasında kimlik (identity) məsələlərinin ortaya gətirilməsinə qarşı sərt siyasi tədbirlərin görülməsi əhəmiyyətli rol oynamışdır.

Bu gün türk mənşəli xalqlar arasında müqayisə etdikdə ən çox kimlik problemi ilə üzləşən azərbaycanlılardır. Onların əksinə bu gün türk dilli xalqlar arasında məsələn qırğız, türkmən, özbək və s. kimlik problemlərinin müəyyən qədər həll olunduğunu qəbul etmək olar. Ancaq azərbaycanlılar hələ ki, «türk» yaxud «azərbaycanlı», «türkçülük» ilə «azərbaycançılıq» arasında tərəddüd etməkdədirlər[48].

"Azər" sözü yunanlıların İranı fəth etdikdən hələ ən azı beş yüz əvvəl həmin bölgədə yaşayan tayfaların birinin adı olmuşdur. Bu barədə asurların tarixinə dair qaynaqlarda söhbət getməkdədir. Bu barədə keçən əsrin axırlarında sumerologiyaya "azərtürk" termini də gəldi. Hal-hazırda ABŞ-da yaşayan biofizik, professor Tariyel Vəli Nüvədili etnoqrafiya, sumerologiya ilə dərindən maraqlanaraq bu sahəyə uzun illər sərf etmişdir. O, yüzlərlə gil lövhəciklərdəki mixi şumer yazılarının üzərində apardığı tədqiqatlarında tam şəksiz, təkzibedilməz nəticəyə gəlib. Yüz əsr ərzində qətiyyən dəyişməyən bəzi şumer-azərtürk sözlərini misal göstərir. Bir çox sumerologiya tədqiqatçıları eləcədə rus alimi L. Reder: "Şumer dili xüsusi bir dildir. Öz qohumluğuna görə o, hər şeydən artıq türk dilləri müqayisə edilə bilər". Azərtürklərə gəlincə bu xalq da ulu türk millətinin bir qoludur və tarixdə

"Kiçik Asiya ilə Qafqaz sıra dağlarının arasındakı ərazinin sahibi" kimi özlərinə yer tutublar. [48]

Azərbaycan diasporunun üzləşdiyi ikinci böyük problem təhsillə sıx bağlıdır. Xüsusilə ziyalı kütləsinin bazasını təşkil edən elm-təhsil xarakterli mühacirətdə cənubi azərbaycanlıların çoxluq təşkil etməsini nəzərə alsaq, bu məsələyə ciddi diqqət yetirmək lazımdır. Azərbaycanda onların təhsilə cəlb edilməsi və xüsusi güzəştlərin verilməsi ilə bağlı olaraq islahatların həyata keçirilməsi gələcəkdə diasporumuzda həmrəyliyi gücləndirməklə oradakı dil, fikir ayrılıqlarına son qoymaq olar.

Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin getdikcə genişlənməsi təhsil sahəsində də əməkdaşlığın artmasına səbəb olub. Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı ötən illərlə müqayisədə dəfələrlə artıb.

Təkcə Türkiyənin ən nüfuzlu universitetlərində iki mindən artıq soydaşımız təhsil alır. Eyni zamanda xarici ölkələrdən olan tələbələrin də Azərbaycana marağı artıb. İlbəil bu sahədə baş verən artım Azərbaycan təhsil sisteminə xaricdə də böyük maraq duyulduğunu göstərir. Hazırda dünyanın 30-dan artıq ölkəsindən 3500-ə yaxın tələbə ölkəmizin müxtəlif ali məktəblərində təhsil alır. Onların arasında Türkiyə və İrandan olan tələbələr üstünlük təşkil edir. Əsasən Dövlət Neft Akademiyasında, Bakı Dövlət Universitetində, İnşaat və Memarlıq Universitetində təhsil alan bu tələbələrin arasında Cənubdan olan soydaşlarımızın da çoxluq təşkil etdiyi məlumdur. Lakin bu sayın dəfələrlə artırılması mümkün olsa da, hələlik müəyyən problemlər buna maneçilik törədir. Xüsusilə Cənubi Azərbaycandan gələn tələbələrin əcnəbi tələbələrlə bir sırada tutulması, onların təhsil haqqının ödənilməsi, yaşayış yeri ilə təmin məsələsində qarşıya çıxan problemlərin həll edilməməsi mənfi nəticəsini göstərir. Bəzi məlumatlara görə, hazırda Ermənistanda İrandan 4 minə yaxın tələbə təhsil alır ki, onlara da təkcə öz vətənlərində yox, eyni zamanda təhsil aldıqları ölkədə xüsusi diqqətlə yanaşırlar. Beləlɘri yerlə təmin edilir, əksər halda təhsil haqqından azad edilməklə yanaşı təqaüd də alırlar. Diplomların tanınması



sahəsində də Ermənistanla İran arasında problem çoxdan həllini tapıb. Təbii ki, bütün bunlar məqsədli şəkildə tələbələrin məhz Ermənistanda təhsil almasına yönələn siyasi tədbir olsa da, eyni şəraitin Azərbaycanda yaradılmaması mənfi nəticələrə gətirib çıxarır. Hamıya məlumdur ki, bu gün cənubda ana dilində təhsil almış gənclərə böyük ehtiyac var və bu ehtiyacı qarşılamaq üçün Azərbaycandakı əlverişli şəraitdən istifadə etmək lazımdır. Müqayisə üçün qeyd edək ki, Türkiyə hər il İrandakı türkdilli xalqlardan 20 tələbənin ali məktəblərdə pulsuz təhsil almasını təmin edir və seçim zamanı üstünlük sayca çoxluq təşkil edən Azərbaycan türklərinə verilir. Onlara Türkiyədə əlverişli təhsil şəraiti yaradılır, eyni zamanda ehtiyaclarının ödənilməsinə yardım göstərilir. Belə olduğu təqdirdə onların ana vətənləri olan Azərbaycanda təhsil almasına nə mane olur? [55].

Təhsil Nazirliyində belə hesab edirlər ki, əcnəbi tələbələrin qəbulunun Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına həvalə olunması problemləri daha da artıra bilər. Hələlik belə tələbələrin qəbulunda qeyri-müəyyənlik hökm sürür. TQDK onlar üçün ayrıca testlərin hazırlanacağını istisna etmir. Əcnəbi tələbələrin sayının azalmasına xidmət edəcək hər hansı addımdan çəkinmək lazımdır. Çünki bu, ilk növbədə, Azərbaycanın xarici ölkələrdə tanınması ilə yanaşı ali məktəblərin bu ağır şəraitdə müəyyən məbləğdə vəsaitdən də məhrum edə bilər. Bu sırada, təbii ki, ən ağrılı və həllini gözləyən məsələ cənublu soydaşlarımızın və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ana vətəndə təhsilinin təşkilidir. Məsələ dəfələrlə müxtəlif dairələrdə müzakirə edilsə də, hələ də həllini tapmayıb. Bu isə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, lobbiçilik və diasporanın inkişafına mənfi təsir göstərir. Xüsusilə cənublu soydaşlarımızın təhsili üçün Ermənistanda xüsusi siyasətə dayanan imkanların yaradılması səbəbindən əksər azərbaycanlı gənclər ali təhsil almaq üçün bu ölkəyə getmək məcburiyyətində qalırlar. Lakin xarici ölkələrdən və Azərbaycanın Cənubundan təhsil almaq üçün vətənimizə gələn soydaşlarımıza heç bir güzəştin edilməməsi problem olaraq qalmaqdadır. Xaricdə yaşayan azərbaycanlılarla

bağlı dövlət siyasəti qanunda onlara bağlı əlverişli şəraitin yaradılması nəzərdə tutulsa da, reallıqda vəziyyət tam başqadır. Bu sahədə də hələlik qeyri-müəyyənliyin hökm sürməsi narahatlıq üçün əsas yaradır. Bütün bu problemləri nəzərə alaraq, DAK xüsusən Cənubdan olan soydaşlarımıza vətəndə ana dilində təhsil imkanının yaradılması, güzəştlərin edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsini xahiş edib: «Dünya Azərbaycanlıları Konqresi olaraq, xaricdə yaşayan soydaşlarımızın təhsil üçün xüsusi təhsil konsepsiyasının hazırlanmasını, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, soydaşlarımızın Azərbaycanda humanitar sahələrdə (dil, ədəbiyyat, tarix və s.) pulsuz və güzəştli şərtlərlə təhsil hüququnun təminini, dərsliklərin elektron versiyasının yaradılmasını vacib hesab edirik. Harada yaşamasından asılı olmayaraq, Azərbaycan bütün azərbaycanlıların vətənidir və ona xidmət etmək bütün azərbaycanlıların şərəf borcudur. Bu borcu layiqincə yerinə yetirmək üçün gənclərimizin ana dilində təhsilə böyük ehtiyacları var. bu, Azərbaycanın beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirilməsinə böyük təkan olacaq».[55]

Azərbaycanda təhsil alanların statistikasına nəzər salsaq, cənublu soydaşlarımızın sayının digər xarici ölkələrdən olan tələbələrdən az olduğunu görə bilərik. 1999-cu ildə Azərbaycanda 1580 xarici tələbə təhsil alırdısa, keçən il onların sayı 4500 nəfərə çatıb. BDU-da 651 nəfər əcnəbi tələbə oxuyur.

Bu statistika onu göstərir ki, Cənubi Azərbaycana xüsusi kvota ayrılması ilə yanaşı Azərbaycandan xaricə təhsil almağa gedənlərə diqqət mütləq artırılmalıdır. Rəsmi mənbələrdə 2005-2006-cı illərarası olan məlumata görə hazırda 3000 min azərbaycanlı xarici ölkələrin ali məktəblərinin tələbələrindən 1000 nəfəri dövlət hesabına təhsil alır. Qalan 2000 nəfər isə ya öz hesablarına, ya da ali məktəblərin il ərzində inkişaf etməkdə olan ölkələr üçün müəyyən kvota əsasında ayırdığı qrant hesabına təhsillərini xaricdə davam etdirirlər.



Azərbaycanda xarici tələbələrin sayının hər il artması onun göstəricisidir ki, ölkəmizdə sabitlik mövcuddur, burda yaşamaq, təhsil almaq üçün tam münbit şərait var. 1992-93-cü illərdə Azərbaycanda 5-10 nəfər xarici tələbə təhsil alırdı. Amma indi qeyd etdiyim kimi say 4500 nəfərə çatıb. Son iki ildə isə tələbələrin sayı 1000 nəfərə yaxın artıb. Bu il əcnəbi tələbələrin sayının 6000 nəfərə çatacağı gözlənilir. Say məsələsində isə azərbaycanlıların digər MDB dövlətlərinin bəzilərindən geri qalmasının da öz səbəbi var.

Məlumdur ki, Azərbaycan diasporunun tərkibini müxtəlif dövrlərin mühacirləri ilə yanaşı, xaricdə təhsil alan tələbə gənclər də təşkil edir. Hətta elə şəhər və dövlətlər var ki, orada tələbə gənclər diasporun təməlini qoyublar. Dünyanın aparıcı dövlətlərindən olan Yaponiyada diaspor hərəkatının yaradılması burada təhsil alan gənclərin sayəsində baş verib. Misirdə azərbaycanlı tələbələr Qahirə radiosunda veriliş hüququ əldə edib və Malayziya kimi inkişaf etmiş ölkələrdə tələbələr diaspor yaradılması üçün böyük işlər görüblər. Çinin və Malayziyanın ali məktəblərində və ictimai yerlərində Azərbaycan bayrağının dalğalanması məhz tələbə gənclərin zəhməti hesabına başa gəlib. Almaniyanın Boxum, Fransanın Strasburq, ABŞ-ın Missuri ştatı, Böyük Britaniyanın London, Rusiyanın Moskva, Sankt-Peterburq, Çexiyanın Praqa və. s. iri şəhərlərdə diaspor işində yalnız tələbə gənclər fəallıq edir və Azərbaycanı layiqincə təmsil edirlər.

Bütün bunlar onu göstərir ki, belə fəal tələbələrin əksəriyyəti dövlət xətti ilə oxumağa getməyiblər və onlara münasibətdə neqativliyin görünməsi ən böyük problemlərdən biridir. Dövlət tərəfindən təqaüd almaq imkanları olmayan belə tələbələrin pul qazanmaqdan ötrü ofisiant, fəhlə, barmen, şüşə silən və s. işlərə əl atması hazırkı dövr üçün normal qəbul edilə bilməz. 20% torpağı işğal olan, aktiv erməni diasporu və lobbisi ilə üz-üzə gələn, informasiya sarıdan geri qalan və s. problemlərlə qarşılaşan Azərbaycan dövləti mütləq tələbə-gənclərlə işləməlidir. Xaricdə təhsil alan tələbələrlə Dünya Azərbaycanlılarının Əlaqələndirmə

Şurası, Dünya Azərbaycanlıları Konqresi, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi, Avropa Azərbaycanlıları Konqresi və s. kimi qurumlar iş aparsa da onun səviyyəsi qeyri-qənaətbəxş hesab olunur.

Bir çox tələbə onlarla iş aparılmadığını, dövlətin müvafiq qurumlarının diqqətsizliyi üzündən geri qayıtmaq planlarını dəyişir və zəka axını prosesinin iştirakçılarına çevrilirlər. Öz qazandıqları biliyi və elmi xarici ölkələrin iri transmilli şirkətlərin və dövlətlərin iqtisadi inkişafı üçün sərf edirlər. ABŞ, Fransa, Almaniya, Yaponiya, Rusiya kimi dövlətlərdə təhsil müddəti başa çatdıqdan sonra xüsusi seçilən gəncləri magistr və doktoranturada saxlayır və ardınca müvafiq işlə təmin edir. Bununla hər bir tələbəyə ayırdığı kiçik bir vəsaiti sonradan iri məbləğdə onların zəkasından əldə edən iri dövlətlərin belə siyasətindən uduzan yalnız Azərbaycan dövləti olur. Mütləq bütün bunlar nəzərə alınmalı və diasporla iş aparan qurumlara onlarla iş aparılması tapşırığı verilməlidir. Əks təqdirdə güclü elmi potensial və mütəxəssis qıtlığı Azərbaycanda yaxın 10 il ərzində özünü ciddi problem kimi göstərəcək.

Azərbaycan diasporunun üzləşdiyi digər problem kimi təşkilatı struktur mexanizmin düzgün qurulmasıdır. Müstəqillik illərinə qədər diaspor təşkilatlarının fəaliyyəti mədəni və turizm əlaqələrinin qurulması və az da olsa siyasi-hüquqi işlərdən kənara çıxmırdı. 1991-ci ildən sonra Azərbaycanın müstəqil dövlət kimi dünya birliyinə daxil olması diasporumuzda yeni islahatların və təşkilati canlanmanın başlanması gözlənirdi. 1991-1993-cü illərin qanlı hadisələri zamanı diasporun gücü yalnız etiraz dalğalarına çatırdı. 20 yanvar, Xocalı faciələri, torpaqlarımızın ardı-ardınca itirilməsi şok vəziyyəti yaratmaqla yanaşı həmvətənlərimizi müstəqillikdən gözlədiklərinin əksi ilə rastlaşdırdı. 1991-93-cü illərdə Azərbaycanın təklənməsi diasporu şok halına saldı, təşkilati strukturlaşmada boşluq yaratdı. Keçirilən etiraz dalğalarının heç bir kömək etmədiyi Azərbaycan dövləti Heydər Əliyevin–dünya şöhrətli siyasətçinin hakimiyyətə gəlməsindən sonra üzləşdiyi çətinlikləri bir-bir dəf etməyə başladı. Bu hadisə



diaspor təşkilatlanmasında müsbət dəyişikliklər yaratdı. 2001-ci ilin noyabrına qədər Avropa və Amerikada təşkilati və lobbiçilik fəaliyyətdə duruma nəzər salaq:

1994-cü il görünməmiş bir durğunluq içərisində keçdi. Təşkilatların çoxundan məscid kimi istifadə olunurdu. Əksəriyyətinin adları dəyişdirilmişdi. Azərbaycan Kültür Dərnəyi yerinə Əhli-Beyt, 12 İmam Məscidi, İqdırlar dərnəyi kimi adlar istifadə edilməyə başlamışdı. Bəzi təşkilatlara İrandan ziyalılar gəlir və İrandakı durum haqqında məlumat verirdilər.

1993-cü ildən sonra Azərbaycandan Avropaya axın başladı. Müxtəlif siyasi və iqtisadi məsələlər üzündən Azərbaycanı tərk edən azərbaycanlılar Avropaya üstünlük verirdilər. Digər tərəfdən, Cənubi Azərbaycan türklərində də artıq milli oyanış başlamışdı və İrandakı rejimi dəyişdirməkdən çox Azərbaycanla bağlı məsələlər ön plana çıxmışdı.

Zəif də olsa, bəzi şəhərlərdə yenidən Azərbaycan dərnəkləri fəaliyyətə başlamışdı. Hər şey sıfırdan başlayırdı. Avropa şəhərlərində üç-beş adam bir araya gələrək dərnəklər qururdular. Amma maddi imkansızlıq üzündən həmin dərnəklərin fəaliyyət meydanı çox dar idi. Kifayət qədər yetkin adam olmadığından həmin dərnəklərin Avropa ictimaiyyətinə təsiri yox dərəcəsində idi. Dərc edilən qəzet və dərgilər çox kiçik tirajla və türkcə buraxılırdı. Dərnəklərin əsas fəaliyyət sahəsi ildə bir dəfə Novruz bayramı keçirmək idi. Ciddi bir lobbiçilik fəaliyyəti yox idi. Təşkilata rəhbərlik edən adamların əksəriyyəti yaşadıqları ölkələrin dilini bilmirdilər, gənclər və uşaqlarla bağlı heç bir metodik iş aparılmırdı. Hərdən-bir 31 Mart və Xocalı soyqırımının ildönümü münasibətilə 20-25 adamın iştirakı ilə mitinqlər keçirilir və bildirişlər yayılırdı. Bu cür çalışmaların Avropa mediası və ictimaiyyətinə heç bir təsiri olmayacağı aydın idi. Heç bir media orqanı Azərbaycan təşkilatlarından söhbət açmır, apardığımız haqq mübarizəsini Avropada yaşayan insanlara çatdırmırdı [4].

Uzun bir durğunluq dönəmindən sonra təşkilatları yenidən bir araya gətirmək üçün cəhdlər edilməyə başlandı. Avropadakı

Azərbaycan səfirliklərinə gənc diplomatların təyin edilməsi bu istiqamətdəki işləri sürətləndirdi. Nəhayət ki, təşkilatların bir araya gətirilməsi baş tutdu. Yeni vahid təşkilat Dünya Azərbaycanlıları Konqresi (DAK) adı altında fəaliyyətə başladı. Təşkilatda quzeyli, güneyli və türkiyəli azərbaycanlılar bir yerdə çalışırdılar. Çox keçmədən DAK-da fərqli maraqlar daxilində uyğunsuzluq yarandı və təşkilat parçalandı.

Avropada 100 mindən çox azərbaycanlı yaşayır. Onların içərisində çoxlu həkim, yazar, iş adamı, müəllim, mühəndis və hətta siyasətçi də var. Amma təəssüf ki, bütün bu insanların böyük əksəriyyəti diaspor fəaliyyətindən kənarda qalıb. Bunun ən böyük səbəblərindən biri heç bir təşkilatın onları sıralarına qatacaq qədər güclü təbliğat və təşviqatının olmamasıdır. Təşkilatların fəaliyyət meydanı olduqca genişdir. Maddi gəlirləri sadəcə az sayda olan üzvlərinin aylıq ianələri hesabına formalaşır. Avropa şərtlərində bu pulun lobbiçiliyi üçün dəyər sıfıra bərabərdir. Öz bölgəsində tanınan insanların əksəriyyəti milli məsuliyyətini anlamalı, ziyalılıq güclərini ortaya qoymalıdırlar.

2001-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən dünya Azərbaycanlılarının I Qurultayından sonra durum müsbət istiqamətdə dəyişməyə başladı.

2006-cı ilin məlumatına əsasən dünyanın müxtəlif ölkələrində 300-dən çox diaspor təşkilatı fəaliyyət göstərir ki, onların 30%-i sırf zəkalı insanları ətrafında birləşdirir. İlk illərdə ayrı-ayrılıqda fəaliyyət göstərən təşkilatlar zəka axını prosesinin tanınan simalarının rəhbərlik etdiyi konqreslər ətrafında toplanırlar. Ümumrusiya Azərbaycanlılar Konqresi, Ukrayna Azərbaycanlıları Konqresi, Amerika Azərbaycanlıları Cəmiyyəti, Avropa Azərbaycanlıları Konqresi, İsveç–Azərbaycan Federasiyası, və s. birliklərin aparıcı simaları tanınan ziyalılar, alimlər, müəllimlərdən və s. ibarətdir.

Ətrafında sıx olaraq ziyalıların birləşdiyi qurumlar içərisində Azərbaycan Tələbə Təşkilatı (Misir), Avstriya-Azərbaycan Akademik Birliyi (Avstriya), Nizami Gəncəvi adına Azərbaycan



Mədəniyyəti Mərkəzi (Almaniya), Elm və Mədəniyyət Avropa-Qafqaz Mərkəzi (Hollandiya), Azərbaycan-Amerika Təhsil və Mədəniyyət Fondu (ABŞ), İzmir Azərbaycan Tələbə Birliyi (Türkiyə) və s. adlarını xüsusi olaraq qeyd etmək olar.

Təşkilatı strukturlaşma baş verdikcə nəzərdən qaçan məqamlar da çoxalır. Xüsusən elm və təhsil səviyyəsinə görə seçilən azərbaycanlı zəkaların xarici ölkələrdə pərakəndə fəaliyyət göstərməsinin qarşısını almaq üçün mütləq (Think-Thank) Düşüncə mərkəzlərinin diaspor birliklərinin nəzdində yaradılmasıdır. Elmi nöqteyi-nəzərdən müsbət nəticələr verən belə təcrübənin Azərbaycan diasporunda tətbiq edilməsindən Azərbaycan dövləti yararlana bilər və bu atılması zəruri olan addımlardan sayılır.

Xaricdə yaşayan azərbaycanlıların bitkin və yetkin diaspora kimi formalaşmasının qarşısını alan, prosesi əngəlləyən başlıca və ən ciddi problem qarşılıqlı əlaqələrin yoxluğudur.

Problemi soydaşlarımızın daha çoxsaylı icma təşkil etdiyi Rusiyanın timsalında nəzərdən keçirsək görərik ki, bu ölkədə 2 milyondan çox (bəlkə də çox–rəsmi statistika yoxdur) azərbaycanlı yaşayır.

Mütəxəssislərin hesablamalarına görə, normal halda bu qədər insanın vətənlə sıx bağlarını təmin etmək, milli varlıq və mentalitetlərini unutmamaları üçün milli dildə təhsil verilən 430 orta məktəb, 120 litsey və ya gimnaziya, 32 ali təhsil müəssisəsi, 17 teatr, 40-a yaxın qəzet və dərgi, 30-35 məscid, 5 mədrəsə, 4 telekanal gərəkdir. Bunların isə demək olar ki, heç biri yoxdur.

Rusiyadakı 2 milyon azərbaycanlının qarşılıqlı yardım kassası formasında fəaliyyət göstərən ölkəyə yeni gələn azərbaycanlılara ilkin zəruri yardım təqdim edəsi bir neçə bankı, qapalı maliyyə fondları olmalıdır. Yenə də heç biri yoxdur.

Ən başlıcası isə 2 milyon soydaşımızın arasında geniş müstəvili, çoxsəviyyəli qarşılıqlı anlaşma və yardım mexanizmləri ümumiyyətlə, mövcud deyil.

Bu səbəbdən də Rusiyadakı soydaşlarımız 10-15 ildən sonra təbii assimilyativ proseslərin qurbanına çevrilə bilərlər. Problemi

bir az da «çılpaq» hala gətirsək görərik ki, Rusiyada yaşayan hər hansı azərbaycanlı ailənin övladları Rusiyada doğma dillərində təhsil almaq imkanlarından məhrum olduqlarından rus məktəblərində, sonra da institut və ya universitetlərində oxumağa məhkumdur. Rus dilində təhsil almış gənc, ailə sonradan Azərbaycana qayıtdıqda belə artıq burada özünü yad kimi hiss edəcək. Çünki məkan fərqli, adət-ənənə fərqli, baş verən və yaşanan olayları duyub dərk etmək formaları dəyişkəndir.

Rusiyadakı ailəni yox, hansısa «ailəsiz», yəni ailəsini vətəndə qoyub gedən və ya subay soydaşımızı nəzərdən keçirsək görərik ki, Azərbaycandan Rusiyaya gedənlərin 43 faizi orada yenidən, bu dəfə qeyri-qanuni ailə qururlar. Subaylarınsa 57 faizi Rusiyada evlənir. Təbii ki, millətlərarası nikahlar cinayət deyil. Lakin ailəsi Azərbaycanda qalan, özü isə Rusiyada yenidən «evlənən» soydaşımızın Vətənə qayıtması artıq mümkünsüzdür. Rusiyaya subay yollanıb orada ailə quranlar qanun qarşısında heç bir suç işləməsələr də, Azərbaycanı dünyaya gələcək övladlarından məhrum edirlər.

Bu hal bu gün Rusiya ilə yanaşı Ukrayna və digər MDB məkanına müraciət edənlərə də təsadüf edir. Bu isə problem olaraq Azərbaycan dövlətini mütləq narahat etməli olan məsələdir. Azərbaycanın mərhum prezidenti H. Əliyev Rusiyada yaşayan soydaşlarımızın problemlərini görürdü və onun atdığı addımlar problemin ortadan götürülməsinə xidmət edirdi. Düzdür, hələ məsələ tam olaraq çözülməyib, bunun üçün Azərbaycanda torpaqların işğaldan azad olunması və regionlarda sosial-iqtisadi inkişaf yüksək səviyyəyə çatmalıdır. Lakin görülən işləri də unutmaq düzgün olmazdı.

Təbii ki, güclü, vahid diaspor təşkilatının yaradılması məqsəd deyil, bu, bizim soydaşlarımızın hüquq və azadlıqlarını qorumaq, Rusiyada Azərbaycanın mövqelərini müdafiə etmək üçün bir vasitədir. Azərbaycan Prezidenti Heydər Əliyevin ÜAK-ın təsis qurultayında dediyi kimi: «Rusiyada yaşayan və ailəsinə çörək qazanan, eyni zamanda bu və ya başqa regionun ictimai həyatında



iştirak edən hər bir azərbaycanlı hörmətə layiqdir və biz onun maraqlarını qorumalıyıq». (Mənbə)

Rusiya yüz minlərlə soydaşımız– alimlər, müəllimlər, həkimlər, neftçilər, mühəndislər, biznesmenlər üçün ikinci vətən olub. Onlar bu ölkədə öz əməklərinin bəhrəsini görüblər, qiymətini alıblar. Rusiyada yaşayan azərbaycanlılar taleyin qisməti ilə iki ölkə– tarixi və ikinci vətənləri arasında körpü olmağa nail olublar. Onlar iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinə xidmət etməklə bu körpünün daha da möhkəmlənməsinə yardım göstərirlər. Rusiya ilə Azərbaycan arasında münasibətlərin son dövrlərdə, əsasən də dövlət başçıları səviyyəsində yaxınlaşması xalqlarımızın mənafeyinə xidmət edir.

ÜAK-ın 2004-cü ilin oktyabrında Moskvada keçirilən II qurultayında Rusiya eksprezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin birlikdə iştirak etmələri Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsindən, strateji əməkdaşlıqdan xəbər verirdi. Bu, bir daha göstərdi ki, ÜAK Rusiya ictimaiyyətinin diqqətini cəlb edən, hər iki ölkənin maraqlarına xidmət edən federal bir təşkilata çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin də tövsiyəsi, istəyi bu idi.

Azərbaycan diasporunun investisiya imkanlarının ölkəyə gətirilməsi iqtisadi inkişafa təkan verməklə yanaşı, kapitalın sonradan lobbiçilik, informasiya işi və mühüm tədbirlərə yönəltməsinə imkan yarada bilər.

Azərbaycan dövləti 2002-ci ildən etibarən diasporun ölkə iqtisadiyyatına investisiya qoymaq imkanlarının yaradılmasını qanunvericiliklə tənzimləməklə yanaşı yaradılan qurumların nizamnamələrində problemə toxunulmasına şərait yaradıb. 2002-ci ilin 27 dekabr tarixli prezidentin imzaladığı xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanununda diasporumuzun mühüm problem kimi gördüyü investisiya məsələsi ilə əlaqəli olaraq xüsusi maddə ayrılıb. Qanunun 6-cı maddəsində xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının iqtisadi və sosial siyasətində nəzərdə tutulan 6. II. Azərbaycan Respublikasının

ərazisində fəaliyyət göstərən kommersiya təşkilatları ilə xaricdə yaşayan azərbaycanlıların kommersiya təşkilatları arasında əməkdaşlıq birgə müəssisələrin yaradılması; iqtisadiyyata investisiya qoymaq və sahibkarlıq fəaliyyətinin sərbəst aparılması, investisiya qoyan diaspor nümayəndələri üçün vergi, gömrük və digər güzəştlərin verilməsi kimi müddəalar birbaşa problemin həllinə yönəlib [33].

Diasporla bağlı problemlər içərisində ən önəmlisi mövzuya elmi-tədqiqat obyekti kimi yanaşılmayasıdır. "Diaspor", "lobbi" kimi terminlərə müraciət edən qurumlar problemi elmi şəkildə öyrənməklə bağlı ciddi bir iş görməyiblər. Pərakəndə halında mövzunu öyrənən gənclərin, tədqiqatçıların və tələbələrin bir araya gətirilərək eyni mərkəzdən idarə edilməsi diaspora böyük önəm verən bir dövlət üçün ciddi nöqsandır. İran və türk diasporları içərisində adları göstərilən və demək olar ki, azərbaycanlı kimi əriyib itən soydaşlarımız və onların məskunlaşdığı dövlətlər barəsində hesabatlar yox dərəcəsindədir. İctimaiyyətdə diaspor, onun problemləri, dərdləri, çətinlikləri, sevgiləri, dövlətə münasibətləri və s. barədə elmi-analitik məlumatlar verilmir. Azərbaycan vətəndaşları xaricdə yaşayan soydaşlarımız barədə informasiya texnologiyalarının inkişaf etdiyi bir zamanda İnternet saytları bolluğu yaşanmasına baxmayaraq verilən məlumatlar sırf xəbər xarakteri daşıyır. Yaradılan saytlarda analitik-elmi yanaşmanın azlığı, xarici dillərə tərcümə edilməməsi, mənbəşünaslıqda olan nöqsanlar Azərbaycan diasporunun tədqiq edilməsinə imkanlar yaradır. Azərbaycanın zəka sahiblərinin böyük nüfuzu barədə qeyd etdiyimiz fikirlərə əlavə olaraq qeyd etmək olar ki, elə soydaşlarımız var ki, bu gün onlar barədə məlumat qıtlığı var. Amerikanın Kosmik Tədqiqatlar İnstitutunda (NASA) böyük elm tələb edən sahələrdən sayılan kosmik gəmilərin və raketlərin hazırlığı işində zəka axınının iştirakçıları olan milliyyətcə azərbaycanlılar çalışırlar. Düzdür, NASA-nın siyasətinə daxil olan məxfilik prinsipinə baxmayaraq, onlarla əməkdaşlıq qurulması mühüm əhəmiyyət kəsb edən məsələdir.



Xaricdə yaşayan alim və ziyalılarımızla dövlət səviyyəsində koordinasiya qurulmaq və bu böyük potensial imkanlarımızdan səmərəli şəkildə faydalanmağımızın vaxtı çoxdan çatmışdır. Fikrimcə, Azərbaycan Alimlər Birliyi kimi bir qurumun yaradılması, yaxud müvafiq dövlət qurumlarında xüsusi işçi qrupunun yaradılması kimi addımlar bu gün atılmayıb. Görülən işlər isə yalnız pərakəndə haldadır, onlar üçün xüsusi güzəştlər, ikili vətəndaşlıq statusu, fəxri konsul təcrübəsi, ali məktəblərin fəxri professoru və s. işlər hələ də atılmayıb. Adları xarici ölkələrin yüksək dairələrindən gələn belə alimlərimizin ekspert kimi dövlət qurumlarına dəvət edilməsindən ancaq dövlətimiz qazana bilər.

Bəs hansı ciddi tədbirlər görülməlidir?

1. Lobbiçilik fəaliyyəti həyata keçirmək üçün, Azərbaycan bu işə bir dövlət siyasəti kimi yanaşmalıdır Azərbaycandakı iqtidar-müxalifət çəkişməsi daxildə qalmalı və Avropadakı təşkilatlar bu məsələyə qarışmamalıdırlar.

2. Ciddi olaraq bu işin bazası yaradılmalıdır. Baza ilk növbədə insan amilini nəzərə almalıdır. Avropadakı təşkilatların rəhbərliyinə xaricdə təhsil almış yaşadığı ölkənin dilini bilən siyasətçilərlə tanış olmağa və danışmağa maraqlı gənclər gətirilməlidir. Bizim millətin ən mənfi xüsusiyyətlərindən biri işi bilənə yox, kiminsə xatirinə bilməyənə tapşırmalıdır.

3. Avropadakı iş adamları ilə əlaqələr qurulmalı, onların yardımlarından istifadə olunmalıdır. İş adamlarını bir-bir axtarıb tapmaq və onları dövlət səviyyəsində dəvət etmək lazımdır. Onlara işlərinin maneəsiz həyata keçirmək üçün köməklik göstərilməlidir.

4. Hər təşkilatın rəhbərliyində avropalı jurnalistlərlə münasibət qurmağı bacaran qabiliyyətli insanlara yer verilməlidir. Onları Azərbaycana gətirmək üçün maddi imkan yaradılmalıdır.

5. Avropada yaşayan Azərbaycan görkəmli şair və yazıçılar üçün bir birlik yaradılmalı və onların əsərlərinin nəşri və yayımı üçün imkanlar yaradılmalıdır.

6. Avropada doğulan və onlara sahib çıxılmaq üçün assimilyasiyaya məruz qalan gənclərdə milli hisslər oyatmaq üçün tədbirlər görülməlidir. Onlar üçün seminarlar, kurslar təşkil edilməli və ildə bir dəfə qrup halında Azərbaycana gəlmələrinə şərait yaradılmalı, onlarda tarixi keçmişə hörmət maraq və milli şüur aşılanmalıdır.

7. Azərbaycanla Ermənistan arasında münaqişəyə səbəb olan məsələləri dərindən bilən universitet müəllimlərinin, tarixçilərin kitabları ingiliscə, almanca, fransızca nəşr edilməli və Avropadakı dərnəklərə paylanılmalıdır. Lazım gəlincə, həmin tarixçilər Avropaya göndərilməli və konfranslar, seminarlar təşkil edilməlidir. Azərbaycanın tarixi Avropadakı gənclərə milli şüura sahib olan alimlər tərəfindən öyrədilməlidir.

8. Erməni diasporunu daim gündəmdə saxlayan uydurma genosid məsələsidir. Bu səbəbdən hər yerdə yeri gəldi-gəlmədi, genosid məsələsindən istifadə edirlər. Bu bizə örnək olmalıdır. Bizim 70 ildən sonra yenidən müstəqilliyimizə qovuşmuş ölkəmizin daim azad olması və itirilmiş torpaqların geri alınması məsələsi diasporun gündəmində olmalıdır.

9. Azərbaycan diasporunun özünəməxsusluğunu şərtləndirən ən əsas amillərdən biri xalqımızın bölünməsi ilə bağlıdır. Məhz bölünmüş xalq olması Azərbaycanın diaspor fəaliyyətinə fərqli yanaşma tələb edir. Bu amil nəzərə alınmadan diasporun təşkilatlanması, milli problemlərin həllinə cəlb olunması mümkün deyildir.

Belə ki, MDB məkanı istisna olmaqla bütün digər ölkələrdə Azərbaycan diasporu əsas etibarı ilə Azərbaycanın Güneyinin potensialına söykənir. Ümummilli liderimiz Heydər Əliyevin vəsiyyət etdiyi kimi Azərbaycan dövləti yalnız Azərbaycan Respublikası vətəndaşlarının deyil, dünyaya səpələnmiş bütün Azərbaycan türklərinin qarantı olduğu üçün hər bir azərbaycanlı da Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması üçün var gücü ilə çalışmalı, bütün əlində olan imkanları məhz bu problemlərin həllinə yönəltməlidir. Bölünmüş xalqların təcrübələri göstərir ki, ərazi bütövlüyünün və milli-siyasi birliyin



təmin olunması yalnız o halda mümkündür ki, millət tam olaraq milli birliyin və ərazi bütövlüyünün mahiyyətini dərk edir və onun uğrunda mübarizə aparır. Lakin təəssüf ki, bu amil yetərincə nəzərə alınmadığından Azərbaycan diasporun təşkilatlanmasında və milli hədəflərə səmtlənməsində əməli nəticə almaq hələlik mümkün olmamışdır.

### 2.3. Müasir dövrdə xaricdə yaşayan azərbaycanlıların əlaqələrinin təşkilinin məzmunu və xarakterik xüsusiyyətləri

II Dünya müharibəsindən dərhal sonra Sovetlər Birliyində təhlükəsizlik xidmət orqanlarının nəzarəti altında bir neçə istiqamətdə işlər planı hazırlanacaq müxtəlif qurumlar adı altında fəaliyyətə başlandı. Sovetlər Birliyinə daxil olan respublikalarda yaradılan belə qurumlar II Dünya müharibəsi illərində və ondan öncə xaricə qaçan və mühacir həyatı yaşayan keçmiş vətəndaşlarla əməkdaşlıq qurulması məqsədi güdürdü. II Dünya müharibəsi illərində azərbaycanlı legionerlərin rəşadəti və sonradan Avropa, Amerika və Asiya ölkələrinə səpələnərək Azərbaycanın istiqlalı uğrunda savaşması Sovet üsul-idarəsinin planlarına qarşı idi.

Azərbaycanda ilk belə yaradılan qurum 1946-cı ildə təməli qoyulan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti idi. DTK-nin xüsusi nəzarəti altında fəaliyyət göstərən cəmiyyətin əsas məqsədi xaricdə yaşayan azərbaycanlılar, xüsusilə ziyalı təbəqəsinin vətənlə əlaqələrinin qurulması idi. O, illərdə artıq Azərbaycan diasporunun ziyalı kütləsi formalaşmışdı və onlar təşkilati strukturlaşma işində fəallıq nümayiş etdirirdilər. Belə insanlarla əməkdaşlıq Sovetlər Birliyi üçün mühüm əhəmiyyət kəsb edirdi və onların vətənlə əlaqələrinin təşkilindən istifadə edərək yaradılan cəmiyyətin xətti ilə keçmiş legionerlərin bəziləri Azərbaycana dönə bilmişdilər.

1960-cı ildə işlərin daha fəallaşması məqsədilə Cəmiyyətin nəzdində «Vətənin Səsi» adlı gizli bir qəzet «Bakı» və «Baku»

qəzetləri redaksiyasında buraxılırdı. Gizli deyəndə ki, xaricdəki azərbaycanlılar üçün nəzərdə tutulan «Vətənin Səsi»nin səhifələri siyasi səpgili materiallarla bol idi və onlar yalnız təbliğat xarakteri daşıyırdı. «Vətənin Səsi» DTK-nın vasitəsilə dünyanın müxtəlif bölgələrinə yayılırdı. Bəzən saf diaspor nümayəndələri bilmədən DTK-nın toruna düşür və özlərinə yerli hakimiyyətlə ciddi problemlər yaradırdılar. 1982-ci ildən «Odlar yurdu» adı altında fəaliyyətə başlayan qəzet ərəb, kiril və latın qrafikasında çap olunur və xaricdə artıq diaspor hərəkatının güclənməyə başladığı ölkələrə və cəmiyyətlərə pulsuz paylanırdı. Burada əvvəlki illərdən fərqli olaraq DTK təsiri bir o qədər də hiss olunmurdu və əsas üstünlük verilən materiallar ədəbi, mədəni və elmi xarakterli idi. Cəmiyyət müstəqillik qazandıqca xarici ölkələrdə kütləvi tədbirlər silsiləsinə başladı. Bu işdə xüsusi rol Azərbaycan hakimiyyətinin başçısı Heydər Əliyevin üzərinə düşürdü. Onun hakimiyyətə təyin edilməsindən sonra iqtisadiyyat, mədəniyyət, elm və təhsil sahələrində qazanılan uğurlarla yanaşı soydaşlarımızın Vətənlə əlaqələrinin təşkilində fəaliyyətin canlanması Azərbaycanı digər respublikalar içərisində fərqləndirirdi.

Həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli-ideoloji zəmində sistemli və açıq şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət və elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkandan tam səmərə ilə istifadə edilirdi.

1974-1975-ci illərdə Fransa, İtaliya, Danimarka və Portuqaliyada Cəmiyyətin xətti ilə "Azərbaycan mədəniyyəti günləri" keçirilmiş və burada yaşayan azərbaycanlılar Vətən barəsində məlumat əldə etməklə yanaşı, geri qayıtmaq yollarını axtarırdılar. Cəmiyyətin nümayəndələri Sovet Azərbaycanında onları nələr gözlədiklərini bildirir, DTK və Sibir qorxusunun düşmən təbliğatı olduğuna onları inandırmağa cəhd edirdilər. Bu məqsədə xidmət edən ingilis, rus, ərəb və fars dillərində nəşr edilməyə başlanan «Sovet Azərbaycanı bu gün» adlı bülleten



bütün dünyaya yayılırdı. Göstərilən cəhdlərin müsbət nəticələri olmasına baxmayaraq, bütövlükdə götürəndə diasporumuzun vətənlə əlaqəsi zəif idi [35, 205].

Azərbaycan diasporu ilə yalnız 80-ci illərin sonundan etibarən əlaqələrdə yeni istiqamətlər müəyyənləşdirildikdən sonra irəliləyişlər görünməyə başlandı. "Vətən" Cəmiyyətinə Elçin Əfəndiyevin rəhbərlik etməsindən sonra xaricdə yaşayan soydaşlarımızın Azərbaycanla münasibətləri mədəni, elmi çərçivə ilə yanaşı hüquqi xarakter almağa başladı. Bu ildən etibarən diasporumuzun nümayəndələri ölkədə keçirilən tədbirlərə rəsmi dəvətlər əldə etməyə başladılar. 1988-ci ildə Bakı şəhərində M. F. Axundovun 175 illik yubileyi ilə əlaqədar olaraq keçirilən tədbirə Yaponiya, Almaniya və s. ölkələrdə yaşayan soydaşlarımız fəal iştirak edirlər.

Vətən Cəmiyyəti yarandığı gündən lobbiçilik işinə də diqqət yetirirdi. Xüsusilə azərbaycanşünas alimlər və ziyalıların ölkəmiz barəsində məlumat əldə etməsi və maraqlarımızın təmin olunmasına ciddi fikir verilirdi. Tadeyş Svyatoxovski, Odri Alştadt və Əhməd Şmide kimi dünya şöhrətli alimlərin Azərbaycana səfərlərini təşkil edən «Vətən» Cəmiyyəti onların diasporumuzla əməkdaşlığında vasitəçi rolunu oynayırdı.

"Vətən" Cəmiyyətinin əhəmiyyəti daha böyük və gördüyü işlərin həcmi daha artıq idi. "Vətən" Cəmiyyəti özünün Ermənistanda olan oxşar nümunəsi əsasında yaranmışdır. Bu təşkilat sözün əsl mənasında qeyri-siyasi və qeyri-ideoloji idi. O, birtərəfli münasibətlər əsasında xaricdə formalaşmaqda olan Azərbaycan təşkilatlarının mədəni cəhətdən məlumatlanmasına yardım edir. Bu orqan hökumət büdcəsi ilə idarə olunduğu halda, müəyyən bir siyasi ya ideoloji xətt yürütməyə məcbur deyildi.

"Vətən" Cəmiyyəti getdikcə reallaşmaq və təcrübələnməklə bərabər fəaliyyət dairələrini genişləndirirdi. Hər üç əlifbada «Odlar yurdu» adlı bir aylıq qəzetin müntəzəm nəşri də bu cəmiyyətin işlərindən biri idi. Bu cəmiyyətin ən güclü cəhəti onun maliyyə imkanları idi. Kitab və musiqi valları buraxmaq Azərbaycana səfər etmək üçün viza və hətta otellərdə yerləşmək

yardımı, gələn qonaqları Azərbaycan ictimaiyyəti ilə tanış etmək, görüşdürmək, Azərbaycan əhalisinə mətbuat və televiziya vasitəsilə onların fikirlərini çatdırmaq, bu məqsədlə «Vətən» adlı bir populyar bir televiziya verilişi yaratmaq, bələdçi və hətta maşın və sürücü vermək, hər bir xərci öz boynuna götürməklə dünyanın bir çox ölkələrinə musiqi qrupları yollamaq, xaricdən gələn qonaqların iştirakı ilə konfrans və mədəni görüşlər təşkil etmək, bir sıra qeyri-azərbaycanlı qonaqların Azərbaycana dəvət olunması və bir çox başqa işlər «Vətən» Cəmiyyətinin dəyərli tarixi işlərinin siyahısına daxil ola bilər. Bu işlərin mühüm cəhəti «Vətən» Cəmiyyətinin inanılmaz bir dərəcədə necə mühüm prinsiplərə sadiq qalması idi:

1. Xaricdə yaşayan azərbaycanlılar və orada fəaliyyət göstərən təşkilatların daxili işləri və daxili ixtilaflarına qarışmamaq;

2. Onları Azərbaycanın daxilində gedən siyasi çəkişmələrə daxil etmək, ya onlardan hansısa siyasi bir xətt, ya siyasi təşkilatın xeyrinə, ya zərərinə istifadə etməmək.

3. Azərbaycan Respublikasında «Vətən» Cəmiyyəti öz fəaliyyətlərini bu mənfiliklərdən kənarda saxlamaqla müvəffəq olmuşdur.

Demək olar ki, mühacirətin yuxarıda sayılan üç mühüm fəaliyyətindən «Vətən» Cəmiyyəti hər üçünü öz planlarında nəzərə alırdı. Əlbəttə, düzgün olaraq, üçüncü fəaliyyət, yəni Şimali Azərbaycanın xaricdəki səsi olmaq məsələsi haqda konkret bir tapşırıq ya plan yox idi və bu məsələ təkcə fəaliyyətlərin ümumi ruhunda və Cənub mənşəli azərbaycanlıların doğma vətənlərinin Şimali parçası ilə tanış edilməsində təcəssüm tapırdı.

1986-1992-ci illərdə «Vətən» Cəmiyyəti müxtəlif xarici ölkələrdə 50-dək Azərbaycan mədəniyyət mərkəzi, dərnək, ocaq, əncümən, cəmiyyət və s. birliklər yaratmışdı. Bu sahədə «Yurddaş», «Tanıtım», «Bakılı», «Sodrucestvo» kimi cəmiyyətlər də xüsusi fəallıq nümayiş etdirirdi [57].



Bütün görülən işlərin əsasında isə diasporumuzun və xaricdə tanınan zəka sahiblərinin Azərbaycanla əlaqələrinin təşkili və münasibətlərin istiqamətlərini müəyyənləşdirmək dururdu.

1991-ci ilin yanvar ayında Respublika Nazirlər Kabinetinin «Ayrı-ayrı respublikalarda yaşayan azərbaycanlılarla əlaqələri möhkəmləndirmək, milli mədəniyyətin, doğma dilin və əlaqələrin inkişafında onlara kömək göstərmək tədbirləri haqqında» qərar qəbul edilmişdir [6, 420].

Respublikamızdan uzaqlarda fəaliyyət göstərən diasporumuza məxsus mədəniyyət cəmiyyətləri və birlikləri arasında əlaqə yaratmaq və Vətənə münasibətdə həmrəylik nümayiş etdirmək məqsədilə 1991-ci ilin mart ayının 28-dən 30-dək Bakı şəhərində Mədəniyyət nazirliyi və Azərbaycan Mədəniyyət Fondunun xətti ilə onların rəhbərlərinin iştirakı ilə seminar-müşavirə keçirilmişdir. Elə həmin ilin iyun ayında Sovetlər Birliyinə daxil olan ölkələrdəki diasporumuzun üzvləri Vətənə gələrək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi yollarını müzakirə ediblər.

İctimai birliklərin təsis olunması diaspor–Vətən əlaqələrinin inkişaf etməsi, tanınmış soydaşlarımızın lobbiçilik işinə qoşulması müxtəlif səpgili tədbirlərin xarici ölkələrdə keçirilməsi və s. istiqamətində görülən işlərin daha da güclənməsində 1992-ci ildə Azərbaycan Respublikasının mərhum prezident Heydər Əliyevin imzaladığı Sərəncamın əhəmiyyətli rolu oldu. Sərəncama uyğun olaraq Prezidentin İcra Aparatının İctimai-siyasi şöbəsinin nəzdində «xaricdə yaşayan soydaşlarla və Azərbaycanda fəaliyyət göstərən Beynəlxalq təşkilatlarla iş» bölməsinin yaradılması diaspora dövlət qayğısının bariz nümunəsi idi.

Diasporla əməkdaşlıq adı altında yaradılan "Cəmiyyətlərin" əsas məqsədi» Azərbaycana humanitar yardım adı altında vəsait toplanması idi. Dövlətimizin üzləşdiyi problemlərdən öz çirkin məqsədləri üçün istifadə edən belə cəmiyyətlər xeyli kapital toplamağa nail ola bilmişlər. Bu işdən bir müddət sonra aldandıqlarını başa düşən xarici ölkələrdə yaşayan soydaşlarımız

Vətənlə əlaqə qurulması işində ehtiyatlı olur və gözləmə mövqeyində dururdular. Bu cür mövqe tutma onları Azərbaycan barəsində həqiqi məlumatlardan uzaq salır və nəticədə isə pərakəndəlik hiss olunurdu.

Dünya azərbaycanlıları ilə güclü əlaqələri zərurətə çevrilən bir sıra amillər də var; yəni Vətənimizin parçalanması və zorən dünyaya səpələnməyimiz, yurddan didərgin düşməyimiz bizdən asılı olmayan bir tale qisməti olduğuna görə, mühacir və ya kənarda yurd salmış soydaşlarımızı unutmaq, əlaqələri qorumaq cəhdi kimi öz yerində, amma bu işin böyük tarixi və milli əhəmiyyəti də danılmazdır. Bu baxımdan bir neçə məqama diqqət yetirək:

1. Azərbaycanı parçalama və məhv etmə, Qafqazı xristianlaşdırma, azərbaycanlıları öz tarixi yurdundan didərgin salma, böyük Türk Dünyası Birliyinin yaranmasının qarşısının alınması niyyəti bu gün də yüz il öncə olduğu kimi, gündəmdən çıxmayıb, əksinə bu yöndə görülən işlərin miqyası daha da genişlənib; düşmənçilik «texnologiyası» daha da gücləndirilib.

2. Qafqaza yiyələnmək, Xəzərin və Mərkəzi Asiyanın enerji ehtiyatlarına sahib olmaq istəyən bir sıra dövlətlər və dövlətlərüstü güclər-erməni kapitalının təsiri altındadırlar; eyni zamanda Ermənistana alət kimi baxırlar və Qafqaza təsir və bölgəyə nəzarət baxımından oranı itirmək istəmirlər və buna görə də istər-istəməz daimi bir antiazərbaycan təbliğatının mühitindədirlər.

3. Azərbaycan Şimal–Cənub, Şərq–Qərb qarşıdurmalarının kəsişmə nöqtəsindədir və onun taleyini öz istədiklərinə uyğun həll etmək istəyən qüvvələr çoxdur. Bu nöqtədə xristian Rusiyası ilə müsəlman İranı çox asanlıqla birləşirlər.

4. Əslində, yalnız fikir və ideya səviyyəsində yaşayan, tarixi xülya və mənəvi amil olan, vətənpərvərlik tərbiyəsi sisteminə xidmət edən Turançılıq və onun mövcud olmayan təhlükəsini bəhanə edən bir çox qüvvələr açıq-aşkar bir «İrançılıq», «arilik» xətti tutaraq, geniş bir türk düşmənçiliyi şəbəkəsi yaratmışlar və bu şəbəkəni ildən-ilə genişləndirməkdədirlər.



5. Osmanlı imperiyasının süqutundan sonra Türkiyənin parlaq bir çağdaş dövlətçilik nümunəsi yaratdığına baxmayaraq–Avropa ölkələrində Türkiyəyə münasibət birmənalı deyil və istər-istəməz türk dünyasının digər subyektlərinə, o cümlədən, Azərbaycana münasibətində rəğbət duyulmur və bu münasibətin tendensiyalı xarakterini danmaq mümkün deyildir.

6. Dünyanın gözü qarşısında hələ qanı qurumayan, ağrı-acısı bitməyən əsrin ən dəhşətli faciəsi olan 26 fevral 1992-ci il Xocalı soyqırımı olmuşkən «1915-ci il erməni soyqırımı» adlı bir «tarixin saxtalaşdırılman»ın olmuş hadisə kimi qəbul etdirilmə prosesi gedir. 1919-1920-ci illərdə, «isti-isti», beynəlxalq ekspertlər tərəfindən hərtərəfli öyrənilib nəhayət, «erməni soyqırımı» adlı bir olayın olmadığını bəyan eləsələr də, indi üstündən xeyli keçəndən sonra bu yalana həqiqət donu biçilir və bunun neçə qat zərbəsi bütün türklərə dəyir; erməni vəhşiliyi, daşnakların Anadoluda və Azərbaycanda törətdikləri qırğınların unutdurulması bir yana, üstəlik türklərə soyqırımı törətmiş xalq damğasını da vurmağa çalışır və bu fonda Qarabağda törətdiklərini və insanlığın təsəvvürünə gəlməyən vəhşilikləri diqqətdən yayındırmağa çalışırlar.

7. Eyni siyasətin ikili standartla yanaşma nəticəsində Ermənistan ərazilərimizin 20 faizi işğal etsə də, Qərb tərəfindən işğalçı dövlət olduğu etiraf edilmir və bütün mümkün vasitələrdən istifadə etməklə onu cəzadan kənarda saxlamağa çalışırlar.

8. Ermənistanın torpaq iddiaları, Qarabağın işğalı və Naxçıvan iddiaları, ərazilərini genişləndirmək niyyəti ilə yanaşı və bundan daha çox, bir dövlət olaraq Göyçə, Zəngəzur, İrəvan, Şirak, Ağbaba, Qaraqoyunlu adlı Azərbaycan torpaqlarında yerləşdiyini unutdurmaq və müstəqil dövlətini bərpa etmiş Azərbaycanın başını qarışdıraraq həm 1918-1920-ci illər Cümhuriyyət dövründə, həm də daha öncə bizə məxsus olmuş torpaqlarımızın beynəlxalq–hüquq çərçivəsində geri istəməsinə əngəl törətməkdir. Buna görə də erməni qaçqınlarından siyasi oyun vasitəsi kimi istifadə edilir. Onların anti–Azərbaycan, anti-

türk təbliğatı ildən-ilə güclənir; onlar çağdaş xəbərləşmənin və iki formasiya ötürməsinin bütün vasitələrdən istifadə edərək Azərbaycanı gözdən salmağa, öz əməllərini bizim adımıza yazmaqla, terrorçuluq və vəhşiliklərini ört-basdır edərək, əzabkeş millət imicini daha da dərinləşdirməyə çalışırlar. Əsl əzabkeşlər olan 1, 5 milyon Azərbaycan qaçqını yada düşmür.

9. Dövlətlərin və xalqların qorunması və mühafizəsi baxımından ənənəvi sərhədlər əhəmiyyətini itirib. İnformasiya müharibəsi və qlobal güclərin səhm və «demokratik yardım» müharibələri ilə üçüncü minillikdə "işğalçılıq" siyasətinin ağlasığmaz siması açılır; bütün dünyada qloballaşma zərurətə çevrilir.

10. Milli dövlətçilik, xalqların milli azadlığı, demokratik dəyərlərin və insan haqlarının qorunması uğrunda mübarizələr yeni mərhələyə qədəm qoyur; bu baxımdan sayı qırx-əlli milyon arasında olan bir xalqın iki yüz il boyu tapdalanmış haqlarının qaytarılması; müstəqil dövlətçiliyimizin bütün Azərbaycan ərazilərini əhatə eləməsi baxımından yeni bir tarixi şans ortaya çıxır, bu fürsəti əldən buraxmaq ən böyük xəyanət və ləyaqətsizlik olardı.

11. Rusiyaya və dünya ölkələrinə səpələnmiş milyonlarla soydaşımızın milli kimliyin qoruması, milli mədəniyyətini qeyb etməməsi, assimilyasiya fəlakətindən hifz olunaraq yaşaya bilməsi getdikcə ümumi problemimizə çevrilir.

12. Azərbaycanın quzeyində qurulmuş müstəqil dövlətin yaranması, ərazilərin geri qaytarılması, inkişafı və bütün azərbaycanlıların doğma məbədgahına çevrilməsi, burda millətimizə layiq dövlət və hüquq mexanizmlərinin qurulması, ədalətin bərpası daxili səylərlə yanaşı bütün soydaşlarımızın ümumi səylərini tələb edir.

13. Türk dünyası anlayışı yalnız söz kimi qalsa, bunun real birliyə və gücə çevrilməsi istiqamətində əməli addımlar atılmasa ayrı-ayrılıqda türk dövlətlərinin hər birinin üstündən yad küləklər əsəcək, ayrı-ayrı ideoloji xətlər, ayrı-ayrı iqtisadi əməkdaşlıq



xətləri və müstəviləri indiyədək qorunmuş mənəvi yaxınlığı da vurub dağıdacaq.

Dünya azərbaycanlılarının arasında əlaqələrin möhkəmləndirilməsinin, milli birlik və həmrəyliyimizin zərurətini göstərən bu cür amillərin, irili-kiçikli vəzifələrimizin sayını daha da artırmaq olar. Bir sözlə dünya kiçilib və hər bir ölkə kimi Azərbaycanın da sərhədləri təkcə Samurdan və Şərurdan, Qanıqdan və Arazdan, tarixi ərazilərimiz baxımından Həmədandan və Dərbənddən keçmir, bu sərhədlər həm BMT-dən, Avropa Şurasından, İslam ölkələri konfransından, NATO-dan və MDB-dən keçir. Bu gün diplomatik və informasiya müharibələr zamanı ölkə sərhədlərini qorumaq çətin məsələdir.

Son on beş ildə dünya azərbaycanlılarının təşkilatlanması, tarixi vətənləri ilə bağlılıqlarının güclənməsinə baxımından xeyli iş görülüb. Qeyd etdiyimiz kimi Azərbaycan dövlətinin diasporla əməkdaşlığına böyük ehtiyacın olması diaspordaxili problemlərin həllini tələb edir. Vətənlə diasporumuzun əlaqələrini əngəlləyən məsələlərdən biri də 1991-1997-ci illər arası təşkilati işlərin pərakəndə halda keçirilməsi idi. Xarici ölkələrdə keçirilən konfranslar, seminar və digər tədbirlərin müxtəlif təsir altında olan bəzi azərbaycanlıların diktəsi ilə təmin olunması, hər hansı bir dövlətə bağlılıq, irançılıq, türkçülük və s. Vətən–diaspor arasında müəyyən gözəgörünməz uçurumlar yaradırdı. Azərbaycan dövlətinin maddi durumunun hələ problemli olduğu bir dövrdə diasporumuzda parçalanma yaratmaq məqsədi güdən qüvvələr onların Vətənə gələrək hər bir hadisə və reallığı öz gözləri ilə görməyə ciddi əngəllər yaradırdı. [27, 58-59].

Dünya azərbaycanlılarını I və II qurultaylarının ən böyük tarixi-siyasi əhəmiyyəti ondadır ki, Azərbaycan dövlətinin öz soydaşlarının taleyinə əsla biganə olmadığını göstərdi. I qurultayın başlıca yekunu azərbaycançılıq ideyasının əhatəli və böyük bir məfkurə sistemi kimi Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılar üçün başlıca ideologiyaya çevrilməsi oldu. Azərbaycançılıq ideologiyası məhz bu qurultayın sayəsində bütün dünya azərbay-

canlılarının ən güclü milli-ideoloji məfkurəsi statusu qazandı. Bu qurultay milli həmrəyliyin möhkəmləndirilməsi baxımından böyük tarixi hadisə olub. Başda ermənilər və farslar olmaqla düşmən həmin qüvvələrin davranışı onların azərbaycanlıların gücünə bələd olması səbəbi ilə anlaşılandır.

Qurultay dünya azərbaycanlılarının icmalararası əlaqələrinin gücləndirilməsinin zəruriliyini fikrinin populyarlaşdırılması də prinsip etibarı ilə həll etdi. Dünya azərbaycanlılarının milli birliyi və həmrəyliyi ideyası I qurultay tərəfindən ciddi şəkildə və məhz əsas problem kimi qoyuldu. Habelə, dünyanın ayrı-ayrı qitə və ölkələrində yaşayan azərbaycanlıların öz vətənləri ilə – Azərbaycan Respublikası ilə əlaqələrinin getdikcə daha artıq dərəcədə gücləndirilməsi istiqamətində də mühüm addım atıldı. Bunun vacibliyi dövlət səviyyəli müzakirələrin predmetinə çevrildi. Bütün bunlardan bazar, qurultay dünya azərbaycanlılarının milli-mənəvi, milli-siyasi, nəhayət, təşkilati baxımdan konsolidasiyası yolunda dayanan bütün nəzəri, mənəvi, psixoloji, ideoloji və s. maneələri birdəfəlik aradan qaldırdı. Sübut olundu ki, belə forumları keçirmək nəinki təkcə vacib, həm də mümkün və zəruridir.

Dünya azərbaycanlılarının II qurultayının isə praktiki baxımdan müstəsna əhəmiyyəti odur ki, Azərbaycan dövləti Azərbaycan diasporu ilə əlaqələri öz nəzarətinə götürdü. Bununla da diasporun ayrı-ayrı diletant, bəzən hətta təhlükəli dairələrin əlində alətə çevrilməsi ehtimalını birdəfəlik aradan qaldırdı. Qurultay Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası kimi yetərincə vacib və kompetent bir qurum yaratdı. İndi Azərbaycan diasporunun mütəşəkkilliyi, onun vətənlə əlaqələrinin xarakteri və intensivlik göstəricisi, ayrı-ayrı ölkələrdəki soydaşlarımızın öz aralarındakı əlaqələrinin səviyyəsi bu Şuranın nə dərəcə səmərəli və çevik işləməsindən asılı idi. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası 109 nəfərdən ibarətdir ki, onların da 63 nəfəri başda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olmaqla Azərbaycan Respublikasının dövlət, siyasət, elm və mədəniyyət xadimləridir. Bu tərkibdə əsasən Azərbaycan



parlamentarları, yaradıcı ziyalılar, hökumət rəsmiləri, yüksək rütbəli dövlət məmurları, tanınmış idmançılar, alimlər, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, bir sözlə, Azərbaycan cəmiyyətinin bütün təbəqələri, onun elitası cəmləşib. Şura üzvlərindən 46 nəfəri Azərbaycan diasporunu təmsil edir. Həmin 46 soydaşımız Avropa, Asiya, Amerikanın 31 ölkəsinin, həmçinin Avstraliyanın nümayəndəsidir. Diasporumuzun bütün təbəqələrini– iş adamlarından fəal ictimaiyyətçilərə, kinorejissordan professorlara qədər ən müxtəlif təbəqələr əhatə edən həmin 46 nəfərlik tərkibin görəcəyi və görə biləcəyi işlərin əhatə dairəsini təsəvvür etmək çətin deyil. 102 nəfərlik Şuranın İdarə Heyəti 23 nəfərdən ibarətdir. Onların 12 nəfərini Azərbaycan Respublikasının təmsilçiləri, qalan 11 nəfərini isə Azərbaycan diasporunun 11 ölkədən olan nümayəndələri təşkil edir [16].

Dünya azərbaycanlılarının qurultaylarının praktiki cəhətdən daha bir əhəmiyyəti onun milli varlığımız qorunub saxlanması, Azərbaycan diasporunun öz vətəni və dövləti ilə əlaqələrinin işgüzar və müntəzəm xarakter alması, dövlətin bu işlərə birbaşa yardım göstərməsi məsələləri üzrə fəaliyyət göstərən 8 komissiyasının formalaşdırılmasındadır. Azərbaycan diasporu ilə Azərbaycan dövləti iqtisadiyyat, mədəniyyət, insan hüquqları və beynəlxalq əlaqələr, Qarabağ problemi, gənclər və idman, ana dili və Azərbaycanşünaslıq, elm və təhsil, kütləvi informasiya vasitələri və informasiya mübadiləsi və s. bu kimi vacib sahələr üzrə müştərək iş görməyə, öz səylərini əlaqələndirməyə başladı. Bütün bunlara təşkilati, mənəvi, siyasi, habelə maddi cəhətdən məhz dövlətin özünün himayədarlıq etməsi öz-özlüyündə xeyli dərəcədə müsbət hadisədir.

Dünya azərbaycanlılarının I qurultayı Azərbaycan diasporunu keyfiyyətcə yeni mərhələyə çıxardı. Qurultay sözdən işə keçilməsi anı kimi daha əhəmiyyətlidir. Burada Azərbaycan diasporu–Azərbaycan dövləti əlaqələri, dünya azərbaycanlıları və onların milli birliyi, soydaşlarımızın qüvvəsinin və diqqətinin Azərbaycan dövlətinə yönəldilməsi kimi vacib problemlərin həm

nəzəri, həm də əməli tərəfləri ilə bağlı bir çox məsələlər həll edildi. Dünya azərbaycanlılarının özlərinin I qurultayı ilə böyük bir işin bünövrəsini qoydu. Bu tədbir milli birlik formulunun bütün detallarını işləyib hazırladı.

Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması diaspor işində ziyalı kütləsinin fəallaşmasına şərait yaratdı. Bu qurumun 2001-2006-cı illər arası gördüyü işlərdə birbaşa olaraq vətən–diaspor münasibətlərinin güclənməsinə xidmət edirdi və eyni zamanda lobbiçilik, təbliğatçılıq fəaliyyətinin canlanmasına təkan vermişdi.

Şura dünyanın müxtəlif bölgələrində məskunlaşmış azərbaycanlıların təşkilatlanması, onların hüquqlarının müdafiəsi, milli-mənəvi dəyərlərin birgə qorunması məqsədilə yaradılmış xüsusi əlaqələndirmə mərkəzidir.

Şura yarandıqdan sonra İdarə Heyətinin sədr müavini, professor Qulamrza Səbri Təbrizinin rəhbərliyi altında işçi qrupu təşkil olunmuş, Şuranın emblemi və şüarı işlənib hazırlanmışdır. Şuranın emblemi ölkə daxilində və xaricində yaşayan azərbaycanlıların Azərbaycan ətrafında birləşməsi mənasını verir. Şuras dünya azərbaycanlılarının ümumi məqsədlər ətrafında birləşməsi, təşkilatlanması, məskunlaşdıqları ölkələrdə icmalar, qurumlar, cəmiyyətlər şəklində bir-biriləri ilə sıx əlaqədə olması, həmin ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməsi istiqamətində işlər görməyi qarşısında məqsəd qoymuşdur.

Azərbaycan diasporu kifayət qədər nəhəng qüvvədir. Milli birlik və dəyərlərə əsaslanan azərbaycançılıq ideyalarının bərqərar olması və ümummilli ideya–azad, firavan və qüdrətli Azərbaycan dövlətinin inkişaf etməsi üçün dünya azərbaycanlılarının həmrəyliyi vacib məsələdir. Buna görə də hamımızın–bütün dünya azərbaycanlılarının əl-ələ verərək iş görməsi ən önəmli və əhəmiyyətli məsələlərdən biridir.

Diaspor Komitəsi və Əlaqələndirmə Şurası xaricdə yaşayan soydaşlarımız arasında Azərbaycan dilinin və mədəniyyətinin qorunub saxlanılmasına və yeni nəslin bu işə qoşulmasına xüsusi diqqət yetirir. Məhz ana dilimiz, adət-ənənələrimiz dünyanın bir



çox ölkələrinə səpələnmiş soydaşlarımız arasında əlaqələndirici vasitədir. Avropa və Amerikada, hətta Rusiyada yaşayan soydaşlarımız arasında iki-üç nəsildən sonra Azərbaycan dilinin unudulması təhlükəsi real olaraq qalır. Odur ki, milli şüurun formalaşmasında və qorunmasında əsas amil olan Azərbaycan dilinin yayılması və yaşaması Azərbaycan diasporunun inkişafında əsas prioritetlərindən biri hesab olunur.

Ana dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanması üçün Azərbaycan diasporunun yaşadığı bütün ölkələrdə ana dilində bazar günü məktəblərinin açılması, onların dərs vəsaiti ilə təmin edilməsi nəzərdə tutulur. Soydaşlarımızın övladları həftənin bazar günləri həmin məktəblərdə öz dilinin tarixini, mədəniyyətini, musiqisini öyrənəcəklər. Bu istiqamətdə artıq müəyyən işlər görülür. Belə ki, Ukrayna Azərbaycanlıları Konqresi ölkənin müxtəlif 6, Ümumrusiya Azərbaycan Konqresi isə 5 belə məktəb açmışdır.

Bütün bu qeyd edilənlər Azərbaycan dövlətinin diasporla əməkdaşlıq etməsində maraqlı tərəf kimi çıxış etdiyini göstərir. Azərbaycan diasporunun vətənlə əlaqələri istiqamətində uğurlu işlərə imza atan xalqımızın ümummilli lideri Heydər Əliyev bu gün diaspor – vətən münasibətlərinin müəllifidir.

Xaricə ilk səfərlərindən başlayaraq, Azərbaycan prezidenti hər bir ölkədə yaşayan azərbaycanlılarla maraqlanmış, onların nümayəndələri ilə görüşmüşdür. Məlum olmuşdur ki, xaricdə azərbaycanlıların sayı çox olsa da, heç bir yerdə onların mütəşəkkilliyi görünmür. Doğrudur, ilk dəfə 1990-cı ilin 20 yanvarında sovet qoşunları Azərbaycan xalqına qarşı təcavüz edərkən azərbaycanlıların bir millət olaraq etirazı dünyanın bir çox ölkələrində yaşayan həmvətənlərimiz tərəfindən ifadə olundu. Onlar mütəşəkkil bir qüvvə kimi cıxış etdi. Lakin bu, bir faciənin insanları birləşdirməsi idi, hər yerdə insanlar aksiyalar keçirib, hissiyyatlarını bildirirdilər. Təəssüflər olsun ki, sonrakı illərdə insanların bu hissiyyatlarından da birləşmək üçün istifadə olunmadı.

Xaricə yaşayan ayrı-ayrı azərbaycanlılar vətəndə olan qaçqınlar, didərginlər üçün topladıqları vəsaiti, maddi yardımı onlara necə çatdırmaq yollarını bilmirdilər; əvvəlki müraciətləri də nəticəsiz qalmışdı. Vətənlə əlaqələr nəinki zəif idi, bunun necə olması barədə heç düşünən də yox idi. Yaxud ayrı-ayrı ölkələrdə azərbaycanlıların fəaliyyətləri kortəbii xarakter daşıyırdı, bir-birindən əlahiddə, xəbərsiz çalışırdılar. Ulu öndərimiz müəyyən bir qrup həmvətənimizlə görüşdükdə. Digər bir qrup meydana çıxıb, bu ölkədə soydaşlarımızı daha çox təmsil etdiyini bəyan edirdi. Yaxud balaca bir kültür dərnəyi ölkədə sayca bundan qat-qat çox azərbaycanlıların adından danışmaq iddiasında olurdu və s. [20, 24-25].

Problemin təhlili göstərirdi ki, azərbaycanlıların vətənə, doğma xalqına, millətinə bağlılığı, dilini, dinini, milli adət və ənənələrini daim qoruyub-saxlamaq kimi gözəl xüsusiyyətləri olduğu kimi, ümumi nöqsanlarımız da var. Bu da ilk növbədə ondan ibarətdir ki, yad yerdə yaşayarkən onların bir-biri ilə əlaqə saxlamaq, birgə iş qurmaq, birliyə çalışmaq cəhdləri zəif idi. Bu da ola bilsin ki, millətimizin öz torpaqlarına möhkəm bağlılığından, qürbətdə yaşamaq vərdişlərinin olmamasından irəli gəlir. Müasir qloballaşma şəraitində hamının öz doğulduğu torpaqda yaşaması mümkün deyil. Əsas odur ki, xalqın nümayəndəsi ürəklə, canla, qanla, əməllə vətənə, xalqa, millətə sədaqətli olmalıdır. Bir halda ki, indi bütün dünya azərbaycanlılarının müstəqil bir dövləti var, nöqsanlardan xilas olub, azad vətəni yolunda çalışmağa cox zəruridir.

Bu yolda birinci addımı müstəqil Azərbaycan Respublikasının Prezidentinin özü atmış, xarici ölkələrə səfərləri zamanı bir çox ölkələrdə olarkən sayından asılı olmayaraq, neçə-neçə böyük və kiçik azərbaycanlı icmaları ilə, hətta bəziləri ilə bir neçə dəfə görüşlər keçirmiş, problemləri, qayğıları ilə maraqlanmış, tövsiyələrini vermiş, xarici ölkələrdəki səfirliklərimizi birbaşa bu işə cəlb etmiş, həmvətənlərimizi Azərbaycana və onun ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştiraka dəvət etmişdir.



Bu mərhələdə Azərbaycan dövlətinin siyasəti belə olmuşdur ki, xarici həmvətənlərimizi eyni bir ümummilli ideya ətrafında toplamaqla bir tərəfdən vətəndə gedən proseslərə fəal surətdə cəlb etsin, digər tərəfdən də onların təşkilatlanmasına yardımçı olsun. Bu ideyalar ilk növbədə tarixin dünya azərbaycanlılarına bir töhfəsi olan müstəqil Azərbaycan Respublikasını yaşatmaq, möhkəmləndirmək və bu yolda ən böyük əngəl, ən yaralı problem olan Dağlıq Qarabağ problemini həll etməkdir.

Bu məqsədlə ölkədə diasporla–vətən arasında əlaqələri hüquqi çərçivəyə salacaq qanunvericiliyə ehtiyac duyulurdu. 2001-ci ildən etibarən Milli Məclisdə «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının qanunu işlənmişdir. Qanun təkmilləşdirildikdən sonra 2003-cü ilin 21 fevralında dövlət başçısının imzası ilə qüvvəyə minmişdi.

Birbaşa ölkə rəhbərinin nəzarətində olması dövlət–diaspor münasibətlərinin inkişafını və strategiyanı hüquqi cəhətdən tənzimləyirdi. Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərinin və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsasını müəyyən edir. Qanunun əsas üstünlüyü 4-cü maddədə ifadə olunmuşdur. «Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvvəqəti və ya daimi yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar». Bu bənd bütün dünya azərbaycanlılarının yalnız bir vətəni Azərbaycan Respublikasının olduğunu göstərməklə onların ana vətənlə əlaqələrinin təşkilini və gedişinin əsas istiqamətlərini müəyyənləşdirir.

Dünyada fəaliyyət göstərən Azərbaycan icmaları ilə məşğul olan dövlət orqanının yaradılması və müvafiq qanunun qəbulu dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da sürətləndirmiş, soydaşlarımızın öz tarixi vətənləri ilə əlaqələrinin genişləndirilməsini təmin etmiş, ölkənin

tarixi və müasir həqiqətlərini dünya ictimaiyyətinə çatdırılmasına stimul vermişdir. Diaspor quruculuğunun təkmilləşdirilməsində daha mühüm bir addım olan Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan diasporunun indiki durumu ilə bağlı bir sıra məsələlər müzakirə edildi. Diaspor təşkilatlarının fəaliyyətinin koordinasiyasının təkmilləşdirilməsi, Azərbaycan həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə bağlı tarixi faktların dünya ictimaiyyətinə çatdırılmasının yeni və daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə edildi. Tədbirdə həmçinin Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının hazırlanması məqsədilə xüsusi işçi qrupu yaradıldı.

Azərbaycan dövlətinin ictimai-siyasi həyatında keçən demokratik proseslər soydaşlarımızla, onların təsis etdikləri cəmiyyətlərlə, mədəni mərkəzlərlə, təşkilatlarla və müxtəlif səpgili birliklərlə əlaqələrin daha da genişlənməsini və fəaliyyətlərin koordinasiyasını tələb edir. Bu gün Azərbaycan dövləti bu istiqamətdə çoxsaylı addımlar atmaqdadır. Lakin diqqətdən kənar qalan bəzi nüanslar var ki, onların həll edilməsindən hər iki tərəf, diaspor və dövlət uda bilər. Bunlar içərisində ən mühümü zəka axını prosesində iştirak edən ziyalı kütləsinin geri qaytarılması, yaxud onlarla əməkdaşlığa ciddi fikir verilməsidir. Paralel olaraq gənclərə, əsasən də elm və təhsil sahəsində çalışan və təhsil alanlarla əməkdaşlıq onlarla iş aparılması mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın Avropaya inteqrasiya xətti seçməsi xaricdə təhsil alan və potensial zəka axınına qoşulmaq təhlükəsi olan gənclərin dövlətçilik maraqlarına cəlb edilməsi təhlükəsizlik və inkişaf baxımından önəmlidir. Müxtəlif təsirlərə düşmə ehtimalı olan gənc zəkaların bu gün ümummilli liderimizin tövsiyəsinə uyğun olaraq təhsil aldığı və müvəqqəti məskunlaşdığı müddət ərzində əsas amallarının vətən, xalq və millət olmasını təmin etməkdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2005-ci ildə təsdiq etdiyi «Azərbaycan Gəncliyi Dövlət



proqramı» (2003-2009)-dan irəli gələn xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin təşkilatlanması, onların hüquqlarının müdafiəsi məsələsində müvafiq olaraq zəkaların qorunmasına xüsusi diqqət verilməlidir.

Gənc zəkaların dini və yaxud kosmopolit ideologiyaların təsirinə düşməsinin qarşını almaq üçün mütləq onların sosial-iqtisadi problemləri həll edilməlidir. Artıq xaricə zəka axınına qoşulan gənclərin sayının artmasının məhdudlaşdırmaq üçün daxili zəka axını prosesinin tənzimlənməsi zəruridir.

Dünya azərbaycanlı gənclərin qurumu və konfransının keçirilməsi prosesinin ləngidilməsi zəka axını prosesinin intensiv inkişaf etməsinə şərait yaradan səbəblərdəndir. Onların diaspor işinə qoşulması məqsədilə keçirilən tədbirlərdə iştirak məsələsini bütün iqtisadi tərəfinin dövlətin üzərinə götürülməsində çatışmamazlıqlar mövcuddur. Eyni zamanda xaricdə təhsil alan tələbələrin vətənə geri döndükdən sonra dövlət işlərinə cəlb edilməməsi Azərbaycanın gələcək inkişafında yeni düşüncə və ağılın kasadlığına səbəb olmaqla, onların elmi və idarəçilikdən kənarda qalması ehtiyac olan sahələrdə boşluqlar yaradır.

Diasporumuzun fəaliyyətini intensivləşdirmək və xarici ölkələrdə yaşayan soydaşlarımızla əlaqələri möhkəmləndirmək istiqamətində konkret olaraq aşağıdakı tədbirlərin görülməsi tövsiyə olunur:

Xarici ölkələrdə yaşayan soydaşlarımızın ən görkəmli nümayəndələrini Azərbaycan Respublikasının sosial-iqtisadi problemlərinin həlli məsələlərinə cəlb etmək, onların qüvvəsindən istifadə etmək;

Beynəlxalq miqyasda Qafqaz xalqlarının və bütövlükdə türk xalqlarının hərtərəfli öyrənilməsinə həsr olunmuş beynəlxalq konfrans və simpoziumlarda Azərbaycan diasporunun fəaliyyəti ilə məşğul olan tədqiqatçıların da iştirakını təmin etmək;

Azərbaycan diasporunun tarixi, sosial-mədəni demoqrafik və ictimai-siyasi prosesdə oynadığı rolu, Azərbaycan Respublikası ilə diasporumuzun sıx əlaqələrini özündə əks etdirən tədqiqat işlərinə diqqəti artırmaq;

Azərbaycan Respublikasında diasporla bağlı atılmış dövlət və qeyri-dövlət təşkilatlarının işinin asanlaşdırılması üçün dövlət qayğısını artırmaq;

Azərbaycan Respublikasında xarici ölkələrdə yaşayan azərbaycanlıların ictimai-siyasi, mədəni həyatını əks etdirən ekspozisiyaların və muzeylərin yaradılmasını reallaşdırmaq;

Respublikada gedən özəlləşdirmə prosesində Azərbaycan diasporunun nümayəndələrini, *imkanlı adamları nəzərə almaq;*

Azərbaycan diasporunu Azərbaycan tarixinə və müasir dövrə aid çap materialları və dövri mətbuat ilə təmin etmək;

Respublikamızda elmi-mədəni, texnoloji müəssisə və şuralara xaricdəki məşhur azərbaycanlı mütəxəssisləri fəxri üzv seçmək;

Azərbaycan diasporu nümayəndələrini ana dilindəki əlifba kitabları və köməkçi tədris vəsaitləri ilə etmək;

Respublikamızın ictimai-siyasi həyatına aid videokassetlərin, kinolentlərin və fotomaterialların Azərbaycan diasporu nümayəndələrinə göndərilməsini təşkil etmək;

Radio və televiziya verilişlərində Azərbaycan diasporuna aid müntəzəm olaraq verilişlər hazırlamaq;

Xaricdəki soydaşlarımızın övladlarının respublikanın məktəblərində təhsil almasına köməklik göstərmək;

Xarici ölkələrdə yaşayan azərbaycanlı biznesmen və iş adamlarının Azərbaycan Milli Bankına vəsait qoymalarına şərait yaratmaq;

Respublika prezidentinin, yaxud hökumət dairələrinin xarici ölkələrə yüksək səviyyəli səfəri zamanı Azərbaycan diasporu ilə məşğul olan konkret şəxsləri də nümayəndə heyətinə daxil etmək;

Xarici ölkələrdə yaşayan soydaşlarımızın respublikamıza sərbəst gəlib-getmələrinə lazımi şərait yaratmaq;

Ədəbiyyat və incəsənət xadimlərinin xarici ölkələrə səfər zamanı Azərbaycan diasporu ilə görüşlərini təşkil etmək və bu səfərlə respublikanın kütləvi informasiya vasitələrində geniş işıqlandırmaq;

Respublikamıza gəlmiş Azərbaycan diasporu nümayəndələrini radio və televiziyada çıxışlarını təşkil etmək, onların geniş ictimaiyyətlə görüşlərini təşkil etmək;



«Azərbaycan diasporu» adlı xüsusi qəzet və jurnalın (Azərbaycan, rus və ingilis dillərində) nəşr edilib bütün dünyada yaymaq;

Əlbəttə ki, bu qəbildən olan bəndlərin sayını artırmaq da olar. Əsas məqsəd Azərbaycan diasporunu gücləndirmək, onun məqsədyönlü fəaliyyətini intensivləşdirməkdir.

Biz əminik ki. Azərbaycan diasporu hələ öz potensial gücündən lazımınca istifadə edə bilmir. Çalışmaq lazımdır ki, bütün obyektiv və subyektiv səbəbləri aradan qaldırılsın.

# NƏTİCƏ

Dünya fikrində elmi-ədəbi mahiyyətdən daha çox, sosial-siyasi məzmun daşıyan "zəka axını" anlayışı çoxdan mövcuddur. Tarix zaman-zaman təsdiqləyib ki, müxtəlif səbəblərdən doğma vətənindən uzaq düşüb yad ölkələrdə yaşamağa məhkum olan elm adamları öz istedadlarını qürbətdə də boşuna sərf etməyib, ən ağır şəraitdə də yazıb-yaradıblar. İstər Şərq, istər Qərb ədəbiyyatları tarixinə nəzər yetirsək, mühacirət ədəbiyyatına dair onlarca, yüzlərcə fakt göstərə bilərik.

Ümumiyyətlə götürdükdə, Azərbaycan fikir adamlarının mühacirəti zaman-zaman müşahidə olunub. Lakin bu mühacirət iyirminci əsrə qədər ya təsadüfi ya da könüllü xarakter daşıyıb, kütləviləşməyib. Məsələn, Nəsimi dini fanatizmin, Ağabəyim ağa siyasi proseslərin qurbanı kimi qürbət həyatı yaşamalı olmuşdularsa, Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Abbasqulu Ağa Bakıxanov, Yusif Vəzir Çəmənzəminli elm, təhsil almaq məqsədilə bir müddət Avropada, Rusiyada yaşamağı könüllü seçmişdilər. İyirminci əsrin mühacirəti isə, müstəqillik dövrü istisna olmaqla, əsasən siyasi zəmində baş verib və axın halına keçməklə məcburi xarakter daşıyıb.

Azərbaycanın müstəqillik qazandığı 1991-ci ildən başlamaqla indiyədək davam edən bu proses bir çox cəhətlərinə görə əvvəlki dövrlərdən fərqlənməkdədir.

Birinci fərq budur ki, əsrin əvvəlindən 90-cı illərə qədərki Azərbaycan mühacirətinin yayıldığı coğrafiya Türkiyə, İran, Rusiya, Almaniya, Fransa kimi bir neçə ölkə ilə məhdudlaşdığı halda, son 20 ildə bu coğrafiya hüdudsuzlaşaraq bütün dünyanı əhatə etməkdədir.

İkinci xüsusiyyət müasir mühacirətin xarakterindədir. Məlum olduğu kimi, əvvəlki mühacirət dalğalarının hər üçü siyasi motivlərlə–azadfikirliliyə, siyasi baxışlara görə təqiblərlə bağlı idi. Son dövr mühacirəti isə daha çox Azərbaycanın dünyaya sərhədlərinin açılması, insanların yaşayış və iş yeri seçmək azadlığı, iqtisadi faktorlarla müşayiət olunur.



Üçüncü spesifik xüsusiyyət ideoloji-məfkurəvi istiqamətlə bağlıdır. Əvvəlki mərhələlərdə mühacirət aydınları strateji məqsəd kimi əsasən Şimali Azərbaycanın istiqlalını və Rusiya imperiyasının caynağından azad olmasını hədəf götürmüşdü. Artıq bu istiqlal qazanıldığından, hazırkı mərhələdə Bütöv Azərbaycan məfkurəsi və türk xalqlarının birliyi əsas amala çevrilib.

Müxtəlif mənbələrin üst-üstə düşən məlumatlarına görə, hazırda dünyada 50 milyona qədər azərbaycanlı yaşayır. Onların təxminən beşdən biri tarixi Vətənlərindən kənardadır, Azərbaycan diasporunu təşkil edir. İlk nəzərdən bu, böyük qüvvədir, dünyanın aparıcı yəhudi, yunan və erməni diasporlarından böyük qüvvədir. Amma Vətəndən kənarda yaşayan azərbaycanlıların birləşməsinə, real qüvvəyə çevrilməsinə mane olan amillər də vardır. Bu amillər arasında aparıcı rolu Vətənin iki yerə– Şimali və Cənubi Azərbaycana bölünməsi oynayır. Xaricdə yaşayan azərbaycanlıların əksəriyyəti də əslən Cənubi Azərbaycandan olanlardır (Sovet dövründə Şimali Azərbaycanın qapıları bağlı idi) və nə qədər acınacaqlı olsa da, onların əksəriyyəti özünü azərbaycanlı yox, iranlı (təbii ki, türkdilli olduqlarını etiraf etmək şərti ilə) hesab etməsidir. Azərbaycan Prezidenti Heydər Əliyev də bu məqamı nəzərə alır, ABŞ-da Azərbaycan diasporu ilə görüşündə üzünü bütün azərbaycanlılara tutur: "Bilirsiniz, xaricdə yaşayan azərbaycanlıların çoxu Azərbaycanda doğulmayıb. Nə olsun? Məgər, Amerikada yaşayan ermənilər Ermənistanda doğulub, məgər onlar Dağlıq Qarabağda doğulub? Amma ermənidirlər, ona görə də Ermənistan haqqında düşünürlər. Amerikada yaşayan azərbaycanlıların isə biri deyir, mən İranda doğulmuşam, o biri deyir mən Turanda doğulmuşam. Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan". [30]

Diaspor bizim üçün yeni anlayışdır. Qədimdən bəri bu anlayışdan ancaq və ancaq yəhudi və erməni milləti üçün istifadə edilirdi. Dünyanın ən güclü diasporu yəhudilərə məxsusdur.

Onların güclü olmasını təmin edən ən böyük səbəb şübhəsiz ki, maddi imkandır. Amma vəsait yeganə səbəb deyil. Ən önəmlisi gücləri birləşdirmək və vəsaiti də bu istiqamətdə istifadə etməkdir.

Diasporun güclü olması lobbi fəaliyyətinin də güclülüyünə dəlalət etmir. Lobbiçilik üçün ilk növbədə yetkin, yaşadığı ölkənin dilini gözəl bilən insanlar və o insanların fəaliyyət şərtlərini təmin edən maddi imkanlar lazımdır. Maddi imkandan məhrum olan yetkin insanın da lobbiçilik sahəsində görəcəyi işlər məhduddur.

Bu problemlərin həll olunması üçün isə zəka axını prosesi ilə diaspor siyasətinin qarşılıqlı əlaqəsinin yollarını göstərmək önəmlidir. Zəka axını prosesinin hər bir dövlət üçün müsbət və mənfi təsirləri özünü aşkar göstərir.

Müsbət cəhətlər aşağıdakılardı:

1. Xaricə zəka axını edən şəxslərin əldə etdikləri maddi gəlirlərdən eyni zamanda onların vətəndə qalan qohum-əqrəbaları yararlanırlar. Bu həm pul kütləsinin ölkə iqtisadiyyatında dövriyyəyə buraxılmasında, həm də sosial-iqtisadi cəhətdən imkansız olan ailələrin maddi rifahlarının yaxşılaşması deməkdir.

2. Zəka axını nəticəsində əmək bazarında rəqabət azalır və işə götürülən zaman digər təhsilli insanların (xaricdə oxumayan) işlə təmin edilməsinə imkanlar yaradılır.

2. Zəka axını eyni zamanda xalq diplomatiyasının bir qoludur. Xarici ölkələrdə təhsil alan və çalışan gənc və yaşlı zəka sahibləri dövlətimizin diplomatik nümayəndəsi kimi missiyanı üzərlərində daşıyırlar.

4. Diasporumuzun zəka axını nəticəsində tərkibinin genişlənməsi və yeni fikirlərin təşkilati, strukturlanma və lobbiçilik–təbliğatçılıq işində özünü göstərməsidir. Hər bir diasporun ehtiyacı olan savadlı-ziyalı insanların sayının çox olması birlik və həmrəylik istiqamətində mühüm işlərin həyata keçiriləcəyinə dəlalət edir.

5. Xaricdə yaşayan ziyalı soydaşlarımızın potensial quvvəsindən dövlətimizin milli manayeyine uyğun olaraq istər elm, istərsədə parlament və konqreslər səviyyəsində siyasi sahədə təsir quvvəsinə malik olmalarindan bəhrələnmək.



Mənfi cəhətlər:

1. İlk olaraq ölkənin elmi potensialına dəyən ciddi zərər nəticədə siyasi, sosial, iqtisadi və hüquqi inkişaf istiqamətində yeni fikirlərin zəifləməsi.

2. Azərbaycanın strateji müəssisələrində savadlı kadr böhranı və yeni ixtiraların azlığı.

3. Ailələrin dağılması, genetik inkişafın qarışıq nikahlar sayəsində balansının pozulması.

4. Ölkə daxilində elm və təhsilə marağın azalması.

5. Elmi və təhsil müəssisələrində çalışmaq istəyən insanların sayının azalması.

6. Xarici ölkələrin ideoloji təsirlərinin ölkə daxilində yayılması (dini, kosmopolit).

7. Zəka axınına qoşulanların əksər hissəsinin əməklərinin və zehinlərinin istismarı.

8. Savadsız kadrların əlacsızlıqdan müxtəlif işlərə cəlb edilməsi və nəticədə istehsalatda problemlərin doğulması.

9. Hərbə marağın azalması və hərbiçi qıtlığı və göründüyü kimi belə neqativ cəhətlər zəka axını prosesin qarşısının alınmasını və yaxud tənzimlənməsini tələb edir. Bu eyni zamanda onların miqrasiya etdikləri ölkələrdə ciddi problemlər yaradır.

BMqT-nin "Aİ üzvlüyünə namizəd olan bəzi ölkələrdə miqrasiya meylləri" adlı yeni tədqiqatında bildirilir ki, qurumun genişlənməsinin əsas nəticəsi yeni üzv olmuş dövlətlərə immiqrasiyanın həcminin artmasından ibarət ola bilər.

İqtisadi baxımından sərfəlilik, inkişaf və həyat səviyyəsinin artması baxımından yeni üzv olan ölkələr immiqrantlar üçün daha cəlbedici olacaq. Bu dövlətlər emiqrasiya və tranzit ölkələrindən immiqrasiya ölkələrinə çevriləcəklər.

Fikrimizcə "zəka axını"n qarşısını almaq üçün ölkədə mövcud olan problemlərə xüsusi diqqət yetirmək önəmlidir. Araşdırmalarımız onu göstərir ki, bu gün gənclərimizin "zəka axını" prosesinə qoşulmalarına şərait yaradan sosial-iqtisadi

problemlərin qarşısının alınması istiqamətində dövlət tərəfindən addımlar atılmasına baxmayaraq, bu, onların miqrasiya prosesinə qoşulmasını əngəlləyə bilmir.

Məhz bu prosesin nisbətən tənzimlənməsi və nəzarətdə saxlanması, dövlətimizin güclü gələcəyi, milli maraqları baxımından elmi, sosial, iqtisadi sahələrdə müasir dünya standartlarına uygun olan islahatların aparılmasına ciddi ehtiyac vardir.



# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan ədəbiyyatı


1.1937-38-ci illərin siyasi mühacirəti // "Xalq qəzeti", 28 sentyabr 1992

2.Ağacan H. 3 milyon azərbaycanlı vətənsizdir // "Ekspress" qəz., 8 iyun 2006

3.Akif A. Dövlətlər əmək miqrasiyası məsələsində razılığa gələ bilmir– www.ayna.az

4.Aras O. Avropada Azərbaycan diasporu// "525-ci qəzet" qəz., 28 aprel 2006

5.Arif Q. Azərbaycan diasporu ilbəil güclənməkdədir// "Xalq qəzeti", 21 iyun 2006

6.Arzumanlı V. Azərbaycan diasporu, Bakı: Qartal, 2001, 300 s.

7.Azərbaycan diasporu: böyük yolun başlangıcı. Bakı: Çaşıoğlu, 2006, 208 s.

8.Azərbaycan Respublikaı prezidenti Heydər Əliyevin professor Fərman Salmanova təbrik məkubu// "Azərbaycan" qəz., 27 iyul 2001

9.Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin xalq rəssamı Tahir Salahova təbrik məktubu// "Azərbaycan" qəz., 29 noyabr 1998

10.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Təhlükəsiz orqanlarının peşə bayramında çıxışı// "Xalq qəzeti", 6 iyul 1997

11.Bakuvi N. Azərbaycanı "düşünən beyinlər" tərk edir– //www.sd.com.az/ defalut, php? ne ws id=5834

12.Bəy Ə.M. Bayeo B. Allahu Əkbər (İslam dünyasının Əbdül İbn Səuda qədər çöküşü və qalxışı). Bakı: BDU nəşriyyatı, 1998, 399 s.

13.Bütün Dünyanın Azərbaycanlıları Birləşin // hesabat, №47, 2006, s.16-18

14.Bütün fəhlə mühacirlərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya–www.azhumanrights. org.

15.Cavadlı N. Azərbaycanı çabilgi çağına çağışa hazırlamaq gərəkdir// "Gündəlik Azərbaycan" qəz., 20 aprel, 2006

16.Cəfərli F. Bütün millətləri birləşdirən Tunulmay// "İki sahil" qəz., 15 noyabr 2001.

17.Cəfərov F. Azərbaycan diasporu aktual problem və nəhəng qüvvə kimi // Dirçəliş XXI əsr, 1998, №8-9, s.10-22
18.Demoqrafik göstəricilər, Beynəlxalq miqrasiya– www.azstat. org/statinfo/demographic/az/050 Shtml
19.Dini təhsil almaq üçün xaricə gedən gənclərin çoxu geri qayıtmayıb // www.lider tv.com/axhiev 2005/02.05.05.hh
20.Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı şəhəri, 9-10 noyabr 2001-ci il, Məruzə, Bakı: 2001, s.69
21.Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, İndiqo, 2005, 234 s.
22.Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Bakı, Günəş Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 2005, 29 s.
23.Elm sərhəd tanımır// "Xalq qəzeti", 25 mart 2006
24.Əliyev Z. Azərbaycandan "beyin axını: ondan hansı dövlətlər və necə faydalanır" // "525-ci qəzet", 13 sentyabr, 2003
25.Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporun rolu. Bakı, Nurlan, 2001, s.150
26.Əliyev Z. Dünyanın elm mənzərəsini dəyişən alim// "Renessans", №3-4, 2006, s.40-44
27.Əliyev Z.Dünya diasporları. Bakı, Qismət, 2005, 349 s.
28.Əmək miqrasiyası haqqında Azərbaycan Respublikasının Qanunu– www.qanunvericilik.az.
29.Ərdəbili Ə. Şimali Azərbaycan və Cənub mənşəli mühacirət // www.tribun.com./akt% 202/akt 213. pdf
30.Həbiboğlu V. «Heydər Əliyev və Azərbaycan diasporu», Bakı, Qartal, 1999)
31.Həsənov Ə.M. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan nəşriyyatı, 2005, 752 s.
32.Hüseynli Q.İ., Tağıyev Ə.M., Məmmədov E.H., Həsənov S.T. Politologiya, Bakı: Təbib, 1993, 176 s.
33.Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəz., 23 fevral 2003
34.İsmayılov İ.Z. Azərbaycanda dövlətçilik fikri oçerkləri. Bakı: 1996.
35.İsmayılov İ.Z. Dünya azərbaycanlıları XX əsrdə (müxtəsər oçerk). Bakı: DHA Mətbəəsi, 1992, 270 s.



36.Körpü salanlar // www.express. com.az.
37.Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI–Yeni nəşrlər evi, 2005, 464 s.
38.Məhismoğlu T.Qulamrza Səbri Təbrizi. Bakı: Şirvannəşr, 2003,
39.Məmmədov F. Postsovet Azərbaycanında miqrasiya problemi// www.oner.by.ru /Fikret.html.
40.Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu // www.qanunvericilik.az.
41.Milli yaddaş Azərbaycançılığın tərkib hissəsidir// www.kaspi.az/serbest/axhives/017324.html
42.Moskva əhalisinin 8 %-ni azərbaycanlılar təşkil edir // www.bbc.co.uk /azeri/ story/2006/05/060531-masco. shtml
43.Qadın postsovet Azərbaycanında//www.gender-az.org/doc/az/education/acrg/ 416.az.paf.
44.Qarabağlı Saleh Bəy. Azərlər (cild I), Bakı: Elm, 2005, səh 49/154
45.Qəzənfəroğlu M., Ekspertlərin həyəcan təbili// "Xalq qəzeti", qəz., 8 aprel 2006.
46.Qiyasi C. Yaxın uzaq ellərdə (orta əsr Azərbaycan memarlığının beynəlxalq əlaqələri haqqında). Bakı: 1919, 1985, 92 s.
47.Rəhmanzadə F. Yol, Bakı: Az.Ens.Nəş., Poliq.Birliyi, 1994, 592 s.
48.Rəhməti N. Saxta amillər və Azəri sözünün mənşəyi //www.varlıgınsesi.com/vs04//vs0409.htm.
49.Rizvan N. Azərbaycan diasporası tarixindən. Bakı: Borçalı, HPM, 2002, 208 s.
50.Rusiya üçün «çirkli bomba» hazırdır / www. olaylar, net/view, php?d=9668
51.Rzayev A.Mirzə Cəfər Topçubaşov. Bakı: Yazıçı, 1993, s.197
52.Soltan S.Cəmiyyət ... və demokratiya istəyir// "Ayna" qəz., 31 iyun 2004
53.Sultanova A. Forumda dünyanın 31 ölkəsindən 250 nümayəndə iştirak edir// "Yeni Azərbaycan" qəz., 18 iyun 2006
54.Taleyin zavallı insanları // "Ekspress" qəz., 17 iyun 2005
55.Təbrizli A. Gənclərin çoxu İrəvana üz tutur// "Yeni Qafqaz" qəz., 16 avqust 2005
56.Tumas İ. Azər xalqının qısa tarixi.// "Ekspress" qəz., 15 noyabr 2005

57.“Vətən” Cəmiyyəti // "Odlar Yurdu" qəz., 2 oktyabr 1992

58.Vətənə geri qayıtmayan tələbələr çoxdur // www. mediaforum. az/archivc.hitm.

59.Yaqublu C. Biz Avropalı ola bilərikmi? // «Eu-Xəbər» qəz., 16-30 noyabr 2005

60.Zeynalova M., Azərbaycanda qadın və uşaq alveri problemi.// "Ziya XXI əsr", №2, 2 sentyabr 2005, s.38-43

**Türk dilində**

61.Orta Ögretim Genel egitim, meslek egitimi, tekmik egitim. Özel İhtisas komisyonu Raporu: DPT, 2001, Gizelge-2

62.Ortas İ. ÖSS Sinavı və beyin Göçü// «Biıses» qaz., 22 haziran, 2003

63.Prof.Dr. Muahmmer Kaya. Beyin Göçü // www. popuoermedi-cal.com/beyingod.htm

**Rus dilində**

64.Борисов В.П. Утраченный потенциал. Эмиграция деятелей науки в высшей школы Москвы после 1917, М.: Москва научная, 1997, 234 с.

65.Валков С.В. Интеллектуальный слой в советском общества. М.: Наука, 1999, с.282

66.Витковский Г., Панарина С. Миграция и безопасность в России, М.: Интердиалект+, 2000, 341 с.

67.Власова В.М., Сидоркина В.А. Стабилизация занятости в условиях рыжкам, М.: Финансы и статистика. 2002, 283 ст.

68.Гиддеис Э.Ускальзающий мир: как глобализация меняет нашу жизнь. М.: Весь мир, 2004, 120 с.

69.Деичев Н. Феномен анти-глобализма. М.: ТУВШЭ, 2001, 218 с.

70.Дергачев В.А. Глобалистика, М.: ЮНИТИДИАНА, 2005, 303 с.

71.Егерев С.Диалоги с диаспорой // Журнал «Отечественные записки// №7(8), 2002, стр25-31

72.Ерохина О.В. Миграция: Свободная и вынуждения. //www.auditorium.ru /index.php?a=vjonfj



73.Зайончиовская Ж. Миграционные тренди в СНГ: итоги десятилетия //Миграция в СНГ и Балтии:Через различия проблем и общему информационному пространству. М.: Адамант, 2001, 182 с.

74.Идея века // www. poisknews. ru/index, php? news id-128

75.Как возникла "Утечка умов", История ученого. – невозвращенца–www.inanka.ru.

76.Кирбаев Н.С. Глобализация и мультикультурализм. М.: ПУДИ, 2005, 332 с.

77.Ключко Ю., Савельев А. Утечка умов в контексте нового мирового порядке. Киев, 1994, стр.147

78.Кузмицнайте. Литовские иммигранты в Чикаго в последние годы. Каунас, Балтиж Пресс, 2000, стр.288

79.Кыргызыстан теряет свои кадры– www.ipwr.net.

80.Леденова Л.И. Не потеряет ли Россия Своих Платанов и нефтонов// www.demosjopl, ru (weekly/2002/055/ index, php.

81.Мамеду Алиеву присвоено почетное звание "заслуженный деятель Российской Федерации// www.azeri.ru/persons.

82.Мезеисева Е. Тендерная экономика: теоретические подходы// Вопросы экономики, №3, 2000, стр.8-11

83.Миграционный ситуация в Украине– www.germany.jom.na/ taxties/info-2. htm

84.Мирзазаде Л.Ф. Эмиграционные процессы в Азербайджана. Баку: Текнур, 2005, 46 с.

85.Насам В.Исход// "Независимая Молдова" газ., 22 февраля 200

86.Наука России в цифрах. 2001: Статический сборник. М.: ЦУСП, 2002

87.Отчет Департамента статистики и социологии РМ за 2003 год

88.Паифилова В. Туркменские студенты, обучающиеся в странах СНГ, мечтаю никогда не вернутся на родину// "Независимая газета", 13 сентября 2004

89.Проблемы инновационно-инвестиционной политики и экономического роста в Грузии // www.güsis, orq/ publijations/papava/

90.Прчинская Н.П. В фокусе–Молдова: актуальные проблемы// The Coumal of Eurasian Resarjh, vol.3, №1, Spring 2004, pp. 3-26

91.Словарь экономических терминов– www.glossary.–boni:–24.ru/ glossory/page/jhar,% d3/ word,2538

92.СНГ: Экономические статистика// Газета "Советская Россия", 7 февраля 2004

93.Сулеев Д. "Девятий Вал" стронулся // Газета "Мегаполис", 29 август 2002

94.Таджикские журналисты-беженцы// Центрально Азиатский электронный медиа. Бюллетень, №2, 29 февраля 2000, с.70-10

95.Тенденции в области миграции в странах Восточной Европы и Центральной Азии. Обзор за 2001-2003 годы, МОМ, 2003

96.Трех наших чиновников–отождествует государство с собой, а не с гражданами– www.freemz.orq/interview/? id i=770

97.Тровс Л. Теперь об этом можно рассказать. М.: Наука, 1964, 209 с.

98.Трудовая миграция в странах Центральной Азии, Российской федерации, Афганистане и Пакистане. Аналитический обзор Алматы, РМЖ, 2005, 146 с.

99.Туркменская Советская Социалистическая Республика // Демократический Энциклопедический словарь. М.: Советская энциклопедия, 1985, с.485

100. Тухашвили М. Миграция населения Грузии, Тбилиси, Ламполи, 1996, с. 187

101. Утечка мозгов из Казахстана // Газета "Энергетика и транспорт Казахстана", 19 сентябрь 2005

102. "Утечка мозгов" из России за последние годы сократилась примерно в 4 раза–//www.liga.kiev.ua

103. Утечка Умов в общественном мнение.// Журнал "Общественное мнение", №7(8), 2001, с. 25-35

104. "Утечка умов" мировые и российские тенденции//Журнал "Человек и труд", № 7, 2003, с.24-38

105. "Утечка умов" наносит Азербайджану серьезный урон //www.ejho–az.jom/arjhive

106. Шахотько Л. Миграционные процессы в Республики Беларусь // www.belocurnal.by.ru /2004/ 21 index, sthtml.

107. Шлепаков А.Н., Смирнова А. США "Похищения умов" в прошлом и настоящим. М.:, Мысль, 1983, 182 с.

108. Элкин А. Мозгина вылет! // www.rus.delft.lv.



**İngilis dilində**

109. A.Mac Gillivray. A Brief History of Globalization. Robinson Ltd.2006. London

110. Balen P., Maratis L. Managment Ediucation in the Network Economy. Boston, Kuwer Academic Publisher, 2001, pp.297

111. Bhagawati C. A Stream of windows: unsettling reflactions on trade, immigration and democracy, Cambridge (MA), Themi+Press, 1998, 480 pp.

112. Blair B. Science That Mode A Difference // Azerbaican İnternational, №4, 1996, pp.6-14

113. Coppel C., Dumont C.C. Brain Drain and Economy// Cournal "Trends in İmmigration and Economic Conseguamces", №284, p.25

114. Darea de Seama despre activitate Stiiün (Ficio–organizatioriica–Academia de Stiinte a Moldevey, 1990-1997, pp.22

115. Estonian. Survey on National minorities. Standart Tarilations RU Series C, №17, Tallinn, EKDK

116. Fleming D., Baily B. The İntellectual migration: Europe and America (1930-1960). Cambride, Harwar Press, 1969, pp.207

117. Globalization – www.un–az.org

118. Human development report. Georgia 1996-2006/ United Nations develepoment Programme. Tbilisi, 1996-2006

119. İnternational migration/ Mobility under conditions of chonging sosio-economic and geopolitical orientation (Lithuania), Vilnus, Vitnas, 2000, pp. 195

120. İnternational migration: problems www. un. orq/migration / pdf.

121. Kindleberger G.R. Study abrood and Emigration in the Brain Drain, 4, Public house, 1968, p.280

122. Kritz M. Center of migration Studies, №4, 1961, pp. 70

123. Martin P., Widgren. İnternational Migration; Facing the Challenge// Population bulleten, № 57, 2001-pp 121-124

124. Migration and Brain drain– www.Buzzle. com.

125. Nirel N.The Employment of immiqgrant Physicians From Soviet Union. Resarsh Report. Curusalem, CDC, B., 2000, vdoll İnstitute, 1999, pp 236

126. Professor Said İrandoust// www. Tailand. Com./ Persons.html.

127. Pung A. Chorort Population Develepoment in Estonia, Tallin, Asta, 2002, pp 292

128. Rauhvargers A. Coint degrees in Europe, // Cournal, "Forum", vol 4, №3, 2002, p.20-24

129. Rodri D. Globalization has Gone too Far. Arlington VA NEF, 2000, 301 pp.

130. Sassen S. "The Mobility of Labor and Capital. №4, Labour office, 1988, 191 pp.

131. Scaastad L. The Costs and Returns of human migration // «Cournal of Political Economy", *№705, 1962, p.80-93*

132. Stiqeitz E. Globalization and its Discontents. №4, Publishighause, 2002, 159 p.

133. Straubhaar T. İnternational Mobilithy of Highey Skilled, Brain Drain or Brain Exchange. Hamburq, Buttle, 2000, pp 212

134. Why I go From homeland– www.bbc. Cominterwyus.htme

135. Williams R. Radical Blake// The Gvardia" News, 29 novomber 1973



## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 3

**I FƏSİL**

**MÜASIR DÖVRDƏ "ZƏKA AXINI"NI ŞƏRTLƏNDİRƏN İCTİMAİ-İQTİSADİ ŞƏRAİTƏ FƏLSƏFİ YANAŞMA** ........ 10

1.1. Qloballaşma dövründə "zəka axını": probleminin mahiyyəti və onun fəlsəfi cəhətdən səciyyələndirilməsi ........ 10

1.2. Postsovet məkanında "zəka axını" prosesinin vəziyyəti ........ 41

1.3. Azərbaycan ziyalılarının xarici ölkələrdə yayılmasına təsir göstərən amillər ........ 66

**II FƏSİL**

**YENİLƏŞƏN DÜNYADA AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN GENIŞLƏNMƏSINDƏ DIASPORUN ROLUNA FƏLSƏFİ YANAŞMA** ........ 103

2.1. Azərbaycan diasporunun yaranmasında ictimaiyyətin (elm, mədəniyyət, incəsənət və.s) rolu və mövqeyi ........ 103

2.2. Xarici ölkələrdə yaşayan azərbaycanlıların sosial tərkibi, formalaşma mərhələləri və təzahürü ........ 126

2.3. Müasir dövrdə xaricdə yaşayan azərbaycanlıların əlaqələrinin təşkilinin məzmunu və xarakterik xüsusiyyətləri ........ 143

**NƏTİCƏ** ........ 162

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** ........ 167

ELİZƏ İSMAYILOVA

# QLOBALLAŞMA DÖVRÜNDƏ «ZƏKA AXINI»

*Bakı – "Elm" – 2011*

«ELM» REDAKSİYA-NƏŞRİYYAT
VƏ POLİQRAFİYA MƏRKƏZİ

Direktor: **Ş. Alışanlı**
Mətbəənin müdiri: **Ə. Məmmədov**

Formatı: 60x84 1/16. Həcmi: 11 ç.v.
Tirajı: 500. Sifariş № 51
Qiymәti müqavilə əsasında

«Elm» RNPM-nin mətbəəsində çap edilmişdir
(İstiqlaliyyət, 8).